# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# QIRX ÜÇÜNCÜ KİTAB

## OKTYABR 2010 - DEKABR 2010

**AZƏRNƏŞR**
**BAKI - 2017**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2017**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiya, Türkiyə, Qazaxıstan və Portuqaliyaya rəsmi və işgüzar səfərləri, həmçinin ölkəmizə səfərə gəlmiş Rusiya, Qazaxıstan və Türkmənistan prezidentləri ilə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafına, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrə, eyni zamanda, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsinə dair materiallar dərc olunmuşdur. Azərbaycan prezidentinin bütün görüş və danışıqlarının qayəsini Ermənistanın işğalçılıq siyasəti, regionun inkişafına əngəl olan Dağlıq Qarabağ problemi və bu problemin həlli yolları təşkil edir.

Dövlət başçısının bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsinə həsr olunmuş nitqləri və ictimaiyyətin nümayəndələri ilə görüşlərinə dair materiallar, həmçinin ölkəmizə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri də yer almışdır.

**İSBN 978-9952-8100-7-3**

$$Я\,\frac{0801000000}{M-651(07)-2017}$$

**ББК - 32**

© Azərnəşr, 2017

## BÖYÜK BRİTANİYANIN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRİ DEVİD LİDİNQTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Devid Lidinqtonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri ölkəmizə ilk dəfə səfər etdiyini və səfərin onda yaxşı təəssürat yaratdığını dedi. Azərbaycanın əldə etdiyi nailiyyətlər barədə məlumatlı olduğunu bildirən Devid Lidinqton ölkələrimiz arasında siyasi, iqtisadi və təhlükəsizlik sahələrində artmaqda davam edən əlaqələrin olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi. Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Devid Lidinqtonun bir qrup iş adamının müşayiəti ilə ölkəmizə səfərinə toxunan dövlətimizin başçısı birgə fəaliyyət göstərmək marağının təkcə enerji sahəsində deyil, digər sahələrdə də artdığını bildirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, ölkəmizin Avropa İttifaqı və Avroatlantik strukturları ilə əməkdaşlığına dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Qonaq Böyük Britaniyanın Baş naziri Devid Kameronun məktubunu Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi. Dövlətimizin başçısı Böyük Britaniyanın Baş nazirinə məktuba görə minnətdarlığını çatdırmağı xahiş etdi.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ ÖLKƏMİZDƏ KEÇİRİLƏCƏK PARLAMENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏ OLUNMASI ÜZRƏ XÜSUSİ KOMİTƏSİNİN SEÇKİQABAĞI MİSSİYASININ RƏHBƏRİ POL VİLLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Avropa Şurası Parlament Assambleyasının Azərbaycanda keçiriləcək parlament seçkilərinin müşahidə olunması üzrə Xüsusi Komitəsinin Seçkiqabağı Missiyasının rəhbəri Pol Villinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı seçkiqabağı təbliğat və seçkilərə hazırlıq məsələlərinə dair fikir mübadiləsi aparılmışdır.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İnqilab günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Əlcəzair münasibətləri, ənənəvi dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 oktyabr 2010-cu il*

# HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ ŞAMAXIDAKI CÜMƏ MƏSCİDİNDƏ APARILAN BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*22 oktyabr 2010-cu il*

*Oktyabrın 22-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə Şamaxı rayonundakı Cümə məscidində aparılan bərpa və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşlar.*

*Məlumat verildi ki, Azərbaycan ərazisində, Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi 743-cü ildə inşa edilmişdir. 1859-cu və 1902-ci illərdə baş verən zəlzələlər Cümə məscidinə ciddi ziyan vurmuşdur. Sonralar məscid Azərbaycanın ilk ali təhsilli memarı Zivər bəy Əhmədbəyovun və polşalı mühəndis İosif Ploşkonun layihəsi əsasında yenidən bərpa olunmuşdur. Keçən əsrin 70–80-ci illərində aparılan qazıntılar zamanı məscidin həyətində mədrəsə, xeyli hücrə və qəbirlər aşkarlanmışdır. 1918-ci ilin martında ermənilər tərəfindən Şamaxıda törədilən soyqırımı və talanlar zamanı ən böyük qırğın Cümə məscidində törədilmişdir. Şamaxılıların Allah evi kimi, məscidə sığınmasından istifadə edən ermənilər burada yanğın törədərək, təxminən 1700 nəfər günahsız insanı qətlə yetirmişlər. Sovet dövründə məlum səbəblərdən təyinatı üzrə istifadə olunmayan məscid dağılmaq təhlükəsi ilə üzləşmişdi.*

*Azərbaycanın bütün sahələrdə inkişafına, o cümlədən milli mənəvi dəyərlərimizin qorunmasına böyük diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə 1980-ci ildə bu tarixi abidə təmir olunmuşdur. Milli mənəvi dəyərlərimizin qorunması və inkişafı prezident İlham Əliyevin də*

*daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsü və tapşırıqlarına əsasən paytaxtda və digər bölgələrimizdə onlarla məscid, dini məbəd, tarixi abidə, ziyarətgah inşa edilmiş, bərpa olunmuş və yenidən qurulmuşdur. Prezident İlham Əliyevin ötən il Şamaxıya səfəri çərçivəsində Cümə məscidində olması və bu dövlət tarix-memarlıq abidəsinin bərpası ilə əlaqədar tədbirlər haqqında sərəncam imzalaması da bu nəcib amaldan qaynaqlanır.*

*Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi layihələri də xüsusi qeyd etmək lazımdır. Fondun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması, dini memarlıq abidələrimizin bərpası istiqamətində həyata keçirdiyi layihələr və tədbirlər xalqımızın əsrlərlə formalaşan zəngin irsinin və mədəniyyətinin qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir. Fondun «Tolerantlığın ünvanı: Azərbaycan» layihəsi çərçivəsində Şamaxıdakı Cümə məscidində aparılan yenidənqurma işləri Azərbaycan–Şərq memarlığının incisi olan bu abidəyə də ikinci həyat verir.*

*Cümə məscidində aparılan bərpa və yenidənqurma işlərinin yüksək keyfiyyətlə, Azərbaycanın çoxəsrlik milli memarlıq irsi ənənələrinə uyğun şəkildə yerinə yetirilməsi üçün dövlətimizin başçısının sərəncamı ilə prezidentin ehtiyat fondundan Şamaxı Rayon İcra Hakimiyyətinə 4 milyon manat vəsait ayrılmışdır. Bu da bütün dövrlərdə əhali arasında müqəddəs ibadət yeri kimi tanınan və yüksək ehtiram göstərilən, memarlıq üslubu, qədimliyi və orijinallığı ilə seçilən Şamaxı Cümə məscidinin mükəmməl surətdə yenidən qurulmasına imkan verəcəkdir.*

# UKRAYNA MİLLİ TELEKOMPANİYASINA, BU ÖLKƏNİN «PROFİL-UKRAYNA» JURNALINA VƏ «DEN» QƏZETİNƏ MÜSAHİBƏ

*25 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Ukrayna Milli Telekompaniyasına, «Profil-Ukrayna» jurnalına və «Den» qəzetinə müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, Ukraynaya səfəriniz gözlənilir. Ukrayna ilə Azərbaycanın strateji tərəfdaşlığı baxımından Siz hansı məsələləri müzakirə etməyi nəzərdə tutursunuz?**

**İ l h a m Ə l i y e v:** Bizim ikitərəfli əlaqələrimiz uğurla və dinamik şəkildə inkişaf edir, qarşılıqlı siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Ölkələrimiz uzun illər boyu, praktiki olaraq müstəqillik əldə edildikdən dərhal sonra çox sıx qarşılıqlı əlaqə saxlayır, iqtisadi sahədə ikitərəfli əməkdaşlıq genişlənir və çox yaxşı perspektivlər vardır. Ukrayna bizə çox yaxın və dost ölkədir. Bu cür ənənələri, artıq formalaşmış ikitərəfli münasibətləri nəzərə alaraq hesab edirəm ki, bu səfərim mühüm rol oynayacaqdır. Əminəm ki, səfər çərçivəsində biz ikitərəfli münasibətlərin geniş gündəliyini bir daha nəzərdən keçirəcək, əlaqələrimizin gələcək inkişaf yollarını müəyyən edəcəyik. Əlbəttə, iqtisadi qarşılıqlı fəaliyyət məsələləri, xüsusən də böhrandan sonrakı dövrdə mühüm əhəmiyyət kəsb edir və biz iki ölkənin potensiallarından istifadə etməklə bir-birimizi çox fəal tamamlaya, dəstəkləyə bilərik. İqtisadiyyatımız bir-biri ilə rəqabət aparmır. Ümid edirəm ki, ölkələrimiz arasında həm ikitərəfli, həm də regional formatda fəal əməkdaşlıq, beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyət xətti təsdiqlənəcəkdir.

**S u a l: Oktyabrın əvvəlində Ukrayna–Azərbaycan Hökumətlərarası Komissiyasının son 4 ildə ilk iclası olmuşdur. İqtisadi əlaqələrin fəallaşması Ukraynada yeni siyasi komandanın hakimiyyətə gəlməsi ilə bağlıdır? Belə hesab etmək olarmı ki, iki ölkənin münasibətlərində yeni mərhələ başlanır? Sizin fikrinizcə, neftin nəql edilməsi üçün Avrasiya dəhlizi ideyası nə dərəcədə həyatqabiliyyətlidir? Odessa–Brodı xəttinin avers rejimində işləyəcəyi təqdirdə, Ukrayna hansı həcmə ümid edə bilər?**

**İ l h a m Ə l i y e v:** Bu komanda istər Ukrayna, istərsə də bizim üçün yeni deyildir. Çünki Viktor Fyodoroviç Yanukoviç Ukrayna hökumətinə başçılıq etdiyi dövrdə biz fəal əməkdaşlıq edirdik və 2006-cı ildə o, böyük nümayəndə heyəti ilə birlikdə Azərbaycana səfər edəndə biz gələcək qarşılıqlı iqtisadi fəaliyyət üçün çox mühüm məqamları nəzərdə tutmuşduq. Biz bir-birimizi çoxdan tanıyırıq və buna görə də Ukraynada yeni hakimiyyətlə əməkdaşlıq bizim üçün nə isə təzə bir şey deyildir. Əminəm ki, əvvəlki illərdə aramızda yaranmış münasibətlər bu gün həmin münasibətlərin konkret məzmun kəsb etməsinə şərait yaradacaqdır. Viktor Fyodoroviçin hakimiyyətdə olduğu dövrdə biz üç dəfə görüşmüşük və ikitərəfli münasibətlərin perspektivlərini hərtərəfli müzakirə etmək üçün imkanımız olmuşdur. İstərdik ki, münasibətlərimiz iqtisadi inkişaf və energetika sahəsində əməkdaşlıq məsələlərində konkret praktiki məzmun kəsb etsin. Beynəlxalq təşkilatlar çərçivəsində bizim münasibətlərə və qarşılıqlı siyasi əlaqələrə gəldikdə isə, onlar ən yüksək səviyyədədir. İstər BMT-də, istərsə də digər beynəlxalq təşkilatlar çərçivəsində Ukrayna həmişə Azərbaycanı, biz də həmişə Ukraynanı dəstəkləmişik. İkitərəfli münasibətlər üçün möhkəm zəmin vardır. İndi münasibətlərimizin iqtisadi aspektlərini konkretləşdirmək, gündəlikdəki məsələləri müzakirə etmək, hansı sahələrdə qarşılıqlı investisiyalara zərurət olduğunu müəyyənləşdirmək üçün yaxşı imkan vardır. Azərbaycan şirkətlərinin Ukrayna iqtisadiyyatına sərmayə qoymaq imkanlarını çox ciddi şəkildə nəzərdən keçiririk.

Müəyyən planlar vardır, iki ölkənin müxtəlif infrastruktur layihələrində iştirak etmək üçün bizim beynəlxalq səviyyəli şirkətlərimiz mövcuddur.

Sizin dediyiniz məsələ – energetika və neft sahəsində əməkdaşlıq məsələsi həmişə gündəmdə olmuşdur. Biz öz tərəfimizdən bu layihədə iştirak etməyə hazırıq, çünki enerji resurslarının – istər neftin, istərsə də qazın nəqlinin şaxələndirilməsi məsələləri üzərində fəal iş aparırıq. Təbii ki, Ukrayna tərəfi arzu edərsə, bu məsələlər daha səmərəli və daha tez həll oluna bilər. Deməliyəm ki, müəyyən məsələlər artıq həll edilmişdir. «Sarmatiya» şirkəti yaradılmış, texniki-iqtisadi araşdırmalar aparılmışdır və Azərbaycan nefti praktiki olaraq Ukrayna zavodlarına göndərilir. Buna görə də bu işlərə yeni təkan vermək, hələlik pərakəndə halda olan bu layihələri sistemləşdirmək üçün bunu bir daha hərtərəfli müzakirə etmək və müəyyən qərarlar qəbul etmək lazımdır. Biz öz tərəfimizdən bu layihədə iştirak etməyə hazırıq, çünki artıq dediyim kimi, ixracımızı bundan sonra da şaxələndirmək niyyətindəyik.

**S u a l: Müəyyən həcmlər barədə indi danışmaq olarmı?**

**İ l h a m Ə l i y e v:** Prinsip etibarilə deyə bilərəm ki, bu gün bütün neft ixracı potensialımız müxtəlif boru kəmərləri – Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa və Bakı–Novorossiysk kəmərləri ilə reallaşdırılır. Yəni, ixrac etdiyimiz bütün neft bu boru kəmərləri ilə çatdırılır. Beləliklə, bu gün bizim reallaşdırmağa yer tapa bilmədiyimiz hansısa əlavə həcmin olmasından danışmağa lüzum yoxdur. Hətta hasilatı artırsaq belə – biz bunu etmək niyyətindəyik – həmin boru kəmərlərinin mövcud imkanları nefti hər üç istiqamətdə nəql etməyə imkan verir.

Ukrayna ilə bu sahədə əməkdaşlıq məsələsinə gəldikdə, Azərbaycanı Ukrayna ilə boru kəməri bağlamır. Buna görə də bu gün Azərbaycandan neft Ukraynanın neftayırma zavodlarına Ceyhandan gəlir və bu, yaxın yol deyildir. Əgər neft həmin zavodlara Qara dəniz limanlarından gələrsə, layihənin iqtisadi səmərəsi daha çox olar. Buna görə də həmin layihənin iqtisadi

aspektini çox ciddi hesablamaq lazımdır. Siyasi baxımdan Azərbaycan tərəfindən belə dəstək vardır.

**S u a l: Hökumətlərarası Komissiyanın iclasının yekunlarına əsasən Ukrayna tərəfi ölkələrimiz arasında əmtəə dövriyyəsini artıraraq 2 milyard dollara çatdırmağın zəruri olması fikrini söyləmişdir. Sizcə əmtəə dövriyyəsini hansı malların və xidmət sahələrinin hesabına artırmaq olar və Ukraynanın bu ambisiyalı planları nə dərəcədə realdır?**

**İ l h a m Ə l i y e v:** Zənnimcə, əgər biz energetika sahəsində bu cür sistem xarakterli fəal əməkdaşlığa başlasaq və hökumətlərarası komissiya çərçivəsində müzakirə edilən məsələləri nəzərə almaqla, eləcə də uzunmüddətli müqavilələr əsasında çox qısa müddətdə bu nəticəyə nail ola bilərik. Lakin bu, ən rahat yol olardı. Neftin qiyməti kifayət qədər yüksək olduğundan, nəql edilən neftin həcmi də çox sürətlə artırıla bilər. Yəni bu bizdən siyasi iradə və sadəcə olaraq, layihənin iqtisadi cəhətdən düzgün hesablanmasından əlavə hər hansı xüsusi səy göstərmək tələb etməzdi. Əmtəə dövriyyəsini iqtisadiyyatlarda hələlik fəal qarşılıqlı əlaqə olmayan sahələr hesabına artırmaq bizim üçün daha maraqlı olardı. Bu, ilk növbədə kommunikasiya vasitələrinə, informasiya-kommunikasiya texnologiyalarına aiddir. Bilirik ki, Ukraynada bu sahəyə böyük diqqət yetirilir və Azərbaycanda da bu istiqamətdə çox iş görülür: kənd təsərrüfatı və emal sənayesi, qarşılıqlı investisiyalar sahələrində əməkdaşlıq, Ukraynada istər energetika ilə bağlı olan, istərsə də ona aidiyyəti olmayan müxtəlif investisiya layihələrində Azərbaycan şirkətlərinin iştirakı. Bizim biznes resurslarının səfərbər edilməsi. Hesab edirəm ki, bu münasibətləri daha düzgün qurmaq üçün iki ölkənin biznesmenlərinin bizim iqtisadiyyatlarımızın potensialını daha yaxşı öyrənmələri zəruridir. Azərbaycanda xoşladığımız təbirlə desək, əgər biz qarşılıqlı əmtəə dövriyyəsinin həcmini qeyri-neft sektoru hesabına 2 milyard dollara çatdıra bilsək, zənnimcə, bu bizim hökumətlərin böyük xidməti olacaqdır.

**S u a l: Neftlə bağlı olan qaz mövzusu barədə. Məlum olduğu kimi, Azərbaycan Rumıniyaya sıxılmış qaz göndərəcəkdir və hazırda Ukraynada qazın durulaşdırılması üzrə Odessada müvafiq zavod tikmək və Azərbaycandan sıxılmış qaz almaq məsələsi barədə fəal diskussiyalar aparılır. Xarici mətbuatda tez-tez deyirlər ki, Azərbaycanda artıq qaz yoxdur. Bununla əlaqədar nə deyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v:** Vaxt var idi ki, bizim neft ehtiyatlarımızla bağlı məsələlər də xarici ölkələrin bəzi kütləvi informasiya vasitələrində fəal müzakirə edilirdi və deyirdilər ki, Azərbaycanda neft yoxdur, Bakı–Tbilisi–Ceyhan neft kəməri heç vaxt tikilməyəcəkdir və üçüncü ölkələrin nefti olmadan bu kəmər tam gücü ilə işləyə bilməyəcəkdir. Əlbəttə, biz o vaxt bilirdik ki, belə fikirlər həqiqətə uyğun deyildir. Biz bu gün Xəzərin, Azərbaycanın ehtiyatlarını dünya bazarları ilə, Aralıq dənizi sahilləri ilə birləşdirən yeganə enerji dəhlizi olan boru kəmərini tikdik. Bu gün Azərbaycanın neft ehtiyatları bu boru kəmərinin potensialından tam istifadə etməyimizə imkan verir. Biz həmin boru kəmərini tikməyə başlayanda Azərbaycanda neft hasilatının səviyyəsi təxminən 15-16 milyon ton civarında idi. Bu gün – yəni kəmər işə salınandan 4 il sonra Azərbaycanda 50 milyon tondan çox neft hasil edilir. Buna görə də təbii ki, etibarlı ixrac yollarının mövcud olması neft-qaz sahəsinə sərmayə qoyuluşunu da şərtləndirir. Qaz məsələsinə gəldikdə, o, bazara daha çox bağlıdır, ona görə ki, nefti dünyanın istənilən nöqtəsində – ya boru kəməri, ya da dünya okeanlarına çıxış olan istənilən yerdə satmaq olar. Qaz isə bilavasitə istehlakçıya bağlıdır. Bu gün bizim dünya səviyyəsində qəbul edilmiş qaz ehtiyatlarımız da sifariş xarakteri daşıyan yazılara baxmayaraq, özümüzü çox inamlı hiss etməyə imkan verir. Qeyd etməliyəm ki, Azərbaycanda minimal, yəni təsdiq edilmiş qaz ehtiyatlarının həcmi 2 trilyon kubmetr, bizim geoloqların proqnozlarına əsaslanan real ehtiyatların həcmi isə 5 trilyon kubmetrə yaxındır. Yəni bu, onilliklər ərzində, bəlkə yüz ildən artıq müddətdə böyük miqdarda qaz ixrac etməyimizə imkan

verəcəkdir. Bu gün Azərbaycanda qaz hasilatının səviyyəsi təqribən 30 milyard kubmetrə, lap dəqiq desək, 28,5 milyard kubmetrə bərabərdir. Daxili qaz istehlakı təqribən 10-11 milyard kubmetrdir. Bu o deməkdir ki, qalan həcm ya ixrac edilir, ya yeraltı anbarlara, ya da təzyiqi saxlamaq üçün neft laylarına vurulur. Biz qaz hasilatını qısa müddətdə artıraraq 40 milyard, hətta 50 milyard kubmetrə çatdıra bilərik, lakin bunun üçün kontraktlar lazımdır. Buna görə də biz əsas diqqəti məhz yeni satış bazarlarının müəyyənləşdirilməsi məsələsinə yönəltmişik. Bu gün biz praktiki olaraq bütün qonşularımıza – Türkiyəyə, Gürcüstana, Rusiyaya, İrana qaz ixrac edirik və bu istiqamətlərdə həcmi artırmağa imkanımız vardır. Biz həm də yeni, o cümlədən sizin qeyd etdiyiniz yolları axtarırıq.

**S u a l: Bu ilin avqustunda Odessada Azərbaycan Dövlət Neft Şirkətinin brendi ilə yanacaqdoldurma stansiyaları yaradılmışdır. Bu istiqamətdə layihələrin miqyası nə dərəcədə genişdir? Məlum olduğu kimi, Azərbaycan Ukraynanın ən iri silah alıcılarından biridir. Yaxın gələcəkdə hərbi sənaye kompleksində hansı layihələri həyata keçirmək niyyətindəsiniz?**

**İ l h a m Ə l i y e v:** Çox şadam ki, Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR bu sahəyə artıq investisiya qoyur. Mənə məlum olduğuna görə, artıq 10-dan çox yanacaqdoldurma stansiyası mövcuddur. Onu da bilirəm ki, bizim şirkət təkcə Odessada deyil, Ukraynanın başqa şəhərlərində də öz fəaliyyətini genişləndirməyi planlaşdırır. Təbii ki, bizim əməkdaşlığın bu sahəsinin gələcək inkişafı həmin layihənin nə dərəcədə uğurla həyata keçirilməsindən asılı olacaqdır. Azərbaycan neftinin artıq Ukrayna neftayırma zavodlarına göndərilməsini nəzərə alaraq, biz bu əməkdaşlığı inkişaf etdirmək niyyətindəyik. Fikrimcə, bizim münasibətlərin bu sahəsinin perspektivi yaxşıdır. SOCAR artıq yaxşı imicə malik olan beynəlxalq şirkət, bir sıra ölkələrdə investordur. Bu neft şirkətinin xarici ölkələrdə qoyduğu sərmayələr artıq bir neçə milyard dollara çatmışdır və tamamilə təbiidir ki, hansı

ölkələrlə yaxşı ikitərəfli münasibətlərimiz varsa, biz həmin ölkələrə gedirik. Bizim Ukraynada işləmək arzumuzun səbəbi də bundadır. Hesab edirəm ki, bu sahədə bizdə hər şey qaydasındadır. Enerji bloku çərçivəsində əməkdaşlığı artıq genişləndiririk.

Hərbi sənaye kompleksi sahəsində də yaxşı ənənələr vardır. Azərbaycan neçə illərdir ki, Ukraynadan hərbi texnika və silah alır. Bu sahədə əməkdaşlığın genişlənməsinə yaxşı perspektivlər vardır. Çünki bu gün maliyyə imkanlarımız müstəqilliyin ilk illəri ilə müqayisədə ölçüyəgəlməz dərəcədə çoxdur. Gələn il Azərbaycanın müdafiə xərcləri 3 milyard dollardan çox olacaqdır. Bu vəsaitin çox hissəsi məhz texnika alınmasına və ölkə daxilində texnika istehsalına sərf ediləcəkdir. Dörd ildir ki, biz Azərbaycanda hərbi sənaye kompleksi yaradırıq. Bu gün Azərbaycanda istehsal edilən hərbi təyinatlı məhsullar artıq beynəlxalq sərgilərdə nümayiş olunur və ixrac edilir. Onu da deməliyəm ki, Azərbaycanda yaratdıqlarımızın bir hissəsi ukraynalı tərəfdaşlarımızın köməyi ilə ərsəyə gəlmişdir. Bu sahədə bizim şirkətlər arasında müştərək müəssisələr vardır və biz bu əməkdaşlığı inkişaf etdirmək niyyətindəyik.

**S u a l: Dağlıq Qarabağ problemi. Bu problem çox müzakirə edilir, Madrid prinsipləri, beynəlxalq vasitəçilik barədə xahişlər vardır, lakin münaqişə həll edilmir. Bu münaqişənin həll edilməməsinin səbəbi nədir, Azərbaycan yaxın perspektivdə tənzimlənmənin hansı yollarını təklif etmək niyyətindədir və bu məsələdə Ukrayna hansı rolu oynaya bilər?**

**İ l h a m Ə l i y e v:** Biz bu münaqişənin tənzimlənməsi işində tərəfdaşlarımızın dəstəyini alqışlayırıq. Mən qəti əminəm ki, bu münaqişənin tənzimlənməsinə yalnız beynəlxalq birliyin birgə səyləri ilə kömək etmək olar. Biz bu münaqişənin tənzimlənməsi ilə bağlı ardıcıl və prinsipial mövqeyinə görə Ukraynaya çox minnətdarıq. Bu mövqe beynəlxalq hüququn prinsip və normalarına, BMT Təhlükəsizlik Şurasının

qətnamələrinə tam uyğundur. Azərbaycan 2008-ci ildə BMT-nin Baş Məclisində işğal edilmiş ərazilərdə vəziyyət haqqında qətnamə irəli sürəndə səsvermə zamanı Ukraynanın bizi dəstəkləməsi Azərbaycanda böyük minnətdarlıq hissi ilə qarşılanmışdı. Münaqişənin nə üçün həll edilməməsinin səbəbinə gəldikdə isə səbəb Ermənistanın qeyri-konstruktiv mövqeyi, Ermənistanın bu münaqişəni həll etmək istəməməsi, eləcə də status-kvonun saxlanmasının Ermənistanın mənafelərinə xidmət etməsi barədə onun yanlış təsəvvürüdür. Erməni tərəfi tənzimlənmə prosesini hər vasitə ilə ləngitməyə çalışır, bəzən razılaşdırılmış məsələləri yenidən müzakirə edilmək üçün mövzu kimi irəli sürür. Beləliklə, bu prosesi sonsuz prosesə çevirmək cəhdləri göz qabağındadır. Ermənistan özünü danışıqlarda iştirak edən ölkə kimi təqdim edir, əslində isə qərar qəbul etmək və qəti mövqe bildirmək lazım gələndə müxtəlif bəhanələrlə bu prosesi uzatmağa çalışır. Əsas səbəb budur.

İkinci səbəb ondan ibarətdir ki, beynəlxalq birlik, mən deyərdim ki, beynəlxalq təşkilatların şəxsində elə həmin beynəlxalq birliyin özünün qəbul etdiyi qərarlara çox laqeyd yanaşır. BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən dörd qətnaməsi, ATƏT-in Lissabon sammitinin qərarları və digər qərarlar, Avropa parlamentinin, Avropa Şurasının, İslam Konfransı Təşkilatının qətnamələrində bu məsələ barədə beynəlxalq hüquq normaları çərçivəsində birmənalı fikir söylənilir. Ermənistan beynəlxalq hüquq normalarını kobud şəkildə pozur. Dünya birliyi tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınmış ərazimizin 20 faizi 20 ilə yaxındır ki, işğal altındadır. İşğal edilmiş ərazilərdə hərbi cinayətlər törədilmiş, Xocalı şəhəri tamamilə məhv edilmiş, azərbaycanlılara qarşı soyqırımı törədilmiş, 613 nəfər dinc sakin, o cümlədən yüzdən çox uşaq qətlə yetirilmişdir. Bu qanlı hərbi cinayətlərin əksəriyyəti dünya birliyinin diqqətindən kənarda qalmışdır. Bu isə təcavüzkarın Azərbaycan torpaqlarını bundan sonra da işğal etmək iştahasını artırmışdır. Dağlıq Qarabağ tarixən bizim ərazimizin bir hissəsi

olmuşdur. Qarabağ sözünün özü Azərbaycan mənşəlidir, erməni dilində bu sözün heç bir mənası yoxdur.

Sovet dövründə Dağlıq Qarabağ Muxtar Vilayətinin paytaxtı Stepanakert şəhəri idi. Şəhərə bu ad ötən əsrin 20-ci illərində Stepan Şaumyanın adına verilmişdi. Bu şəhərin tarixi erməni adı yoxdur, əvvəllər də indiki kimi, Xankəndi adlanırdı. Bu məsələnin tarixi kifayət qədər məlumdur. Bu, XIX əsrin əvvəllərində Azərbaycanla həmhüdud regionlardan erməni əhalisinin Qarabağa kütləvi şəkildə köçürülməsinin nəticəsidir. Bu gün həmin tarixi fon vacibdir, daha vacibi odur ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində tənzimlənsin. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, bütün işğalçı qüvvələr işğal edilmiş ərazilərdən çıxarılmalıdır. Bu ərazi təkcə Dağlıq Qarabağ deyil, həm də ətrafındakı 7 rayondur. Orada yüz minlərlə azərbaycanlı yaşayırdı, indi hamısı yurdlarından qovulmuşdur, bir nəfər də qalmamışdır. Əhalinin öz müqəddəratını təyin etməsi məsələsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə bilər. Həmçinin Helsinki Yekun Aktında ərazi bütövlüyü və təyini-müqəddərat prinsiplərindən bəhs edilən hissədə də bu barədə deyilir. Bu prinsiplər bir-biri ilə ziddiyyət təşkil etmir. Bunun üçün erməni tərəfinin siyasi iradəsi, bir də bu məsələdə vasitəçilərin fəal mövqeyi çox zəruridir. Mən bu məsələni belə şərh edərdim və bir də onu demək istəyirəm ki, Azərbaycan öz ərazisinin bir hissəsinin itirilməsi ilə heç vaxt barışmayacaqdır. Biz öz ərazimizi bərpa edəcəyik. Çox istərdik ki, bu məsələ tezliklə, hərbi əməliyyatlara əl atılmadan həll edilsin.

**S u a l: Cənab Prezident, son dörd ildə Azərbaycan mühüm iqtisadi artıma nail olmuşdur – 96 faiz. Bu olduqca sanballı rəqəmdir. Buna necə nail olmusunuz?**

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, inkişafı şərtləndirən əsas amil ilk növbədə Azərbaycandakı siyasi sabitlikdir. Əcnəbi sərmayədarlar inanırlar ki, əvvəla, ölkənin siyasi kursu ardıcıl davam etdiriləcək və ikincisi, xarici sərmayələr etibarlı şəkildə qorunacaqdır. Ona görə ki, iqtisadi inkişafın birinci

mərhələsində xarici investisiyalar bizim üçün əsas rol oynamışdır. Biz də xarici investisiyalar üçün çox münasib rejim yaratmış, bununla da həmin sərmayələrin qorunmasını və ölkəyə ilkin kapital axınını təmin etmişik. İndiki mərhələyə gəldikdə isə deməliyəm ki, son altı ildə Azərbaycanda ÜDM, demək olar ki, 3 dəfə, daha dəqiq desək, 2,8 dəfə artmış və bu, təbii ki, iqtisadiyyata və əhalinin sosial müdafiəsinə təsirini göstərmişdir. Yoxsulluq göstəricisi 49 faizdən 11 faizə düşmüşdür. Təqribən 900 min iş yeri yaradılmışdır. Başqa sözlə desək, biz iqtisadiyyata və infrastruktura çox sərmayə qoymuşuq. Mənim ölkəyə rəhbərlik etdiyim ilk illərdə bir çox müxtəlif məsləhətlər verilir, fikirlər söylənirdi ki, neft satışından əldə etdiyimiz vəsaitləri iqtisadiyyatı həddən artıq gücə salmamaq üçün ölkə hüdudlarından kənarda saxlamaq lazımdır. Biz bu məsləhətlərə qulaq asmadıq və infrastruktura, regionlara çox fəal sərmayə qoyduq, çox güclü sosial və sənaye infrastrukturu yaratdıq. Beləliklə, əhalinin paytaxta axını dayandırıldı. Bakının hüdudlarından kənarda, ucqar rayonlarda müəssisələr yaratmağa başladıq. Biz çox fəal energetika siyasəti yeritdik, elektrik enerjisini və qazı idxal edən ölkədən onları ixrac edən ölkəyə çevrildik. 2006-cı ilə qədər biz bu məhsulları idxal edirdik, indi isə ixrac edirik. Bunlar böhrandan minimum itki ilə çıxmağımıza kömək etdi. Böhranlı 2009-cu ildə neftin qiymətinin 4 dəfə düşməsinə baxmayaraq, iqtisadiyyatımız 9,3 faiz artmışdır. Neft isə əsas gəlir mənbəyimizdir. İqtisadiyyatın şaxələndirilməsi, ilk növbədə siyasi sabitlik və əlbəttə, hakimiyyətin həmrəyliyi, iqtisadi islahatlardır. Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan MDB məkanında ən rəqabətqabiliyyətli ölkədir. Enerji amilinin prioritetliyindən imtina etmişik, diqqəti sahibkarlığa, kənd təsərrüfatına kömək məsələlərinə cəmləşdirmişik. Ərzaq mallarının əksər növləri üzrə özümüzü təmin edirik. Əvvəllər heç vaxt belə olmamışdı. Sovet dövründə Azərbaycana ərzaq məhsulları kənardan, o cümlədən Ukraynadan gətirilir, Azərbaycandan isə şərab, meyvə, tərəvəz ixrac edilirdi. İndi biz

güclü emal sənayesi yaratmışıq. Yüz minlərlə insan həm kənd təsərrüfatında, həm emal müəssisələrində işlə təmin olunub. Özəl sektora güzəştli kreditlər verilməsi proqramını həyata keçiririk. Bu məqsədlə hər il çox güzəştli faizlərlə 100 milyon manatdan, yəni 120 milyon dollardan çox vəsait ayrılır. Biz Dövlət İnvestisiya Şirkəti yaratmışıq. Bu şirkət investisiyaları bizə lazım olan sahələrə cəlb edir. Əvvəlcə bütün pullar neftə, qaza yönəldilirdi. Əlbəttə, bu vacib idi. Lakin indi bizim üçün əsas məsələ bu deyildir. Yəni, Dövlət İnvestisiya Şirkəti Azərbaycan üçün strateji layihələrdə 25 faiz paya malikdir. Beləliklə, o, xarici investisiyalar axınını bir növ stimullaşdırır. Müəyyən mərhələdə bu pay bazarda satılacaq, bununla da bazar iqtisadiyyatı prinsipləri tamamilə təmin ediləcəkdir. Mən bu amilləri əsas amillər kimi qeyd etmək istərdim. Onların sayəsində bizdə iqtisadi artım əvvəla, yüksək, ikincisi, sabit olmuşdur. Əvvəlki illərdə ÜDM artımının 20-30-35 faizi fonunda keçən il bu göstərici 9,3 faiz olmuşdur. Hətta bu il bizdə iqtisadi artım 4 faizdən bir qədər çox olduğuna baxmayaraq, həmin 4 faiz 2006-cı ildəki 35 faizdən çox-çox sanballıdır.

**S u a l: Dnestryanı münaqişənin tənzimlənməsi haqqında. Bu, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün stimul ola bilərmi?**

**İ l h a m Ə l i y e v:** Şübhəsiz. Əgər postsovet məkanında mövcud olan münaqişələrdən biri öz həllini taparsa, bu, digər münaqişələrin həllinə təkan verəcəkdir. Oxşar cəhətlər çoxdur – həm təcavüzkar separatizm, həm etnik təmizləmə, həm ərazi bütövlüyünün pozulması, həm də işğal. Münaqişələrin tarixi və bu münaqişələrə cəlb edilmiş xalqların qarşılıqlı münasibətlərinin tarixi müxtəlif olsa da, oxşarlıqlar çoxdur. Biz istəyirik ki, bütün münaqişələr həll edilsin. Belə olsa bütün ölkələr bunun xeyrini hiss edəcəkdir. Dağlıq Qarabağ münaqişəsi bizim üçün bir nömrəli problemdir. Ölkəmiz qarşısında istər bu gün, istər ortamüddətli, istərsə də uzunmüddətli perspektivdə mən bundan başqa elə bir problem

görmürəm. Ona görə ki, iqtisadiyyat sabit inkişaf edir, ölkəmiz dinamikdir, müasirdir və nəinki regional məsələlərdə, hətta dünya miqyaslı işlərdə artıq müəyyən çəkiyə malikdir. Ona görə də əsas problem budur və buna baxmayaraq, Dağlıq Qarabağ münaqişəsi bizim iqtisadi inkişafımızı ləngitməmişdir, 9 milyon əhalisi olan ölkədə bir milyondan çox qaçqın və daxili köçkün olduğu halda, biz belə uğurlar qazanmışıq. Təsəvvür edin ki, əgər bu problem olmasaydı biz nələrə nail olardıq. Təkcə müdafiə üçün, qaçqınların normal mənzillərlə, evlərlə təmin edilməsi üçün biz nə qədər vəsait xərcləyirik. Biz qəsəbələr, məktəblər, xəstəxanalar tikirik, yollar çəkirik. Biz bu işlərə yüz milyonlarla dollar xərcləyirik. Eyni sözlər Ermənistana da aiddir, o da regional əməkdaşlıq layihələrinə, iqtisadi inteqrasiyaya cəlb oluna bilərdi. Qarabağ münaqişəsi tənzimlənməyincə bu olmayacaqdır. Onlar həm də Türkiyə ilə özlərinin münasibətlərinin tənzimlənəcəyinə xüsusi, mənim fikrimcə, tamamilə əsassız ümidlər bəsləyir, Ermənistan–Türkiyə sərhədinin açılacağını güman edirdilər. Lakin bu olmadı. Əvvələn, ona görə ki, sənin ərazi iddiaları irəli sürdüyün və bütün beynəlxalq təşkilatlarda qondarma «soyqırımı» ilə əlaqədar qara yaxmağa çalışdığın ölkə ilə münasibətləri normallaşdırmaq mümkün deyildir. Digər tərəfdən, Qarabağ münaqişəsi mövcuddur və bu münaqişə regionda əməkdaşlığı ləngidən əsas amildir. Buna görə də bu gün Ermənistanın qarşısında bir perspektiv vardır – ya bundan sonra da işğalçılıq siyasəti yeritməklə və beynəlxalq normaları pozmaqla özünü daha da küncə sıxmalı, ya da bundan imtina etməli, Azərbaycanla və digər ölkələrlə normal münasibətlər yaratmalı, ərazi iddialarından imtina etməlidir. Ermənistan təkcə Azərbaycana və Türkiyəyə ərazi iddiaları irəli sürmür, regionda digər ölkələr də vardır ki, onlara qarşı bu cür iddialar hələlik, necə deyərlər, baqajda saxlanılır. İddialardan imtina etmək lazımdır. Biz bu regionda yaşayacağıq, heç kəs heç yerə köçüb getməyəcəkdir. Varlı qonşunun düşmən deyil, dost olması daha yaxşıdır.

**S u a l: Atanızdan aldığınız dərslərin hansı daha qiymətli olmuşdur? Siz Azərbaycan siyasətinə nə yenilik gətirmisiniz?**

**Digər bir sual. Siz Azərbaycanın geosiyasi yerini necə qiymətləndirirsiniz?**

**Növbəti sual xanımınız haqqındadır. Sizin prezident cütlüyünüz nəinki MDB məkanında, həm də dünyada ən parlaq cütlüklərdən biridir. Siz bir-birinizi siyasətə qısqanmırsınız ki? Bir-birinizlə necə dil tapırsınız?**

**İ l h a m Ə l i y e v:** Bu gün bizim Azərbaycanda nail olduqlarımızın hamısının təməlini atam Heydər Əliyev qoymuşdur. O, Azərbaycanda rəhbərliyə gələnə qədər ölkəmiz sadəcə olaraq, uçuruma yuvarlanırdı. Bizim ölkənin tarixində, 1918-ci ildə Rusiya imperiyasının parçalanması nəticəsində Azərbaycan müstəqil ölkə olmuşdu, lakin bu müstəqillik yalnız iki il davam etdi. Sonra obyektiv səbəblər üzündən və istər siyasətçilərin, istərsə də siyasi təsisatların müstəqil həyata hazır olmaması səbəbindən bu müstəqillik Azərbaycanın əlindən alınmışdır. Təxminən eyni vəziyyət təkrarlana bilərdi. 1991-ci ildə Sovet İttifaqı dağıldı, Azərbaycan müstəqil oldu. 1993-cü ildə biz bu müstəqilliyi itirə bilərdik – həm erməni təcavüzü, həm Azərbaycanda vətəndaş müharibəsi, həm də çox ağır siyasi proses, iqtisadi böhran barədə isə danışmağa dəyməz, mahiyyət etibarilə buna doğru aparırdı. Bu məqamda Azərbaycan xalqı müdriklik nümayiş etdirdi. Hakimiyyətdə mürtəce və ekstremist, mən hətta deyərdim ki, bandit qüvvələr olduğuna baxmayaraq, Azərbaycan xalqı böyük cəsarət göstərdi və Heydər Əliyevi aşkar dəstəklədi. 1993-cü ildə o, Naxçıvandan qayıtdı və ölkəyə başçılıq etdi. O, dövlətçiliyin, bugünkü Azərbaycanın əsaslarını yaratdı. Buna görə də onun xatirəsi xalqımızın qəlbində yaşayır. Onun ölümündən sonra da Azərbaycan xalqının ona göstərdiyi ehtiram buna parlaq sübutdur. O, qeyri-adi, çox cəsarətli, uzaqgörən, prinsipial adam idi, öz xalqını çox sevirdi və bizim taleyimizin sahiblərinə çevriləcəyimiz günü arzulayırdı. Bu arzular çin oldu. Bu gün

mənim başlıca vəzifəm – 2003-cü ildə mən bu vəzifədə işə başlayarkən bunu bəyan etmişdim – bu siyasəti davam etdirmək, Azərbaycanı inkişaf, modernləşmə, tərəqqi yolu ilə irəli aparmaq, onu müasir, dinamik, azad ölkəyə çevirməkdir. Bu ölkədə insanların həyatı xoş keçməli, onlar Azərbaycan vətəndaşları olmaları ilə fəxr etməlidirlər. Onlar bolluq şəraitində yaşamalı, yoxsullar, işsizlər olmamalıdır. Şadam ki, çox şey edə bilmişik. Müstəqillik təkcə bayrağın və dövlət atributlarının olması demək deyildir. Müstəqillik sənin müstəqil siyasət yeritməyi bacarıb-bacarmamağından asılıdır. Xüsusən ona görə ki, əsrlər boyu bu ölkə başqa dövlətlərin və imperiyaların tərkibində olmuş, müstəqilliyə malik olmamışdır. Azərbaycanlılar nəsil-nəsil doğulur və bu arzu ilə dünyadan köçürdülər. Bizim nəslin qismətinə böyük şans düşmüşdür. Bizim onu əldən verməyə haqqımız yoxdur. Biz dövlətçiliyin, özünü təmin etməyin, iqtisadi effektivliyin elə güclü təməlini qoymalıyıq ki, yüzilliklər boyu müstəqil, heç kəsdən asılı olmayan dövlət kimi inkişaf edək.

Azərbaycanın keçdiyi yola, bu gün dünyanın geosiyasi xəritəsində ölkəmizin tutduğu yerə nəzər salsaq, tam əminliklə deyə bilərəm ki, bizim xüsusi yerimiz vardır. Bu gün bizim necə inkişaf etməli olmağımız barədə Azərbaycan cəmiyyətində artıq qəti anlayış formalaşmışdır. Bizim cəmiyyətdə Azərbaycanın necə inkişaf etməsi barədə diskussiyalar yoxdur. Bizim xalqın həmrəy mövqeyi belədir – ilk növbədə müstəqil kursu qorumaq, Azərbaycan xalqının mənafelərini təmin etmək, hər şeydən əvvəl qonşu ölkələrlə yaxşı münasibətlərə malik olmaq. Bir də modernləşmə, Azərbaycan cəmiyyətinin dünyəvi xarakterinin möhkəmlənməsi, iqtisadi və siyasi azadlıqlar, təhlükəsizlik. Xüsusi qeyd etmək istəyirəm ki, bu gün Bakıda gündüz, axşam, hətta gecə vaxtı da asudə gəzmək olar və bu, ölkəmizin ən böyük nailiyyətlərindən biridir – cinayətkarlığın səviyyəsi çox aşağıdır. Sosial problemlər, müəyyən məişət şəraiti və cəmiyyətdə müəyyən mənfi məqamlar insanları cinayətə sövq edir. Azərbaycan cəmiyyətində bu cür mənfi məqamlar yoxdur.

Buna görə də məndən bəzən soruşanda ki, 10 ildən, 20 ildən sonra Azərbaycan necə olacaq, belə cavab verirəm – təxminən indiki kimi, lakin daha varlı, özünə daha çox güvənən, daha çox inkişaf etmiş bir ölkə.

Mühüm məqamlardan biri kimi, onu da qeyd edərdim ki, biz ölkəmizin qarşıdurma arenasına çevrilməsinə imkan verməmişik. Azərbaycanın coğrafi mövqeyinə və təbii ehtiyatlarına görə bizdən daha böyük və daha güclü olanların mənafeləri burada əsrlər boyu toqquşmuşdur. Nəticədə biz öz dövlətçiliyimizi itirir və asılı vəziyyətə düşürdük. Bu gün biz buna nail olmuşuq ki, Azərbaycan yalnız əməkdaşlıq üçün arenaya, ən pis halda isə qarşıdurma üçün deyil, rəqabət üçün arenaya çevrilə bilər.

Sizin sonuncu sualınızın cavabında deməliyəm ki, Azərbaycanda qadınlara həmişə böyük hörmətlə yanaşmışlar – həm ailədə, həm də cəmiyyətdə. Mən şadam ki, Mehriban xanım da Azərbaycandakı bir sıra mühüm işlərdə fəal iştirak edir. Birinci xanım statusu bir növ ərin vəzifəsinə görə verilir, bunun arxasında dayanan bütün başqa şeylər isə həmin statusa malik olan insanın arzusu, iradəsi və mahiyyətidir. Şadam ki, Heydər Əliyev Fondu çox iş görür. Mehriban xanım bu fonda ona görə başçılıq edir ki, Azərbaycanda vəziyyəti ağır olan insanların işləri daha yaxşı olsun. Heydər Əliyev Fondu dövlət strukturlarında cavab tapa bilməyən insanların son güman yeridir – insanlar oraya üz tutarkən ümid edirlər ki, onu eşidəcəklər, belə də olur.

**S u a l: Bir insan və siyasi xadim kimi, şəxsən Sizin üçün Ukrayna nə deməkdir?**

**İ l h a m Ə l i y e v:** Siyasi, iqtisadi əlaqələr, investisiyalar – bütün bunlar vacibdir və bunlar ölkələrimizin və xalqlarımızın gələcək inkişafını müəyyən edir. «Ukrayna», «Kiyev» kəlmələrini eşidəndə bu sözlər məndə çox müsbət emosiyalar doğurur. Bizim çox sevdiyimiz Ukrayna musiqisi, mədəniyyəti, Ukrayna xalqının siması deməkdir. Azərbaycanda ukraynalılara, Ukraynaya böyük rəğbət bəsləyirlər. Xalqlarımız

tarix boyu – həm SSRİ dövründə, həm də müstəqilliklərini bərpa etdikdən sonra əməkdaşlıq etmişlər. Bakıda Taras Şevçenkoya abidə qoyulmuşdur, Azərbaycanın Ukrayna icması bu yerdə toplaşır. Biz sizin ölkənizə, xalqınıza böyük rəğbət bəsləyir və arzu edirik ki, Ukrayna çiçəklənsin. Bunun üçün hər cür imkan, hər cür şərait vardır. Biz isə sizin nailiyyətlərinizə və qələbələrinizə sevinəcəyik.

## BAKI TİCARƏT LİMANINDA APARILACAQ KÖÇÜRMƏ VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*25 oktyabr 2010-cu il*

*Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı ticarət limanında aparılacaq köçürmə və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2010-cu ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında dövlətimizin başçısı Bakı ticarət limanının köçürüləcəyini və ərazidə əsaslı abadlıq işlərinin həyata keçiriləcəyini bildirmiş və qeyd etmişdir ki, Ələtdə yeni Beynəlxalq ticarət limanı inşa olunacaq və əvvəlki ticarət limanının yerində istirahət guşələri yaradılacaqdır. Bakı bulvarı hər iki istiqamətə uzadılacaqdır. Dövlətimizin başçısı bu tədbirlərin sürətləndirilməsi ilə bağlı iclasda tapşırıqlar vermişdir.*

*Prezident İlham Əliyevə görüləcək işlər barədə məlumat verildi.*

*Qeyd edildi ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq bu liman yeni əraziyə köçürüləcəkdir. Paytaxt əhalisinin və respublikamızın qonaqlarının hərtərəfli istirahəti üçün burada hər cür şərait yaradılacaqdır. Bakının digər yerlərində olduğu kimi, ticarət limanının yerləşdiyi ərazidə də ən müasir standartlara uyğun park salınacaqdır. Hazırda bu istiqamətdə işlərin icrasına başlanılmışdır.*

*Prezident İlham Əliyev hazırlıq işlərinin gedişi ilə tanış oldu, tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

*27 oktyabr 2010-cu il*

*Oktyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Həştərxan şəhərinin aeroportunda dövlətimizin başçısını Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## HƏŞTƏRXAN ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*27 oktyabr 2010-cu il*

*Oktyabrın 27-də Həştərxanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin açılışı mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Ulu öndər Heydər Əliyevin abidəsinin yerləşdiyi əraziyə gələn dövlətimizin başçısını Həştərxan vilayətinin rəsmi şəxsləri, ictimaiyyətin nümayəndələri və Azərbaycan diasporunun üzvləri hərarətlə qarşıladılar.*

**Aleksandr Jilkin** *(Həştərxan vilayətinin qubernatoru):* Çox hörmətli İlham Heydər oğlu!

Mənim əziz dostlarım, qonaqlarım!

Təkcə Azərbaycan üçün deyil, bütün keçmiş Sovet İttifaqı, postsovet məkanı və bizim kiçik vilayət üçün də böyük siyasi xadim olan möhtərəm və hörmətli bir insanın abidəsi üçün məhz bu yerin – Həştərxan kimi ağ şəhərin seçilməsi təsadüfi deyildir. Ona görə ki, ölkədə istər o dövrdə, istərsə də postsovet dövründə baş verən ən müsbət proseslər bu insanın adı ilə bağlıdır. Heydər Əliyev islahatlardan sonrakı münasibətlərimizi möhkəmləndirən əsas sima idi. Bu gün bu böyük insanın xatirəsinə ehtiram əlaməti olaraq Sizə, İlham Heydər oğlu, bu nadir abidəni ən qısa müddətdə hazırlamış və onu burada ucaltmış bütün həmkarlarınıza böyük məmnuniyyətlə «Çox sağ olun» – demək istəyirik. Bu abidə həm rusiyalıların, həm də azərbaycanlıların qardaşlığının, dostluğunun, onların ruhən və qəlbən birliyinin rəmzidir.

Biz Həştərxan vilayəti barədə danışanda öz həyatımızı tərəfdaşlarımız – Xəzər sahilindəki qardaşlarımız olan azərbaycanlılarla ən sıx əlaqələr, iqtisadi və sosial sahədə inteqrasiya olmadan təsəvvür etmirik. Burada böyük bir Azərbaycan diasporu yaşayır. Azərbaycanlılar bizim ən etibarlı tərəfdaşlarımız, bütün iqtisadi və sosial layihələrdə iştirak edən, qanunlara hörmət bəsləyən vətəndaşlarımızdır. Buna görə mən onlara həmişə təşəkkür edirəm, bu gün də Sizin yanınızda bir daha təşəkkür edirəm. Bizim Həştərxan şəhərində Sizi salamlamağa şadam. Sağ olun ki, bu gün imkan tapıb Həştərxan şəhərinə baxmağa vaxt sərf etmisiniz. Böyük məmnuniyyətlə Sizinlə birlikdə abidəni açmaq istəyirəm.

**İlham Əliyev:** Hörmətli Aleksandr Aleksandroviç!

Əziz dostlar!

Bu gün ölkələrimiz arasında münasibətlərin tarixində həqiqətən, əlamətdar, tarixi gündür. Həştərxanda, simasını dəyişən və modernləşən bu gözəl şəhərdə Azərbaycanın dahi oğlu Heydər Əliyevin abidəsi açılır. Heydər Əliyev ömrü boyu öz xalqının rifahı naminə çalışmış, eyni zamanda, Rusiyaya, rus xalqına həmişə çox böyük məhəbbət bəsləmişdir. Ömrünün bir hissəsi Rusiya ilə bağlı olmuşdur. Gənclik illərində Leninqradda, indiki Peterburqda təhsil almış, keçən əsrin 80-ci illərində Moskvada Sovet İttifaqı Hökuməti sədrinin Birinci müavini olmuş, Azərbaycan və rus xalqları arasında tarixi dostluq, qardaşlıq münasibətlərinin uğurla inkişaf etməsi üçün çox işlər görmüşdür.

Mən bu gün əziz həştərxanlılara, ilk növbədə qubernator Aleksandr Aleksandroviç Jilkinə Heydər Əliyevin xatirəsinə belə xeyirxah münasibətə görə səmimi-qəlbdən təşəkkür etmək istəyirəm. Bu bizim üçün çox dəyərlidir. Bu cür münasibətə, Heydər Əliyevin abidəsi üçün şəhərin mərkəzində belə gözəl yerin ayrılmasına görə bütün Azərbaycan xalqı adından dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu park Rusiya ilə Azərbaycan arasında dostluğun və qardaşlığın rəmzinə çevriləcəkdir. Bu park çoxmillətli Rusiyada, çoxmillətli

Azərbaycanda yaşayan bütün xalqlar arasında dostluq mərkəzi olacaqdır. Bu gün qubernatorun Həştərxanda yaşayan azərbaycanlılar haqqında dediyi tərifli sözləri eşitmək mənim üçün çox xoş idi. Onlar Rusiyanın layiqli vətəndaşları, Həştərxanın layiqli sakinləridirlər və bizim ikitərəfli münasibətlərin inkişafında mühüm amildirlər.

Heydər Əliyev ömrü boyu Azərbaycan xalqının daha yaxşı yaşamasına, Azərbaycanda müsbət proseslərin inkişaf etməsinə, islahatların həyata keçirilməsinə çalışırdı. Mən SSRİ-nin süqutunadək olan dövr barədə artıq danışmışam. Ən əsası budur ki, biz artıq vahid dövlətdə yaşamadığımız dövrdə – Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ilə Azərbaycan və Rusiya arasında münasibətlər sürətlə inkişaf etməyə başladı. Bu illər boyu biz bütün istiqamətlərdə çox müsbət inkişaf görürük və bu gün bu bizə – həm Rusiya, həm də Azərbaycan rəhbərliyinə münasibətlərimizi strateji tərəfdaşlıq kimi səciyyələndirməyə imkan verir.

Biz qonşuyuq, o cümlədən Xəzərdə də qonşuyuq. Birlikdə Xəzərin bundan sonra da sülh, dostluq, əməkdaşlıq, qarşılıqlı anlaşma dənizi olaraq qalması üçün Xəzər regionunda çoxtərəfli fəal əməkdaşlığı təmin etməyə çalışırıq. Rusiya Federasiyası ilə birlikdə Xəzərdə ərazi sərhədlərimizi artıq çoxdan müəyyən etmişik. Bu il Rusiya prezidenti Dmitri Anatolyeviç Medvedevin Azərbaycana səfəri zamanı biz quruda dövlət sərhədinin müəyyənləşdirilməsi ilə bağlı məsələləri razılaşdırdıq. Bütün bu amillər regionumuzda ümumi atmosferə çox müsbət təsir göstərir. Bu gün iki Xəzər və iki Qafqaz ölkəsi kimi, Rusiya və Azərbaycan regional əməkdaşlıq, regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi, regionun inkişafı işində çox müsbət rol oynayırlar.

Əminəm ki, Rusiya və Azərbaycanın bölgədə sabitləşdirici rolu bundan sonra da regionun bütün ölkələri arasında daha tam anlaşmaya kömək edəcəkdir.

Bizi Rusiya ilə çoxəsrlik dostluq, əməkdaşlıq telləri bağlayır, bizi ümumi keçmişimiz birləşdirir. Bu gün, siyasi

münasibətlərimizin ən yüksək səviyyədə olduğu bir vaxtda biz iqtisadi əlaqələrimizi fəal inkişaf etdiririk, energetika məsələləri fəal həll olunur, xalqlarımızın nümayəndələri arasında ünsiyyətə çox böyük həvəs vardır. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə böyük qayğı ilə yanaşılır. Həştərxanın Azərbaycan icması kimi, Azərbaycanın rus icması da öz ölkələrinin layiqli vətəndaşlarıdır və dövlətimizin inkişafına böyük töhfələr verirlər. Onlar həm də ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıran amillərdir.

Bu gözəl gündə xüsusi qeyd etmək istəyirəm ki, Həştərxanın necə inkişaf etdiyini, burada necə sürətli inkişaf getdiyini görmək mənim üçün çox xoşdur. Mən bu gün heyranlıq doğuran hər şeyi – sahilyanı ərazini, evlərin bərpasını, abadlaşdırma işlərini və sizin tarixi irsinizə necə yanaşdığınızı göstərdiyinə görə Aleksandr Aleksandroviçə minnətdaram. Mən bu gün tarixi yerdə – Kremldə oldum, bərpa işləri aparılır, şəhər abadlaşdırılır. Bunlar Rusiyanın inkişafının, habelə vilayət rəhbərliyinin öz şəhərinə, onun sakinlərinə, həyatın daha da yaxşılaşması, şəhərin daha da gözəlləşməsi işinə olan sevgisinin göstəricisidir.

Bakı və Həştərxan qonşu və qardaş şəhərlərdir. Bu gün mən buraya təyyarə ilə cəmi bir saata gəldim. Vaxtın necə keçdiyini heç hiss etmədim. Şəhərlərimiz arasında mövcud olan əlaqələr qədim tarixə malikdir. Bu gün onlar daha da möhkəmlənir, inkişaf edir. Əminəm ki, Rusiya ilə Azərbaycanı daha da yaxınlaşdırmaq üçün əlindən gələni etmiş Heydər Əliyevin obrazı ölkələrimiz və xalqlarımız arasında fəal əməkdaşlıq işində çox mühüm rol oynayacaqdır.

Bir daha şəhər sakinlərinə, rəhbərliyə, qubernatora, şəhər hakimiyyətinə, bu gözəl abidənin, bu parkın yaradılmasında əməyi olanların hamısına təşəkkürümü bildirmək və sizin hamınıza xoşbəxtlik və rifah arzulamaq istəyirəm. Çox sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev və Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin abidənin üzərindən örtüyü götürdülər, önünə gül dəstələri düzdülər.*

*Azərbaycan diasporunun nümayəndələri ilə görüşən prezident İlham Əliyev onlara vilayətdə aparılan quruculuq işlərində daha fəal iştirak etməyi tövsiyə etdi.*

*Daha sonra abidə ətrafında yaradılmış parkla tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, 3,5 hektar ərazidə salınmış istirahət guşəsində geniş abadlıq və yaşıllaşdırma işləri aparılmış, mindən artıq ağac əkilmişdir. Burada müasir işıqlandırma sistemi quraşdırılmış və gözəl fəvvarə yaradılmış, oturacaqlar qoyulmuşdur. Park həştərxanlıların sevimli istirahət yerinə çevriləcəkdir.*

*Parka toplaşan soydaşlarımız Azərbaycan prezidentini hərarətlə alqışladılar. Dövlətimizin başçısı burada yaşayan azərbaycanlıların vəziyyəti ilə maraqlandı.*

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*Həştərxan*

*27 oktyabr 2010-cu il*

*Oktyabrın 27-də Həştərxanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.*

*Prezidentlər 2008-ci il noyabrın 2-də Moskvada imzalanmış Birgə Bəyannamənin müddəalarını təsdiqləyərək vurğulamışlar ki, münaqişənin siyasi-diplomatik vasitələrlə tənzimlənməsi atəşkəs rejiminin və hərbi sahədə etimad tədbirlərinin möhkəmlənməsi üçün səylərin davam etdirilməsini tələb edir. Bu məqsədlə Azərbaycan Respublikasının və Ermənistan Respublikasının prezidentləri birinci addım kimi, ATƏT-in Minsk qrupunun həmsədrlərinin və Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə hərbi əsirlərin dərhal dəyişdirilməsi və həlak olanların cəsədlərinin qaytarılması, eləcə də bu cür məsələlərin müstəsna humanitar xarakterini nəzərə alaraq gələcəkdə bu yanaşmaları rəhbər tutmaq barədə razılığa gəldilər.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Həştərxan*

*27 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Həştərxanda ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.*

## HƏŞTƏRXAN KREMLİ VƏ ŞƏHƏRİN GÖRMƏLİ YERLƏRİ İLƏ TANIŞLIQ

*27 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Həştərxan Kremli və şəhərin görməli yerləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə Həştərxan Kremlində aparılan bərpa və yenidənqurma işləri ilə tanış oldu. Bildirildi ki, Həştərxan Kremlini bir çox hallarda Rusiyanın möcüzəsi də adlandırırlar. Rusiya tarixi ilə bağlı mühüm hadisələrin şahidi olan Həştərxan Kremli XVI əsrin ikinci yarısında tikilmişdir. Prezident İlham Əliyev sonra Həştərxan şəhərinin görməli yerlərini gəzdi. Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin şəhərdə aparılan abadlıq və quruculuq işləri barədə Azərbaycan prezidentinə məlumat verdi. Qeyd olundu ki, Xəzər sahilində yerləşən bu şəhər Rusiyanın əsas iqtisadi mərkəzlərindən biri kimi tanınır. Vilayətin malik olduğu iqtisadi potensial bu regionun inkişafında mühüm rol oynayır. Tarixən Azərbaycanın sıx iqtisadi*

*münasibətləri olan Həştərxan vilayəti ilə əlaqələri bu gün də uğurla davam edir və bu proses Rusiya–Azərbaycan əməkdaşlığında mühüm rol oynayır.*

### Səfər başa çatdı

*Oktyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərini başa çatdıraraq Ukraynaya rəsmi səfərə yola düşmüşdür.*

*Həştərxan şəhərinin aeroportunda dövlətimizin başçısını Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA RƏSMİ SƏFƏRİ

*27 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Ukraynaya rəsmi səfərə gəlmişdir.*

*Kiyevin Borispol aeroportunda Azərbaycan prezidentini Ukraynanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Milli geyimli qızlar dövlətimizin başçısına duz-çörək təqdim etdilər.*

* * *

*Oktyabrın 28-də Kiyevdə, Ukrayna Prezidenti Administrasiyasının binası qarşısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Ukraynanın dövlət himnləri səsləndi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Azərbaycan prezidenti İlham Əliyev Ukrayna əsgərlərini salamladı.*

*Azərbaycan nümayəndə heyəti prezident Viktor Yanukoviçə, Ukraynanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi prezidentlərin qarşısından keçdi.*

## «NAMƏLUM ƏSGƏR» ABİDƏSİNİ ZİYARƏT

*Kiyev*

*28 oktyabr 2010-cu il*

*Oktyabrın 28-də Azərbaycan prezidenti İlham Əliyev Kiyev şəhərindəki «Naməlum əsgər» abidəsini ziyarət etmişdir.*

*Ukrayna prezidenti Viktor Yanukoviç Azərbaycan prezidentini qarşıladı.*

*Prezidentlər İkinci dünya müharibəsi veteranları ilə görüşüb söhbət etdilər.*

*Abidənin qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev və prezident Viktor Yanukoviç «Əbədi məşəl»in önünə əklil qoydular, 1941–1945-ci illərin Böyük Vətən müharibəsində həlak olmuş döyüşçülərin xatirəsini ehtiramla yad etdilər.*

*Azərbaycanın və Ukraynanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsi dövlət başçılarının qarşısından keçdi.*

*Dövlət başçıları üç dəfə Sovet İttifaqı Qəhrəmanı İvan Kojedubun abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

## 1930-cu İLLƏRDƏ ACLIQDAN HƏLAK OLANLARIN XATİRƏSİNƏ EHTİRAM

*Kiyev*

*28 oktyabr 2010-cu il*

*Oktyabrın 28-də Kiyevdə Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Viktor Yanukoviç 1930-cu illərdə aclıqdan həlak olanların xatirəsinə ucaldılmış abidəni ziyarət etmişlər.*

*Dövlət başçıları abidənin önünə ətrafına buğda sünbülü düzülmüş yanan şam qoydular, aclıq qurbanlarının xatirəsinə ehtiramlarını bildirdilər.*

*Prezidentlər Ukrayna paytaxtının hündür nöqtəsindən qədim Kiyevin mənzərəsini seyr etdilər.*

*Prezident Viktor Yanukoviç Ukrayna paytaxtında görülən işlər barədə Azərbaycan prezidentinə məlumat verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Kiyev*

*28 oktyabr 2010-cu il*

*Oktyabrın 28-də Kiyevdə Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yanukoviçin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Azərbaycan prezidentinin Kiyevə hazırkı səfərinin və səfər çərçivəsində imzalanacaq sənədlərin əlaqələrin daha da genişlənməsinə xidmət edəcəyi bildirildi. Azərbaycan ilə Ukrayna arasında iqtisadi və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlərin olduğu qeyd edildi.*

*Dövlət başçıları ikitərəfli və beynəlxalq məsələlərə dair fikir mübadiləsi apardılar.*

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ ŞURASININ İKİNCİ İCLASI

*Kiyev*

*28 oktyabr 2010-cu il*

*Oktyabrın 28-də Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yanukoviçin təkbətək görüşündən sonra iki ölkənin Prezidentləri Şurasının ikinci iclası olmuşdur. İclasda Azərbaycan və Ukrayna nümayəndə heyətlərinin üzvləri də iştirak etmişlər.*

**V i k t o r  Y a n u k o v i ç:** Çox hörmətli cənab Prezident, əziz İlham Heydər oğlu!

Əziz dostlar!

Mən sizi Kiyevdə salamlamaq istəyirəm. İlham Heydər oğlu, biz Sizin səfərinizə çox şadıq. Bizim birgə işçi qrupumuz, dövlətlərarası komissiyamız çoxlu məsələlər üzərində işləmişlər. Hazırlığın səviyyəsi çox yüksəkdir. Bu gün biz sizinlə həmin komissiyanın həmsədrlərinin qısa hesabatlarını dinləməli, yekun vurmalıyıq. Əlbəttə, mən ilk növbədə, çox mürəkkəb dövlətlərarası məsələlərin, həmçinin bizim üçün çox həssas olan yanacaq-energetika kompleksinə dair məsələlərin həllinə göstərdiyiniz diqqətə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün Azərbaycan Xəzər regionunda və bütövlükdə Asiya bölgəsində çox ciddi mövqe tutur. Biz Azərbaycanı çox yaxşı yaxın tərəfdaş və dost hesab edirik. Münasibətlərimiz həmişə sabit və səmimi olmuşdur. Ən başlıcası isə Azərbaycan və Ukrayna xalqlarının qədim ənənələri vardır. Buna görə də Sizi burada, Ukrayna torpağında salamlayıram. Bizim etdiklərimizin hamısı ölkələrimizin strateji, milli maraqlarına uyğundur. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Möhtərəm Viktor Fyodoroviç, sözlərinizə və münasibətlərimizə verdiyiniz qiymətə görə çox sağ olun. Mən münasibətlərimizin tarixi, bu münasibətlərin inkişafının indiki səviyyəsi ilə bağlı fikirlərinizlə tamamilə şərikəm. Ümidvaram ki, mənim səfərim bütün istiqamətlərdə əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəkdir. Məni Ukraynaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, bu səfər yaxşı nəticələr verəcəkdir.

Xalqlarımız arasında dostluq, qardaşlıq münasibətləri mövcuddur. Əsrlər boyu biz fəal qarşılıqlı fəaliyyət göstərmişik, dostluq etmişik, birlikdə işləmişik. Dövlətlərimiz müstəqillik əldə etdiyi andan biz həmişə tərəfdaş, dost olmuşuq. Bu gün bu tərəfdaşlıq strateji səviyyəyə yüksəlmiş, gələcək inkişafımızı və əməkdaşlığımızı şərtləndirir.

Ölkələrimiz arasında energetika siyasəti ilə bağlı məsələlər həmişə dostluq, konstruktivlik və qarşılıqlı fayda ruhunda həll olunmuşdur. İndiki mərhələdə bu əməkdaşlığı genişləndirmək üçün yeni ideyalar və imkanlar mövcuddur. Biz münasibətlərimizin energetika blokunun əmtəə dövriyyəsinə müsbət təsirindən çox razıyıq. Biz artıq konkret nəticələr görürük. Ancaq bizim bu gün neft və qaz sahəsində əməkdaşlıqla əlaqədar aparacağımız müzakirələr, təkbətək görüşümüzdə danışdıqlarımız, düşünürəm ki, münasibətlərimizin bütövlükdə inkişafı üçün böyük əhəmiyyət kəsb edəcəkdir. Əlbəttə, həm regional məsələlərdə, həm də beynəlxalq təşkilatlarda bir-birimizə göstərdiyimiz siyasi dəstək bu işdə möhkəm təməldir. Bu gün Xəzər dənizi və Qara dəniz hövzələrinin regional əməkdaşlığını Ukrayna və Azərbaycanın xüsusi rolu olmadan təsəvvür etmək mümkün deyildir. Əminəm ki, aramızda mövcud olan geniş gündəlik planlarımızın həyata keçirilməsi münasibətlərimizi daha da möhkəmləndirəcək və xalqlarımızı yaxınlaşdıracaqdır. Mən səmərəli işə və yaxşı nəticəyə ümid bəsləyirəm. Bir daha qonaqpərvərliyə görə təşəkkür edirəm.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*28 oktyabr 2010-cu il*

*Oktyabrın 28-də Kiyevdə Azərbaycan və Ukrayna Prezidentləri Şurasının ikinci iclasından sonra Azərbaycan–Ukrayna sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Viktor Yanukoviç «Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Respublikası Prezidentinin Birgə Bəyannaməsi»ni və «Azərbaycan Respublikası və Ukrayna Prezidentləri Şurasının ikinci iclasının Protokolu»nu imzaladılar.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ukraynanın Xarici İşlər naziri Konstantin Qrişenko «Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Ukrayna Respublikası Xarici İşlər Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş»i imzaladılar.*

## DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*28 oktyabr 2010-cu il*

*Oktyabrın 28-də Kiyevdə Azərbaycan–Ukrayna sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yanukoviçin mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.*

### Ukrayna prezidenti Viktor Yanukoviçin bəyanatı

Çox hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İndicə biz Azərbaycan və Ukrayna Prezidentləri Şurasının iclasını yekunlaşdırdıq. Bundan əvvəl bizim birgə komissiya böyük iş aparmış, bugünkü iclas üçün müvafiq protokol hazırlamışdır. Təbii ki, qarşıda bir məqsəd vardı – bu iclası mənalı keçirmək.

Bizim ikitərəfli münasibətlərin uzun illər ərzində əsası qoyulmuş ənənələri davam edir və İlham Heydər oğlu ilə bir-birimizi çoxdan və yaxşı tanıyırıq. Razılaşdıq ki, Ukrayna–Azərbaycan münasibətlərini xeyli fəallaşdıracaq və onlara məna kəsb etdirəcəyik. Biz səmərəli əməkdaşlığımıza, milli mənafelərimizə uyğun olan məsələlərin siyahısını xeyli genişləndirmişik. Bunlar ticari-iqtisadi əməkdaşlıq, beynəlxalq təşkilatlarda birgə iş məsələləri və əlbəttə, Ukrayna və Azərbaycan xalqları arasında əsrlər boyu davam edən humanitar əlaqələrin geniş spektridir.

Mən ticari-iqtisadi münasibətlərimizdə yanacaq-energetika sahəsində münasibətlərin inkişaf etdirilməsi məsələsinə xüsusi

yer ayırardım. Biz razılığa gəldik ki, birgə işçi qrupu yaradaq. Bu qrup ölkələrimiz arasında strateji müqavilə hazırlayacaqdır. Həmin müqavilədə Azərbaycandan Ukraynaya enerji resursları satışının həcminin xeyli artırılması nəzərdə tutulacaqdır. Biz bu proqramın işləmə mexanizmlərini hazırlayacağıq. Bu əməkdaşlığın üçüncü ölkələrə, məsələn, Rusiyaya, Xəzəryanı ölkələrə də şamil olunacağını istisna etmirik.

Bu gün enerji ehtiyatlarının şaxələndirilməsi məsələsi çox kəskin şəkildə gündəmdədir. Hesab edirik ki, Azərbaycanın neft və qaz hasilatını artırmaq üçün çox böyük perspektivi vardır və biz dostlarımıza arzu edirik ki, onlar bu perspektivi mümkün qədər tez genişləndirsinlər.

Elm tutumlu texnologiyalar sahəsində əməkdaşlıq da hazırda gündəmdə olan məsələlərdən biridir və biz belə hesab edirik ki, onun inkişafı üçün böyük perspektiv vardır. Bir sözlə, demək istəyirəm ki, 2010-cu il artıq başa çatmaqdadır və biz inamla deyə bilərik ki, ölkələrimiz arasında əmtəə dövriyyəsini faizlərlə deyil, dəfələrlə artıracağıq və bu bizim ikitərəfli işimizin nəticəsidir. Bizim vəzifəmiz bununla kifayətlənməmək və qarşılıqlı faydalı olan bu işi davam etdirməkdir. Hazırda Ukrayna Azərbaycanın ticarət tərəfdaşı kimi, ikinci yeri tutur. Əlbəttə, biz bu nəticəni yaxşılaşdırmaq istəyirik. Ona görə də mən böyük məmnuniyyətlə demək istəyirəm ki, biz perspektivə inanırıq və ona nail olacağıq.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Viktor Fyodoroviç!

Sözlərinizə görə çox sağ olun. Əvvəla, dost, qardaş Ukraynaya rəsmi səfərə dəvət etdiyinizə, mənə və nümayəndə heyətimin üzvlərinə qardaş Ukrayna torpağında göstərilən qonaqpərvərliyə görə təşəkkür etmək istəyirəm.

Çox hörmətli Viktor Fyodoroviç ilə bizi uzun illər ərzində birgə iş bağlayır. Biz bir-birimizi çoxdan tanıyırıq. Münasibətlərimiz hələ biz dövlətlərimizin baş nazirləri olandan başlamışdır. Əminəm ki, ölkələrimiz arasında münasibətlərin

indiki səviyyəsi, ən başlıcası isə bu münasibətlərin inkişaf perspektivləri xeyli dərəcədə dövlətlərin rəhbərlərinin nə qədər sıx əməkdaşlıq etmələrindən və ünsiyyətdə olmalarından asılıdır. Mən görürəm ki, tammiqyaslı əməkdaşlığı genişləndirmək üçün perspektivlər çox ümidvericidir.

Viktor Fyodoroviçin qeyd etdiyi kimi, biz bu gün münasibətlərimizin geniş gündəliyi üzrə çox konstruktiv, ətraflı müzakirələr apardıq, siyasi qarşılıqlı fəaliyyəti, siyasi məsləhətləşmələri, beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləməyi, regional məsələlərdə, xüsusilə Xəzər–Qara dəniz hövzəsində inteqrasiya siyasəti məsələlərində fəal əməkdaşlığı genişləndirməyə tərəfdar olduğumuzu bir daha təsdiq etdik. Ölkələrimiz Qara dəniz ilə Xəzər dənizini birləşdirən nəqliyyat-energetika dəhlizinin möhkəmləndirilməsi və genişləndirilməsi işində aparıcıdırlar və bununla da ölkələrimiz regional inteqrasiya, regional əməkdaşlıq proseslərində fəal iştirak edirlər.

Bu gün biz yanacaq-energetika kompleksi ilə bağlı məsələləri ətraflı müzakirə etdik. Çox şadıq ki, biz bu sahədə artıq konkret nəticələr görürük və həm neft, həm də qaz sahələrində əməkdaşlığın genişlənəcəyinə ümid bəsləyirik. Əminəm ki, energetika, neft və qaz nəqli marşrutlarının şaxələndirilməsi həm istehsalçılar, həm də istehlakçılar üçün energetika təhlükəsizliyi tədbirlərinin möhkəmləndirilməsi ilə bağlı daha geniş regional kooperasiya bu sahədə əməkdaşlığımızın nə dərəcədə səmərəli və məhsuldar olmasından asılıdır. Bəzən energetika təhlükəsizliyindən danışarkən, əsasən enerji resurslarını alan ölkələr nəzərdə tutulur. Lakin istehsalçı ölkələrin də enerji təhlükəsizliyinə, uzunmüddətli müqavilələrə, proqnozlaşdırıla bilən bazarlara ehtiyacı vardır və həmin ölkələr yalnız bu yolla uzunmüddətli sərmayə siyasətini qura bilərlər.

Ölkələrimiz arasında əmtəə dövriyyəsi də genişlənir, artır. Artım potensialı daha çox perspektivlidir. Düşünürəm ki, 2010-cu il bu baxımdan münasibətlərimizin tarixində dönüş ili kimi qalacaqdır. Çünki Viktor Fyodoroviçin qeyd etdiyi kimi, əmtəə

dövriyyəsinin faizlə deyil, dəfələrlə artması artıq münasibətlərimizin bugünkü reallığıdır.

Bu gün biz sənaye kompleksini, ticarəti, humanitar əməkdaşlığı, hərbi sənaye kompleksi sahəsində, aerokosmik sahədə əməkdaşlığı əhatə edən məsələləri də ətraflı nəzərdən keçirdik. Biz daha fəal əməkdaşlıq etmək və fəaliyyətimizin konkret məzmun kəsb etməsi üçün iqtisadiyyatlarımızın, müəssisələrimizin potensialından maksimum istifadə etməliyik. Bir daha demək istəyirəm, bunun üçün bütün ilkin şərait – həm rəhbərliyin şəxsi münasibətləri, həm də bu gün müşahidə etdiyimiz kimi, nümayəndə heyətlərimizin üzvlərinin konstruktiv işgüzar münasibətləri vardır. Siyasi münasibətlər yüksək səviyyədədir. Ən başlıcası, bundan sonra da bütün istiqamətlər üzrə fəal işləmək və əməkdaşlıq etmək arzusu vardır. Əminəm, müəssisələrimiz bir-birinin imkanları barədə nə qədər çox informasiyaya malik olsalar, biz əmtəə dövriyyəsini bir o qədər sürətlə artıra və onun strukturunu təkmilləşdirə bilərik ki, o, birtərəfli olmasın və təkcə enerji resurslarına istiqamətlənməsin. Viktor Fyodoroviçin qeyd etdiyi kimi, bizə də çox xoşdur ki, MDB ölkələri arasında Ukrayna bizim üçün əmtəə dövriyyəsinə görə ikinci yerdədir.

Təbii ki, humanitar əməkdaşlıq olmasa, münasibətlərimiz heç vaxt dolğun olmayacaq və bizim bu məsələdə də fəxr etməyə haqqımız vardır. Xalqlarımız arasında münasibətlər zəngin tarixə malikdir. Ölkələrimiz müstəqillik əldə etdiyi andan aramızda xüsusi dostluq münasibətləri olmuşdu. Bu gün onlar strateji tərəfdaşların münasibətləri kimi səciyyələnir. Bizə çox xoşdur ki, ölkələrimizdə bir-birimizin mədəniyyətinə, dilinə çox qayğı ilə yanaşırlar. Azərbaycanda Ukrayna dili öyrənilir və bu müsbət proseslərin inkişaf etdirilməsinə böyük diqqət yetirilir. Bakıda Ukraynanın böyük oğlu Taras Şevçenkoya, Lesya Ukrainkaya abidə qoyulmuşdur. Ukraynada Heydər Əliyevə abidə ucaldılmışdır. Bu gün mənə xəbər verildi ki, Kiyev şəhər soveti həmin abidənin yerləşdiyi parka Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etmişdir. Mən

müasir Azərbaycan dövlətinin banisinin xatirəsinə bu cür yüksək münasibətə görə Azərbaycan xalqı adından, ilk növbədə Ukrayna prezidentinə, eləcə də bu barədə qərar qəbul edənlərin hamısına bir daha təşəkkür etmək istəyirəm.

Ukrayna bizə dost, qardaş ölkədir və mən əminəm ki, münasibətlərimizin gələcəyi məhz bu müstəvidə inkişaf edəcəkdir. Qonaqpərvərliyə görə ev sahiblərinə, çox hörmətli Viktor Fyodoroviçə bir daha təşəkkür etmək istəyirəm. Mən həm də burada jurnalistlərin qarşısında Viktor Fyodoroviçi istənilən münasib vaxtda Azərbaycana rəsmi səfərə rəsmən dəvət etmək istəyirəm ki, əlaqələrimiz daimi xarakter daşısın və biz bir-birimizi tez-tez görək. Sağ olun.

* * *

*Sonra prezidentlər jurnalistlərin suallarını cavablandırdılar.*

**S u a l: Hər vaxtınız xeyir, cənab prezidentlər. Siz energetika sahəsində əməkdaşlıq məsələlərinə toxundunuz. Azərbaycanın Ukraynaya neft satışının, Avropaya və Rusiyaya neft tranzitinin həcmini nə vaxtdan başlayaraq artıracağı məlumdurmu? Konkret olaraq hansı həcmlərdən söhbət gedir?**

**İ l h a m  Ə l i y e v:** Biz Ukraynaya neft satışını artıq çoxaltmışıq və keçən illə müqayisədə bu amil, ümumiyyətlə, bizim əmtəə dövriyyəsinin artırılmasında da başlıca rol oynamışdır. Bu gün Prezidentlər Şurasında bizə məruzə edilən məlumata görə, bu il hələ ki, başa çatmayıb, Ukrayna bazarlarına bir milyon tondan çox Azərbaycan nefti göndərilmişdir. Biz gələcəkdə satışın həcmini artırmaq niyyətindəyik. Çünki biz Azərbaycanda neft hasilatının həcmini artırmağı planlaşdırırıq. Perspektivdə Xəzər dənizinin şərq sahilində yerləşən bizə qonşu ölkələrin nefti Azərbaycan ərazisindən keçməklə Ukrayna bazarlarına nəql edilə bilər və bu layihə də Qara dəniz və Xəzər dənizi regionu ölkələrinin daha tam inteqrasiyasına şərait yaradacaqdır. Bu barədə artıq mən danışdım. Bununla da biz

enerji resursları ilə çox zəngin olan Xəzər dənizini Ukrayna bazarları ilə, Avropa bazarları ilə əlaqələndirəcək daha bir etibarlı enerji dəhlizi yaradacağıq. Bu, energetika sahəsində hamıya fayda gətirəcək genişmiqyaslı əməkdaşlıq olacaqdır. Mən hesab edirəm ki, neft təchizatı ilə bağlı bu əməkdaşlıq ölkələrimiz arasında yanacaq-energetika sahəsində münasibətlərin bütün kompleksinin inkişafında lokomotiv rolunu oynamalıdır. Enerji blokunun digər istiqamətləri ilə əlaqədar olan layihələr də – biz bu gün onların barəsində də ətraflı diskussiya aparmışıq – müəyyən dərəcədə bu əməkdaşlığın nə qədər uğurlu olmasından asılı olacaqdır. Başqa sözlə desək, 2010-cu il bu baxımdan da dönüş ili olmuşdur və biz bunu uzunmüddətli əməkdaşlığın yalnız yaxşı başlanğıcı hesab edirik.

**V i k t o r Y a n u k o v i ç:** Mən İlham Heydər oğlunun dediklərinə daha bir neçə söz əlavə etmək istərdim. Ukrayna üçün çox vacibdir ki, biz neft emalı zavodlarımız üçün neft alırıq və onların işləməsini təmin edirik, biz əlavə dəyər əldə edirik, iş yerləri açırıq. Bu həm Ukrayna iqtisadiyyatı üçün, həm də sosial baxımdan çox böyük əhəmiyyətə malikdir. Ukraynanın sifarişi ilə alınan neft məhsullarının lap cüzi bir hissəsini yüngül neft məhsulları təşkil edir. Bizim sonrakı bütün addımlarımız Odessa–Brodı kəmərini neftlə doldurmağa və onu avers rejimində işə salmağa yönəldiləcəkdir. Biz hesab edirik ki, bu proqram bir neçə il ərzində təkcə neft deyil, enerji daşıyıcıları satışını da xeyli artırmağa şərait yaradacaqdır.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Sizcə Azərbaycan ilə Ukrayna arasında qarşılıqlı sərmayələrin perspektivləri necədir?**

**V i k t o r Y a n u k o v i ç:** Mən çox qısa cavab verəcəyəm ki, müştərək layihələrimiz hər iki tərəfdən sərmayə resurslarının yatırılmasını nəzərdə tutur. Başqa sözlə, biz bu məsələlərə tərəfdaşlar kimi yanaşacağıq və hər bir ayrıca halda birgə qərarlar qəbul edəcəyik. Şübhəsiz ki, sərmayə layihələrimizin, ilk növbədə yerli məhsul istehsalçılarının dəstəklənməsində çox maraqlıyıq. Məqsədimiz budur. Ölkələrimizin

iqtisadiyyatlarının strukturu rəqib olmamağa, bir-birimizi tamamlamağa imkan verir.

**İ l h a m Ə l i y e v:** Mən Viktor Fyodoroviçin dedikləri ilə razıyam. Həqiqətən, iqtisadiyyatlarımız rəqabət aparan deyil, bir-birini tamamlayandır. Ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyəsi qarşılıqlı sərmayələrin təşviq edilməsinin mühüm amilidir. Sərmayədarlar – istər dövlətin, istərsə də özəl sektorun nümayəndələri həmişə siyasi konyukturaya çox həssas reaksiya verirlər və ölkələr arasında uzunmüddətli möhkəm siyasi münasibətlər olduğunu görəndə, təbii ki, diqqətlərini məhz belə əlverişli siyasi iqlim olan tərəfə yönəldirlər.

Digər amil həm Ukraynada, həm də Azərbaycanda xarici sərmayədarlar üçün çox əlverişli mühitin yaradılmasıdır. Əminəm ki, bu sərmayə layihələrinin siyasi cəhətdən dəstəklənməsi daha çox şirkətləri Ukraynanı və Azərbaycanı sərmayə yatırımı üçün strateji məkan kimi nəzərdən keçirməyə təşviq edəcəkdir. Mənə çox xoşdur ki, Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR bu prosesi artıq başlamışdır. Qısa vaxt ərzində Ukraynaya təxminən 80 milyon dollar sərmayə qoyulmuşdur. Bu bizim ilk addımlarımızdır. Biz sərmayələrimizin həcmini artırmaq niyyətindəyik. Əminəm ki, onlar yalnız artıq reallaşmaqda olan təşəbbüslər və layihələr çərçivəsində bir neçə dəfə çoxalacaqdır. Viktor Fyodoroviç ilə bir qədər əvvəl danışdığımız kimi, yanacaq-energetika, neft-qaz sektorunda genişmiqyaslı əməkdaşlığa dair planlarımızı nəzərə alsaq, bu sərmayələrin necə sürətlə artacağını təsəvvür etmək mümkündür.

Bu gün nümayəndə heyətimizin tərkibində sənaye, iqtisadiyyat, informasiya-kommunikasiya texnologiyalarına görə cavabdeh nazirliklərin rəhbərləri də vardır. Biz bu sahələri də yaddan çıxarmamalıyıq, bəlkə də əksinə, onlara daha çox diqqət yetirməliyik. Çünki biz bir ölkədən digər ölkəyə sərmayələrin sektorlar üzrə bərabər bölünməsində maraqlıyıq. Ən əsası isə onlar ölkələrimizdə mövcud olan planlara uyğun gəlməlidir.

Onlar ölkələrimizdə mövcud olan iqtisadi, sərmayə proqramlarının əksinə yox, onlara uyğun olmalı, bir çox sosial məsələlərin həllinə, iş yerlərinin açılmasına və milli istehsal müəssisələrinin yaradılmasına da kömək etməlidir. Odur ki, bu perspektivlərə nikbinliklə baxırıq və əminəm ki, yaxın vaxtlarda yaxşı nəticələr görəcəyik.

## UKRAYNA RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOLAY AZAROV İLƏ GÖRÜŞ

*Kiyev*

*28 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Kiyevdə Ukraynanın Baş naziri Nikolay Azarovu qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi, o cümlədən energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu. Bu əlaqələrin genişləndirilməsi və ticarət dövriyyəsinin daha da artırılması üçün yaxşı potensialın mövcud olduğu vurğulandı.*

*Görüşdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində atılacaq əməli addımlar barədə fikir mübadiləsi aparıldı.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN KİYEVİN MƏRKƏZİNDƏ UCALDILMIŞ ABİDƏSİNİ ZİYARƏT

*28 oktyabr 2010-cu il*

*Oktyabrın 28-də prezident İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Kiyevin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısına abidənin ətrafında aparılacaq abadlıq işləri barədə ətraflı məlumat verildi. Bildirildi ki, abidənin ətrafı yenidən qurulacaq, bura istirahət məkanına çevriləcəkdir.*

*Sonra prezident İlham Əliyev Azərbaycanın Ukraynadakı səfirliyinin yerləşdiyi əraziyə gəldi.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, diplomatik nümayəndəliyimizin ərazisində də abadlıq və yenidənqurma işlərinin görülməsi planlaşdırılır.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR

*Kiyev*

*28 oktyabr 2010-cu il*

*Oktyabrın 28-də Kiyevdə Ukrayna prezidenti Viktor Yanukoviçin adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.*

*Prezident İlham Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyətini Ukraynada bir daha salamlayan prezident Viktor Yanukoviç bildirdi ki, ölkələrimiz arasında daim inkişaf edən münasibətlərin bugünkü səviyyəsi nikbinlik doğurur. Bu məhsuldar əməkdaşlığın təməlinin ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd edən Viktor Yanukoviç vurğuladı ki, Ukrayna xalqı dahi insanın xatirəsini qəlbində yaşadacaq və Ukrayna iqtisadiyyatı üçün ağır günlərdə göstərdiyi dəstəyi həmişə xatırlayacaqdır.*

*Viktor Yanukoviçə gözəl Ukrayna torpağında göstərilən səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlıq edən prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında münasibətlərin tarixində inteqrasiya və əməkdaşlığın inkişafı üçün atılan ən vacib addımlardan biri kimi qalacaqdır.*

*Prezident İlham Əliyev prezident Viktor Yanukoviçə və Kiyev şəhərinin rəhbərliyinə Ukrayna paytaxtında parkların birinə ulu öndər Heydər Əliyevin adının verilməsi barədə qərara görə minnətdarlıq etdi. Dövlətimizin başçısı səfər çərçivəsində aparılan müzakirələrdən məmnun qaldığını bildirdi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynaya rəsmi səfəri oktyabrın 28-də başa çatmışdır.*

*Borispol Beynəlxalq Aeroportunda Azərbaycan prezidentini Ukraynanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

*** * ***

*Dövlətimizin başçısı həmin gün Bakıya gəldi. Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

Hörmətli xanım Prezident!

Həyat yoldaşınız, Argentinanın keçmiş prezidenti, görkəmli dövlət xadimi Nestor Kirşnerin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizə və bütün Argentina xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 oktyabr 2010-cu il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş irimiqyaslı təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 oktyabr 2010-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜR VƏ ARAZ ÇAYLARININ DAŞMASI NƏTİCƏSİNDƏ TƏBİİ FƏLAKƏTDƏN ZİYAN ÇƏKMİŞ SALYAN, SABİRABAD, SAATLI VƏ İMİŞLİ RAYONLARINA SƏFƏRİ

*Salyan*

*1 noyabr 2010-cu il*

*Bu ilin aprel–may aylarında Kür və Araz çaylarının daşması nəticəsində yaranan təbii fəlakət zamanı Salyan rayonu ərazisində evləri dağılan vətəndaşlar üçün yeni qəsəbə tikilmişdir.*

*Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəsəbənin açılışında iştirak etmişdir.*

*Bu ilin mayında Kür və Araz çaylarında baş verən daşqın təbii fəlakətlə nəticələnmişdir. Daşqından dərhal sonra – mayın 7-də prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə dövlətimizin başçısı fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı müvafiq orqanlara tapşırıqlar vermişdi. Minlərlə texnika və canlı qüvvə təbii fəlakət zonasında xilasetmə və bərpa işlərinə cəlb olunmuşdu. Təbii fəlakətin miqyasının genişlənməsinin qarşısı dövlət strukturlarının həyata keçirdiyi tədbirlər nəticəsində alınmışdı. Dağılan bəndlərin operativ bərpası, əhalinin daha təhlükəsiz yerlərə köçürülməsi nəticəsində insan tələfatına yol verilməmişdi. Mayın 11-də prezident İlham Əliyevin təbii fəlakət bölgəsinə getməsi və burada sakinlərlə görüşməsi, onların problemləri ilə maraqlanması dəyən ziyanın aradan qaldırılmasının dövlətimizin başçısının daim diqqətində olduğunu göstərmişdi. Tədricən əhalinin yaşayış yerlərinə köçürülməsinə, evləri dağılan insanların mənzil problemlərinin həllinə başlanılmışdı. Müvafiq*

*strukturların cəlb olunduğu tikinti-quraşdırma işləri zamanı əsas diqqət evlərin əvvəlki kimi çiy kərpicdən yox, daha keyfiyyətli materiallardan istifadə olunaraq inşasına yönəldilmişdi. Daşqınlar nəticəsində dağılan evlərin dövlətimizin başçısının tapşırıqlarına əsasən, yeniləri ilə əvəz olunması və zərər dəymiş evlərin bərpası istiqamətində görülən işlər uğurla həyata keçirilmişdir. Bu prosesin qış başlayana qədər başa çatdırılması və evlərini itirən insanların yeni mənzillərlə təmin olunması istiqamətində kompleks tədbirlər genişləndirilmişdi.*

*İmişli, Sabirabad, Saatlı, Kürdəmir, Salyan, Zərdab, Neftçala və Hacıqabul rayonlarında ümumilikdə 1617 ev qəzalı vəziyyətə düşmüşdü. Tikinti prosesində infrastruktur obyektlərinin inşası da diqqətdə saxlanılmışdır. Təbii fəlakətə məruz qalan bölgələrdə 27 məktəb, 6 məktəbəqədər təhsil müəssisəsi, 12 tibb ocağı, 15 məscid və digər obyektlər bərpa olunaraq yenidən əhalinin istifadəsinə verilmişdir. Bütün bunlar prezident İlham Əliyevin təbii fəlakətdən ziyan çəkən insanlara, onların məruz qaldığı problemlərin həllinə həssas münasibətinin məntiqi nəticəsidir. Salyan rayonunda da bu ilin yazında baş vermiş daşqınların nəticələri aradan qaldırılır, evlərindən məhrum olan sakinlər üçün yeni mənzillər inşa edilir. Daşqınlar zamanı Salyan rayonunun 20 yaşayış məntəqəsində 2 mindən artıq həyət su altında qalmışdı. Təbii fəlakət nəticəsində 500-ə qədər evə, 6 məktəbə, 2 uşaq bağçasına müxtəlif dərəcəli ziyan dəymişdi. Kür çayının daşması nəticəsində Salyan rayonunda qəzalı vəziyyətə düşmüş evlərin əvəzinə Fövqəladə Hallar Nazirliyi tərəfindən yeni evlər inşa olunmuşdur.*

*Salyan rayonunda salınmış yeni qəsəbəyə gələn prezident İlham Əliyev mənzillərdə yaradılmış şəraitlə tanış oldu.*

*Sonra dövlətimizin başçısı yeni qəsəbənin ümumi planına və aparılmış tikinti-quruculuq işlərini əks etdirən stendə, inşaat işlərində istifadə olunmuş materialların nümunələrinə baxdı.*

*Dövlətimizin başçısı qəsəbə sakinlərini təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Sizi təbrik edirəm. Çox gözəl qəsəbə tikilib, çox gözəl evlərdir – müasir, geniş, işıqlı. Təbii fəla-

kətdən əziyyət çəkmiş vətəndaşlar artıq belə gözəl qəsəbədə yaşayacaqlar. Siz bilirsiniz ki, əvvəlki, uçulmuş evlər, onların böyük əksəriyyəti keyfiyyətsiz idi, çiy kərpicdən tikilmişdi. Amma bunlar gözəl şəraiti olan iki, üç, dördotaqlı daş evlərdir. Bu evlər qısa müddətdə, cəmi bir neçə ay ərzində tikilib. Təbii fəlakətdən əziyyət çəkmiş bütün bu insanlar dövlət tərəfindən qayğı, dəstək görürlər, həm kompensasiya ödənilir, həm də evlər tikilir. Bu, Azərbaycan dövlətinin gücünü, vətəndaşlarına olan münasibətini göstərir.

**Səfurə Rzayeva** *(sakin)*: Əziz Prezidentimiz, Siz evləri uçan insanları intizarda qoymadınız. Tezliklə bu cür gözəl, yaraşıqlı evlərin tikintisinə başlandı. Qısa müddətdə bu iş başa çatdı. Bu evlər çox zövqlə, müasir tələblər səviyyəsində daşdan tikilmişdir. Bu yaraşıqlı evlər bizim rayonumuza gözəllik verir. İnsanlarımız burada rahat yaşayacaqlar. O tərəfdə gördüyünüz çoxlu sayda evdən ibarət şəhərcik Heydər Əliyev Fondunun nəcib təşəbbüsünün nəticəsidir.

**İlham Əliyev:** Əlbəttə, birinci mərhələdə biz insanları təhlükəsiz yerə köçürdük və heç bir itki olmadı. Yəni, biz bütün insanları vaxtında köçürdük. Çox böyük bəla, böyük fəlakət idi. Əsas məsələ ondan ibarət idi ki, vətəndaşlar sağ-salamat qalsınlar. Göstəriş verilmişdi ki, evlər qısa müddət ərzində tikilsin. Artıq təkcə Salyanda deyil, bütün başqa rayonlarda da bu evlər hazırdır. Sizi bir daha ürəkdən təbrik edirəm. Burada yaşayan və yaşayacaq vətəndaşlara da mənim salamlarımı çatdırın. Burada onlar üçün bütün şəraiti Azərbaycan dövləti yaradıbdır.

## SABİRABAD RAYONUNDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*1 noyabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 1-də xalqımızın ümummilli lideri Heydər Əliyevin Sabirabad rayonunun mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.*

*Dövlətimizin başçısına rayonda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verildi.*

### Mürsəlli kənd orta məktəbinin açılışı mərasimi

*Noyabrın 1-də prezident İlham Əliyev Sabirabad rayonunun Mürsəlli kənd orta məktəbinin açılışında iştirak etmişdir.*

*Bu ilin aprel–may aylarında Kür və Araz çaylarının daşması nəticəsində yaranan təbii fəlakət zamanı Sabirabad rayonuna da ziyan dəymişdi. Təbii fəlakətdən zərər çəkən digər rayonlarla yanaşı, prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Sabirabadda da kompleks tədbirlər həyata keçirilmişdir. Rayonda təbii fəlakətdən 33 yaşayış məntəqəsi ziyan çəkmişdir. Uçmuş evlərin yerində hökumət komissiyasının qərarına əsasən 630 yeni evin tikintisi nəzərdə tutulmuşdur. Qısa müddətdə 317 evin tikintisi tam başa çatdırılmışdır.*

*Daşqınlar nəticəsində Yusif Qasımov adına Mürsəlli kənd orta məktəbi də tamamilə yararsız vəziyyətə düşmüşdü. Dövlətimizin başçısının tapşırıqlarına əsasən məktəbdə əsaslı təmir və yenidənqurma tədbirləri aparılmışdır.*

*Prezident İlham Əliyev məktəb binasının əvvəlki və indiki vəziyyətini əks etdirən fotostendə baxdı. Məlumat verildi ki, avqust*

*ayından başlayaraq görülən işlər nəticəsində məktəbin üç korpusdan ibarət ikimərtəbəli binası müasir standartlara uyğun surətdə yenidən qurulmuşdur. Bütün lazımi avadanlıqla təchiz olunmuş təhsil ocağının həyətyanı sahəsinə asfalt döşənmiş, ətraf abadlaşdırılmışdır.*

*Dövlətimizin başçısı sakinləri təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Sabirabad rayonunda böyük tikinti işləri gedir, qısa müddət ərzində 400-dən yuxarı ev tikilib və təmir olunubdur. Bu proses davam edir. Elə etməliyik ki, qalan bütün işlər də tezliklə həllini tapsın. Bu il biz misli görünməmiş təbii fəlakətlə üzləşmişdik. Yaxın tarixdə belə bir hadisə olmamışdır. Bütün qurumlar çox operativ, çox səmərəli işlədilər. İlk növbədə, xilasedicilər böyük peşəkarlıq göstərmiş və insanları vaxtında təhlükəsiz yerlərə köçürmüşlər. O yerlərdə müvəqqəti yaşamaq üçün şərait yaradıldı, ərzaqla təmin olunma, təhsillə bağlı məsələlər həllini tapdı. Hər bir müvəqqəti məskunlaşma yerində tibb məntəqələri təşkil olundu. İlk növbədə, insanların təhlükəsizliyini təmin etmək üçün xilasetmə işləri yüksək səviyyədə aparıldı. Bir dənə də itki, zərərçəkən olmamışdır.

O ki qaldı dağılmış evlərə, uçmuş binalara, Azərbaycan güclü dövlətdir və biz öz gücümüzə arxalanaraq bütün bu təmir-tikinti işlərini apardıq. Bu gün, bir neçə ay keçəndən sonra artıq evlərin böyük əksəriyyətinin tikintisi reallaşıbdır. 3500 ev ya uçmuşdu, ya da qəzalı vəziyyətə düşmüşdü. Ölkə üzrə təxminən 1500 ev tikilibdir. Sabirabad rayonunda inşası gözlənilən evlərin 77 faizi artıq tikilibdir. Təkcə evlər deyil, məktəblər, məscidlər, tibb məntəqələri, sosial obyektlər böyük vəsait tələb edən məsələlərdir. Biz bunu qısa müddət ərzində etməli idik ki, qış gələnə qədər bütün bu işlərin böyük əksəriyyəti öz həllini tapsın.

Görülən işlər bir daha onu göstərir ki, Azərbaycan ilk növbədə güclü, böyük maliyyə imkanlarına malik olan dövlətdir. Azərbaycanda sosial siyasət bizim üçün prioritet məna daşıyır. Bu il dünyanın müxtəlif yerlərində, başqa qitələrdə, Avropa ölkələrində təbii fəlakətlər – yanğınlar, sellər, daşqınlar geniş vüsət almışdır. Biz televiziya vasitəsilə görürdük ki, əksər

hallarda bütün bu fəlakətlər böyük itkilərlə, insan itkiləri ilə müşayiət olunurdu. Mən qeyd etdiyim kimi, biz Azərbaycanda bütün qüvvələri səfərbər edib insan itkisinə yol vermədik. Digər tərəfdən, Avropa ölkələrində bütün təmir-bərpa işləri, onun maliyyə dəstəyi sığorta şirkətləri tərəfindən həyata keçirilir. Azərbaycanda hələ bu praktika tətbiq olunmur və burada uçmuş evlərin 70 faizi çiy kərpicdən tikilmişdi, keyfiyyətsiz evlər idi. Azərbaycan dövləti bütün bu yükü öz üzərinə götürdü. Dərhal qərar qəbul edildi, büdcəyə dəyişiklik edildi, 300 milyon manat əlavə olundu ki, biz bütün bu işləri tezliklə görək. Artıq bir neçə ay ərzində gedən tikinti-quruculuq işləri göstərir ki, biz bu işin öhdəsindən gələ bilmişik. Bütün bu təmir və bərpa işlərini öz gücümüzə arxalanaraq, heç bir xarici yardım almadan, tezliklə və keyfiyyətlə görə bilmişik. Bu bir daha onu göstərir ki, qarşımızda duran bütün vəzifələr layiqincə yerinə yetirilir. Bir də onu göstərir ki, istənilən təbii fəlakət qarşısında Azərbaycan dövləti və Azərbaycan vətəndaşları bütün qüvvələri səfərbər edib öz dəyanətlərini göstərə bilirlər. Bütün işləri qısa müddət ərzində gördük və əminəm ki, bax, burada, bu evlərdə insanlar rahat yaşayacaqlar. Onların yaşayış səviyyəsi daha da yaxşılaşdı və əvvəlki dövrlə müqayisəedilməz dərəcədə işlər görüldü.

Təkcə Sabirabadda deyil, seldən, daşqınlardan əziyyət çəkmiş bütün başqa bölgələrdə bu gün geniş tikinti işləri gedir. Əslində bu bölgələr tikinti meydançasına çevrilibdir. Azərbaycanın bütün bölgələrində bu işlər gedir. Sizi bu evlərin istismara verilməsi münasibətilə təbrik edirəm və hamınıza cansağlığı arzulayıram.

**Ə h ə d  Ş ü k ü r o v** *(məktəbin direktoru):* Uzun müddət yaddaşımızdan çıxmayacaq bu gün bizim üçün müqəddəsdir. Bizi təbii fəlakət nəticəsində yaranmış ağır vəziyyətdən çıxaran, bizə yeni həyat bəxş edən əziz Prezidentimiz, bu gün görüşümüzə gəlmisiniz. Buna görə biz Sizə dönə-dönə minnətdarıq.

Sizin səyiniz sayəsində bütün idarə, təşkilat və müəssisə rəhbərləri səfərbər olundu, Şirvan şəhərində çadır şəhərciyi quruldu. Ərzaqla, tibbi xidmətlə, bir sözlə, hər cür şəraitlə təmin edildik, dövlət orqanlarının nümayəndələri tərəfindən nəzarətdə

olduq. Xilasedicilərimiz köçürmə işlərini yerinə yetirərkən hətta həyatlarını təhlükə altına qoyaraq, bütün evləri bir-bir gəzib tam əmin olurdular ki, orada heç kəs qalmamışdır. Biz Azərbaycan dövlətinin, onun müdrik rəhbərinin insan rifahına böyük qayğısını gördük.

**İ l h a m  Ə l i y e v:** O günlər bir daha göstərdi ki, Azərbaycan xalqı nəyə qadirdir. Təkcə texniki imkanlardan, maliyyə vəsaitindən söhbət getmir. Əgər güclü iqtisadiyyatımız olmasaydı, əvvəlki illərdə bu güclü potensialı yaratmasaydıq, biz bu işin öhdəsindən çətin gələ bilərdik. Ancaq bununla bərabər, o çətin günlər göstərdi ki, Azərbaycan xalqı çox işlərə qadirdir və bütün xalq səfərbər olunmuşdu. Sahilbərkitmə işlərinin aparılması üçün Bakıdan, başqa yerlərdən maşın karvanı ilə böyük daşlar, qayalar gətirilirdi. Ancaq o fəlakətin qabağında bəzi hallarda biz gücsüz idik. Çünki sular, sellər bütün bəndləri dağıdırdı, göllər daşırdı. O vaxt qarşımızda ancaq və ancaq insanları xilas etmək, bununla bərabər, sahilbərkitmə işlərini görmək məsələsi dayanmışdı. Bu gün xarici mütəxəssislər tərəfindən hazırlanmış təqdimat barədə mənə məlumat verildi. Biz göstəriş vermişdik ki, fəaliyyətimizi xarici mütəxəssislərlə bərabər görüləcək işlər əsasında quraq. Elə edək ki, gələcəkdə özümüzü bu bəladan birdəfəlik sığortalayaq. Bu gün görülən işlər artıq onu göstərir ki, biz düzgün istiqamətdə addımlayırıq. Xaricdən dəvət olunmuş mütəxəssislər bizim üçün böyük bir inkişaf planı hazırlayırlar. Onun əsasında bütün işlər öz həllini tapacaqdır. Sahilbərkitmə, bəndbərkitmə işləri, suların idarə olunması və tənzimlənməsi, su anbarlarının fəaliyyəti, çayların lildən təmizlənməsi, yəni, bütün bu kompleks tədbirlər görüləcək ki, gələcək illərdə özümüzü bu bəladan xilas edə bilək.

Bu ilin yaz ayları bizim üçün nə qədər çətin olsa da, o qədər də şərəfli idi. Çünki son illər Azərbaycanın hər bir yerində biz ancaq tikinti-quruculuq, abadlıq, inkişaf görürük. Azərbaycan vətəndaşları ildən-ilə daha da yaxşı yaşayırlar, maaşlar, pensiyalar mütəmadi qaydada qaldırılır. Bütün şəhərlər, rayonlar abadlaşır, yollar salınır, müəssisələr tikilir.

Nə edək ki, təbiət qarşısında bəzən insanlar aciz olurlar. Ancaq Azərbaycan xalqı bu fəlakət qarşısında bir daha gücünü, məharətini, peşəkarlığını göstərdi. Bu kəndin sakinləri ilə bərabər, bütün qurumlar – dövlət məmurları, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları, ordumuz, polis qüvvələri gecə-gündüz işləyirdilər. Təhlükə altındakı məntəqələrdən insanları başqa yerə köçürmək, sonra o yerləri, o evləri qorumaq üçün nə qədər böyük işlərin görülməsi tələb edilirdi. Deyə bilərəm ki, biz bir dənə də xoşagəlməz hala rast gəlmədik. Bu çətin anlarda, əlbəttə, hər bir vətəndaş bir məqsədi güdürdü ki, təbii fəlakətdən əziyyət çəkənlərin tezliklə köməyinə gəlsin, onlara dəstək versin. Həm dövlət qurumları, dövlət şirkətləri, eyni zamanda, özəl şirkətlər də özlərini yaxşı tərəfdən göstərdilər. Özəl şirkətlər bazar iqtisadiyyatı əsasında fəaliyyət göstərirlər. Onlar da bütün bu işləri təmənnasız görürdülər. Texnika, fəhlələr, işçilər gəlirdi, işləyirdilər. Öz üzərlərinə böyük maliyyə öhdəliyi götürmüş və dövlətdən bir manat da kompensasiya istəməmişlər.

Bütün bu anlar, aylar, yenə də deyirəm, nə qədər çətin olsa da, bir daha göstərdi ki, Azərbaycan dövləti öz vətəndaşlarına həmişə ilk növbədə, qayğı göstərir və göstərəcəkdir. Azərbaycanda güclü sosial siyasət aparılır və istənilən məsələni həll etmək üçün bizdə həm iradə, həm güc, həm də peşəkarlıq vardır. Bir daha sizi təbrik edirəm, sizə cansağlığı arzulayıram.

*Prezident İlham Əliyev sonra Şıxlar kəndinə gəldi. Dövlətimizin başçısı Ağaşirin Tarıverdiyevin yeni mənzilində yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, daşqınlardan ciddi zərər çəkmiş Şıxlar kəndində yeni evlər tikilmişdir. Yeni mənzillərdən 292-si ikiotaqlı, 272-si üçotaqlı, 27-si isə dördotaqlıdır. Evlərdə kommunal infrastruktur da müasir tələblərə uyğun qurulmuşdur. Yeni mənzillərin inşası ilə yanaşı, rayon ərazisindəki 344 evdə bərpa-gücləndirmə işlərinə də başlanılmışdır. Həmin evlərdən 64-ü artıq hazır vəziyyətə gətirilmişdir. Daşqınlardan ziyan çəkmiş 2.947 ailəyə maddi yardım göstərilmişdir.*

*Prezident İlham Əliyev çay süfrəsi arxasında yeni evin sahibləri ilə söhbət etdi.*

# SAATLI RAYONUNUN YENİ NOVRUZLU KƏNDİNDƏ TİKİLMİŞ YAŞAYIŞ EVLƏRİ İLƏ TANIŞLIQ

*1 noyabr 2010-cu il*

*Kür və Araz çaylarının daşması nəticəsində yaranan təbii fəlakət zamanı Saatlı rayonunun Yeni Novruzlu kəndində evləri uçulan vətəndaşlar üçün təzə mənzillər tikilmişdir.*

*Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni evlərin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı fərdi evlərdə yaradılmış şəraitlə tanış oldu, qəsəbənin planına və tikintidə istifadə olunmuş materialların nümunələrinə baxdı.*

*Məlumat verildi ki, təbii fəlakət nəticəsində ümumilikdə Saatlı rayonu ərazisində 1028 evə, 5479 sakinə ziyan dəymişdi. Dövlətimizin başçısının tapşırığına əsasən rayonda 269 yeni daş evin tikilməsi qərara alınmışdır. Bunlardan inşası başa çatan 178 ev Yeni Novruzlu kəndində yerləşir.*

*Prezident İlham Əliyevə bildirildi ki, evlərə dəymiş ziyanla bağlı 916 ailəyə 998 min manat məbləğində kompensasiyanın ödənilməsi də başa çatmaq üzrədir. Qeyd olundu ki, yeni tikilən evlərin 13 min 751 kvadratmetr sahəsi vardır. Bu da həmin evlərə köçürüləcək ailələrin əvvəlki çiy kərpicdən olan mənzillərinin sahəsindən 3 min 400 kvadratmetr çoxdur.*

*Dövlətimizin başçısı qəsəbə sakinlərini təbrik etdi.*

**İ l h a m Ə l i y e v :** Sizi ürəkdən salamlayıram. Yeni, gözəl evlərin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Burada bütün şərait yaradılıb. İndi mən tanış oldum, çox geniş, rahat daş evlərdir, məktəb, bütün şərait vardır. Siz yaxşı bilirsiniz ki, əvvəlki evlər hansı vəziyyətdə idi. Əksəriyyəti çiy kərpicdən tikilmişdi və təbii fəlakət nəticəsində uçulub dağılmışdır. Bu evlər isə əsaslı tikilib.

Keyfiyyətli materiallardan istifadə olunub, geniş, rahat daş evlərdir.

Bu ərazidə heç nə yox idi, boş ərazi idi. Cəmi bir neçə ay ərzində böyük, gözəl qəsəbə salınıb, 178 ev tikilib. Mənə verilən məlumata görə, bütövlükdə Saatlı rayonunda nəzərdə tutulmuş evlərin 90 faizi artıq tikilibdir. Tikinti işləri davam edir. Təkcə Saatlı rayonunda deyil, sel, daşqınlardan əziyyət çəkmiş bütün rayonlarda tikinti, təmir-bərpa işləri gedir. Təbii fəlakətdən cəmi 4-5 ay keçibdir. Bu qəsəbələrin layihələndirilməsi, inşaat materiallarının gətirilməsi, işçi qüvvəsinin səfərbər olunması böyük zəhmət və peşəkarlıq tələb edən məsələlərdir. Mən söz vermişdim ki, qış gələnə qədər işlərin böyük əksəriyyəti görüləcək və bu gün bunun şahidiyik.

Hələ tikinti işləri davam edir, hələ bir neçə sahədə təmir-bərpa işləri aparılır və ümid edirəm ki, nəzərdə tutduğumuz bütün vəzifələr icra ediləcəkdir. Bu, böyük bir layihədir. Ölkə daxilində, bütün bölgələrdə evlərin tikintisi böyük zəhmət tələb edən məsələdir. 3 mindən artıq ev təbii fəlakət nəticəsində uçub-dağılıb, yaxud da ki, yararsız, qəza vəziyyətinə düşüb. İnsanlar evsiz-eşiksiz qalmışdılar. Onlara kompensasiya ödənildi, müvəqqəti yaşamaq üçün şəraitlə təmin edildilər. Bütün bu işlər – xilasetmə və tikinti işləri qısa müddət ərzində görüldü. May ayında keçirdiyim müşavirədə qarşıya qoyulan bütün vəzifələr icra edildi. İnsanlar xilas edildi, itki baş vermədi, müvəqqəti yaşamaq üçün şərait yaradıldı, ərzaq, tibbi xidmət, təhsil məsələləri həllini tapdı. Bəzi insanlar məktəblərdə məskunlaşdırıldı, müvəqqəti olaraq çadır şəhərcikləri yaradıldı. Ondan sonra tikinti-bərpa işləri başlandı ki, bunun nəticəsini biz artıq görürük. Bir müddət əvvəl mən yeni evlərin tikintisinin başa çatması ilə əlaqədar Hacıqabulda oldum. Bu gün Salyan, Sabirabad, Saatlı, İmişli rayonlarında belə mərasimlər keçirilir. Çox şadam ki, biz buna nail ola bildik. Azərbaycan dövləti həmişə olduğu kimi, öz vətəndaşlarına qayğı və diqqət göstərdi, onları ağır günlərdə tək qoymadı.

Bu gün bu gözəl evlərdə yaşamaq üçün bütün şərait vardır. Mən əminəm ki, burada insanlar xoşbəxt yaşayacaqlar. Bu

məktəbdə oxuyan uşaqlar gələcəkdə Vətən üçün böyük işlər görəcəklər, dəyərli vətəndaşlar olacaqlar, Azərbaycanımızı irəliyə aparacaqlar. Bu gün dövlətimiz böyük işlər görməyə qadirdir. Təbii fəlakət bunu göstərdi. Kaş ki, olmayaydı. İnsanlar bu qədər əziyyət çəkdilər, evlərini, mülklərini itirdilər. Bu bizim hamımız üçün bir sınaq idi. Dövlət üçün də, dövlət qurumları üçün də, insanlar üçün də. Hamımız bu sınaqdan şərəflə çıxdıq. İnsanlar əyilmədilər, özlərini çox ləyaqətlə apardılar, çətin vəziyyətə dözdülər, öz vətəndaşlıq borcunu yerinə yetirdilər.

Azərbaycan xalqı, Azərbaycan dövləti bu sınaqdan necə çıxıb?! Özü də tək, heç bir yerdən yardım almadan. Düzdür, bizə müraciətlər, yardım göstərmək istəyənlər olmuşdu. Biz təşəkkürümüzü bildirdik və qeyd etdik ki, bütün bu işləri özümüz öz gücümüzlə görə bilərik. Belə də oldu. Sizi bu gözəl gün münasibətilə təbrik edirəm. Bu gün tarixdə qalacaqdır. Bu, güclənən Azərbaycanın qələbə, zəfər günüdür. Azərbaycanda bütün insanlar rahat, firavan yaşamalıdırlar. İş yerləri olmalıdır, maddi imkanlar genişlənməlidir. Bütün infrastruktur dünya səviyyəsində olmalıdır.

**S a h ə t Ə m i r a s l a n o v** *(kənd sakini):* Qəsəbəmizin sakinləri ilə bərabər, rayonumuzun bütün əhalisi sevinc içərisindədir. Biz bu gün ulu öndərin layiqli davamçısı, xalqımızın güvənc yeri olan əziz Prezidentimizi qarşılayırıq.

Cənab Prezident, təbiət bu il bizi ağır sınağa çəkdi. Kür və Araz çaylarının daşması, Sarısu gölü bəndinin dağılması nəticəsində bir sıra yaşayış məntəqələri, o cümlədən mənim yaşadığım Novruzlu kəndi də su altında qaldı. Belə ağır anlarda Siz bizə dayaq durdunuz, bizim qayğılarımızla yaşadınız. Rayonun inkişafı ilə bağlı son iki ildə imzaladığınız üç sərəncam əhalimizə əvəzsiz töhfədir.

Bu gün Sizin qayğınız nəticəsində Mərkəzi Rayon Xəstəxanası əsaslı təmir olunur, Saatlı–Musalı–Məzrəli avtomobil yolu yenidən qurulur, rayon bütünlüklə abadlaşır, əhalinin həyat səviyyəsi gündən-günə yaxşılaşır.

Əziz Prezident, təbii fəlakətlə üzləşmiş insanlara göstərdiyiniz bu yüksək qayğıya görə Sizə minnətdarlığımızı bildirir, ulu

Tanrıdan cansağlığı, uzun ömür arzulayırıq. Diqqətinizə görə sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Doğrudan da Saatlı rayonunun inkişafı üçün tədbirlər görülür. Rayonda işlər yaxşı gedir. Mən də Saatlıda gedən işləri həmişə diqqət mərkəzində saxlayıram. Rayon Mərkəzi Xəstəxanasının təmiri, yolun salınması bu rayonun inkişafına çox böyük təkan verəcəkdir. Çünki həm sosial məsələlərin həlli, həm insanların rahatlığı üçün yaradılan müasir infrastruktur iqtisadi imkanlarımızı gücləndirir və insanlar üçün yeni şərait yaradır. Mənə məlumat verilmişdi ki, yeni yol çəkiləndən sonra o kəndlərdə yaşayan insanlarla rayon mərkəzi arasında birbaşa rahat əlaqə təşkil olunacaqdır. Burada minlərlə vətəndaş yaşayır. Yol isə çox bərbad vəziyyətdədir. Prezidentin ehtiyat fondundan əlavə vəsait ayrıldı. Çünki bu vəsait dövlət büdcəsində nəzərdə tutulmurdu. Düzdür, il artıq başa çatır və gələn ilin dövlət büdcəsi artıq hazırdır. Biz gözləyə bilərdik, deyə bilərdik ki, iki aydan sonra yeni il başlayır, onda vəsait ayırarıq. Amma niyə gözləməliyik? Əgər bu gün, bu aylarda bunu edə biləriksə, nə üçün vaxt itirməliyik? Biz insanlar üçün nə lazımdırsa etməliyik. Hər rayonda güclü infrastruktur, sosial obyektlər, məktəblər, xəstəxanalar tikilir, yollar salınır. Azərbaycanın bugünkü reallıqları bundan ibarətdir. Mən də prezident kimi, çalışıram ki, işlər hər yerdə sürətlə getsin, hər yerdə tərəqqi, inkişaf olsun, insanlar daha da yaxşı yaşasınlar. Bu mənim vəzifə borcumdur, həm prezident, həm də vətəndaş kimi.

Bu il dünyanın müxtəlif yerlərində, demək olar ki, bütün qitələrdə təbii fəlakətlər – yanğınlar, daşqınlar, sellər, zəlzələlər baş verib. Nə qədər insan həlak olub. Biz bir dənə də itki vermədik. Nə üçün? Çünki bütün işləri vaxtında gördük. Biz bütün bu işləri öz gücümüzlə etdik. Heç bir yerdən yardım almadan. Azərbaycan dövlətinin imkanları vardır, iradə və siyasət vardır. Çünki siyasət sadəcə olaraq, haradasa çıxış etmək, nə isə vəd vermək, danışmaqdan ibarət deyildir. Siyasət konkret işlərdən ibarətdir. Bax, bu məktəb, bu ev, yol – budur siyasət. Mən siyasəti belə başa düşürəm.

O ki qaldı xarici siyasətə, orada diplomatik səylər göstərilir, Azərbaycanın mövqeyi möhkəmləndirilir. Azərbaycan bölgədə və dünyada öz mövqelərini möhkəmləndirə bilmişdir. Xarici siyasətdə uğurlarımızı təmin edən nədir? Daxildə gedən iş. Əgər daxildə işlər yaxşı səviyyədə qurulmayıbsa, istənilən ölkənin xarici siyasəti uğurlu ola bilməz. Daxildə möhkəm təməl üzərində qurulan iqtisadiyyat, sosial rifah, inkişaf, sabitlik, xalqla iqtidar arasında birlik – budur bizim ölkə kimi beynəlxalq mövqelərimizi gücləndirən amillər. O ki qaldı daxili işlərə, mən çalışıram və çalışacağam ki, Azərbaycan xalqı yaxşı yaşasın. Bütün məsələlər öz həllini tapsın. Sosial, iqtisadi, mədəni – bütün sahələrdə gözəl işlər görülsün. Biz bu gözəl işləri gözəlləşən şəhərlərimizin gözəlləşən simasında görürük. O cümlədən Saatlı rayonunda bu işlər yüksək səviyyədə aparılır.

Belə qəsəbələr bu gün Azərbaycanın müxtəlif rayonlarında salınır. Bəzi rayonlarda ayrı-ayrı evlər, bəzi rayonlarda buradakı kimi qəsəbələr tikilir. Bu gün səhərdən artıq üçüncü rayondur ki, oluram. Bundan sonra İmişliyə gedəcəyəm. Mən istəyirəm ki, bütün işləri öz gözlərimlə görüm və bu gözəl gündə sizinlə bir yerdə olum.

Bu gün tarixi gündür, gənc, müstəqil Azərbaycanın qələbəsi günüdür. Çünki biz bu böyük təbii fəlakətə baxmayaraq, gücümüzü göstərdik. Azərbaycan xalqı tam şəkildə səfərbər olunmuşdu. Bütün bölgələrdən yardımlar gəlirdi. Həm dövlət məmurları, həm vətəndaşlar, həm müvafiq qurumların nümayəndələri gecə-gündüz yorulmadan işləyirdilər. Bu gün bu gözəl inkişafı, bu gözəl evləri görəndə ürəyim sevinir. Mən sizi bir daha təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

## İMİŞLİ RAYONUNDA YENİ TİKİLMİŞ EVLƏRİN AÇILIŞI MƏRASİMİ

*1 noyabr 2010-cu il*

*Bu ilin aprel–may aylarında Kür və Araz çaylarının daşması İmişli rayonunun bir sıra kəndlərində evləri uçurmuşdur. Zərər çəkmiş vətəndaşlar üçün qısa müddətdə təzə evlər tikilmişdir.*

*Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İmişli rayonunun Allahmədətli kəndində yeni evlərin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə evlərdə yaradılmış şəraitlə tanış oldu.*

*Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov məlumat verdi ki, Allahmədətli kəndində 104 ev inşa edilmişdir. Onlardan 28-i ikiotaqlı, 58-i üçotaqlı, 18-i isə dördotaqlıdır. Evlərdə hər bir ailənin normal yaşayışı üçün yaxşı şərait yaradılmışdır. Daşqın nəticəsində İmişlinin Allahmədətli, Telişli və Hacımustafalı kəndlərində yararsız hala düşmüş evlərin sahibləri yeni tikilmiş evlərdə yaşayacaqlar. Fövqəladə Hallar Nazirliyinin xətti ilə yaradılan yeni kənddə 104 ailə, ümumilikdə 629 nəfər məskunlaşacaqdır. Kəndin ümumi ərazisi 40 hektardır. Hər bir ailəyə 12 sot həyətyanı torpaq sahəsi ayrılmışdır. Kənddə yeni məktəb binası, Mədəniyyət evi inşa olunmuş, modul tipli sutəmizləyici qurğu quraşdırılmış, abadlıq işləri aparılmışdır.*

*Dövlətimizin başçısı sakinləri təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Xoş gördük! Bu gözəl qəsəbənin salınması ilə əlaqədar sizi ürəkdən təbrik edirəm. Gözəl şərait vardır. Geniş, rahat, böyük daş evlərdir, gözəl park salınıb. Mən çox şadam ki, bütün işlər belə yüksək səviyyədə görülüb və burada yaşamaq üçün bütün şərait vardır. Hər halda, əvvəlki şəraitdən qat-qat üstündür. Əvvəlki evlər çiy kərpicdən tikilmişdi, kiçik idi, şərait o qədər də yaxşı deyildi. Amma indiki dördotaqlı ev 137, üçotaqlı ev 75, ikiotaqlı ev isə 70 kvadratmetrdir. Tibb məntəqəsi, məktəb vardır. Mən çox şadam ki, qısa müddət ərzində belə gözəl qəsəbələr salınıbdır. Təkcə İmişli rayonunda deyil, təbii fəlakətdən əziyyət çəkmiş bütün bölgələrdə belə gözəl

qəsəbələr salınır, evlər tikilir. 70 min hektar torpaq su altında qalmışdı. Böyük fəlakət idi, 3500 ev dağılmışdı, yaxud da ki, qəzalı vəziyyətə düşmüşdü, 70-dən yuxarı sosial obyekt uçmuşdur. İndi onların hamısı bərpa olunur. Artıq 1500 ev tikilibdir, 800 evin inşası davam edir. Əgər lazım olarsa, əlavə evlər də tikiləcəkdir.

27 məktəb binasında təmir işləri gedir. Bir çoxunda işlər artıq başa çatıbdır. Bax, bu gözəl məktəb artıq hazırdır. 15 məscid, 12 xəstəxana, tibb məntəqəsi, 6 uşaq bağçası təmir olunur. Yəni bu, böyük bir layihədir. Biz bütün bu işləri qısa müddət ərzində görmüşük, cəmi 4-5 ay ərzində, bəlkə də ondan da az müddətdə. Evlərin də hamısı gözəl, yaraşıqlı, keyfiyyətli. Memarlıq və şəhərsalma qaydalarına uyğun qəsəbə salınıb, yollar, həyətyanı sahələr abadlaşdırılıbdır. Burada ancaq gözəl yaşamaq, işləmək, dincəlmək lazımdır. Təbrik edirəm bir daha, cansağlığı arzulayıram.

**Q ə l ə n d a r Q a r a y e v** *(kənd sakini):* Bizim camaatın ürəyi böyük sevinc hissi ilə döyünür. Çünki bu cür gözəl, firavan həyata başlayırıq. Bu firavan həyatı bizə Siz bəxş etdiniz. Ona görə mən Allahmədətli kəndinin camaatı adından Sizi salamlayıram və bu təzə evlərimizə «Xoş gəlmisiniz!» – deyirəm.

Bu ilin yazı bir az yaxşı gəlmədi, sel, su hər tərəfi basdı. Bizi həyat sınağa çəkdi. Amma biz bu sınaqdan üzüağ çıxdıq.

Cənab Prezident, Siz özünüz fəlakət bölgəsinə gəldiniz, adamları xilas etmək üçün bütün Azərbaycanı ayağa qaldırdınız. Onun nəticəsi idi ki, bir nəfərimizin belə, burnu qanamadı. Buna görə ömrümüz boyu Sizə borcluyuq. Təbii fəlakətin təsirini azaltmaq üçün İmişli rayonunda Arazın bir qolunun açılması barədə göstəriş verdiniz. Çox adam fikirləşirdi ki, bunu etmək mümkün olmayacaqdır. Ancaq bu iş qısa bir müddətdə görüldü. Həmin vaxt Azərbaycanın hər yerindən köməyə gəlmişdilər, böyük sayda texnika, canlı qüvvə işləyirdi. Allah Sizə yar olsun. Cənab Prezident, Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bu, əslində nümunəvi bir qəsəbədir. Bəlkə də Azərbaycanın bölgələrində belə gözəl

qəsəbəyə nadir hallarda rast gəlmək olar. Əlbəttə, tarixi, gözəl kəndlərimiz, yaşayış yerlərimiz kifayət qədər çoxdur. Amma bu qəsəbə müasir üslubda plan üzrə tikilib, bütün evlər gözəldir, rahatdır, genişdir, yaxşı şərait vardır. Bu bir də onu göstərir ki, istənilən fəlakətin qarşısında Azərbaycan xalqı öz birliyini nümayiş etdirə bilər. O çətin anlar, günlər, aylar fəlakət bizi sarsıda bilmədi, bütün xalq səfərbər olunmuşdu, lazımi səviyyədə yardımlar göstərilmişdi. Xilasedicilər, yerli icra orqanları, vətəndaşlar gecə-gündüz çalışdılar ki, biz bu vəziyyətdən çıxa bilək və çıxdıq da. Bu gün, bir neçə ay keçəndən sonra artıq biz belə gözəl qəsəbələr görürük.

Bu onu göstərir ki, Azərbaycan güclü dövlətdir. Bu onu göstərir ki, Azərbaycanda xalq və iqtidar bir yerdədir. Bu onu göstərir ki, Azərbaycanda güclü sosial siyasət aparılır. Bir daha onu göstərir ki, geniş maliyyə və texniki imkanlarımız vardır. Bir neçə ay ərzində belə qəsəbələri salmaq asan məsələ deyildir. Təkcə İmişlidə deyil, selə, daşqına məruz qalmış bütün bölgələrdə bu işlər görülür və gələcəkdə də görüləcəkdir. Bununla bərabər, siz qeyd etdiyiniz kimi, başqa işlər də görülür. Deyirsiniz ki, tikiləcək o yeni yol 40 min əhaliyə xidmət göstərəcəkdir. Xəstəxana, sosial infrastruktur, məktəblər, mədəniyyət mərkəzləri – bütün bunlar Azərbaycanı gücləndirir, hər bir bölgədə yaşamaq üçün yaxşı şərait yaradır.

Mənim də məqsədim bundan ibarətdir ki, Azərbaycan vətəndaşı rifah içində yaşasın. İşsizlik, yoxsulluq olmasın. Sülh, əmin-amanlıq olsun. İnsanlar rahat, təhlükəsizlik şəraitində yaşasınlar.

Azərbaycanda son illər ərzində görülən işlər öz əksini bu qəsəbədə tapır. Sizi bir daha təbrik edirəm və cansağlığı arzulayıram.

*Sakinlər dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirdilər.*

*Prezident İlham Əliyev Allahmədətli kəndinin baş planı ilə tanış oldu.*

*Məlumat verildi ki, İmişlidə daşqınlar zamanı 14 min 770 hektar ərazini su basmış, 528 ev qəzalı vəziyyətə düşmüş və ya dağılmışdı. İndi onların əvəzinə 500 yeni ev tikilmişdir. Digərlərinin inşası davam edir.*

*Diqqətə çatdırıldı ki, Zərdabda da 51 ailəlik qəsəbə salınmışdır. Qəsəbədə 34 ikiotaqlı, 16 üçotaqlı və 1 dördotaqlı ev inşa olunmuşdur. Evlərin hamısı lazımi infrastrukturla təmin edilmişdir. Zərdabda 1664 tikiliyə ziyan dəymiş, onlardan 1525-i ev, 1-i təhsil, 1-i məktəbəqədər uşaq müəssisəsi, 8-i məsciddir. Kürdəmirdə də daşqınlar 266 tikiliyə ziyan vurmuşdur.*

*Prezident İlham Əliyev yeni məktəb binası ilə tanış oldu. Məktəbin foyesindəki fotoguşədə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin təhsilə diqqət və qayğısı əksini tapmışdır. Məktəb lazımi avadanlıq və tədris vəsaitləri ilə təchiz edilmişdir. Kompyuter otağında 8 müasir kompyuter quraşdırılmışdır. Yaxın gələcəkdə onlar sürətli internet xəttinə qoşulacaqdır. Məktəbin kitabxanasında 1400 nüsxə ədəbiyyat vardır. Bu kitablar prezident İlham Əliyevin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» Sərəncamına uyğun olaraq məktəbin kitabxanasına dövlət tərəfindən hədiyyə edilmişdir. Şagirdlərin idmanla məşğul olmaları üçün meydança da inşa olunmuşdur.*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM DİLMA ROUSSEFƏ**

Hörmətli xanım Rousseff!

Braziliya Federativ Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Braziliya dövlətlərarası münasibətləri, genişlənməkdə olan dostluq əlaqələrimiz, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Braziliya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2010-cu il*

## TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ VECDİ GÖNÜLÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Vecdi Gönülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bütün sahələrdə, o cümlədən müdafiə sahəsində uğurla inkişaf etdiyini vurğuladı. Türkiyənin Milli Müdafiə naziri Vecdi Gönülün rəhbərliyi ilə böyük nümayəndə heyətinin ölkəmizə səfərinə toxunan prezident İlham Əliyev səfər zamanı bu sahədə əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı ətraflı fikir mübadiləsi aparılacağına ümidvar olduğunu dedi. Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında müdafiə sahəsində əməkdaşlığın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.*

*Vecdi Gönül Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Türkiyə ilə Azərbaycan arasında müdafiə sahəsində əməkdaşlığın daim dərinləşdiyini vurğulayaraq bu sahədə əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Rusiyanın görkəmli dövlət və ictimai-siyasi xadimi Viktor Stepanoviç Çernomırdinin vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Sizə, Viktor Stepanoviç Çernomırdinin doğmalarına və yaxınlarına mənim ən səmimi başsağlığımı qəbul edin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 noyabr 2010-cu il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Ras əl-Xeyma Əmirliyinin Hakimi Şeyx Saqr bin Məhəmməd əl-Qasiminin vəfatı xəbərindən son dərəcə kədərləndim.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 noyabr 2010-cu il*

## YENİ BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*Ələt*

*3 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Ələt qəsəbəsinin ərazisində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Əvvəlcə kompleksin layihəsinin təqdimatı oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verərək bildirdi ki, 2007-ci ilin oktyabrında imzaladığınız Sərəncamın icrasını təmin etmək məqsədilə Azərbaycan hökuməti tərəfindən lazımi tədbirlər həyata keçirilmişdir.*

*Sonra yeni liman kompleksinin ümumi mənzərəsini əks etdirən videomaterial nümayiş olundu.*

*Yeni liman Bakının Qaradağ rayonunun Ələt qəsəbəsinin ərazisində inşa ediləcəkdir. Liman kompleksinin ərazisi 400 hektar nəzərdə tutulur. Tikinti işləri üç mərhələdə aparılacaqdır. Birinci mərhələ 3 il 6 ay ərzində reallaşdırılacaqdır. İlkin mərhələdən sonra liman kompleksində ildə 10 milyon tona qədər yük və TEU standartlarında 40 min konteyner işləniləcəkdir. İkinci mərhələdə bu rəqəmlər müvafiq surətdə 17 milyon tona və 150 min konteynerə çatdırılacaqdır. Üçüncü mərhələdə isə limanın yükaşırımı gücü ildə 25 milyon tona və 1 milyon konteynerə bərabər olacaqdır.*

*Layihə çərçivəsində avtomobil və dəmir yolları, giriş kanalı, körpülər, bərə terminalı, quru yük terminalı, konteyner sahəsi və sair inşa olunacaqdır.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Əziz dostlar, bu gün tarixi bir gündür. Bakıda, Ələt qəsəbəsində yeni Beynəlxalq Dəniz Ticarət Limanının təməl daşını qoyuruq. Bu gözəl hadisə münasibətilə hamınızı ürəkdən təbrik edirəm. Əminəm ki, yaxın zamanlarda burada, bu boş ərazidə möhtəşəm, müasir, ən yüksək standartlara cavab verən ticarət limanı yaradılacaqdır.

Ticarət limanının yaradılması ilə bağlı işlər gedir. Layihələndirmə işləri görülmüş, yerin seçilməsi ilə bağlı tədqiqatlar aparılmışdır. Bütün bu işlər təqdimatda çox əyani şəkildə göstərilib. Bu yerin seçilməsi də təsadüfi xarakter daşımır. Həm dənizin bu hissəsindəki məqbul şərait, eyni zamanda, ərazinin bütün magistral avtomobil yolları ilə bağlı olması, əlbəttə ki, bu yerin seçilməsində xüsusi rol oynamışdır. Bakının bu bölgəsindən şimal, cənub və qərb istiqamətlərinə çox rahatlıqla avtomobil bağlantısı vardır və dəmir yolunun mövcudluğu bu yerin seçilməsində mühüm rol oynamışdır.

Əminəm ki, yaxın zamanlarda nəzərdə tutduğumuz vaxtda Xəzər dənizində böyük, əzəmətli və çox funksional yeni liman tikiləcəkdir. Buna böyük ehtiyac vardır. Hazırkı Bakı Dəniz Ticarət Limanı tələblərimizə cavab vermir. Bu liman şəhərin mərkəzində yerləşir və əlbəttə ki, sakinlər üçün problemlər yaradır. Nəzərə alsaq ki, hazırda Bakının bulvar hissəsinin genişləndirilməsi və uzadılması layihəsi işlənilir, limanın bu əraziyə köçürülməsi şəhər sakinlərinin gəzinti və istirahəti üçün yeni imkanların yaradılmasına gətirib çıxaracaqdır.

Digər tərəfdən, bugünkü Bakı Dəniz Ticarət Limanı keçən əsrin 30-cu illərində tikilmişdir və sonralar müəyyən mərhələlərdə rekonstruksiya işləri aparılmışdır. Ancaq hazırda

Azərbaycanın nə indiki, nə də ki, gələcək inkişafının tələblərinə uyğun deyildir. Ona görə limanın bu ərazidə yaradılmasının əsas məqsədi Azərbaycanda nəqliyyatın təhlükəsizlik məsələlərini uğurla həll etmək, Bakını Xəzər hövzəsində çox müasir və böyük logistika, nəqliyyat mərkəzinə çevirmək, Xəzəryanı ölkələr arasındakı əməkdaşlığı dərinləşdirmək və nəticədə Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin tam gücü ilə işləməsinə şərait yaratmaqdır.

Digər tərəfdən, Azərbaycanda son illər bütün işlər dünya standartları səviyyəsində görülür. Biz bütün böyük investisiya layihələrinə çox ciddi yanaşırıq, böyük təhlillər aparılır, xarici mütəxəssislər cəlb olunur. Bu limanın layihələndirilməsində dünyanın tanınmış xarici şirkəti fəal iştirak etmişdir. Azərbaycanda yaradılan bütün infrastruktur dünya standartlarına cavab verməlidir və uzunmüddətli əhəmiyyət daşımalıdır. Tikiləcək dəniz limanı onilliklər bundan sonra da Azərbaycana xidmət göstərəcək və beləliklə, iqtisadi gücümüzü artıracaqdır.

Mən çox şadam ki, dəniz ticarət limanının fəaliyyətə başlaması nəticəsində birinci mərhələdə 1400, üçüncü mərhələdə 3 min Azərbaycan vətəndaşı işlə təmin olunacaqdır. Bu özlüyündə böyük sosial məsələlərin həllinə gətirib çıxaracaqdır. Xüsusilə Ələt qəsəbəsində yaşayan vətəndaşlar burada işləyəcəklər, öz xidmətlərini göstərəcəklər. Bir sözlə, Bakının bu ucqar hissəsi inkişaf edəcək, burada sürətli canlanma prosesi başlanacaqdır.

Azərbaycanın coğrafi vəziyyəti belədir ki, biz bütün yolların kəsişməsində yerləşirik. Bu bizim üstünlüyümüzdür.

Lakin əlverişli coğrafi vəziyyət hələ o demək deyil ki, bu və ya digər şəhər, yaxud da ölkə regional mərkəzə çevrilə bilər. Məhz infrastruktur layihələri, xüsusilə son illər ərzində nəqliyyat sektoruna qoyulan vəsait və aparılan işlər Bakını artıq nəqliyyat baxımından regional mərkəzə çeviribdir. Yeni limanın işə düşməsi nəticəsində, əlbəttə ki, bu məsələlərdə rolumuz daha da artacaqdır. Nəzərə almalıyıq ki, tikiləcək liman dünya miqyasında mövcud olan ən böyük limanların sırasında

özünəməxsus yer alacaq və beləliklə, Azərbaycan beynəlxalq aləmdə bu sahədə də özünü bir daha göstərəcəkdir.

Biz gələcəkdə Xəzər dənizində əməkdaşlığın dərinləşməsi və iqtisadi islahatların aparılması nəticəsində daha da fəal əməkdaşlıq gözləyirik. Xəzəryanı ölkələrdə iqtisadi inkişaf sürətlə gedir. Bu ölkələr, yəni qonşularımızla Azərbaycan arasında çox səmərəli dostluq münasibətləri mövcuddur. Bu ay Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşü keçiriləcəkdir. Ümid edirəm ki, zirvə görüşünün nəticələri uğurlu olacaq və bütün ölkələr arasında əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcəkdir. Bu ölkələrin çox güclü iqtisadi və sənaye potensialı vardır. Xəzəryanı ölkələrdə təbii ehtiyatlar mövcuddur və enerji təhlükəsizliyi baxımından bu ölkələr dünya miqyasında əvəzolunmaz rol oynayır. Biz çalışırıq ki, enerji resurslarının işlənilməsi sahəsində əməkdaşlığımız daha da dərinləşsin.

Nəqliyyat infrastrukturu olmadan bu layihələrin həyata keçirilməsi mümkün deyildir, məhz ona görə biz öz coğrafi vəziyyətimizdən çox səmərəli istifadə etməliyik və edirik. Azərbaycanda güclü nəqliyyat infrastrukturu yaradılır. Bu gün artıq ölkəmizi üç qonşu dövlətlə bağlayan müasir avtomobil yolları tikilir, şimal və qərb istiqamətində bu işlər, demək olar ki, tamamlanır. Bu magistral avtomobil yolları yaxın zamanlarda tam şəkildə istismara veriləcəkdir. Cənub istiqamətində işlər gedir və ümid edirəm ki, 2 il ərzində cənub avtomobil yolu da yüksək standartlara uyğun olmaq şərti ilə istismara veriləcəkdir.

Azərbaycanda dəmiryol nəqliyyatına böyük investisiyalar qoyulacaqdır, xüsusi proqram qəbul edilib. Bu günə qədər işlər yüksək səviyyədə aparılır, ancaq əsas işlər növbəti illərdə görüləcəkdir. Hava nəqliyyatına böyük investisiyalar qoyulubdur. Azərbaycanda 4 beynəlxalq aeroport fəaliyyət göstərir və bu aeroportların tikintisi son illər ərzində sürətlə getmişdir.

Azərbaycanda dəniz nəqliyyatı böyük tarixə və ənənələrə malikdir. Xəzər hövzəsində Azərbaycan dənizçiləri xüsusi fəaliyyətə malikdirlər və son illər ərzində tankerlər, quru yük gəmiləri alınmışdır. Beləliklə, Xəzərdə rolumuz artmaqdadır. Bütün nəqliyyat infrastrukturunun genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində çox fəal və böyük işlər görülmüşdür.

Bu məqsədlər üçün böyük investisiyalar qoyulmuşdur. Deyə bilərəm ki, investisiyaların böyük hissəsini Azərbaycan dövlətinin vəsaiti təşkil etmişdir. Biz beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq edirik.

Azərbaycanın ümumi iqtisadi inkişafı və maliyyə ehtiyatları bizə imkan verir ki, xarici maliyyə qurumlarından istənilən məbləğdə maliyyə resurslarını ölkəmizə gətirək. Beləliklə, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığımız daha da dərinləşir.

Hesab edirəm ki, biz hazırda bölgə və Avropa qitəsi üçün çox vacib olan dəmiryol layihəsi üzərində fəal işləyirik. Bakı–Tbilisi–Qars dəmir yolu tikilir. Bu layihə bildiyiniz kimi, uzun illər ərzində müzakirə mövzusu idi. Fəqət, ciddi praktiki addımlar atılmamışdı. Ancaq son illərdə üç ölkənin birgə səyləri nəticəsində bu layihənin həyata keçirilməsi üçün praktiki addımlar atılmışdır, Azərbaycan öz tərəfindən maliyyə resurslarını cəlb etmişdir. Bu gün Bakı–Tbilisi–Qars dəmir yolu uğurla tikilir. Əminəm ki, vaxtilə bu layihədən kənarda qalan ölkələr o, həyata keçiriləndən sonra onun imkanlarından bəhrələnəcəklər.

Ən başlıcası, bu layihə Azərbaycanın nəqliyyat imkanlarını xeyli dərəcədə artıracaq, regional nəqliyyat mərkəzi kimi, rolumuzu daha da gücləndirəcək, Avropanı Asiya ilə etibarlı və keyfiyyətli dəmir yolu ilə birləşdirəcəkdir. Yəni, bütün bu amillər bizə diktə edirdi ki, mütləq Azərbaycanda yeni, müasir dəniz ticarət limanı tikilməlidir. Görülən bu işlərin cədvəli və sürət templəri bir-biri ilə bağlıdır. Ümid edirəm ki, bu layihələr nəzərdə tutduğumuz vaxtda icra ediləcəkdir. Beləliklə, bölgədə

nəqliyyat sahəsində tamamilə yeni vəziyyət yaranacaqdır. Bu vəziyyəti biz yaradırıq, praktiki addımlarımızla, düşünülmüş siyasətimizlə. Azərbaycanın artan iqtisadi imkanları bu reallıqları təşkil edir. Əgər maliyyə imkanlarımız olmasaydı, biz bu böyük layihələri heç vaxt icra edə bilməzdik. Bakı–Tbilisi–Qars dəmir yolu Azərbaycan tərəfindən böyük maliyyə dəstəyi almaqla icra edilir.

Bu möhtəşəm dəniz limanının tikintisinə 100 milyonlarla manat vəsait xərclənəcəkdir. Təqdimatda göstərildi ki, bu proses üç mərhələdən ibarət olacaqdır. Birinci mərhələnin başa çatması ilə bağlı bütün məsələlər nəzərə alınıb. Gələn ilin investisiya proqramında bunun üçün kifayət qədər vəsait nəzərdə tutulub. Bizim texniki imkanlarımız var və əminəm ki, bu işləri vaxtında görəcəyik. Beləliklə, bu liman 2014-cü ilə qədər fəaliyyətə başlayacaqdır. Birinci mərhələdə, təqdimatda göstərildiyi kimi, bu limandan 10 milyon ton əlavə yük keçəcəkdir. Gələcəkdə ehtiyac olarsa, limanın yükaşırma qabiliyyəti ən azı iki dəfə və bundan da çox arta bilər.

Mən hesab edirəm ki, Azərbaycanın uğurlu iqtisadi inkişafı, artan imkanlarımız və qonşu ölkələrdə nəzərdə tutulan layihələr bizə imkan verəcək ki, limanın tikintisində sadəcə olaraq, birinci mərhələ ilə fəaliyyətimizi məhdudlaşdırmayaq. İkinci, üçüncü mərhələlər də olacaqdır. Ancaq, əlbəttə ki, bunu təmin etmək üçün yüklərin həcmi daha da artmalıdır.

Xəzər dostluq, əməkdaşlıq dənizidir. Biz Xəzərdə fəaliyyətimizi bu nöqteyi-nəzərdən gerçəkləşdiririk. Əminəm ki, Xəzəryanı ölkələrin uğurlu inkişafı eyni zamanda, bu bölgədə əməkdaşlığın dərinləşməsinə xidmət edəcəkdir.

Bu gün doğrudan da çox əlamətdar bir gündür. Çünki biz bu gün çox böyük əhəmiyyətə malik olan layihənin başlanmasını qeyd edirik. Bu limanın əhəmiyyəti təkcə bir ölkənin maraqları ilə ölçülmür, əminəm ki, iqtisadi inkişafa böyük təkan verəcək, imkanlarımızı, Azərbaycanın etibarlı tərəfdaş kimi rolunu daha da artıracaq və onilliklər bundan sonra da xalqımıza xidmət edəcəkdir.

Biz vaxtilə enerji dəhlizinin açılması nəticəsində bölgədə əməkdaşlığın yeni mərhələsinə qədəm qoyduq. Bu gün Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən nəhəng enerji layihələri təkcə bizim üçün gəlir mənbəyi deyildir. Bu, regional əməkdaşlıq baxımından da çox böyük əhəmiyyət kəsb edir. Bu, yeni yolların, yeni xətlərin açılmasına gətirib çıxarıbdır və bir layihənin ardınca digər layihələr də həyata keçirilməyə başlanmışdır. Enerji dəhlizi açılandan sonra dərhal onun ardınca nəqliyyat dəhlizi də açılır. Beləliklə, Azərbaycanın həm enerji, həm nəqliyyat təhlükəsizliyi tam şəkildə təmin olunacaqdır.

Ümid edirəm ki, nəzərdə tutduğumuz bütün vəzifələr vaxtında və böyük keyfiyyətlə icra ediləcəkdir. Biz bu layihəyə çox böyük diqqətlə, həssaslıqla yanaşmışıq. Bu gün Azərbaycanın tikinti sektorunda ölkə əhəmiyyətli böyük layihələrə ən müasir yanaşma tətbiq olunur. Tələsmədən, hər şey dəqiq ölçülüb-biçilir, tədqiqatlar aparılır, dünyanın aparıcı xarici mütəxəssisləri bu işlərə cəlb olunur və bütün işlər əsaslı görülür. Biz dünyada mövcud təcrübəni bilirik və öyrənirik. Ona görə mən heç şübhə etmirəm ki, burada yaradılacaq liman dünya səviyyəsində olacaq, bu gün fəaliyyət göstərən limanlar arasında öz gözəlliyi və funksional mahiyyəti ilə fərqlənəcəkdir.

Əziz dostlar, bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu, ölkə tarixində çox əhəmiyyətli hadisədir. Bu gün və 2014-cü ildə limanın istismara veriləcəyi gün Azərbaycan tarixinə yazılacaqdır. Biz və gələcək nəsillər bu gözəl işlərin nəticələrini görəcəyik. Azərbaycan daha da güclü dövlətə çevriləcəkdir, bölgədəki mövqelərimiz daha da möhkəmlənəcək, regional əməkdaşlıq daha da sürətlə gedəcək və biz yeni qələbəni əldə edəcəyik. Bir daha sizi təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

* * *

*Layihənin təqdimat mərasimindən sonra prezident İlham Əliyev yeni limanın təməlini qoydu. Dövlətimizin başçısı*

*kapsulu bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunun düyməsini basdı.*

*Sonra prezident İlham Əliyev limanın ərazisi ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Bakını Azərbaycan–İran sərhədi ilə əlaqələndirən avtomagistralın 66-cı kilometrliyində, həmçinin Bakını Gürcüstan və digər istiqamətlərlə əlaqələndirən avtomobil və dəmiryol xətlərinə yaxın ərazidə, Xəzər dənizi sahilində yerləşməsi yeni limanın əhəmiyyətini daha da artırır. Limanın ərazisi sahildən təqribən 4 kilometr məsafədə yerləşən və təbii dalğaqıran rolunu oynayan Gil adası vasitəsilə böyük dalğalardan qorunur.*

*Limanın ərazisi ilə yaxından tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

# BAKI METROPOLİTENİNİN PERSPEKTİV İNKİŞAF PLANININ MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ İCLAS

*4 noyabr 2010-cu il*

*Noyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı Metropoliteninin perspektiv inkişaf planının müzakirəsinə həsr olunmuş iclas keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Ölkəmizin nəqliyyat infrastrukturunun yaradılması və genişləndirilməsi ilə bağlı çox işlər görülür. Son illərdə qoyulan investisiyalar hesabına Azərbaycanın nəqliyyat sektoru sürətlə və uğurla inkişaf etmişdir. Həm Bakıda, həm ölkəmizin müxtəlif bölgələrində yeni müasir nəqliyyat obyektləri tikilir. Dünən Bakıda yeni dəniz ticarət limanının təməl daşı qoyulmuşdur. Liman tikiləndən sonra ölkəmizin nəqliyyat imkanları böyük dərəcədə artacaq, Azərbaycan tranzit imkanlarından daha da böyük səmərə ilə istifadə edəcəkdir. Nəqliyyat sektorunun inkişafı hər bir ölkənin uğurlar qazanması üçün mühüm rol oynayır. Azərbaycanda bu məsələlər həmişə diqqət mərkəzində olmuşdur.

Bugünkü iclas şəhər nəqliyyatının inkişafı ilə bağlı olacaqdır. Xüsusilə bu gün biz Bakı Metropoliteninin inkişaf proqramını müzakirə edəcəyik. Şəhər nəqliyyatının inkişafı üçün son illər ərzində çox böyük işlər görülmüşdür. Bakıda 170 kilometr yeni yollar salınmış və təmir olunmuşdur, 15 yol-ötürücüsü, 30 piyada keçidi tikilmişdir, bəzilərində hələ tikinti davam edir. Bakıda ən müasir standartlara cavab verən Nəqliyyatın

İntellektual İdarə Edilməsi Mərkəzi yaradılır. Mərkəz işə düşəndən sonra əminəm ki, nəqliyyatın tənzimlənməsi prosesi daha da uğurla gedəcəkdir.

Şəhər nəqliyyatının inkişafı və müasir standartlara cavab verməsi üçün ölkəmizə 2300-dən çox sərnişin avtobusu gətirilmişdir. Bu həm insanlara daha yaxşı şərait yaradır, həm də ki, tıxac probleminin həlli üçün çox mühüm bir vasitədir. Əgər biz bir neçə il bundan əvvəl Bakıda yeni körpüləri, yol qovşaqlarını, yolötürücülərini, piyada keçidlərini tikməsəydik, demək olar ki, bu gün Bakıda nəqliyyat tam dayana bilərdi. Çünki şəhərin tarixi mərkəzində yolların o qədər də geniş olmaması problemlər yaradırdı, digər tərəfdən, şəhərə giriş-çıxışlarda dairələr mövcud idi. İndi bu dairələrin, demək olar ki, əksəriyyəti aradan qaldırılıb. O yerlərdə ki, dairələr var idi, bu gün orada ən müasir körpülər, yolötürücüləri tikilmişdir. Bakıdan Heydər Əliyev Beynəlxalq Aeroportuna gedən yol vaxtilə həm çox bərbad vəziyyətdə idi, həm də ki, hər bir dairədə böyük tıxaclar yaranırdı. Pik saatlarda metronun «Əzizbəyov» stansiyasının qarşısındakı dairədə maşınlar yarım saat, qırx, əlli dəqiqə tıxacda dayanırdı. Ondan sonra Sabunçu, daha sonra başqa dairələr gəlirdi. Hər bir dairədə tıxaclar yaranırdı və demək olar ki, şəhər nəqliyyatı iflic vəziyyətinə düşürdü.

Biz bütün lazımi tədbirləri çox vaxtında gördük, çox ciddi maliyyə resursları ayırdıq. Nəqliyyat Nazirliyi bu işləri yüksək peşəkarlıqla, zövqlə icra edir. Körpülərimiz, yolötürücülərimiz təkcə nəqliyyat infrastrukturu deyil, eyni zamanda, şəhər memarlığı nümunələridir. Onlar xarici görünüşü, dizaynı, gözəlliyi və müasirliyi ilə fərqlənir. Bu gün Bakının mərkəzindən aeroporta və başqa istiqamətlərə getmək üçün artıq dairələrdə gözləmək lazım deyildir.

Aeroport yolunu iki dəfə genişləndirdik. İndi artıq bəziləri bu işləri unudur. Bu da təbiidir, insanlar yaxşı şəraitə tez öyrəşirlər. Bizim də vəzifəmiz ondan ibarətdir ki, Azərbaycanda və Bakıda ən yüksək standartları tətbiq edək ki, vətəndaşlarımız ən qabaqcıl texnologiyalar əsasında yaradılmış şəraitdən istifadə

etsinlər. Bu gün aeroport yolu 8 və 12 zolaqlıdır. Digər tərəfdən, yeni aeroport yolu tikilmişdir – Zığ–Heydər Əliyev Beynəlxalq Aeroportu yolu. O altızolaqlı beton yol, ümumiyyətlə, yox idi. Yəni, bütün bu işlər, bir daha demək istəyirəm ki, şəhər nəqliyyatının tənzimlənməsi üçün çox mühüm addımlardır.

Bu gün Bakıda müxtəlif yerlərdə yollar həm təmir olunur, həm də ki, yeniləri tikilir, yeni istiqamətlər açılır. Bakı – Heydər Əliyev Beynəlxalq Aeroportu, Mərdəkan–Bilgəh–Kürdəxanı–Pirşağı–Sumqayıt yolu tikilməkdədir. Bu da yeni arteriyanın, istiqamətin açılması deməkdir. Həm o bölgədə yerləşən kəndlər bir-biri ilə, həm şəhərlə, həm Sumqayıtla daha da rahat əlaqə saxlayacaqlar, həm də oradan gələcəkdə açılacaq dairəvi yola birbaşa çıxış olacaqdır. Dairəvi yol, demək olar ki, hazırdır. Yəqin ki, biz bir neçə gündən sonra dairəvi yolun açılışını da qeyd edəcəyik.

Şəhər nəqliyyatı hər bir böyük, inkişaf edən şəhər üçün prioritet məsələlərdən biridir. Biz bilirik ki, bəzi böyük şəhərlərdə tıxac problemləri artıq çox ciddi fəsadlara gətirib çıxarıbdır. Böyük şəhərlərdə insanlar saatlarla tıxaclarda qalırlar. Bəzi hallarda başqa şəhərə təyyarə ilə uçmaq daha az vaxt tələb edir, nəinki şəhər mərkəzindən aeroporta getmək. Biz də bu problemlərlə nə vaxtsa üzləşə bilərdik, əgər vaxtında çox ciddi addımlar atmasaydıq. Düzdür, bu məsələlərin həlli üçün çox böyük vəsait lazımdır. Deyə bilərəm ki, magistral yollardan, yəni bölgələrə aparan yollardan fərqli olaraq, şəhər yollarının genişləndirilməsi və yeni yolların yaradılması o qədər də ciddi iqtisadi səmərə vermir. Azərbaycanda və xüsusilə Bakıda yolların keyfiyyəti də ildən-ilə artır, ən yeni texnologiyalar tətbiq olunur. Biz bu işlərlə ən xırda məsələlərə qədər ciddi məşğuluq.

Bakı yollarının əsas problemlərindən biri həm keyfiyyətsizlik idi – vaxtilə bu yollar keyfiyyətsiz tikilmişdi, təmirsiz qalmışdı, həm də çox sayda lyukların mövcudluğu problem yaradırdı. Lyuklar elə qoyulmuşdu ki, maşının təkəri oraya bir neçə dəfə düşəndə, demək olar ki, sıradan çıxırdı. Ancaq müasir

texnologiya və avadanlıq gətiriləndən sonra maşın lyukun üstündən keçəndə bəzi küçələrdə heç hiss olunmur. Biz elə etməliyik ki, şəhərimizin əksər küçələrində gözəl texnologiyalar tətbiq olunsun, bu təcrübə vardır. Əlbəttə ki, bu, böyük vəsait tələb edir. Ancaq biz bunu etməliyik. Çünki bu, şəhərimizin inkişafına xidmət edir, insanların daha da rahat hərəkəti üçün şərait yaradır. Hər il dövlət büdcəsindən böyük məbləğdə vəsait ayrılır. Biz bunu gələcəkdə də davam edəcəyik.

Digər tərəfdən, Azərbaycan çox uğurla inkişaf edir, maliyyə resurslarımız böyüyür, iqtisadi imkanlarımız genişlənir. Elə etməliyik ki, Azərbaycan ən inkişaf etmiş ölkələrin sırasına daxil edilsin. Bunun üçün şəhər infrastrukturunun yüksək standartlara cavab verməsi ən vacib şərtlərdən biridir.

Bugünkü iclas Bakı Metropoliteninin inkişaf planının müzakirəsinə həsr olunubdur. Bu məsələlər diqqət mərkəzindədir. Bakı Metropoliteninin çox böyük tarixi vardır. Sovet İttifaqında Bakı birinci şəhərlərdən idi ki, metro stansiyaları açılmışdır. İlk stansiyalar Bakıda 1967-ci ildə istismara verilmişdir. Ondan sonrakı dövrdə bu proses sürətlə getmişdir. Keçən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Bakıda metro stansiyalarının tikintisi çox sürətlə gedirdi. Ancaq Sovet İttifaqı dağılandan sonra, əlbəttə ki, bu proseslər dayandı və uzun illər Bakıda metro tikintisi aparılmadı. Bəzi hallarda əvvəlki dövrdə başlanmış layihələr yavaş-yavaş icra edilirdi. Ancaq əsaslı şəkildə bu məsələ bir qədər diqqətdən kənarda qalmışdı. Bunun da təbii səbəbləri var idi. Çünki müstəqilliyimizin ilk illərində ölkə qarşısında o qədər ciddi problemlər dayanmışdı ki, onların həlli üçün bütün səylərin səfərbər olunması tələb edilirdi. İşsizlik, yoxsulluq, işğaldan əziyyət çəkən soydaşlarımızın məişət problemləri, iqtisadi tənəzzül, sənaye müəssisələrinin dayanması. Yəni iqtisadiyyatın, demək olar ki, iflic vəziyyətə düşməsi problemləri qarşımızda dayanırdı. Ona görə biz məhdud maliyyə resurslarından ən vacib məsələlərin həllində istifadə etməyə çalışırdıq. Təbii ki, metronun inkişafına vəsait çatmırdı. İndi

vəziyyət başqadır. Bir daha demək istəyirəm ki, indi maliyyə imkanlarımız kifayət qədərdir, biz özümüzü çox rahat, əmin hiss edirik. Belə olan halda, nəqliyyatın ən ucuz növü olan metro tikintisinə daha da böyük diqqət göstərilir.

Son illər biz bu işlərin gözəl nəticələrini görürük. 2008-ci ildə metronun «Nəsimi», 2009-cu ildə «Azadlıq prospekti» stansiyaları, «28 May» stansiyasının yeni keçidi istismara verilmişdir. Bu gün bu işlər davam etdirilir, hər il dövlət büdcəsində kifayət qədər vəsait nəzərdə tutulur. İki il bundan əvvəl Bakı Metropoliteninin inkişaf planının hazırlanması üçün mənim tərəfimdən xüsusi sərəncam imzalanmışdır, vəsait ayrılmışdır və bu gün biz o planın ilkin konturlarını müzakirə edəcəyik.

Metro şəhər nəqliyyatının 30 faizini təşkil edir. Bakı metrosunda gediş haqqı həm digər nəqliyyat vasitələrindən, eyni zamanda, bütün MDB məkanında olan ölkələrdən ucuzdur. O ki qaldı Avropa şəhərlərinə, fərq bəlkə 10-15 dəfə səviyyəsindədir. Metro haqlarının aşağı səviyyədə saxlanması ilə bir növ sosial məsələlərin həllinə də öz töhfəmizi vermiş oluruq. Bu gün Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında fəaliyyət göstərir. Nəqliyyat sektorunda xidmət göstərən özəl şirkətlər də gəlirlə işləyirlər. Bu təbiidir, çünki bazar iqtisadiyyatı prinsipləri bunu tələb edir. Demək olar ki, bütün dövlət qurumlarımız, dövlət şirkətlərimiz gəlirlə işləyirlər. Əlbəttə, dövlət lazım olan hallarda büdcədən dövlət şirkətlərinin fəaliyyətinin gücləndirilməsi üçün vəsait ayırır. Ancaq gündəlik fəaliyyətdə enerji sektorunda dövlət şirkətlərimiz, demək olar ki, bazar iqtisadiyyatı prinsipləri əsasında işləyirlər.

Nəqliyyat sektorunda da – misal üçün, hava nəqliyyatı – dövlət tərəfindən vəsait ayrılır, təyyarələr alınır, yeni aeroportlar tikilir, lazım olan hallarda birdəfəlik qaydada subsidiyalar verilir. Amma bütövlükdə hava nəqliyyatı gəlirlə işləyən bir sahədir. Dəniz nəqliyyatı da həmçinin. Bizim böyük tanker donanmamız vardır. Son illər ərzində dövlət büdcəsi hesabına 12 tanker və quru yük gəmiləri alınmış və Xəzər Dövlət

Gəmiçiliyinin tabeliyinə verilmişdir. Bu olmasaydı, əlbəttə ki, gəmiçilik səmərə ilə işləyə bilməzdi. Ancaq bu, birdəfəlik aksiyadır, ondan sonra o tankerlərin istismarı nəticəsində gəmiçilik gəlir əldə edir.

Metro ilə bağlı məsələ bir qədər fərqlidir. Burada dövlət tərəfindən ayrılmış vəsait hesabına yeni stansiyalar tikilir. Bu da çox böyük vəsait tələb edən məsələdir. Təkcə bu il metronun inkişafı üçün 200 milyon manata qədər vəsait xərclənibdir və xərclənəcəkdir. Vaqonların alınması da dövlət hesabına həll olunur. Son illər ərzində 150-dən çox vaqon alınmışdır və metrodan istifadə edən vətəndaşlar bunu görürlər. Bizdə metroda gediş haqqı 15 qəpikdir. Mənə dünən verilən arayışa görə, hər bir sərnişinə xərclənən vəsait 49 qəpikdir, yəni 3 dəfə çoxdur. Bu, birbaşa dövlət tərəfindən ayrılan subsidiyalardır. Mən sadəcə olaraq, qeyd etmək istəyirəm ki, metro o sahə deyil ki, ora investisiya qoyasan və oradan gəlir gözləyəsən. Metroya qoyulan investisiyalar qayıtmayacaq, bunu biz bilirik. Amma buna baxmayaraq, insanların rahatlığı və şəhər nəqliyyatının tənzimlənməsi üçün biz bunu edirik.

Ölkə qarşısında duran məsələlər hələ çoxdur və elə sahələr var ki, mütləq oraya investisiyalar qoyulmalıdır və qoyulur. Bütün maliyyə imkanlarımızdan çox böyük qənaətlə istifadə etməliyik və elə də istifadə edirik. Maksimum çalışırıq ki, bu işlərdə qənaət tətbiq olunsun. Ancaq digər tərəfdən, biz çox yaxşı başa düşürük ki, metronun inkişafı həm insanlara rahatlıq verəcək, həm də ki, şəhər nəqliyyatının tənzimlənməsi üçün mühüm rol oynayacaqdır.

## YEKUN NİTQİ

Mən bu planın hazırlanmasında iştirak etmiş bütün qurumların fəaliyyətini qiymətləndirirəm. Bu işə həm yerli qurumlar, həm də ki, xarici şirkətlər cəlb olunub və çox əsaslı, geniş proqram hazırlanıbdır. Bu proqram növbəti 20 ili əhatə edəcəkdir. Bu proqramın icrası böyük vəsait tələb edəcəkdir. Bu gün bu barədə rəqəmlər səsləndi. Əgər biz burada göstərilən bütün işləri icra etsək, bir neçə milyard manat investisiya nəzərdə tutulmalıdır.

Bu çox böyük məbləğdir. Biz bu investisiya layihələrini maliyyə imkanlarımızla da bağlamalıyıq. Hər il Dövlət İnvestisiya Proqramında metro tikintisi üçün vəsait nəzərə alınmalıdır. Biz bu böyük, uzunmüddətli proqramı mərhələlərə bölməliyik. Bu barədə təkliflər səsləndi. Birinci mərhələ 2011–2015-ci illəri əhatə etməlidir. Əlbəttə ki, əgər maddi imkanlarımız imkan versə, biz növbəti beşillik proqrama daha böyük işləri sala bilərik. Biz buna da hazır olmalıyıq. Hər halda, bu baş plan bizə belə imkanları verir. Yəni, biz artıq bilirik ki, son mərhələmiz nədən ibarət olacaqdır. Metronun inkişafının bütün proqramı müfəssəl hazırlanıbdır. Sadəcə olaraq, biz həmin işləri mərhələlərə bölüb, prioritetləri müəyyən edib maliyyə imkanlarımızla uzlaşdırmaq yolu ilə görəcəyik.

Bizim niyyətimiz çox açıqdır, aydındır, birmənalıdır ki, Bakıda metro tikintisini sürətlə irəliyə aparaq. Beləliklə, həm şəhər nəqliyyatına böyük dəstək olacaq, həm də insanlar üçün rahat və çox təhlükəsiz nəqliyyat növü imkanlarını genişləndirəcəkdir. Ümumiyyətlə, ümumi inkişafımız üçün bu çox vacib məsələdir.

Biz bütün bu işləri gərək beynəlxalq təcrübəyə əsaslanaraq edək. Bakıda metro tikintisinin böyük tarixi vardır. Bu barədə mən artıq söyləmişəm. Ancaq bu gün yeni texnologiyalar tətbiq olunur. Biz Azərbaycanda, Bakıda bu texnologiyalardan istifadə etməliyik. Əvvəlki təcrübə çox qiymətlidir. Ancaq bugünkü təcrübə, əlbəttə

ki, həm işlərin daha da böyük səmərə ilə görülməsinə xidmət göstərəcək, həm də maksimum keyfiyyət təmin olunacaqdır. Burada qeyd olundu ki, yeni avadanlıq, maşınlar alınır. Elə etməliyik ki, bu, ən son texnologiyaya uyğun maşınlar olsun. Həm tunelqazma işləri, həm bütün başqa texniki məsələlər yüksək səviyyədə həll olunmalıdır.

Mən sübhə etmirəm ki, bu plan hazırlananda inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınıb. Çünki bu planın hazırlanmasında inkişaf etmiş ölkələrin şirkətləri iştirak ediblər. Bakıda da ən qabaqcıl təcrübə təhlil edilməlidir və tətbiq olunmalıdır.

Bununla bərabər, dizayn işlərinə xüsusi diqqət göstərilməlidir. Çünki metro yarandığı gündən – hər halda, sovet məkanında – eyni zamanda, memarlıq növü, memarlıq nümunəsi idi. Bakıda metro stansiyalarının dizaynına çox böyük əhəmiyyət verilirdi. Bu gün biz də bu məsələləri unutmamalıyıq. Biz də çalışırıq ki, yeni stansiyalar gözəl dizaynla fərqlənsin, həm sərnişinlər üçün rahat, həm də gözəl olsun.

Əvvəlki illərdə tikilmiş stansiyalarda da yenidənqurma işləri aparırıq. Xüsusilə «İçərişəhər» stansiyasının həm xarici görünüşü, həm də daxili dizaynı tamamilə yeniləşib və şəhərə əlavə gözəllik verir. İndi «Əzizbəyov» stansiyasında işlər gedir. Orada da çox gözəl memarlıq kompleksi nəzərdə tutulur, daxildə də təmir-bərpa işləri aparılır. Biz yeni stansiyaların tikintisində, əlbəttə ki, bu məsələləri həmişə nəzərdə saxlayacağıq. Tədricən köhnə stansiyaların təmiri, bərpası, xarici görünüşünün yeniləşməsi məsələləri ilə də məşğul olmalıyıq. Bu məsələ də İnkişaf Planının bir hissəsi olmalıdır. Əlavə olunmalıdır ki, həm yeni eskalatorlar, həm təmir-bərpa işləri, lazım gələndə metro stansiyalarının üst konstruksiyalarının dəyişdirilməsi, gözəlləşdirilməsi üçün əlavə vəsait nəzərə alınmalıdır. Çünki bu stansiyalar şəhər memarlığının bir hissəsidir. Şəhərin çox gözəl memarlığı var, həm qədim, həm müasir. Biz bu iki amili nəzərə almalıyıq.

Burada qeyd olundu ki, təhlükəsizlik məsələlərinə diqqət göstərilir. Bu məsələ artıq ilin sonuna qədər yekunlaşmalıdır.

Göstəriş verdim ki, nəinki metro stansiyalarında, bütövlükdə şəhərdə videokameralar quraşdırılsın. Şəhərin müxtəlif yerlərində indi bu videokameralar fəaliyyət göstərir. Həm təhlükəsizlik məsələlərinin həlli üçün bunun böyük əhəmiyyəti vardır, həm də eyni zamanda, bu kameralar vasitəsilə bir neçə cinayətin üstü açılıbdır. Bununla bərabər, yol hərəkətini pozan avtomaşınlar da o kameralar vasitəsilə aşkar olunur.

Biz sözlə, bir daha demək istəyirəm ki, biz böyük işlərin görülməsi üçün bütün gücümüzü səfərbər etmişik. Bu, böyük, uzunmüddətli proqramdır, ən azı 20 ili əhatə edəcəkdir. Çalışmalıyıq ki, 20 il ərzində bu gün göstərilən bütün vəzifələr icra olunsun, bu stansiyalar tikilsin. Çox böyük peşəkarlıq, maliyyə imkanları tələb edən işdir. Əminəm ki, biz bütün bu işləri vaxtında və böyük keyfiyyətlə görəcəyik və şəhər sakinləri üçün yeni, gözəl imkanlar yaradacağıq.

## AVROPA PARLAMENTİ SEÇKİ MÜŞAHİDƏ MİSSİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Avropa parlamenti seçki müşahidə missiyasının üzvlərini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda qarşıdan gələn parlament seçkilərinə hazırlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

Hörmətli cənab Sədr!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Kuba xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2010-cu il*

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ, MDB PA-nın MÜŞAHİDƏÇİLƏR QRUPUNUN ƏLAQƏLƏNDİRİCİSİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin müavini, MDB Parlamentlərarası Assambleyanın müşahidəçilər qrupunun əlaqələndiricisi Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda keçiriləcək parlament seçkilərinə hazırlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.*

## BAKIDAKI 29 SAYLI SƏBAİL SEÇKİ DAİRƏSİNİN 6 NÖMRƏLİ SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏSVERMƏDƏ

*7 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Milli Məclisə keçirilən seçkilərdə səs vermişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 nömrəli seçki məntəqəsinə gəldilər.*

*Prezident İlham Əliyev seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.*

*Mehriban xanım Əliyeva da səs verdi.*

## MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOV VƏ BAŞ LEYTENANT FƏRİD ƏHMƏDOVUN VİDA MƏRASİMİNDƏ

*7 noyabr 2010-cu il*

*Cəbhənin təmas xəttində işğalçı ermənilərlə döyüşdə böyük şücaət göstərərək qəhrəmanlıqla həlak olmuş Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun və prezident İlham Əliyevin sərəncamı ilə «İgidliyə görə» medalı ilə təltif edilmiş şəhid baş leytenant Fərid Əhmədovun noyabrın 7-də vida mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev vida mərasimində iştirak etmişdir.*

*Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev şəhidlərin valideynlərinə başsağlığı verdi.*

*Müdafiə Nazirliyinin əməkdaşı, polkovnik Abdulla Qurbani şəhidlərin tərcümeyi-halı və keçdikləri şərəfli döyüş yolu haqqında məlumat verərək bildirdi ki, 2010-cu il iyunun 18-də döyüş növbəsini yerinə yetirərkən düşmən qüvvələrinin atəşkəs rejimini pozması nəticəsində Talış–Borsunlu istiqamətində gedən şiddətli döyüş zamanı şəxsi rəşadət və şücaət nümayiş etdirmiş, düşmənin çoxlu sayda canlı qüvvəsini məhv edərək həlak olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin giziri, Azərbaycanın Milli Qəhrəmanı Mübariz Ağakərim oğlu İbrahimovun və 2010-cu il sentyabrın 3-də Tərtər bölgəsində xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş baş leytenant Fərid Güloğlan oğlu Əhmədovun nəşləri Azərbaycan*

*Respublikasının, Rusiya Federasiyasının və Ermənistan Respublikasının prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 2010-cu il 27 oktyabr tarixli razılaşmaya əsasən, 2010-cu il noyabrın 6-da doğma Vətənə gətirilmişdir.*

*Mübariz Ağakərim oğlu İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olmuşdur. 2005-ci ildə şəhid Malik Piriyev adına Əliabad kənd orta məktəbini müvəffəqiyyətlə bitirmiş və 2006-cı ilin mart ayında Biləsuvar Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Müddətli hərbi xidmətini Daxili Qoşunlarda atıcı əsgər kimi başlayan Mübariz İbrahimov 2007-ci il noyabrın 20-də yarımqrup komandiri kimi, həqiqi hərbi xidmətdən ehtiyata buraxılmışdır. 2009-cu il sentyabrın 18-də öz arzusu ilə könüllü surətdə yenidən həqiqi hərbi xidmətə qəbul edilərək, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin gizir hazırlığı kursunu bitirmiş, motoatıcı taborun motoatıcı tağım komandirinin müavini kimi, cəbhə bölgəsində əsgəri borcunu şərəflə və vicdanla yerinə yetirmişdir. Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətlər göstərmiş şəhid Mübariz İbrahimovun əziz xatirəsi heç vaxt unudulmayacaqdır.*

*Fərid Güloğlan oğlu Əhmədov 1986-cı il fevralın 13-də Cəlilabad rayonunda anadan olmuş, 2003-cü ildə Nizami adına 1 nömrəli Cəlilabad şəhər orta məktəbini başa vurduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş və 2007-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində birillik ixtisas kursunu keçmiş və cəbhə bölgəsindəki hərbi hissədə kəşfiyyat tağımının və kəşfiyyat bölüyünün komandiri vəzifələrində xidmət etmiş, baş leytenant hərbi rütbəsinə yüksəlmişdir. Vətən qarşısında əsgəri borcunu şərəflə yerinə yetirən Fərid Güloğlan oğlu Əhmədovun qısa, lakin şərəfli ömür yolu Azərbaycan gəncliyi üçün örnəkdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışı

Bu ilin iyun və sentyabr aylarında ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə hərbçilərimiz Mübariz İbrahimov və Fərid Əhmədov qəhrəmancasına həlak olmuşlar. Bu aylar ərzində biz çalışırdıq ki, tezliklə onları Vətənə qaytaraq. Baxmayaraq ki, bu çox çətin idi. Ermənistan tərəfi heç bir sivil qaydalara əməl etmədən qəhrəman övladlarımızın meyitlərini qaytarmaqdan imtina edirdi. Bu, misli görünməmiş vəhşilikdir. Heç bir mənəviyyata, heç bir dini normalara sığmayan bir hərəkətdir. Ancaq biz inanırdıq ki, övladlarımızı qaytaracağıq və bu gün gəldi.

Bu gün çox kədərli bir gündür, eyni zamanda, çox şərəfli bir gündür. Mübarizlə Fərid Vətən uğrunda öz torpağında həlak olmuşlar. Onlar əsl qəhrəmanlıq, rəşadət göstərmişlər. Mübariz İbrahimov qeyri-bərabər döyüşdə 5 düşməni məhv edərək, 3-nü yaralayaraq şəhid olubdur. Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir.

Fərid Əhmədov döyüş vəzifəsini icra edərkən həlak olmuşdur. Hər ikisi ölümündən sonra Azərbaycan dövləti tərəfindən yüksək mükafatlarla təltif olunmuşlar.

Mən şəhidlərimizin valideynlərinə, onların qohumlarına, yaxınlarına başsağlığı verirəm. Allah onlara rəhmət eləsin!

Şəhidlərimizin valideynlərinə minnətdarlığımı bildirmək istəyirəm ki, onlar Vətən üçün belə qəhrəmanlar böyütmüşlər. Onların verdiyi tərbiyə – vətənpərvərlik tərbiyəsi Mübarizi və Fəridi mənəviyyat zirvəsinə ucaltmışdır.

Təmas xəttində hər bir itki bizi sarsıdır, hər bir itki bizim üçün ağırdır. Ancaq biz müharibə şəraitində yaşayırıq və Mübarizlə Fərid öz həyatları ilə, öz qəhrəmanlıqları ilə düşmənə sübut etdilər

ki, Azərbaycan xalqı, Azərbaycan gəncləri Vətən uğrunda canlarından keçməyə də hazırdırlar. Bu, böyük qəhrəmanlıq, hünər, vətənpərvərlik nümunəsidir.

Bu gün hər bir azərbaycanlı üçün çox kədərli bir gündür. Bu aylar ərzində bütün Azərbaycan Fəridin, Mübarizin ailələrinin yanında idi. Azərbaycan xalqı həmrəylik göstərmişdir. Mən bilirəm, bütün bu aylar ərzində müxtəlif bölgələrdə yaşayan vətəndaşlar şəhid övladlarımızın ailələrinə baş çəkib başsağlığı vermiş, öz həmrəyliklərini göstərmişlər. Mübarizin və Fəridin qısa və şərəfli həyatı Azərbaycan xalqını daha da birləşdirdi.

Bu gün eyni zamanda, çox şərəfli bir gündür. Çünki biz öz övladlarımızı burada böyük ehtiramla son mənzilə yola salırıq. Əminəm ki, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbindən heç vaxt silinməyəcəkdir. Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi qəhrəmanlar vardır. Onlar Ali Baş Komandanın əmrini gözləyirlər. Onlar öz doğma torpaqlarını azad etmək üçün hər an hazırdırlar. Azərbaycan Ordusu Cənubi Qafqazda ən qüdrətli, ən peşəkar, ən mübariz ordudur və şəhidlərimizin qəhrəmanlığı bunu bir daha sübut edir. Bizdə nəinki böyük sayda silah-sursat, hərbi texnika, döyüş imkanları vardır, eyni zamanda, ordumuzda böyük ruh yüksəkliyi vardır. Çünki bizim işimiz haqq işidir. Biz heç bir ölkənin torpağını zəbt etməmişik. Bizim torpaqlarımız uzun illərdir ki, işğal altındadır. Bizim heç bir başqa dövlətin torpağına iddiamız yoxdur. Amma öz torpağımızdan heç kimə bir qarış da verməyəcəyik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Mübarizlə Fərid başqa ölkənin ərazisində həlak olmamışlar, öz doğma torpaqlarında şəhid olmuşlar.

Gün gələcək, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Biz istəyirik ki, bunu danışıqlar yolu ilə həll edək. Biz istəmirik ki, gənclərimiz şəhid olsun. Biz istəyirik ki, gənclərimiz yaşasınlar, oxusunlar, Vətən üçün, dövlət üçün çalışsınlar.

Hər bir döyüş bölgəsində verilmiş itki bizim üçün ağırdır. Ona görə biz çalışırıq ki, bu məsələ öz həllini sülh yolu, danışıqlar yolu

ilə tapsın. Danışıqlar prosesində Azərbaycanın mövqeləri getdikcə güclənir. Nəinki siyasi və hüquqi həqiqət bizim mövqeyimizi dəstəkləyir, bu gün istənilən parametr üzrə Azərbaycan Ermənistandan bir neçə dəfə üstündür. Bu üstünlüyü biz yaratmışıq, Azərbaycan xalqı yaradıbdır. Həm siyasi, həm iqtisadi, həm hərbi cəhətdən üstünlüyümüz artıq hər kəs üçün açıq-aydın görünür.

Ancaq bununla bərabər, bu gün, bu şərəfli gündə bir daha bəyan etmək istəyirəm ki, biz danışıqları sadəcə olaraq, danışıqlar naminə aparmayacağıq.

Danışıqların imitasiyası ilə məşğul olmağa Ermənistana imkan verməyəcəyik. Biz o vaxta qədər danışıqlar aparacağıq ki, ərazi bütövlüyümüzü bu yolla bərpa edə biləcəyimizə ümidimiz qalacaqdır. Əgər görsək ki, bu mümkün deyil, onda Azərbaycan dövləti hərbi yoldan istifadə edərək, öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Mən şübhə etmirəm ki, bunun üçün bizdə bütün imkanlar – döyüş hazırlığı, maddi-texniki təchizat, kifayət qədər silah-sursat, peşəkar ordu, ruh yüksəkliyi və Azərbaycan xalqının iradəsi vardır. Biz ərazi bütövlüyümüzü istənilən anda hərbi yolla bərpa edə bilərik. Düşmən də bunu bilməlidir və bilir.

Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir, Dağlıq Qarabağ bizim doğma, əzəli torpağımızdır. Əsrlər boyu Azərbaycan xalqı Dağlıq Qarabağda və ətraf bölgələrdə yaşamışdır, yaratmışdır. Bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulmuşdur. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi torpaqlarımızdır. Biz heç vaxt imkan verə bilmərik ki, doğma torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövləti yaradılsın. Heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaqdır. Bu gün məsələni həll etmək üçün bütün imkanlarımız vardır. Sadəcə olaraq, çalışırıq ki, danışıqlar prosesindən maksimum dərəcədə istifadə edək. Biz istəmirik ki, müharibə olsun. Kim istəyər ki, müharibə olsun. Ancaq biz bu vəziyyətlə də heç vaxt barışmayacağıq. Biz bu gün bütün səylərimizi səfərbər etmişik ki, qarşıda duran vəzifəni icra edək.

Bu gün şəhid övladlarımızın şücaəti, qəhrəmanlığı bir daha onu göstərir ki, biz buna qadirik.

Əziz şəhidlərimizin valideynləri, sizin üçün bu aylar çox ağır keçdi. Siz övladlarınızı itirmisiniz. Bundan böyük dərd ola bilməz. Ancaq siz əsl vətəndaş kimi, bəyan etmisiniz ki, biz hamımız Vətən uğrunda şəhid olmağa hazırıq. Təki Vətən sağ olsun! Allah bütün şəhidlərimizə rəhmət eləsin!

* * *

*Sonra Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanmasında göstərdiyi şəxsi igidliyə və rəşadətə görə gizir Mübariz Ağakərim oğlu İbrahimova Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi haqqında prezident İlham Əliyevin sərəncamı oxundu.*

*Prezident İlham Əliyev Milli Qəhrəman medalını və vəsiqəsini şəhidin atası Ağakərim İbrahimova təqdim etdi.*

*Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun atası Ağakərim İbrahimov çıxış edərək dedi:*

– 9 Noyabr – Azərbaycanın Dövlət Bayrağı günü ilk dəfə keçiriləcəkdir. Mən fəxr edirəm ki, bizim şəhidlərin tabutu Azərbaycanın Dövlət bayrağına bükülüb. Mən bir daha Sizə təşəkkür edirəm. Çox sağ olun deyirəm, hörmətli Prezidentimiz.

* * *

*Həyatını təhlükə altında qoyaraq hərbi borcunu yerinə yetirərkən igidlik göstərdiyinə görə baş leytenant Fərid Güloğlan oğlu Əhmədovun «İgidliyə görə» medalı ilə təltif edilməsi haqqında prezident İlham Əliyevin sərəncamı oxundu.*

*Prezident İlham Əliyev medalı və vəsiqəni şəhidin anası Nərgiz Əhmədovaya təqdim etdi.*

*Baş leytenant Fərid Əhmədovun anası Nərgiz Əhmədova çıxış edərək dedi:*

– Cənab Ali Baş Komandan, möhtərəm Prezident, bütün şəhid anaları adından Sizə təşəkkürümü bildirirəm. Bu iki cəsədin alınmağında Sizin böyük zəhmətiniz, hünəriniz oldu. Verilməyə də

bilərdi, qala bilərdi. O, ana üçün, bütün Vətən üçün ikiqat ağır ola bilərdi, ağır bir dərd olaraq qala bilərdi. Həm qürur duyuram, həm fəxr edirəm. Qürur duyuram ona görə ki, balam Vətən yolunda, Vətənin azadlığı, torpaqları uğrunda qurban gedib.

* * *

*Sonra Milli Qəhrəman Mübariz İbrahimovun və şəhid baş leytenant Fərid Əhmədovun cənazələri son mənzilə yola salındı.*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VALDİS ZATLERSƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Latviya Respublikasının elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Latviya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dövlətlərarası münasibətlərimizin, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2010-cu il*

**OMAN SULTANI ƏLAHƏZRƏT**
**QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Oman münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Oman xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2010-cu il*

**MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ**

Hörmətli cənab Prezident!

Mavritaniyanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mavritaniya arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı sahəsində qarşılıqlı səylərimiz daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mavritaniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2010-cu il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BAMİR TOPİYƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Bayraq günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Albaniya arasında təşəkkül tapmış münasibətlərin inkişafı bundan sonra da dostluq və əməkdaşlıq məcrasında davam edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Albaniya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2010-cu il*

## BAKI–ƏLƏT AVTOMOBİL YOLUNUN YENİDƏN İNŞA EDİLMİŞ 4–8-ci VƏ YENİDƏN QURULMUŞ 8–14-cü KİLOMETRLİK HİSSƏLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*8 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Bakı–Ələt avtomobil yolunun yenidən tikilmiş 4–8-ci kilometrlik və yenidən qurulmuş 8–14-cü kilometrlik hissələrinin açılışında iştirak etmişdir.*

*İnşaatçılar və nəqliyyat işçiləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına əvvəlcə Bakı–Ələt avtomobil yolunun 4–8-ci kilometrlik hissəsinin texniki-iqtisadi göstəriciləri barədə məlumat verdi. Bildirildi ki, bu avtomobil yolu «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008–2013-cü illər üçün əlavə Tədbirlər Planı» çərçivəsində «Bakı–Astara yolunun 4–8-ci kilometrliyində Bibiheybət məscidi ilə Bayıl bazarı arasında yolun yeni trassa köçürülməsi ilə əlaqədar tikilmişdir. 2009-cu ilin mayında inşasına başlanılan birinci dərəcəli bu yolun uzunluğu 3,5 kilometrdir. 17,5 metr enində olan yolun hərəkət hissəsi 5 zolaqlıdır.*

*Sonra prezident İlham Əliyevə Bakı–Ələt avtomobil yolunun 8–14-cü kilometrlik hissəsinin yenidən qurulması barədə məlumat verildi. Bildirildi ki, Bakı–Ələt avtomobil yolunun 8–14-cü kilometrlik hissəsinin və Bibiheybət–Lökbatan dairəsi sahəsinin yenidən qurulması prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008–2013-cü illər üçün əlavə Tədbirlər Planı» çərçivəsində həyata keçirilmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu yol respublikanın cənub, cənub-qərb, qərb, mərkəzi aran və şimal-qərb bölgələrindən, həmçinin Astara, Biləsuvar, Qazax və Balakən rayonlarında yerləşən sərhəd məntəqələrindən Bakı şəhərinə gələn və əks istiqamətdə hərəkət edən nəqliyyat vasitələrinin şəhərin giriş hissəsində – Lökbatan dairəsindən Bibiheybət məscidinə qədər və əks istiqamətdə maneəsiz birtərəfli hərəkətinə imkan verəcək, «Sədərək» və «Binə» ticarət mərkəzlərinə rahat gediş-gəlişi təmin edəcəkdir.*

*Dövlətimizin başçısı inşaatçıları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Sizi təbrik edirəm, çox yaxşı iş görmüsünüz, şəhərimiz üçün çox gözəl yol tikmisiniz. Bu, böyük peşəkarlıq tələb edən bir layihədir, çünki burada yolun böyük hissəsi dağın yarılması hesabına yaradılıb. Burada böyük işlər görülüb – həm istinad divarları tikilib, həm dağ yarılıb, həm də yol genişləndirilib. İndi bu, şəhər sakinləri, şəhərə gələn qonaqlar üçün ən gözəl yollardan biridir. Bu yol bizi sərhədlərlə birləşdirir. Həm keyfiyyət, həm gözəllik, işıqlandırma sistemi – dünya standartlarına cavab verən yoldur. Yeni yol da tikilib, o yol mövcud deyildi. Birtərəfli, 6 zolaqlı, geniş, rahat bir yoldur.

Bizim şirkətlər bu işlərdə böyük təcrübə əldə ediblər. Mən çox şadam ki, son vaxtlar yol tikintisində ancaq Azərbaycan şirkətləri iştirak edirlər. Bu onu göstərir ki, bizdə ən qabaqcıl texnologiyalara uyğun şəkildə keyfiyyətli yolların tikilməsi artıq mümkündür. Əvvəllər daha çox xarici mütəxəssisləri dəvət edirdik. İndi biz özümüz tikirik. Həm bizim insanlar, mütəxəssislər işləyir, iş yerləri yaradılır, həm də ki, gəlir qalır Azərbaycanda, xaricə getmir.

Son illərdə çoxlu yollar tikilib, yenə də tikiləcəkdir. Bu gün dairəvi yolun açılışını qeyd edəcəyik. Bu da tarixi hadisədir. Bakını şəhərə girmədən bütün istiqamətlərlə birləşdirən, şimal istiqamətlərindən cənub-qərb istiqamətlərinə aparan yeni yoldur.

Sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm.

## BAKI DAİRƏVİ AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*8 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Bakı dairəvi avtomobil yolunun açılışında iştirak etmişdir.*

*İnşaatçılar və nəqliyyat işçiləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev Bakı dairəvi avtomobil yolunun tikinti layihəsi və ümumi yerləşmə planı ilə tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verərək bildirdi ki, paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılması, ağır- tonnajlı yük avtomobillərinin şəhərə daxil olmadan hərəkətinin təmin edilməsi baxımından bu yolun xüsusi əhəmiyyəti vardır. Birinci dərəcəli olan əsas yolun uzunluğu 21,5 kilometrdir. İki- istiqamətli yerli yolun uzunluğu isə 4,8 kilometrdir. Bu yol nəqliyyat vasitələrinin əsas magistrala girmədən digər istiqamətlərə hərəkətinə kömək edəcəkdir. Burada, həmçinin əhalinin rahatlığı nəzərə alınaraq səsboğucu baryerlər quraşdırılmışdır.*

*Bu layihənin reallaşdırılması şimal–cənub beynəlxalq nəqliyyat dəhlizini Böyük İpək yolu ilə əlaqələndirəcək, Bakı şəhərində tıxacların əhəmiyyətli dərəcədə azalmasına, paytaxtın ekoloji vəziyyətinin yaxşılaşmasına imkan verəcəkdir. Bu yol gələcəkdə sayı sürətlə artacaq nəqliyyat vasitələrinin maneəsiz hərəkətini təmin edəcəkdir.*

*Dövlətimizin başçısı inşaatçıları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Sizi bu gözəl yolun açılışı ilə əlaqədar təbrik edirəm. Bu yolun Bakının nəqliyyat sistemində xüsusi yeri vardır. Çünki bu yol şəhərin tıxaclardan azad olunmasında xüsusi məna daşıyacaqdır. Əvvəlki dövrlərdə cənub-qərb istiqamətlərindən şimal istiqamətinə və əks tərəfə getmək üçün gərək Bakı ərazisindən keçəydin. Həm məsafə çox böyük idi, həm də ki,

tıxaclar vaxt aparırdı. Dairəvi yolun tikintisi bu məsələnin həlli üçün əsasdır. Böyük zövqlə rahat, keyfiyyətli, altızolaqlı, bir neçə qovşağı olan yol tikilibdir.

Əminəm ki, bu yol şəhər nəqliyyatı üçün çox böyük əhəmiyyət daşıyacaqdır. İndi şəhərdə müxtəlif yerlərdə yeni yollar tikilir. Əvvəlki dövrdə tikilmiş yollar genişləndirilir, bərpa olunur, yüksək səviyyədə təmir edilir. Bununla bərabər, yeni yolların açılması şəhər nəqliyyatı üçün çox vacibdir. Bax, bu yol, demək olar ki, şəhərin ən böyük damarıdır və bu yolun xüsusi əhəmiyyəti vardır. Ona görə bu yola xüsusi diqqət həmişə olmuşdur. Bu yolun layihələndirilməsi işində böyük işlər görülmüşdür.

Bu yol eyni zamanda, beynəlxalq əməkdaşlığın nəticəsidir. Küveyt Fondu, Abu-Dabi Fondu tərəfindən maliyyələşdirilmiş layihədir, Azərbaycan hökumətinin də payı vardır. Əgər beynəlxalq maliyyə qurumları ilə yaxşı münasibətlərimiz və Azərbaycanın uğurlu inkişafına inam olmasaydı, yəqin ki, o kredit resurslarını əldə etmək üçün çətinliklərlə üzləşə bilərdik. Bu gün Azərbaycanın uzunmüddətli, sürətli inkişafına beynəlxalq maliyyə qurumları tərəfindən böyük inam vardır. Bu da əsaslandırılmış inamdır. Biz istənilən maliyyə resurslarını ölkəmizə infrastruktur layihələrinin həyata keçirilməsi üçün cəlb edə bilərik və bunu edirik.

Bu yolun inşasında iştirak etmiş bütün vətəndaşlara, bütün insanlara, inşaatçılara minnətdarlığımı bildirmək istəyirəm. Bu gözəl hadisə münasibətilə sizin hamınızı, Bakı sakinlərini və bütün rayonların sakinlərini ürəkdən təbrik edirəm. Çünki bu yol şimalı cənubla, qərblə birləşdirəcəkdir.

* * *

*Prezident İlham Əliyev yolun açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, layihə üç hissədən ibarətdir. Birinci və ikinci hissələrdə tikinti işləri tamamlanmışdır və istismara hazırdır. Üçüncü hissənin ilin sonunda istifadəyə verilməsi planlaşdırılır. Bu da Lökbatan dairəsindən Ələt–Astara yolunun 22-ci kilometrinə qədər olan hissəsini əhatə edəcəkdir.*

*Qeyd edildi ki, yolboyu tikilmiş nəqliyyat qovşaqlarının hər birinin xüsusi əhəmiyyəti vardır. Birinci qovşaqla tanışlıq zamanı bildirildi ki, bu qovşaq Bakı dairəvi avtomobil yolunu Bakı–Rusiya Federasiyası avtomagistralı ilə əlaqələndirərək Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi ilə hərəkət edən tranzit yük maşınlarını şəhərə girmədən cənuba və qərbə istiqamətləndirəcəkdir. Bundan əlavə, bu qovşaq Sumqayıt şəhəri, Biləcəri qəsəbəsi və Abşeron rayonunun digər yaşayış məntəqələrindən avtonəqliyyat vasitələrinin cənub istiqamətinə rahat çıxışını təmin edəcəkdir. Qovşaqda iki yolötürücü də inşa edilmişdir.*

*İkinci qovşaq Bakı şəhərinin «Qurd Qapısı» ərazisində avtonəqliyyat vasitələrinin hərəkətini şəhərlə əlaqələndirmək məqsədi daşıyır. Qovşaqda inşa edilən 2 yolötürücü nəqliyyatın bütün istiqamətlərdə hərəkətini təmin edəcəkdir. Eyni zamanda, şimal və cənub istiqamətlərində hərəkət edən nəqliyyat vasitələri üçün Bakı şəhərinə əlavə giriş-çıxış yaranmışdır.*

*Üçüncü qovşaq Bakı dairəvi avtomobil yolunu Lökbatan–Xocasən avtomobil yolu ilə, dəmir yolunun Heybət stansiyası, sənaye və ticarət obyektləri ilə əlaqələndirəcəkdir.*

*Dördüncü qovşaq Bakı–Astara avtomobil yolu ilə mövcud Lökbatan dairəsini birləşdirir. Bu qovşaqda inşa edilən 4 aşırımlı yolötürücünün altında yerləşdirilmiş nəqliyyat dairəsi nəqliyyat vasitələrinin bütün istiqamətlərdə hərəkətinə imkan verir.*

*Beşinci qovşaq isə nəqliyyat vasitələrinin Bakı dairəvi avtomobil yolunun altından tunel vasitəsilə «Sədərək», «Binə» və digər ticarət mərkəzlərinə giriş-çıxışını təmin edir.*

## BAKI–RUSİYA FEDERASİYASI DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN 28–45-ci KİLOMETRLƏRİ ARASINDAKI HİSSƏSİNİN ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*8 noyabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev noyabrın 8-də Bakı–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 28–45-ci kilometrləri arasındakı hissəsinin əsaslı yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*İnşaatçılar və nəqliyyat işçiləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov yolun texniki göstəriciləri və parametrləri barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, yenidən qurulan 4 zolaqlı yolun ümumi uzunluğu 17 kilometr, onun asfalt hissəsinin eni 15 metr, asfalt örtüyünün qalınlığı 23 santimetr, ayırıcı zolağın eni 5 metr, hər iki tərəfdə yol çiyinlərinin eni ayrılıqda 3,75 metrdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yenidən qurulan və birinci dərəcəli kateqoriyaya aid edilən bu yol üzərində 10 yolötürücü və ümumi uzunluğu 9,5 kilometr olan 5 yol qovşağı inşa edilmişdir. Qovşaqlar əsas avtomagistrallara, yaxınlıqdakı yaşayış məntəqələrinə və körpülərə çıxışları təmin edir. Bu isə avtomobillərin daha rahat və təhlükəsiz hərəkəti baxımından mühüm məsələdir. Piyadaların təhlükəsiz hərəkəti üçün bir ədəd piyada keçidi yaradılmış, tikinti zolağına düşən ərazidə su və kommunikasiya xətləri tamamilə yenilənmişdir. Bu yolun istifadəyə verilməsi ilə avtomobillər, xüsusilə ağırtonnajlı yük maşınları Sumqayıt istehsalat sahəsinə və Hacı Zeynalabdin Tağıyev*

*qəsəbəsinə daxil olmadan Bakı–Rusiya Federasiyası dövlət sərhədi və əks istiqamətdə sərbəst hərəkət edə biləcəkdir.*

*Prezident İlham Əliyev yolun açılışını bildirən lenti kəsdi. Sonra dövlətimizin başçısı yol inşaatçılarını təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Əvvəlki illərdə belə yol tikən bir dənə də şirkətimiz yox idi. İndi görün neçə şirkət yarandı. Şirkətlərimiz başqa ölkələrdə layihələri icra edirlər. Bax, belə dövlət sifarişləri hesabına Azərbaycan şirkətləri böyüyür, güclənir, maliyyə resurslarını toplayır, həm iş yerləri açılır, həm də ki, bu investisiyalar gələcəkdə özü artıq xaricə qoyulur. Əgər Dövlət Proqramı olmasaydı, bu şirkətlər fəaliyyət göstərə bilməzdilər. Hər bir dövlət təkan vermək üçün gərək öz maliyyə resurslarını ortaya qoysun.

Azərbaycanda yol-nəqliyyat infrastrukturuna son illərdə bir neçə milyard manat vəsait qoyulub. Bu həm gözəllik yaratdı, həm də nə qədər iş yerləri açıldı, nə qədər şirkətlər yarandı. Onların hamısı böyüdü, gücləndi, böyük maliyyə imkanlarına malik oldu. Bu şirkətlər investisiyaları Azərbaycana, xaricə qoyurlar. Bu, iqtisadiyyata təkan verir. Ona görə də nəqliyyat sektoruna qoyulan vəsait təkcə yol hərəkətini tənzimləmək üçün, yaxud da ki, rahatlıq yaratmaq üçün deyildir.

Azərbaycanda bu sahədə çox işlər görülüb, yollar abadlaşıb. Amma gələcəkdə kənd yollarında, şəhərlərarası yollarda, magistral yollarda, yol qovşaqlarında görüləsi işlər çoxdur. İndi Bakı dairəvi yolunu açdıq. Sumqayıt dairəvi yolunu açdıq. Baxmayaraq ki, indi Bakını Sumqayıtla birləşdirən yol da çox gözəldir, biz onu genişləndirdik, abadlaşdırdıq. İndi yolkənarı bütün infrastruktur gözəlləşir, ağaclar əkilir. Buradan şimal istiqamətinə gedən beton yol da dünya səviyyəli yoldur. Sumqayıt dairəvi yolu da tikildi. Bu, zonanın inkişafına böyük təkan verəcək, həm də daha rahat gediş-gəlişə şərait yaradacaqdır.

Ona görə sizə bir daha təşəkkürümü bildirirəm, yaxşı işləmisiniz. Sizi təbrik edirəm və yeni uğurlar arzulayıram.

## «XOCASƏN» YARIMSTANSİYASININ AÇILIŞI MƏRASİMİ

*8 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də 110/35/10 kv-luq «Xocasən» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*Hazırda Azərbaycanın elektroenergetika sistemi ən müasir standartlara uyğun yenidən qurulur. Bu baxımdan prezident İlham Əliyevin tapşırığına müvafiq olaraq Bakı şəhəri və ətraf qəsəbələrin elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması da diqqət mərkəzindədir. Dövlətimizin başçısının sərəncamı ilə 2006-cı ildən fəaliyyəti bərpa olunan «Bakıelektrikşəbəkə» ASC ötən müddətdə 13 ədəd 110 kilovoltluq və 35 ədəd 35 kilovoltluq yarımstansiya, həmçinin 100 transformator məntəqəsi inşa etmiş, 600 min sayğac quraşdırmış, yüz kilometrlərlə uzunluğunda kabel və hava xətləri çəkmişdir. 60 il əvvəl tikilən «Xocasən» yarımstansiyası da tamamilə köhnəlmişdi. Həmin yarımstansiyanın avadanlığı müasir dövrün tələblərinə cavab vermirdi. 2010-cu ildə əvvəlki energetika qurğusunun əvəzinə 110/35/10 kilovoltluq yeni yarımstansiya inşa edilmişdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, yarımstansiyada hər birinin gücü 40 meqavoltamper olan 2 transformator, 10 və 35 kilovoltluq qapalı paylayıcı qurğular quraşdırılmışdır. Bu layihə çərçivəsində «Səngəçal» yarımstansiyasında da yenidənqurma tədbirləri həyata keçirilmiş, həmin yarımstansiyadan «Xocasən» yarımstansiyasına 44 kilometr uzunluğunda 110 kilovoltluq ikidövrəli hava xətti çəkilmiş və bir sıra digər işlər görülmüşdür. Həmin yarımstansiyadan Xocasən, Sulutəpə və Lökbatan qəsəbələrinə, həmçinin bir sıra mühüm istehsal, sosial və ticarət obyektlərinə elektrik enerjisi ötürülür. Şəbəkənin investisiya*

*proqramı əsasında həyata keçirilən bu tədbirlər nəticəsində abonentlər fasiləsiz, dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunurlar.*

*Prezident İlham Əliyev «Xocasən» yarımstansiyasının idarəetmə mərkəzi ilə tanış oldu. Qeyd edildi ki, dairəvi sistemə daxil olan bu energetika qurğusunun inşası şəbəkənin etibarlılığı və dayanıqlılığının artmasına mühüm töhfədir. «Bakıelektrikşəbəkə»nin güc mərkəzlərinin hər hansı birində enerji itkisi baş verərsə və ya balans pozularsa, bu yarımstansiya digər güc mərkəzlərinin balanslaşdırılmasını təmin edən qovşaq rolunu oynayacaqdır.*

*Prezident İlham Əliyev yeni yarımstansiyanı işə saldı.*

*Sonra dövlətimizin başçısı inşaatçıları və energetikləri təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Yeni gözəl yarımstansiyanın açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu gün şəhər infrastrukturu üçün çox əlamətdar bir gündür. Yollar çəkilir – Sumqayıt dairəvi yolu, Bakı dairəvi yolu. Bu gün Bakıda çox vacib məsələlər öz həllini tapır. O cümlədən şəhərimizi dayanıqlı enerji ilə təmin etmək üçün son illərdə çox böyük işlər görülüb. İndi bu yarımstansiyada quraşdırılmış avadanlığın, demək olar ki, əksər hissəsi Azərbaycanda istehsal olunub. Əvvəlki illərdə biz xarici təchizatdan asılı idik. Bir balaca nasazlıq yarananda, yaxud da ehtiyat hissələri sıradan çıxanda gözləməli idik ki, xaricdən bizə avadanlıq gətirsinlər. Bu gün isə Azərbaycanda, xüsusilə də özəl biznes üçün elə imkanlar yaranıb ki, lazım olan bütün avadanlıqları biz özümüz istehsal edək.

Son illər bütün sahələrə qoyulan investisiyalar bəhrəsini verir. Nə qədər çox iqtisadi fəallıq olarsa, o qədər də çox enerjiyə tələbat artar. Baxmayaraq ki, Azərbaycanda son illərdə bir neçə böyük elektrik stansiyası tikilib və bu gün imkanlarımız tələbatdan üstündür, biz gələcəyi nəzərə almalıyıq. Beş ildən, on ildən sonra da Azərbaycanın uğurlu inkişafı davam edəcəkdir. Biz enerji mənbələrindən bəhrələnəcəyik. Elə etməliyik ki, enerji imkanlarımız heç olmasa, 5-10 il tələbatdan qabaq olsun. Biz bunu yaradırıq.

Bakının enerji təsərrüfatını «Bakıelektrikşəbəkə»yə verəndən sonra bu sahədə əsaslı dönüş yaranmışdır. Çünki siz bu sahədə uzun müddətdir ki, işləyirsiniz və bilirsiniz. Əvvəllər bu qurum idarəetməyə verilmişdi. İdarəedənlər də vəzifənin öhdəsindən gələ bilmirdilər. Mən indi xatırlayıram, biz «Bakıelektrikşəbəkə»ni yaradanda və bütün infrastrukturu, imkanları səfərbər edəndə yığım Bakıda 26 faiz idi. Bu gün yığım 90 faizdən yuxarıdır. Özü də keyfiyyətli enerji təchizatı təmin olunub. Nə Bakıda, nə başqa rayonlarda enerji qıtlığı yoxdur. Əvvəlki illərdə ən böyük problemlərdən biri məhz o idi. Həm xətlər köhnəlmişdi, stansiyalar yox idi, həm də mazut ehtiyatları kifayət deyildi. İndi biz mazutdan, ümumiyyətlə, istifadə etmirik. Ancaq qazdan, çox keyfiyyətli və ekoloji baxımdan təmiz məhsuldan istifadə edirik.

Hər bir ölkənin inkişafını təmin edən, müəyyən edən onun enerji potensialıdır. Bizdə hər şey – təbii resurslar, su mənbələri vardır. Biz enerji resurslarımızı başqa ölkələrə ixrac edirik. Qonşu ölkələrə bizdən elektrik enerjisi ixrac olunur. Gələcəkdə yeni xətlərin tikintisi nəticəsində bu ixrac daha da artacaqdır. Bu gün Azərbaycanın enerjisi Rusiyaya, Türkiyəyə, İrana ixrac edilir. Azərbaycan–Gürcüstan–Türkiyə elektrik xətlərinin birləşməsi nəticəsində – bu layihə yəqin ki, gələn il icra olunmalıdır – biz xaricə, xüsusilə də Türkiyəyə daha da böyük həcmdə elektrik enerjisini verə bilərik. Bu, imkanlarımızı artırır və Azərbaycanın potensialını gücləndirir.

Bu işlərdə energetiklərin xüsusi rolu, zəhməti vardır. Mən bu gün bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Sizə uğurlar arzulayıram.

* * *

*Prezident İlham Əliyev inşaatçılara və energetiklərə bir daha uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.*

## MDB İCRAİYYƏ KOMİTƏSİNİN İCRAÇI KATİBİ SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də MDB İcraiyyə Komitəsinin icraçı katibi Sergey Lebedevi qəbul etmişdir.*

*MDB İcraiyyə Komitəsinin icraçı katibi Sergey Lebedev Azərbaycanda keçirilən parlament seçkilərini müşahidə etmək üçün MDB-dən 352 nəfərdən ibarət müşahidəçilər missiyasının ölkəmizə gəldiyini vurğulayaraq missiya üzvlərinin Azərbaycanın müxtəlif regionlarında 3 mindən artıq məntəqədə seçkiyə hazırlıq məsələləri və seçki prosesinin gedişi ilə yaxından tanış olduqlarını bildirdi. Sergey Lebedev MDB müşahidəçilər missiyasının üzvlərinin Azərbaycanın şəhər və rayonlarının simasının necə dəyişdiyini və yerlərdə insanların yüksək əhval-ruhiyyədə olmalarını müşahidə etdiklərini qeyd etdi.*

*Dövlətimizin başçısı MDB dövlətlərindən olan müşahidəçilər missiyasının üzvlərinin həm seçkilərə hazırlıq prosesini, həm seçkilərin gedişini müşahidə etmələrindən, həmçinin onların Azərbaycanın regionlarında gedən inkişaf prosesləri ilə yaxından tanış olmalarından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev seçki prosesinin daha da təkmilləşdirilməsi, hər bir namizəd üçün bərabər şəraitin yaradılması və seçkilərin şəffaflığının təmin edilməsi ilə bağlı ölkəmizdə bütün lazımi addımların atıldığını bildirdi.*

## HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ VƏ DƏSTƏYİ İLƏ İNŞA OLUNMUŞ MƏKTƏB KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*9 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 9-da Bakının Nərimanov rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə inşa olunmuş məktəb kompleksinin açılışında iştirak etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışı bildirən lenti kəsdilər və bina ilə yaxından tanış oldular.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına diqqət və qayğısını əks etdirən fotostendlər, dövlət atributlarına aid xüsusi guşə yaradılmışdır.*

*Təhsil naziri Misir Mərdanov məlumat verdi ki, tikintisinə 2009-cu ilin yanvarında başlanılmış məktəb binası yüksək keyfiyyətlə və müasir tələblər səviyyəsində inşa olunmuşdur.*

*Təhsil ocağında məktəblilərin fiziki hazırlığının təşkilinə də diqqət yetirilmişdir. Müasir idman qurğuları ilə təmin edilmiş idman zalında həndbol, mini futbol, basketbol və digər idman növləri ilə məşğul olmaq üçün bütün şərait yaradılmışdır. Burada 250 tamaşaçı yeri olan üzgüçülük hovuzu da vardır. Məktəbdə ibtidai hərbi hazırlıq kabineti də fəaliyyət göstərəcəkdir.*

*Bina havalandırma, videomüşahidə və yanğın həyəcanı sistemi ilə təchiz edilmişdir.*

*Prezident İlham Əliyev və xanımı sinif otaqlarında, fənn kabinetlərində, kitabxanada, yeməkxanada və idman zalında yaradılmış şəraitlə tanış oldular.*

*Dövlətimizin başçısı görülmüş işlərdən razılığını bildirdi.*

## DÖVLƏT BAYRAĞI MUZEYİNİN AÇILIŞI MƏRASİMİ

*9 noyabr 2010-cu il*

*Noyabrın 9-da – Dövlət Bayrağı günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Muzeyinin açılışında iştirak etmişlər.*

*Muzey Azərbaycan prezidentinin müvafiq sərəncamı ilə inşa olunmuş və bu il sentyabrın 1-də təntənəli açılış mərasimi keçirilmiş Dövlət Bayrağı Meydanında yaradılmışdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə səkkizguşəli ulduz formasında yaradılmış muzey Dövlət Bayrağı Meydanında bayraq dirəyinin pyedestalının altında yerləşir.*

*Dövlətimizin başçısı İlham Əliyev açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.*

*Azərbaycanlı memar və dizaynerlərin layihələri əsasında qurulan və tərtibatında müasir dizayn texnologiyalarından istifadə olunan muzeydə müxtəlif dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin, xanlıqların, o cümlədən İrəvan xanlığının bərpa olunmuş bayraqları, həmçinin XVII–XVIII əsrlərə aid bayraqların uc elementləri, gerblər, Azərbaycan Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, poçt markaları, pul nişanlarının nümunələri, orden və medalları, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin yaranması, formalaşması və inkişafını, prezident İlham Əliyevin ölkəmizin tərəqqisi ilə bağlı fəaliyyətini əks etdirən çoxsaylı fotolar və sənədlər, ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin prezident seçildikdən sonra andiçmə mərasimlərində öpdükləri dövlət bayraqları, Silahlı Qüvvələrin Ali Baş Komandanının bayrağı, Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqları və mərasim geyimləri nümayiş olunur.*

*Dünyada bu cür nadir muzeylərdən biri olan Dövlət Bayrağı Muzeyində, həmçinin Ginnes dünya rekordları təşkilatının Azərbaycanın Dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edən sertifikatı, müxtəlif kitablar, fotoşəkillər, 1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədəki səfirliyinin binası üzərində dalğalanmış bayraq da nümayiş olunur. Buradakı eksponatların çoxu ilk dəfə nümayiş etdirilir. Muzeydə multimedia qurğusu da vardır.*

*Muzeylə tanışlıqdan sonra prezident İlham Əliyev Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonra dövlətimizin başçısı Dövlət Bayrağı Meydanının ətrafında aparılan abadlıq-quruculuq işləri ilə tanış oldu.*

*Məlumat verildi ki, hazırda Dövlət Bayrağı Meydanının ətrafında tikinti və abadlıq işləri sürətlə davam etdirilir. Ərazidə kiçik parklar, istirahət guşələri və yaşıllıq zolaqları yaradılır.*

*Bu işlər prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2010-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında dövlətimizin başçısının Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanı istiqamətində genişləndirilməsi ilə bağlı tapşırıqlarına əsasən həyata keçirilir. İşlərin tam yerinə yetirilməsi üçün ərazidə bəzi köçürülmələr də aparılacaqdır. Dövlət Bayrağı Meydanından sonrakı hissənin abadlaşdırılması üçün də gələcəkdə ayrıca layihə hazırlanacaqdır.*

*Prezident İlham Əliyev işlərin yüksək səviyyədə və keyfiyyətlə aparılmasına dair tapşırıq və tövsiyələrini verdi.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ APARILAN İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*9 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 9-da Heydər Əliyev Mərkəzində aparılan inşaat işlərinin gedişi ilə tanış olmuşlar.*

*Azərbaycan prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, onun dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideyalarının dərindən öyrənilməsi və inkişaf etdirilməsi məqsədi ilə «Heydər Əliyev Mərkəzinin yaradılması haqqında» 2006-cı il 29 dekabr tarixli və «Heydər Əliyev Mərkəzinin yaradılması ilə bağlı əlavə tədbirlər haqqında» 2007-ci il 24 yanvar tarixli sərəncamlar imzalamışdır. Heydər Əliyev Mərkəzi dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliğ olunması və hərtərəfli inkişaf etdirilməsi məqsədi ilə yaradılır. Mərkəz ölkənin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayacaq beynəlxalq səviyyəli tədbirlərin, müxtəlif konfransların, sərgilərin və görüşlərin keçirilməsinə imkan verəcəkdir.*

*Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin xatirəsini əbədiləşdirəcək memarlıq abidəsi kimi ucaldılan bu Mərkəz müasir texnologiyalarla təchiz edilmiş salonları özündə birləşdirən çoxfunksiyalı və çoxşaxəli struktura malik olacaqdır. Heydər Əliyev Mərkəzinin memarı beynəlxalq müsabiqə komissiyası tərəfindən birinci yerə layiq görülmüş dünya şöhrətli «Zaha Hadid Architects» şirkətidir. Tikinti işlərini «DİA Holdinq FZCO» şirkəti həyata keçirir.*

*Layihəyə əsasən, Heydər Əliyev Mərkəzi üç başlıca tərkib hissəsini və iki yardımçı strukturu özündə birləşdirəcəkdir. Mərkəzin başlıca tərkib hissəsi nadir əsərlər fonduna və ümumdünya*

*məlumat vasitələrinə onlayn rejimdə giriş imkanlarına malik kitabxana və media mərkəzindən, milli və dünya təsviri sənət incilərinin nümayiş etdiriləcəyi sərgi-salonlardan, ölkəmizin tarixindən, mədəni irsindən bəhs edən multimedia və virtual sərgilərə aid muzey və mədəni irs mərkəzindən, 1000 nəfərə yaxın tamaşaçı tutan konfrans zalından ibarət olacaqdır.*

*Yardımçı struktura isə Mərkəzin iki girişi önündə yerləşən ümumi ictimai sahə – foye, günün bütün saatlarında fəaliyyət göstərəcək 1250-yə yaxın avtomobilin dayanacaq parkı və infrastruktur obyektləri daxildir.*

*Dövlətimizin başçısına layihə əsasında görülən tikinti işləri barədə məlumat verildi. Bildirildi ki, layihəyə əsasən Mərkəzin inşa ediləcəyi ümumi ərazi 15,25 hektara bərabərdir. Ümumi ərazinin 2 hektara yaxını əsas binanın və tikililərin yerləşdiyi torpaq sahəsi, 13,25 hektarı isə landşaft ərazisidir. Qeyd olundu ki, Heydər Əliyev Mərkəzi bir məkanda yerləşən və vahid kompleks təşkil edən üç əsas strukturdan ibarət olacaqdır.*

*Kompleksin ümumi tikinti sahəsi 57 min kvadratmetr təşkil edəcəkdir. Bu struktura 10.854 kvadratmetr sahəsi olan muzey və mədəni irs mərkəzi, 985 nəfərlik konfrans salonu, 27.880 kvadratmetr ərazisi olan çoxməqsədli zal və 12.920 kvadratmetr sahəyə malik kitabxana və media mərkəzi daxil olacaqdır. Bütövlükdə əsas binanın ümumi istifadədəki sahəsi 60.390 kvadratmetr olacaqdır.*

*Bildirildi ki, kitabxananın daxili ərazisi açıq olacaq, yalnız bir neçə yer arakəsmələr ilə əhatə ediləcəkdir. Burada oxucuların və media mərkəzinin istifadəçilərinin fərdi və ya qrup halında məşğul olmaq imkanları olacaqdır. Buradakı bir sıra otaqların səs izolyasiyası sistemləri ilə təchiz olunacağı nəzərdə tutulur. Ümumi sahəsi 10.854 kvadratmetr olan muzey və mədəni irs mərkəzi isə üç hissədən ibarət olacaqdır. 6 metr hündürlüyündə birinci hissədə XX əsr və müasir Azərbaycan incəsənəti qalereyası yerləşəcəkdir. Müasir milli və dünya incəsənət əsərlərinin nümayiş olunacağı ikinci hissədə müvəqqəti, dəyişkən sərgi qalereyaları fəaliyyət göstərəcəkdir. Üçüncü hissədə isə Azərbaycan, xalqımız, tariximiz,*

*dövlətçiliyimiz və mədəniyyətimiz barədə geniş yayımlanan bilgilər, habelə milli və digər kolleksiyaların nümayişi keçiriləcək qalereyalar yerləşəcəkdir. Bu sərgilərin vahid blok təşkil edərək binanın ikinci mərtəbəsində yerləşəcəyi bildirildi. Ümumi sahəsi 27.880 kvadratmetr təşkil edəcək sütunsuz, geniş və hündür konfrans zalı texniki və logistika baxımından Mərkəzin ən mürəkkəb hissəsidir. Konfrans zalında tədbir iştirakçıları üçün ayrıca giriş, nəqliyyatla təminat, səhnə və səhnəarxası rekvizitlərlə təchizatın asanlıqla reallaşdırılması, xidməti giriş, tikilinin arxa və ön tərəfləri arasında əlaqə, həmçinin əlillər üçün xüsusi giriş nəzərdə tutulur. Tamaşaçı oturacaqlarının sayı 1000-ə yaxın olacaqdır. Zal tamaşaçı və səhnə hissələrini, mətbuat mərkəzini, soyunub-geyinmə və dispetçer bölmələrini özündə birləşdirəcəkdir. Bildirildi ki, avtomobil dayanacağının ümumi sahəsi 39.420 kvadratmetr olacaqdır. Mərkəzin yeraltı avtomobil dayanacaq parkının 4 qatdan ibarət olacağı və üzərində mənzərəli yaşıllıq zolağı, istirahət və əyləncə təyinatlı infrastruktur yaradılacağı və bu ərazinin insanların ümumi istifadəsində olacağı bildirildi.*

*Heydər Əliyev Mərkəzində tikinti prosesinin gedişi ilə yaxından tanış olan dövlətimizin başçısı inşaat işlərinin yüksək keyfiyyətlə həyata keçirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

# İRAQIN TİCARƏT NAZİRİ ŞƏFAƏDDİN MƏHƏMMƏD ƏL-SAFİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da İraq Respublikasının Ticarət naziri Şəfaəddin Məhəmməd əl-Safinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla İraq arasında siyasi sahədə əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Ölkələrimizin beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq etdiyini, bir-birinə daim qarşılıqlı dəstək verdiyini qeyd edən prezident İlham Əliyev bu dəstəyin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi. İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı bu sahədə əlaqələrimizi inkişaf etdirmək üçün geniş imkanların olduğunu dedi və bu imkanlardan səmərəli istifadə etməyin zəruriliyini vurğuladı.*

*İraq Respublikasının Ticarət naziri Şəfaəddin Məhəmməd əl-Safi İraq prezidenti Cəlal Təlabaninin və İraqın Baş naziri Nuri əl-Malikinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, prezident İlham Əliyevi Azərbaycanın əldə etdiyi böyük nailiyyətlər münasibətilə təbrik etdi. İraqın Ticarət naziri Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin daha da genişlənməsinə, xüsusilə də iqtisadi sahədə əməkdaşlığın inkişafına böyük töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı İraq prezidenti Cəlal Təlabaninin və Baş nazir Nuri əl-Malikinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İraq prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEVLAX, FÜZULİ VƏ AĞDAM RAYONLARINA SƏFƏRİ

*11 noyabr 2010-cu il*

### Yevlaxda məcburi köçkünlər üçün inşa edilmiş yaşayış binaları kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10–11-də Yevlax, Füzuli və Ağdam rayonlarında səfərdə olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 10-da Yevlaxda məcburi köçkünlər üçün inşa edilmiş yaşayış binaları kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyev və xanımı mənzillərdə yaradılmış şəraitlə tanış oldular.*

*Kəlbəcərdən olan məcburi köçkün Qəzənfər Musayev ailəsi ilə birlikdə dövlətimizin başçısını və xanımını qarşıladı.*

**Qəzənfər Musayev**: Məcburi köçkünlər üçün saldığınız bu yeni şəhərciyə xoş gəlmisiniz!

**İlham Əliyev**: Sağ olun. Sizi təbrik edirəm. Belə gözəl, yaraşıqlı, müasir evlər tikilib. Bütün ölkəmiz abadlaşır, gözəlləşir, o cümlədən məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün də bütün işlər görülür. Məcburi köçkünlər üçün, bax, belə çoxmərtəbəli evlər rayonlarda ilk dəfədir ki, tikilir.

**Qəzənfər Musayev**: Azərbaycanın ucqar rayonlarında yaraşıqlı məktəb binaları tikdirmisiniz. Haraya gediriksə Sizin adınız çəkilir ki, bu məktəbi Mehriban xanım tikdirib.

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Qəzənfər Musayevin yeni mənzilində qonaq oldular.*

**Q ə z ə n f ər M u s a y e v**: Bu şəkil 1998-ci ildə çəkilib. Siz də rəhmətlik ulu öndər Heydər Əliyevlə birlikdə o tədbirdə olmusunuz. Mən onda çıxış elədim. Siz həmin bu döş nişanını mənə verdiniz. Sonra ulu öndər baxdı və soruşdu ki, o nə şəkillərdi maşınların üstündə, xeyir işdi? Dedim, hörmətli Heydər Əliyev, bu gün oğlumun xeyir işidir. Çıxarıb bir gül verdi. Bu gül həmin güldür. Mən bu gülü yadigar saxlayıram. Sizin atanızın, ulu öndərin öz əli ilə verdiyi həmin güldür. O gülü bu gün də biz ürəyimizin başında saxlayırıq. Qismətə bax, o vaxtı dəmir evdə olurduq, imkan yox idi. Rəhmətlik çalışırdı ki, qaçqınları birtəhər yerləşdirsin. İndi isə Siz mənə bu gözəllikdə evi bəxş etdiniz. Allah həmişə üstünüzdə yar olsun.

**İ l h a m Ə l i y e v**: Sağ olun. Bu göstərir ki, Azərbaycanda ulu öndər Heydər Əliyev siyasəti davam etdirilir. Azərbaycan onun qoyduğu yolla gedir. Bütün sahələrdə, o cümlədən məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün onun tərəfindən müəyyənləşdirilmiş siyasət bu gün də davam etdirilir. Dövlət Neft Fondunun birinci ödəmələri məhz bu məqsədlər üçün sərf olunmuşdur. O vaxt maddi imkanlarımız o qədər geniş deyildi. Nəyə imkanımız çatırdı, onu da edirdik. Ancaq bu gün Azərbaycan uğurla qabağa gedir, inkişaf edir, imkanımız vardır. Belə gözəl evləri biz yaradırıq. On minlərlə vətəndaşımızı biz yeni evlərlə, mənzillərlə təmin etdik. Ümumiyyətlə, biz 90 minə yaxın köçkünü belə gözəl evlərə, mənzillərə yerləşdirdik. Hər yerdə fərdi evlər, mənzillər tikilir, quruculuq-abadlıq işləri aparılır. Ancaq bu, necə deyərlər, müvəqqəti bir ünvandır. Torpaqlarımız işğaldan azad olunandan sonra həmin torpaqlarda bundan da gözəl evlər tikəcəyik.

**Q ə z ə n f ə r M u s a y e v**: İnşallah. Hörmətli Prezidentimiz, mən 1969-cu ildə sovet sədri işləyirdim. Həmin il ulu öndərimiz Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildi. O vaxtdan Azərbaycanın inkişafı başladı. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan keçmiş ittifaq respublikaları arasında keçici qırmızı bayrağı 11 il dalbadal əldən vermədi.

1965-ci ildə rəhmətlik Həsən Əliyev Qulu Xəlilov ilə qonağım olmuşdu. Kəlbəcərdən zəng vurdular ki, Qəzənfər, Həsən Əliyev gəlir, onu meşədə Nazran bulağının üstünə gətirəcəyik. Amma katiblə gəlmir, tək gələcək, meşələrin gözəlliyini tək seyr etmək onun xoşuna gəlir. Bizim zona da cənnətin bir guşəsi idi. Gəldi, axşama qədər qonağım oldu.

Mehriban xanım, Siz də Azərbaycan xalqı, Azərbaycanın balaları üçün çox işlər görmüsünüz. Allah balalarınızı gözünüzə çıraq etsin. Allah Sizi qorusun.

Mənim ürəyimdə çox söz vardır. Bircə arzum var, Allah eləsin, Kəlbəcər alınsın, mən gedim Kəlbəcərə, bu evdə nə vermisiniz, açarı ilə birlikdə bu rayonda kasıb adama təhvil verim.

**İ l h a m Ə l i y e v**: O gün də gələcək. Biz torpaqlarımızı alacağıq. Bizim indi bütün imkanlarımız vardır. Bu gün biz çalışırıq ki, məsələni danışıqlar yolu ilə həll edək. Ancaq bu hələ ki, mümkün deyildir. Bunun bir səbəbi vardır – Ermənistanın hərəkətləri. Yəni, Ermənistan torpaqlarımızı zəbt edib, orada etnik təmizləmə siyasəti aparıb, sonra o yerlərin, rayon mərkəzlərinin, kəndlərin adlarını dəyişdirib. Ancaq bunun heç bir mənası yoxdur, ad dəyişməklə heç nə dəyişmir. Dünyada heç kim o torpaqlarımızı, Kəlbəcəri, Ağdamı onların qoyduqları qondarma adlar ilə çağırmır. Ancaq buna baxmayaraq, biz gərək daha da güclü olaq. Biz güclənirik və gün gələcək torpaqlarımızı azad edəcəyik, Kəlbəcəri də, Laçını da, Şuşanı da. Xankəndidə də Azərbaycan bayrağı dalğalanacaqdır. Bu bizim torpağımızdır və bir qarış torpağımızı düşmənə verməyəcəyik.

Hələ ki, biz belə işlərlə istəyirik sizin yaşayış vəziyyətinizi yaxşılaşdıraq, az da olsa sizə təsəlli verək, həyatınızı yüngülləşdirək. Ancaq bir də demək istəyirəm ki, bu, müvəqqəti məskunlaşma yeridir. Torpaqlar azad olunandan sonra Kəlbəcərdə, Ağdamda, Laçında, Şuşada, Qubadlıda, Zəngilanda, Füzulidə, Cəbrayılda bundan da gözəl evlər tikəcəyik.

Bizim qüdrətli, peşəkar, mübariz ordumuz, Silahlı Qüvvələrimiz vardır. Onlar istənilən vəzifəni icra etməyə hazırdırlar. Bu qədər ki, biz ordu quruculuğuna diqqət göstəririk, son illər ərzində

o qədər ki, hərbi gücümüzü artırmışıq, istənilən anda və qısa müddət ərzində ərazi bütövlüyümüzü bərpa edə bilərik. Əminəm ki, düşmən də, bu məsələ ilə məşğul olan tərəflər də bunu bilirlər. İndiki zamanda heç nəyi gizlətmək mümkün deyildir. Biz müharibə şəraitində yaşayırıq. Bu qədər vəsait gedir bu məqsədlər üçün. İndi o vəsait başqa məqsədlərə də yönəldilə bilərdi.

Mən istəmirəm ki, yenidən qan tökülsün, yenidən qurban verək, yenidən şəhidlər olsun. İstəyirəm bunu danışıqlar yolu ilə, siyasi yolla, iqtisadi addımlarla həll edək. Bizim əlaqələndirilmiş şəkildə aparılan bütün siyasətimiz bu məqsədi güdür. Biz Ermənistanı bütün kommunikasiya imkanlarından təcrid etmişik. Artıq Ermənistan bir coğrafi və iqtisadi dalandır. Digər tərəfdən, indi bizim də, onların da imkanlarına baxın. Onlar xarici yardım olmadan yaşaya bilmirlər, xaricdən gələn yardımlar, ianələr hesabına yaşayırlar. Nə qədər bu cür yaşayacaqlar? Onlara o pulu, əlbəttə ki, elə-belə vermirlər. Onlara pul verənlər tələb edirlər ki, bunu belə et, onu elə et. Azərbaycandan kim nəyi tələb edə bilər?! Azərbaycan müstəqil dövlətdir, ölkəmiz öz xalqının iradəsi ilə idarə olunur.

Bu atəşkəs dövründə görün, biz hansı səviyyəyə gəlib çatmışıq, onlar hansı səviyyəyə düşüblər. Sadəcə olaraq, 16 il ərzində, bax, belə böyük bir fərq yaranıb. Düzdür, 16 ildir ki, vətəndaşlarımız əziyyət çəkir, öz torpaqlarına qayıda bilmirlər. Ancaq biz onları ora qaytaracağıq. Biz daha da güclü olmalıyıq və əgər danışıqlar səmərə verməsə, istənilən anda lazımi addımları atacağıq. Bir daha sizi ürəkdən təbrik edirəm.

* * *

*Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na əsasən yaradılmış kompleksin tikintisinə 2010-cu ilin aprelində başlanılmışdır. Binaların yerləşdiyi ümumi ərazi 10 hektardır.*

*Beşmərtəbəli 10 binada bir, iki, üç və dördotaqlı 612 mənzil vardır. Bu mənzillərdə şəraiti dözülməz olan ictimai obyektlərdə, yarımçıq tikililərdə müvəqqəti məskunlaşan və köçürülməsi zəruri olan məcburi köçkünlər yerləşdiriləcəkdir. Mənzillərdə yüksək şərait yaradılmışdır. Ərazidə klub-icma mərkəzi, inzibati bina inşa edilmişdir.*

*Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə yaradılan məhəllədə geniş abadlıq və yaşıllaşdırma işləri görülmüşdür. Burada 50 yerlik uşaq bağçası, 440 yerlik məktəb binaları, qazanxana, nasosxana, transformator yarımstansiyası tikilmiş, mənzillərə telefon, su və qaz xətləri çəkilmişdir. Məhəllədə dörd subartezian quyusu qazılmış, iki su anbarı tikilmiş, ümumi uzunluğu 2 kilometrdən çox olan asfalt-beton yol salınmışdır.*

*Dövlətimizin başçısı qəsəbədə yeni mənzil almış məcburi köçkünləri təbrik etdi.*

**İlham Əliyev**: Mən sizi ürəkdən salamlayıram. Bu gözəl, yeni şəhərciyin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Çox gözəl binalardır, yaraşıqlı mənzillərdir. İlk dəfə olaraq bölgələrdə məcburi köçkünlər üçün hündürmərtəbəli binalar tikilibdir. Bir deyil, iki deyil, beşmərtəbəli 10 bina tikilibdir. Burada 612 ailə yaşayacaqdır. Mən indi vəziyyətlə tanış oldum. Gördüm ki, çox gözəl, yaraşıqlı mənzillərdir. Bütün şərait yaradılıb, gözəl məktəb, tibb məntəqəsi, uşaq bağçası – burada yaşamaq üçün hər bir şərait, bütün imkanlar vardır. Bütün kommunikasiyalar – işıq, su, qaz xətləri çəkilib. Əminəm ki, siz burada rahat yaşayacaqsınız.

Bilirsiniz ki, Azərbaycan dövləti bu məsələ ilə bağlı – məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması ilə əlaqədar görülən işlərin davam etdirilməsi üçün bütün addımları atır. Xüsusi proqramlar qəbul edilmişdir. Proqramlar icra edilir, bu məqsədlər üçün çoxlu vəsait sərf olunmuşdur. On minlərlə məcburi köçkün artıq yeni mənzillərə, evlərə köçürüldü. Bütün çadır şəhərcikləri ləğv edildi. Artıq 3 ildir ki, Azərbaycanda «çadır şəhərciyi» anlayışı yoxdur. Biz bu vəzifəni qısa müddət ərzində icra etdik. İndi belə gözəl, yaraşıqlı evləri tikirik ki, soydaşlarımız müvəqqəti olaraq yaxşı şəraitdə yaşasınlar.

Bütün bu işləri görmək üçün, əlbəttə ki, maliyyə imkanları və düşünülmüş siyasət lazımdır. Bütün bu evlər və ölkəmizin müxtəlif bölgələrində məcburi köçkünlər üçün tikilmiş qəsəbələr Dövlət Neft Fondunun vəsaiti hesabına yaradılır. Bu əslində dövlət vəsaitidir. Ulu öndər Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində Neft fondu yaradılıb və artıq orada böyük vəsait yığılıbdır. İlk ödənişlər məhz bu məqsədlərə sərf olunmuşdur. Hər il kifayət qədər vəsait nəzərdə tutulur. Əgər maliyyə imkanlarımız olmasaydı, biz bu işləri görə bilməzdik. Təkcə maliyyə imkanlarının mövcudluğu hələ məsələnin lazımi səviyyədə həll olunması demək deyildir. Siyasi iradə və düşünülmüş siyasət lazımdır. Biz çalışırıq və çalışacağıq ki, sizi müvəqqəti olaraq yaxşı şəraitlə təmin edək. Dövlət Proqramının icrası nəticəsində gələcəkdə əlavə tədbirlər görüləcək, fin qəsəbələri ləğv ediləcək, məktəblərdə, hərbi hissələrin ərazilərində məskunlaşmış soydaşlarımız da yeni evlərə köçürüləcəklər.

Qeyd etdiyim kimi, bu, müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra biz həmin torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, yeni kəndlər, qəsəbələr salınacaqdır. Erməni qəsbkarları işğal edilmiş torpaqlarda, demək olar ki, bütün binaları, infrastrukturu dağıdıblar. İşğal edilmiş bölgələrə bu yaxınlarda bizim təşəbbüsümüzlə ezam olunan ATƏT-in qiymətləndirmə missiyası da öz gözü ilə görüb və biz hazırda onlardan ədalətli, reallığı əks etdirən hesabat gözləyirik. Orada ermənilər hər şeyi dağıdıblar, böyük qəddarlıq göstəriblər. Biz torpaqlarımızı qaytarandan sonra orada böyük işlər görəcəyik. Artıq ilkin hesablamalar da aparılmışdır.

Biz çalışırıq ki, məsələ tezliklə öz həllini tapsın. Uzun illərdir ki, soydaşlarımız qaçqın-köçkün şəraitində yaşayırlar. Beynəlxalq normaları pozan Ermənistan əfsuslar olsun ki, beynəlxalq hüquqa hörmət etmir, Birləşmiş Millətlər Təşkilatının qərarlarına məhəl qoymur. Digər beynəlxalq təşkilatların da hamısının qərarları bizim mövqeyimizi dəstəkləyir və erməni işğalçı qüvvələrinin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Ancaq Ermənistan tərəfi buna əməl etmir. Belə olan halda qarşımızda

duran seçim o qədər də böyük deyildir. Ya siyasi və diplomatik səylərimizi davam etdirmək və iqtisadi üstünlüyümüzü hərbi üstünlüyə çevirərək torpaqlarımızı azad etmək – bizim əsas vəzifəmiz ondan ibarətdir – ya da ki, danışıqlar naminə sadəcə olaraq, danışıqlar aparmaq. Azərbaycan dövləti ona heç vaxt getməyəcəkdir. Məqsədimiz beynəlxalq hüququ, ərazi bütövlüyümüzü bərpa etməkdir. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunmalıdır. Bu bizim suveren hüququmuzdur. Biz istəyirik ki, məsələni danışıq yolu ilə, sülh yolu ilə həll edək. Ancaq görünür ki, Ermənistan tərəfi sadəcə olaraq, vaxt uzatmaqla məşğuldur və buna görə danışıqlar prosesində yeni mərhələ başlanır. Biz Ermənistandan təklif olunmuş məsələlərə cavab gözləyirik. Əgər cavab müsbət olmasa, onda öz siyasətimizə, əlbəttə ki, dəyişiklik edəcəyik.

Sirr deyil ki, biz ordu quruculuğunu uğurla inkişaf etdiririk. Bizim hərbi gücümüz artır, müdafiə qabiliyyətimiz möhkəmdir. Vətənpərvərlik ruhu, peşəkarlıq yüksək səviyyədədir. Mən şübhə etmirəm ki, Silahlı Qüvvələrimiz qarşıda duran vəzifəni ləyaqətlə və qısa müddət ərzində icra edə bilər. Mən şübhə etmirəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu həqiqət tələb edir, bunu tarix tələb edir və bu gün bölgədə yaranmış qüvvələr nisbəti buna dəlalət edir. Ermənistan heç vaxt Azərbaycan ilə rəqabət aparmaq gücündə olmayacaqdır. Bu gün də bu mümkün deyildir və illər keçdikcə aramızda olan uçurum daha da dərinləşəcəkdir. Bizim üçün bir dövlət kimi, əsas vəzifə ancaq və ancaq öz ərazi bütövlüyümüzü bərpa etməkdir. Qarşımızda bundan vacib vəzifə yoxdur. Bu bizim ümummilli işimizdir. Bütün Azərbaycan xalqı bu məqsədə çatmaq üçün səylərini birləşdiribdir və getdikcə gücümüz daha da təsirli, atdığımız addımlar daha da ciddi olacaqdır. Ona görə, əgər ermənilər bir balaca qabağa baxsalar, görərlər ki, bu işğalçı siyasətin gələcəyi yoxdur. Sadəcə olaraq bu, zamanın hökmü və Azərbaycanın, ordumuzun artan gücü ilə həll olunacaqdır. Mən buna şübhə etmirəm və əminəm ki, biz doğma torpaqlarımızı qaytaracağıq. Bu gün qaçqın-köçkün həyatı yaşayan soydaşlarımız doğma torpaqlarına qayıdacaqlar.

Hələlik isə əlimizdən gələni edirik ki, sizin həyatınızı bir az yüngülləşdirək. Belə gözəl, yaraşıqlı evlər tikilib. Mən ümid edirəm ki, siz burada rahat yaşayacaqsınız. Ancaq bilirəm ki, doğma torpağınızı heç vaxt unutmayacaqsınız və unutmursunuz, siz də, gənc nəsil də.

Mən sizi bir daha ürəkdən salamlayıram, təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, sizin həyatınızda hər şey yaxşı olsun.

* * *

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva 30 nömrəli tam orta məktəbin açılışında iştirak etdilər.*

*Dövlətimizin başçısı məktəbin açılışını bildirən lenti kəsdi, təhsil ocağında yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, ikimərtəbəli məktəb binası müasir üslubda inşa edilmişdir. Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsilə diqqət və qayğılarını, məcburi köçkünlərlə görüşlərini əks etdirən fotostendlər, həmçinin Kəlbəcər rayonunun işğaldan əvvəl və sonrakı vəziyyətini əks etdirən faktların və fotoların, milli qəhrəmanlar haqqında məlumatların toplandığı lövhə yaradılmışdır. Məktəbdə 35 sinif otağından əlavə, fizika-astronomiya laboratoriyası, metal emalı və dülgərlik emalatxanası, tarix, ana dili və ədəbiyyat, riyaziyyat, coğrafiya, kimya-biologiya, ibtidai hərbi hazırlıq, informatika, xarici dillər, dərzilik və rəsm kabinetləri yaradılmışdır. Təhsil ocağında müxtəlif tədbirlərin keçirilməsi üçün 146 yerlik akt zalı da vardır.*

*Şagirdlərin bədən tərbiyəsi və idmanla məşğul olmaları üçün məktəbdə hər cür şərait yaradılmışdır. Məktəbin ərazisində futbol, voleybol və basketbol meydançaları da tikilmişdir.*

*Prezident İlham Əliyev idman zalında məktəblilərin nümunəvi çıxışlarını izlədi.*

*Məktəblilər dövlətimizin başçısı ilə xatirə şəkli çəkdirdilər.*

# HORADİZDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*11 noyabr 2010-cu il*

*Noyabrın 11-də Azərbaycan prezidenti İlham Əliyev Füzuli rayonuna gəlmişdir.*

*Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası cəbhə bölgəsi olan Füzuli rayonunda da əsaslı inkişafa təkan vermişdir və bu inzibati ərazidəki yaşayış məntəqələrinin siması sürətlə müasirləşməkdədir. Əsasən kənd təsərrüfatı rayonu olan Füzulidə heyvandarlıq və quşçuluq geniş inkişaf etmişdir. 2004-cü ildən bu günədək 1372 daimi, 6 minə yaxın mövsümi iş yeri açılmışdır. Rayonda təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin inkişafına xüsusi diqqət göstərilir, onların maddi-texniki bazası ilbəil möhkəmləndirilir.*

*Dövlətimizin başçısı əvvəlcə Horadiz şəhərinin mərkəzindəki Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət etdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

*Dövlətimizin başçısına parkda aparılmış abadlıq işləri barədə məlumat verildi. Bildirildi ki, son aylarda parkda yenidənqurma işləri aparılmış, təzə yaşıllıq zolaqları salınmışdır.*

## Muğam Mərkəzinin açılışı mərasimi

*Prezident İlham Əliyev noyabrın 11-də Füzuli rayonuna səfəri çərçivəsində Horadiz şəhərində Muğam Mərkəzinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və mərkəzdə yaradılmış şəraitlə tanış oldu.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin milli musiqimizə qayğı və diqqətini əks etdirən fotostend vardır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Mərkəzin tikintisinə ARDNŞ-in Sosial İnkişaf İdarəsi tərəfindən 2010-cu ilin mayında başlanılmışdır. Üç hektar ərazisi olan mədəniyyət ocağı prezident İlham Əliyevin göstərişi ilə inşa olunmuşdur. Azərbaycanın qədim musiqi alətlərindən olan tar formasında tikilmiş Mərkəz üçmərtəbəlidir və bir-birinə bitişik üç korpusdan ibarətdir. Mərkəzə aid olan muğam məktəbində müxtəlif təyinatlı 31 sinif otağı yerləşir. Binanın divarlarında Azərbaycanın muğam ustadlarının, habelə milli musiqi alətlərimizin şəkilləri asılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mərkəzin eskiz layihəsinə baxdılar.*

*İkinci və üçüncü mərtəbələrdə mühazirə və məşğələ otaqları vardır. Dövlətimizin başçısı məşğələnin gedişini izlədi.*

*Mərkəzdəki 320 yerlik örtülü konsert zalı ilə tanışlıq zamanı bildirildi ki, zal müasir akustika sistemi və işıq effektləri ilə təchiz edilmişdir.*

*Prezident İlham Əliyev və xanımı zalda Füzuli rayonunun «Qarabağ» instrumental ansamblının və gənclərin ifasında «Qarabağ şikəstəsi»ni dinlədilər.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 11-də Horadiz Olimpiya İdman Kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi, kompleksdə yaradılmış şəraitlə tanış oldu.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin idmanın inkişafına və idmançılara diqqət və qayğısını əks etdirən fotostend yaradılmışdır.*

*Məlumat verildi ki, tikintisinə 2009-cu ilin fevralında başlanılmış kompleks 5 hektar sahəni əhatə edir. Burada 30 yerlik mehmanxana, basketbol və voleybol meydançası, 500 yerlik zal, tennis kortu, 1860 tamaşaçı yeri olan futbol meydançası, avtomobil dayanacağı vardır. Olimpiya İdman Kompleksinə, həmçinin soyunub-geyinmə otaqları, duşxana, sauna və masaj otaqları, tibb məntəqəsi, bufet, inzibati otaqlar və yataq otaqları daxildir. Kompleksin ərazisində su anbarı, su çəni qülləsi, elektrik yarımstansiyası da inşa olunmuşdur. Ərazidə abadlıq işləri aparılmış, yaşıllıq zolağı salınmışdır.*

*Prezident İlham Əliyev yaradılmış şəraiti yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## FÜZULİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*11 noyabr 2010-cu il*

*Noyabrın 11-də Horadiz Olimpiya İdman Kompleksinin açılışından sonra Azərbaycan prezidenti İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar!

Əziz füzulililər, əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl, əlamətdar bir gündür. Füzuli rayonunda gözəl Olimpiya İdman Kompleksi açılır. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Bilirsiniz ki, Azərbaycanda idmanın inkişafına çox böyük diqqət göstərilir. İdman Azərbaycanda artıq çox sürətlə inkişaf edibdir. Bizim idmançılar Azərbaycanın üçrəngli bayrağını beynəlxalq arenalarda yüksəklərə qaldırırlar. Dünya, olimpiya çempionatlarında idmançılarımız Vətənimizi ləyaqətlə təmsil edirlər. Son illər ərzində idman sahəsində görülən işlər bizi çox sevindirir. Beynəlxalq idman ictimaiyyəti də uğurlarımızı qiymətləndirir. Azərbaycan artıq idman dövləti kimi özünü tanıtdıra bilmişdir. Həm idmançılarımızın uğurlu çıxışları, eyni zamanda, gənc nəslin yetişdirilməsi işləri Azərbaycanda çox sürətlə gedir. Təsadüfi deyil ki, gənclərimiz, yeniyetmələrimiz bu yaxınlarda keçirilmiş gənclər arasındakı I Olimpiya oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmişlər və dünya miqyasında 10-cu yeri tuta bilmişlər. Bu onu göstərir ki, bizdə idmanda ardıcıllıq var,

gənc nəsil yetişir. Bunu etmək, əlbəttə ki, idmanla məşğul olmaq üçün şərait lazımdır. Bax, belə gözəl olimpiya komplekslərinin tikintisi Azərbaycanda çox geniş vüsət almışdır. Mən çox şadam ki, bu gözəl, möhtəşəm olimpiya kompleksi Füzulidə tikilmişdir və bütün standartlara cavab verir. İdmanla məşğul olmaq üçün bütün şərait vardır. Bu imkanlardan təkcə idmançılar deyil, eyni zamanda, rayon sakinləri də istifadə edəcəklər. Burada hər cür şərait yaradılıb. Əminəm ki, Azərbaycan gələcəkdə də idman sahəsində beynəlxalq olimpiya hərəkatında öz sözünü deyəcək və idmançılarımız ölkəmizi ləyaqətlə təmsil edəcəklər.

İdman sağlamlıq, sağlam həyat tərzi deməkdir. İdmanda qazanılan qələbələr insanların vətənpərvərlik hisslərini daha da gücləndirir. Biz gənclərimizi vətənpərvərlik ruhunda tərbiyə etməliyik, onlar Vətən üçün işləməlidirlər, çalışmalıdırlar, Vətəni müdafiə etməlidirlər. Bugünkü gənclər bir neçə ildən sonra Azərbaycanın inkişafında fəal rol oynayacaqlar. Biz elə etməliyik ki, ölkəmizin inkişafı dayanıqlı, uzunmüddətli olsun, biz müstəqil dövlət kimi, bundan sonrakı bütün dövrlərdə də həmişə yüksək səviyyədə olaq.

Bu gün Azərbaycan hərtərəfli inkişaf edir. Ölkəmizdə iqtisadi potensialın gücləndirilməsi, sosial məsələlərin həlli, infrastruktur layihələrinin uğurla icrası artıq reallıqdır. Biz buna daxili imkanlarımız hesabına nail ola bilmişik. Azərbaycanın beynəlxalq nüfuzu artır, bölgədəki rolumuz möhkəmlənir. Azərbaycan bu bölgədə bir neçə önəmli təşəbbüsün müəllifidir və təşəbbüslərimiz reallaşır. Bu, ölkəmizi daha da gücləndirir. Azərbaycanda vətəndaş həmrəyliyi tam bərqərar olunubdur. Xalqla iqtidar arasında birlik mövcuddur. Bu amillər hər bir ölkənin inkişafı üçün əsas şərtlərdir. Nəzərə alsaq ki, Azərbaycanda siyasi sabitliklə bərabər, dünya miqyasında ən sürətli iqtisadi inkişaf da müşahidə olunur, onda biz görərik ki, ölkəmizin inkişafı həqiqətən çoxşaxəlidir.

Bölgələrdə gedən işlər məni çox sevindirir. Bilirsiniz ki, bölgələrin inkişafına çox böyük diqqət göstərilir. Azərbaycan bölgələrin inkişafı ilə zənginləşəcəkdir. Biz çalışmalıyıq ki, bütün rayonlarda, qəsəbələrdə, kəndlərdə normal yaşayış üçün yaxşı şərait

olsun, sosial məsələlər həllini tapsın, bütün infrastruktur layihələri icra edilsin. Son illər bölgələrdə aparılan işlər bizə bugünkü reallığı bəxş edir. Şəhərlərimiz gözəlləşir, abadlaşır, yollar, elektrik, qaz xətləri çəkilir, bütün infrastruktur yeniləşir. Bu, böyük vəsait tələb edən məsələlərdir. Ancaq biz bunu edirik və etməliyik ki, ölkəmizi hərtərəfli inkişaf etdirək.

Baxmayaraq ki, il hələ başa çatmayıbdır, artıq yekunlardan söhbət etmək mümkündür. Yekunlar göstərir ki, 2010-cu il də Azərbaycan üçün uğurlu olmuşdur, qarşıda duran bütün vəzifələr icra edilmişdir və biz gələcəyə də çox böyük nikbinliklə baxırıq. Bizim artıq güclü sənaye potensialımız, böyük maliyyə imkanlarımız vardır, iqtisadi inkişaf təmin edilibdir və ən önəmlisi, Azərbaycan xalqı öz taleyinin sahibidir. Siyasətimizi özümüz müəyyən edir, formalaşdırır və aparırıq. Azərbaycan bölgədə müstəqil siyasət aparan ölkələrdəndir. Bu siyasətin əsas mahiyyəti Azərbaycan xalqının milli maraqlarını təmin etməkdir. Biz bunu edirik və bundan sonra da edəcəyik.

Mən çox şadam ki, bu gün Füzuli rayonunda bir neçə gözəl tədbirdə iştirak edirəm. Buraya gəlməzdən əvvəl yeni, gözəl Muğam Mərkəzinin – muğam evinin açılışında iştirak etmişəm. Çox gözəl, möhtəşəm Muğam Mərkəzidir. Orada həm sinif otaqları, həm də gözəl konsert zalı, yay konsert zalı yaradılıbdır. Mən çox şadam ki, memarlığı ilə seçilən belə möhtəşəm və gözəl muğam evi məhz Füzulidə – Qarabağ torpağında fəaliyyətə başlayır.

Bu gün Füzulidə tibb mərkəzinin açılışı da gözlənilir. Bu da çox vacib obyektdir. Mənim təşəbbüsümlə tikilmişdir və istifadəyə veriləcəkdir. Yəni burada tibb məsələlərinin ən yüksək səviyyədə həll olunması üçün bütün şərait vardır. Artıq tibbi xidmət üçün başqa yerə getməyə ehtiyac qalmır. Burada ən müasir avadanlıqlar quraşdırılıb. Ümid edirəm ki, tibb mərkəzində çalışan həkimlər vətəndaşlara yaxşı xidmət göstərəcəklər.

Bu sahə də bizim üçün prioritet sahədir. Hər bölgədə idman kompleksləri, gözəl xəstəxanalar, diaqnostika mərkəzləri tikilir. Bu, insanların normal yaşaması üçün lazımdır. Əgər ölkənin təkcə

bir şəhəri, paytaxtı inkişaf edirsə, bölgələr geridə qalırsa, o ölkənin böyük gələcəyi ola bilməz. Bizim siyasətimiz ondan ibarətdir ki, ilk növbədə, bölgələr canlansın, inkişaf etsin. 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul edilməsi məhz o məqsədi güdürdü. Biz qarşıya qoyduğumuz məsələlərə nail olduq – Azərbaycanda 900 min yeni iş yerləri açılmışdır. Minlərlə yeni müəssisələr, fabriklər, zavodlar, sosial obyektlər, 2 mindən artıq məktəb, yüzlərlə xəstəxana – bunlar bizim gördüyümüz işlərdir.

Müharibədən əziyyət çəkmiş bölgələrdə belə gözəl binaların, müəssisələrin yaradılması, əlbəttə ki, xüsusi məna daşıyır. Siz, burada yaşayan insanlar yaxşı bilirsiniz ki, buralar erməni işğalı altında idi. Füzuli rayonunun, demək olar ki, hamısı işğal altına düşmüşdü. Amma Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində Füzuli rayonunun müəyyən hissəsi işğalçılardan azad edildi. Burada bütün binalar dağıdılmışdı, yandırılmışdı. Bu binalar bərpa olundu. Minlərlə bina, sosial infrastruktur bərpa olundu, Horadiz qəsəbəsinə şəhər statusu verildi. Bu gün abadlıq işləri aparılır, gözəl müəssisələr, obyektlər açılır. Burada qazlaşdırma aparılır və mən göstəriş vermişəm ki, bu iş daha da sürətlə görülsün. Füzuli rayonunun qaz problemi maksimum dərəcədə öz həllini tapmalıdır.

Azərbaycan istənilən məsələnin həlli üçün böyük imkanlara malikdir. Buralar hamısı dağıdılmışdı. Bu gün Horadiz gözəlləşir, abadlaşır, müasirləşir. Ermənistan şəhərləri ilə müqayisə aparsaq, şəhərlər arasında yerlə göy qədər fərq vardır. Bu onu göstərir ki, biz işğal altında qalan torpaqlara qayıdandan sonra orada belə gözəl şərait yaradacağıq. Orada da binalar, evlər tikiləcək, gözəl parklar salınacaqdır. O gün gələcək, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik!

Azərbaycan son illər ərzində çox güclənibdir. Bunu həm düşmən, həm də dünya bilir. Onu da bilirik ki, bundan sonrakı illərdə biz daha da güclü dövlət quracağıq, daha da qüdrətli Azərbaycan quracağıq! Bizim iradəmiz, siyasətimiz, imkanlarımız və maliyyə mənbələrimiz vardır. Bizim üçün işğal edilmiş torpaqların azad olunmasından vacib məsələ yoxdur. Demək olar

ki, ciddi məsələlərin arasında buna bənzər və ikinci belə məsələ yoxdur. Çünki biz bütün başqa sahələrdə istədiyimizə nail oluruq. İnsanların yaşayış səviyyəsi yüksəlir, sosial müdafiə güclənir, iqtisadiyyat artır.

Dağlıq Qarabağ məsələsinin həlli bizim üçün ən birinci, ən ümdə vəzifədir. Bütün gücümüzü səfərbər etmişik ki, bu məsələni həll edək, istənilən yolla həll edək. Əlbəttə, çox yaxşı olar ki, bunu sülh yolu ilə, müharibəsiz, dinc yolla həll edək. Ancaq əfsuslar olsun ki, hələ bu mümkün deyildir. Çünki Ermənistanın qeyri-konstruktiv mövqeyi və danışıqların süni şəkildə uzadılması siyasəti, bax, bugünkü vəziyyətin dondurulmasına xidmət göstərir. Biz səylərimizi qoyacağıq, siyasətimizi gücləndirəcəyik. Onsuz da biz bu gün Ermənistanı bütün regional işlərdən təcrid etmişik. Bu siyasət davam etdiriləcəkdir. Ermənistan daha da ağır iqtisadi və sosial vəziyyətə düşəcəkdir. Mənim buna şübhəm yoxdur. Əgər Ermənistana xaricdən maddi yardımlar göstərilməsəydi, çoxdan o ölkədə iqtisadi və sosial şərait dözülməz vəziyyətə düşərdi. Azərbaycanın imkanları ilə Ermənistanın imkanlarını müqayisə etmək mümkün deyildir. Əgər müharibə dövründə, xüsusilə Ermənistana o vaxt göstərilmiş xarici dəstək nəticəsində, demək olar ki, qüvvələr nisbəti bərabər idisə, artıq biz çoxdan bu qüvvələr nisbətini öz xeyrimizə dəyişdirə bilmişik. Getdikcə Azərbaycan həm iqtisadi, həm siyasi cəhətdən, ordu quruculuğu baxımından daha da güclənəcək və biz istədiyimizə nail olacağıq. Azərbaycan xalqı, hər bir vətəndaş öz zəhməti ilə o günü yaxınlaşdırır.

Əziz füzulililər, mən bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Mən hər dəfə Füzulidə olanda, yenilikləri görəndə çox sevinirəm. Əminəm ki, siz də bu fikirlərə şəriksiniz. Bir daha sizi təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

## Böyük Bəhmənli kəndində tibb mərkəzinin açılışı mərasimi

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 11-də Füzuli rayonunun Böyük Bəhmənli kəndində tibb mərkəzinin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı əvvəlcə Mərkəzin kollektivini təbrik etdi.*

**İlham Əliyev:** Sizi təbrik edirəm! Gözəl tibb mərkəzi yaradılıb. 2 il bundan əvvəl burada tikinti ilə tanış olmuşdum. Bu gün artıq hazırdır. Bu gözəl, yaraşıqlı, geniş tibb mərkəzinin çox böyük əhəmiyyəti vardır. Siz, tibb işçiləri bunu yaxşı bilirsiniz. İnsanlara yüksək səviyyədə tibbi xidmətin göstərilməsi üçün belə mərkəzlər mütləq lazımdır. Bilirsiniz ki, indi müxtəlif bölgələrdə diaqnostika, müalicə mərkəzləri tikilir. Mən çox istəyirdim ki, Füzulidə də belə gözəl, müasir Mərkəz tikilsin. Bu çox vacibdir. Burada yaşayanlar üçün vacibdir. Bütün Azərbaycanımız üçün lazımdır.

Mən qeyd etmişdim ki, buralar hamısı işğal altında idi. Ermənilər bu bölgələri zəbt etmişdilər. Sonra Azərbaycan Ordusu bu torpaqları azad etdi, yenidənqurma-bərpa işləri başlandı. Birinci mərhələdə, əlbəttə ki, maliyyə çətinliklərimiz var idi, imkanlarımız o qədər də geniş deyildi. Amma Azərbaycan dövləti nəyimiz var idi sərf edirdi ki, burada bərpa işləri getsin. Ancaq indiki şəraitdə ki, maliyyə imkanlarımız vardır, biz bu işləri mütləq görməliyik və gördük.

İşğaldan əvvəl Füzulidə belə gözəl xəstəxana olmamışdır, belə gözəl idman kompleksi, yaxud da ki, bu gün açdığım muğam evi, ümumiyyətlə, yox idi. Bütün bunlar memarlıq əsərləridir. Mən bilirəm, keçən dəfə də burada tikinti ilə tanış olarkən, bu gün də məlumat verildi, indi baxacağam, burada ən qabaqcıl avadanlıqlar quraşdırılıb. İnkişaf etmiş ölkələrin əsas şəhərlərində hansı avadanlıqlar varsa, burada da vardır. Burada doğum şöbəsi də, dializ də vardır. Böyrək çatışmazlığından əziyyət çəkənlər hara getməli idilər? Ya başqa şəhərlərə, ya da ki, ümumiyyətlə, müalicəsiz qalırdılar. İndi burada müalicə olunacaqlar. Lap bir nəfər olsa belə, onun üçün biz burada şərait yaratmalıyıq. Çünki bu indi elə xəstəlikdir ki, bunun müalicəsi

vardır. Elə xəstəliklər var ki, həkimlər əlacsız qalırlar, amma elə xəstəliklər də var ki, müalicə oluna bilər. Sadəcə olaraq, ya dərman yox idi, ya da avadanlıq. İndi hər şey var.

Burada doğum şöbəsinin yaradılması da çox vacibdir. Azərbaycanda, ümumiyyətlə, uşaq ölümünün səviyyəsi aşağı düşür. Bu həmişə bizim üçün böyük problem idi. Veteran həkimlər bilirlər, Sovet İttifaqı zamanında həmişə bu göstərici, əfsuslar olsun ki, Azərbaycanda yüksək idi. Amma indi həm şərait yaradılır, həm maarifləndirmə işləri aparılır, doğum şöbələri, müasir avadanlıqlar, həkimlərin təcrübəsi artır. Bizim üçün çox ağır olan bu problem indi öz həllini tapıbdır. O ki qaldı həkimlərə, tibb işçilərinə, gərək xəstələrə yaxşı baxsınlar. Əminəm ki, belə də olacaqdır. Belə gözəl şəraitdə işləmək xoşdur.

Mən üç gözəl açılışda iştirak etdim – bu gözəl xəstəxana, muğam evi, idman kompleksi. Bu obyektlər ictimai, sosial, mədəni xarakter daşıyır. Bu obyektlərin tikilməsinə qoyulan sərmayə iqtisadiyyata qoyulan sərmayə deyil ki, sabah biz buradan gəlir gözləyək. Yox, qoyulan bu sərmayə əslində gələcəkdə əlavə vəsait tələb edəcəkdir. Çünki burada müalicə pulsuz olacaq və Füzuli rayon sakinləri bunu bilməlidirlər, gəlməlidirlər, diaqnostikadan keçməlidirlər. Hər bir vətəndaş ildə bir dəfə pulsuz müayinədən keçməlidir və bilməlidir ki, sağlıq vəziyyəti necədir, harada nə etmək lazımdır, hansı müalicəni almalıdır? Bax, bura, əlbəttə ki, pulsuz olacaq, ona görə əlavə vəsait tələb edir. İdman kompleksi də, Muğam Mərkəzi də gəlirlə işləməyəcək, orada nə gəlir ola bilər?! Sadəcə olaraq, yerli uşaqlar, gənclər üçün şərait yaratmışıq. Bu investisiyalar insan kapitalına qoyulan investisiyalardır və Azərbaycan dövləti burada heç bir iqtisadi maraq güdmür. Misal üçün, yollar, fabriklər, zavodlar, əlbəttə, qoyulan investisiyaları nə vaxtsa qaytaracaqdır. Bunlar isə yox, bu, sırf sosial xarakter daşıyan işlərdir. Bu işləri ona görə görürük ki, Azərbaycan vətəndaşları hər yerdə, hər bir bölgədə belə gözəl imkanlardan istifadə etsinlər. Azərbaycan vətəndaşları buna

layiqdirlər. Dünyanın ən yaxşı təcrübəsi burada olmalıdır, buraya gətirilməlidir. İndi biz buna nail oluruq. Sizi bir daha təbrik edirəm, uğurlar arzulayıram.

**S a k i n:** Gün o gün olsun Sizi Mehriban xanımla birlikdə Füzuli şəhərində qarşılayaq.

**İ l h a m Ə l i y e v:** Bəli, o gün də gələcəkdir. Füzuli şəhərində bundan da gözəl xəstəxanalar, binalar tikiləcəkdir. Horadizin abadlaşması hamımız üçün bir nümunədir. Bunu biz etmişik, Azərbaycan xalqının və dövlətinin imkanları hesabına. İşğal altında qalan torpaqlarımız azad olunandan sonra orada da belə gözəl şərait yaradılacaqdır. Biz Füzuli şəhərini də mütləq bərpa edəcəyik. Sizi bir də təbrik edirəm.

* * *

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi, Mərkəzdə yaradılmış şəraitlə tanış oldu.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin səhiyyənin inkişafına diqqət və qayğısını əks etdirən fotostend vardır.*

*ARDNŞ-in prezidenti Rövnəq Abdullayev məlumat verdi ki, tibb mərkəzinin inşasına 2008-ci ilin fevralında başlanılmışdır. Mərkəz 1,5 hektar ərazidə yerləşir. Füzuli rayonunun Böyük Bəhmənli kəndinin yaxınlığında, magistral yolun kənarında inşa olunmuş Mərkəzin xidmətlərindən ətraf kəndlərin sakinləri də istifadə edəcəklər.*

## AĞDAMIN QUZANLI QƏSƏBƏSİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*11 noyabr 2010-cu il*

*Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayonuna gəlmişdir.*

*Azərbaycan dövlətinin hərtərəfli dəstəyi ilə Ağdam rayonunda istehsalın həcmi artır, əhalinin həyat şəraitinin yaxşılaşması üçün ardıcıl kompleks tədbirlər həyata keçirilir. Cari ildə ötən ilin müvafiq dövrü ilə müqayisədə bütün maliyyə mənbələri hesabına əsas kapitala 4 dəfədən çox investisiya yönəldilmişdir. Rayonda tikinti-quraşdırma işləri ilbəil genişlənir, abadlıq və yaşıllaşdırma tədbirləri görülür. Kənd təsərrüfatının inkişafı da diqqət mərkəzindədir. Ağdamın işğal edilməmiş ərazilərində əhali üçün fərdi evlərin tikintisi diqqətdə saxlanılır. İnfrastrukturun müasirləşdirilməsi və əhalinin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də xeyli işlər görülmüşdür. İlin əvvəlindən bəri rayonda 413 yeni iş yeri açılmış, 715 nəfər mövsümi işlərə cəlb edilmişdir.*

*Dövlətimizin başçısı və xanımı Quzanlı qəsəbəsinin mərkəzindəki Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət etdilər.*

*Prezident İlham Əliyev və Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

## Mərkəzi xəstəxananın yeni binası ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 11-də Quzanlı qəsəbəsində Ağdam Rayon Mərkəzi Xəstəxanasının yeni binası ilə tanış olmuşlar.*

*Xəstəxananın ikimərtəbəli əsas binasının birinci mərtəbəsinin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin səhiyyənin inkişafına diqqət və qayğısını əks etdirən fotostend vardır.*

*Dövlətimizin başçısı səhiyyə ocağının köhnə və yeni binalarının şəkilləri əks olunmuş fotoguşəyə baxdı.*

*Məlumat verildi ki, xəstəxananın əvvəlki binası yararsız vəziyyətə düşdüyündən dövlətimizin başçısının tapşırığı ilə yeni binanın tikintisinə başlanılmış və 2 il müddətində müasir tipli 50 çarpayılıq bina inşa olunmuşdur. Ən müasir avadanlıqlarla təchiz olunmuş xəstəxana nəinki Ağdamdan, eyni zamanda, qonşu rayonlardan olan xəstələrin müalicə və əməliyyat olunmalarına imkan yaradacaqdır. Birinci mərtəbədə yerləşən poliklinika şöbəsi stomatologiya, oftalmologiya və USM kabinetləri, nevropatoloq, manipulyasiya və fizioterapiya otaqlarından ibarətdir. Doğum şöbəsi də birinci mərtəbədə yerləşir.*

*Bildirildi ki, xəstəxananın yardımçı binalarında qazanxana, su anbarı, generator, paylayıcı elektrik qurğuları quraşdırılmış və rentgen şöbəsi yaradılmışdır. Ərazi abadlaşdırılmış, yaşıllıq zolağı salınmışdır. Xəstəxanaya gələn yola asfalt örtüyü salınmış, işıqlandırma sistemi quraşdırılmışdır. Prezident İlham Əliyevin tapşırığı ilə Səhiyyə Nazirliyi tərəfindən xəstəxanaya müasir avadanlıqla təmin olunmuş «Mercedes» markalı 2 təcili tibbi yardım avtomobili verilmişdir.*

*Xəstəxananın Baş həkimi Gülnar Abbasova dövlətimizin başçısına kollektiv adından dərin minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Ağdam Rayon Mərkəzi Xəstəxanasının kollektivinə uğurlar arzuladı.*

## Məcburi köçkün ailələri üçün salınmış yeni qəsəbənin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 11-də Ağdam rayonunda məcburi köçkün ailələri üçün salınmış yeni qəsəbənin açılışı mərasimində iştirak etmişlər.*

*Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov prezident İlham Əliyevə Ağdam rayonu ərazisində 689 məcburi köçkün ailəsi üçün inşa edilmiş yeni qəsəbə barədə məlumat verdi. Bildirildi ki, dövlətimizin başçısının tapşırığı əsasında məcburi köçkünlərin məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə salınan bu qəsəbə lazımi infrastrukturla təmin olunmuşdur. Ərazisi 70 hektar olan qəsəbədə inşa olunmuş evlərin ümumi sahəsi 37 min 187 kvadratmetrdir. Hər bir evin 6 sot torpaq sahəsi vardır. Qəsəbədə 1000 kilovatlıq transformator quraşdırılmış, elektrik hava xətləri çəkilmişdir. Qəsəbəyə 20 kilometr içməli su xətti, 34 kilometrə yaxın qaz xətti çəkilmiş, 4 qaztənzimləyici məntəqə quraşdırılmışdır. Burada müasir standartlara cavab verən yol infrastrukturu yaradılmışdır. Sahəsi 1,7 hektar olan park qəsəbə sakinlərinin əsl istirahət mərkəzinə çevriləcəkdir.*

*Qarabağ müharibəsi veteranı Oruc Cabbarov ailəsi ilə birlikdə yeni evinin qarşısında dövlətimizin başçısını və xanımını qarşıladı.*

**Oruc Cabbarov:** Cənab Prezident, xoş gəlmisiniz! Sizi bizə hədiyyə etdiyiniz evə çay süfrəsinə dəvət edirik.

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məcburi köçkün Oruc Cabbarovun evində qonaq oldular.*

**İlham Əliyev**: Neçə kvadratmetrdir?

**Əli Həsənov** (*Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri*)**:** Dörd otaq, ümumi sahəsi 85 kvadratmetrdir.

**İlham Əliyev:** Yaxşıdır, bütün şərait vardır. Bundan əvvəl hansı şəraitdə, harada yaşayırdınız?

**O r u c   C a b b a r o v:** 18 ildir çox çətin şəraitdə fin qəsəbəsində yaşayırdıq. Bu gün çox sevinirik. Allah Sizdən razı olsun ki, bizə belə şərait yaratmısınız. Özümüz də evə girəndə gözlərimizə inanmadıq.

**İ l h a m   Ə l i y e v:** Sağ olun. Mən çox şadam ki, bu evlər çox keyfiyyətli tikilir. Böyük proqramdır, bu, Ağdam rayonunda tikilən 17-ci qəsəbədir. Başqa rayonlarda da bu işlər gedir. Elə etməliyik ki, işğaldan əziyyət çəkən soydaşlarımız müvəqqəti də olsa, yaxşı şəraitlə təmin edilsinlər. Siz özünüz hansı kənddənsiniz?

**O r u c   C a b b a r o v:** Ağdamın Əhmədavar kəndindən. Özümüz 1988-ci ildən 1996-cı illədək döyüş bölgələrində olmuşuq. Yaxşı şücaətlərimiz olub, qəhrəmanlıq da göstərmişik. Əlalxüsus fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı ilə əlaqədar. Oralar bizə yaxın olub, aramız 8-10 kilometr idi. O vaxt biz orada yüzə yaxın insanı xilas etmişik. Bu barədə dərsliklərdə göstərilir.

**Ə l i   H ə s ə n o v:** Maraqlı tarixçəsi vardır. Fevralın 26-da Xocalı qırğını zamanı camaatı oradan çıxarmaq lazım idi. Bunların könüllü batalyonu gedib ora, o cümlədən, bu özü də. Bu həmin adamdı, qucağında uşaq Xocalıda. Həmin şəxsdir, tarix dərsliyinə də salınıb.

**M e h r i b a n   Ə l i y e v a:** Bizi qarşılayan sizin qızlarınız idi? İki qızınız var?

**Q a d ı n**: Bəli, iki qız, bir oğul.

**İ l h a m   Ə l i y e v:** Minlərlə belə evlər tikilib son illər ərzində, minlərlə. Əvvəlki dövrdə camaatımız çadır şəhərciklərində, yeraltı qazmalarda yaşayırdı. İndi qəsəbələr, yollar, məktəblər tikmişik. Böyük vəsait tələb olunur bu məqsədlər üçün, amma etməliyik. Halbuki, hamımız bilirik ki, bunlar müvəqqəti ünvandır. Sizin kəndiniz işğal altındadır. İşğal altından çıxandan, biz o bölgələri azad edəndən sonra orada da evlər tikəcəyik. Bilirsiniz ki, ermənilər Ağdam şəhərini darmadağın ediblər. Orada bir dənə də salamat bina qalmayıb! Bütün binalar dağıdılıb, yerlə yeksan edilib. Ancaq biz oraya qayıdandan sonra bərpa edəcəyik, daha da gözəl vəziyyətə gətirəcəyik. İndi isə hələlik birinci mərhələdə, əlbəttə ki, biz insanları çadır şəhərciklərindən

köçürməli idik. O dözülməz vəziyyətdə yaşamaq mümkün deyildi. Onu etdik. İndi fin qəsəbələrini yığışdırırıq, orada yaşayanlar üçün belə qəsəbələr salınır. Sizdən sonra bu bölgələr genişlənəcək, bizdə əhali artır. Bizdə demoqrafik vəziyyət Ermənistandan fərqli olaraq müsbət istiqamətdə inkişaf edir. Bu evlərdə sizdən sonra vətəndaşlarımız yaşayacaqlar. Burada bütün infrastruktur yaradılıb – məktəb, tibb məntəqəsi, icma mərkəzi, evlər. Təkcə bu qəsəbədə 700-ə qədər ev tikilib.

**Ə l i H ə s ə n o v:** Bəli, 52 min nəfəri çadır şəhərciklərindən çıxarmısınız. Axırıncı çadır şəhərciyini 2007-ci ildə ləğv etdiniz. 25 mini də bunlar kimi, fin qəsəbələrində yaşayırdı.

**İ l h a m Ə l i y e v:** Ağdam rayonunun ərazisində nə qədər əhali vardır?

**N i z a m i S a d ı q o v** ***(****Ağdam Rayon İcra Hakimiyyətinin başçısı****):*** 90 minə qədər əhali vardır. Hörmətli cənab Prezident, Sizin tapşırığınızla buraya qaz çəkilişindən sonra təkcə son bir ildə 20–25 minə qədər əhali qayıdıb. Ötən qışda artıq biz burada qazdan istifadə etdik.

**İ l h a m Ə l i y e v:** Mən Dövlət Neft Şirkətinə göstəriş vermişəm ki, bu bölgələrə, Ağdam–Füzuli bölgəsinə xüsusi diqqət göstərilməlidir, qazlaşdırma burada tezliklə getməlidir.

**Ə l i H ə s ə n o v:** Gedir. Sizin gəldiyiniz ən axırıncı qəsəbəyə də artıq qaz çəkilib. O qəsəbələr ki, açılışını etmişik, onların hamısında qaz vardır.

**İ l h a m Ə l i y e v**: Bəs başqa kəndlərdə?

**N i z a m i S a d ı q o v:** Demək olar ki, 90 faizi qazlaşdırılıb. Artıq evlərdə işləyirlər. Hesab edirəm ki, bu qışda hamısı qazla təmin olunacaqdır.

**İ l h a m Ə l i y e v:** Vəzifə elə qoyulub ki, qısa müddət ərzində – bu il, maksimum gələn ilin ortalarına qədər Ağdam rayonunun bütün kəndləri qazla təmin olunacaqdır.

* * *

*Prezident İlham Əliyevə Qarabağ cinsindən olan at hədiyyə edildi.*

*Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bildirdi ki, Ağdam atçılıq sovxozu 1948-ci ildə yaradılıb. İndi burada 500-dək at vardır. Çar Rusiyası dövründə orduda 9 min Qarabağ atı olub.*

*Dövlətimizin başçısı və xanımı burada tanınmış ağdamlı muğam ustaları ilə görüşüb söhbət etdilər.*

**M ə n s u m  İ b r a h i m o v** (*Xalq artisti* ): Cənab Prezident, mən bu fürsətdən istifadə edib Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Məni dövlətimizin ali mükafatı – «Şöhrət» ordeni ilə təltif etmisiniz. Təbii ki, bu təkcə mənə yox, bütün muğam sahəsinə, muğam ifaçılarına verilən mükafatdır. Mən hamımızın adından təşəkkür edirəm.

Ulu öndərimizin qoyduğu yol Sizin sayənizdə çox ləyaqətlə, çox uğurla davam etdirilir. Mən Sizin icazənizlə Mehriban xanıma təşəkkür etmək istəyirəm. Muğamımızın bu gün dünyada tanınmasında Mehriban xanımın çox böyük əməyi, zəhməti vardır. Həmişə bizlərə xüsusi diqqəti və qayğısı vardır. Bütün Qarabağ camaatı adından, sənət adamları adından Sizə dərin təşəkkürlərimizi bildirmək istəyirəm. Sizi əmin edirəm ki, bundan sonra da biz bütün səy və bacarığımızı muğamımızın inkişafına sərf edəcəyik.

**İ l h a m  Ə l i y e v:** Bir daha yubiley münasibətilə sizi təbrik edirəm.

* * *

*Gənc yerli muğam ustaları da məharətlərini nümayiş etdirdilər. Azərbaycan muğamının təkrarolunmazlığını və xalqımızın qan yaddaşında dərin iz buraxdığı həqiqəti uşaqların heyranlıq doğuran ifaları bir daha təsdiq etdi.*

*Sonra dövlətimizin başçısı qəsəbədə yeni mənzil almış məcburi köçkünləri təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu yeni, gözəl qəsəbənin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Gözəl qəsəbədə müvəqqəti olaraq əziz soydaşlarımız yaşayacaqlar.

Burada bütün şərait yaradılıb, 700-ə qədər gözəl ev tikilib. Bu gözəl məktəb, tibb məntəqəsi, icma mərkəzi, bir sözlə, yaşamaq üçün burada bütün şərait yaradılıb. Bu, birinci belə qəsəbə deyildir, artıq 17-ci qəsəbədir. Mən çox şadam ki, Ağdam əhalisinin əksəriyyəti artıq Ağdam rayonunun ərazisində məskunlaşıbdır və yaşayır. Əminəm ki, burada növbəti illərdə yaradılacaq şəraitin hesabına daha da böyük sayda ağdamlılar doğma rayonlarına gələcəklər. İndi rayonda abadlıq-quruculuq işləri aparılır. Böyük qazlaşdırma proqramı icra edilir, infrastruktur yaradılır. Bu gün Ağdam rayon xəstəxanasında oldum. Əvvəlki səfərlərdə Olimpiya İdman Kompleksinin, stadionun açılışını qeyd etmişdik. Yəni, biz çalışırıq ki, Ağdam rayonunun bu ərazisində ən müasir şərait yaradılsın.

Məcburi köçkünlərin və qaçqınların yaşayış problemlərinin həlli üçün Azərbaycan dövləti çox işlər görür, böyük vəsait ayrılıbdır. Bütün bu işləri Azərbaycan Dövlət Neft Fondunun hesabına görə bilmişik. Təkcə Ağdamda deyil, bütün başqa bölgələrdə müasir qəsəbələr salınır, hündürmərtəbəli evlər tikilir. Dünən Yevlax rayonunda beşmərtəbəli 10 evin açılışında iştirak etmişəm. Yəni, iki gündə 1300 ailə müasir evlərlə, mənzillərlə təmin edilibdir. Biz bundan əvvəlki dövrdə də bu işləri görmüşük. Görülən bu işlərin hesabına 90 minə qədər məcburi köçkün yeni evlə təmin olunubdur. Artıq 3 ildir ki, Azərbaycanda çadır şəhərcikləri yoxdur. Biz onları aradan qaldırdıq. Onların əvəzinə belə gözəl, yaraşıqlı evlər tikdik.

Bizim proqramımızda növbəti illərdə daha da böyük işlərin görülməsi nəzərdə tutulur. Hələ ki, fin evlərdə, məktəblərdə, hərbi hissələrin ərazilərində, yataqxanalarda məskunlaşan vətəndaşlarımızı da belə gözəl şəraitlə təmin edəcəyik. Ancaq mən həmişə vurğulayıram, bu gün də demək istəyirəm ki, bu, müvəqqəti yaşayış məskənidir. Ağdam şəhəri, başqa kəndlər, bu gün işğal altında qalan kəndlər azad olunandan sonra biz orada da böyük işlər görəcəyik. Ağdam şəhərini yenidən quracağıq. Orada daha da gözəl, yaraşıqlı binalar tikəcəyik.

Burada – Ağdam, Füzuli rayonlarında, Horadiz şəhərində – hansı ki, vaxtilə ermənilər tərəfindən işğal edilmişdir və Azərbaycan Ordusu tərəfindən 1994-cü ildə azad olunmuşdur – görülən bərpa-yenidənqurma işləri açıq-aydın göstərir ki, biz istənilən məsələnin həlli üçün bütün gücümüzü səfərbər edəcəyik. Necə ki, biz Horadizi bərpa etdik və orada gözəl şərait yaratdıq, eləcə də bu gün hələ də işğal altında qalan bütün başqa ərazilərdə yenidənqurma, bərpa işlərini aparacağıq. O cümlədən Ağdam şəhərini yenidən quracağıq. Çünki hələ 2005-ci ildə bizim təşəbbüsümüzlə ATƏT-in faktaraşdırıcı missiyası işğal edilmiş bölgələrə ezam olunarkən orada gördüklərini sonra öz hesabatında əks etdirdi və o fotoşəkillər, videomateriallar göstərir ki, ermənilər Ağdamı nə günə salıblar.

Bu yaxınlarda yenə də bizim təşəbbüsümüzlə ATƏT-in qiymətləndirmə missiyası işğal edilmiş bölgələrdə, o cümlədən Ağdam şəhərində olmuş, ermənilərin vəhşiliklərini bir daha öz gözləri ilə görmüşdür. Ağdamda bir dənə də salamat bina qalmamışdır. Bütün binalar dağıdılıb, sökülüb. Binalardan bütün əşyalar erməni talançıları, erməni oğruları tərəfindən aparılıb, talan edilibdir. Ona görə biz o bölgələrə, Ağdama qayıdandan sonra yenidən o gözəl tarixi şəhərimizi bərpa edəcəyik. Bizim buna gücümüz, iradəmiz çatacaqdır. Mən ümid edirəm ki, biz Ağdamı və bu gün işğal altında qalan başqa şəhərlərimizi qısa müddət ərzində tam bərpa edəcəyik.

Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Ərazi bütövlüyümüz bütün dünya tərəfindən tanınır. Azərbaycan müstəqilliyə qovuşanda, Birləşmiş Millətlər Təşkilatına üzv olanda ölkəmizin ərazi bütövlüyü hələ o vaxt tanınmışdır. Bu gün dünyada elə ölkə yoxdur ki, Azərbaycanın ərazi bütövlüyünü tanımasın. Bu çox vacib məsələdir. Bəzən bizə belə gələ bilər ki, beynəlxalq hüquq normaları tərəfimizdə olduğu halda, məsələ həllini tapmır. Bu həqiqətdir. Bu bizi çox üzür və incidir. Ancaq beynəlxalq hüquq hər bir məsələnin ədalətli və qanun çərçivəsində həll olunması üçün başlıca şərtdir. Dünya birliyi beynəlxalq hüququn əsasında yaşayır. Ona görə beynəlxalq təşkilatların

qərarları, qətnamələri, mövqeyimizi gücləndirən bu qərarlar bu gün reallığa çevrilməsə də, öz əhəmiyyətini itirmir. Biz çalışırıq ki, Qarabağ məsələsinə beynəlxalq diqqət daha da güclənsin. Yəni, bu məsələ dünya gündəliyindən düşməsin, yaddaşdan silinməsin, beynəlxalq təşkilatlar daim bu məsələni öz gündəliyində saxlasınlar. Diplomatik və siyasi səylərimiz buna yönəldilib və buna nail ola bilmişik.

Bu gün dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın haqq işini öz qərarları, qətnamələri ilə təsdiqləyirlər. Birləşmiş Millətlər Təşkilatı, İslam Konfransı Təşkilatı, Avropa Şurası, ATƏT, Avropa parlamenti – yəni bunlar dünyanın aparıcı təşkilatlarıdır və Azərbaycanın mövqeyi bu təşkilatların qətnamələrində əks olunur və beynəlxalq hüquqa istinad edilir.

Biz bu səylərimizi davam etdirəcəyik ki, siyasi-hüquqi və diplomatik əsaslar daha da möhkəm olsun. Bununla bərabər, biz Azərbaycanda aparılan uğurlu siyasəti davam etdirəcəyik, iqtisadi gücümüzü artıracağıq. İqtisadi güc olmasa, bu qəsəbələrin tikilməsi mümkün olmazdı. Biz müharibədən sonra ilkin mərhələdə bəzi işləri xarici yardımın hesabına görə bilmişik. Ancaq sonra o yardım dayandı. Beynəlxalq təşkilatların, donor təşkilatlarının da fəaliyyətində müəyyən çərçivələr vardır. Onlar tərəfindən uzunmüddətli yardım göstərmək mümkün deyildir. Əgər bizdə güclü iqtisadi potensial yaradılmasaydı, qısa müddət ərzində bu işləri görə bilməzdik. Nəinki bu işləri görməklə, həm də Azərbaycanı gücləndirməklə artıq həm danışıqlar prosesində, həm bölgədə gedən proseslərdə vəziyyəti köklü şəkildə öz xeyrimizə dəyişdirə bilmişik.

Bu gün Azərbaycan böyük hörmətə malik olan, öz siyasətini özü müəyyən edən, iqtisadi, siyasi cəhətdən tam müstəqil ölkədir. Heç kimdən asılı deyildir. Belə olan halda biz daha da çevik və sərbəst siyasət aparmağa qadirik. Bu reallıqları biz yaratmışıq. Bu gün özünü guya qalib kimi təqdim etməyə çalışan Ermənistan Azərbaycandan bütün parametrlər üzrə 5-10 dəfə geridə qalıbdır. Nədir bu dırnaqarası qələbənin mənası?! Erməni xalqı səfalət içində yaşayır, orada heç bir iqtisadi perspektivlər yoxdur. Xarici ianələr,

xarici dəstək, kreditlər – onlar yalvara-yalvara gətirirlər ölkələrinə – olmasaydı, bu gün, ümumiyyətlə, Ermənistan çox acınacaqlı vəziyyətə düşə bilərdi. Ancaq Azərbaycan öz hesabına yaşayır. Ermənistandan fərqli olaraq, bizdə əhali, iqtisadiyyat, hərbi güc artır. Bu gün Azərbaycan Ordusu Ermənistan ordusundan qat-qat üstündür. Əgər 1992–93-cü illərdə xarici dəstək olmasaydı, onlar torpaqlarımızı işğal edə bilərdimi? Əlbəttə ki, yox. Siz – işğaldan əziyyət çəkən insanlar yaxşı bilirsiniz ki, torpaqlarımız necə işğal olunubdur. Bir tərəfdən, Azərbaycanın yarıtmaz rəhbərliyi, hakimiyyət uğrunda gedən mübarizə, daxili çəkişmələr, digər tərəfdən, ermənilərə xaricdən verilən maddi və hərbi dəstək nəticəsində torpaqlarımız işğal altına düşübdür. Bugünkü Azərbaycanın torpağını kimsə işğal edə bilərmi? Heç vaxt! Əgər o vaxt Azərbaycanın başında ulu öndər Heydər Əliyev olsaydı, Azərbaycan torpaqları heç vaxt işğal altına düşə bilməzdi. O tarixi vaxt itirilmişdir. Azərbaycanda hərc-mərclik, xaos, anarxiya, böhran, xaricdən olan müdaxilələr, yerli icra orqanlarının iflic vəziyyətə düşməsi, siyasi hakimiyyətin xəyanəti, qorxaqlığı bu vəziyyətə gətirib çıxarmışdır.

Ancaq bu gün vəziyyət tam başqadır. Azərbaycan bölgədə istənilən məsələni həll edə bilər. Bizim razılığımız olmadan bölgədə heç bir ciddi məsələ öz həllini tapa bilməz.

Bu gün açıq demək istəyirəm ki, biz ordu quruculuğu işlərimizi davam etdirəcəyik. Biz artıq peşəkar, mübariz ordu yaratmışıq, böyük sayda silah-sursat almışıq. İstənilən anda ordumuz öz sözünü deyəcəkdir. Heç kim istəmir ki, müharibə olsun. Ancaq biz bu vəziyyətlə də heç vaxt barışmayacağıq. Ermənistan bilir və bilməlidir ki, səbrimizin də hüdudları vardır. Səbrimiz tükənməz deyildir.

Ancaq Ermənistanın hərəkətləri onu göstərir ki, bu ölkə sülh istəmir. Sülh istəyən ölkə bəyan etməz ki, onlar Ağdamın adını dəyişdirirlər. Birincisi, bu tamamilə mənasızdır. Ağdamın adını heç kim dəyişdirə bilməz. Bugünkü Ermənistan şəhərlərinin hamısı vaxtilə Azərbaycan adlarını daşıyıbdır. Sonra onların adları dəyişdirildi, erməniləşdirildi. İrəvandan tutmuş Göyçə gölünə

qədər, Zəngəzur, Cəlaloğlu – bütün bu şəhərlərin adları Azərbaycan xalqı ilə bağlıdır. Ermənilər bizim ərazimizə köçürülmüşlər. Sonra o bölgələr erməniləşdirildi və bu gün Ağdamın adını dəyişdirmək istəyirlər. Bir daha demək istəyirəm ki, sülh istəyən tərəf belə çirkin işlərlə heç vaxt məşğul olmaz. Bir də ki, bu tamamilə mənasız işlərdir. Vaxtilə onlar Laçın, Kəlbəcər rayonlarının adlarını dəyişdirməyə cəhd etmişdilər. Kim onu qəbul etdi? Özlərindən başqa heç kim. Özləri də heç vaxt nə Laçını, nə Kəlbəcəri o qondarma adlarla çağırmırlar. Bizim danışıqlar prosesində o qondarma adlar yoxdur. Müzakirə olunan sənədlərdə, ermənilərin müzakirə etdiyi sənədlərdə Kəlbəcər, Laçın rayonları öz adları ilə göstərilir. Sadəcə olaraq, bu çirkin əməllər ermənilərin xislətini bir daha göstərir. Onu göstərir ki, onlar burada, Cənubi Qafqazda öz qonşuları ilə normal münasibətlərdə yaşamaq istəmirlər. Onlar işğalçı siyasətini davam etdirmək, indiki vəziyyəti saxlamaq istəyirlər. Buna onların gücü çatacaqmı? Çatmayacaq! Azərbaycan artıq keçən əsrin 90-cı illərinin əvvəllərindəki Azərbaycan deyildir, nə əhali, nə güc və nə də iradə baxımından.

Mən şübhə etmirəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik, vətəndaşlarımızı doğma dədə-baba torpaqlarına qaytaracağıq. O torpaqlarda yeni həyat başlanacaq, şəhərlər bərpa olunacaqdır. Mən buna əminəm, buna şübhə etmirəm və hamımız işimizlə o günü yaxınlaşdırmalıyıq. Ancaq biz hələ ki, qaçqın və köçkünlərin vəziyyətini yaxşılaşdırırıq, yaxşılaşdıracağıq. Bu qəsəbə bu siyasətin nəticəsidir, onun əlamətidir. Bir daha sizi ürəkdən salamlayıram. Doğma Qarabağ torpağında olmağımdan çox məmnunam, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

* * *

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva 440 şagird yeri olan 18 nömrəli Ağdam rayon orta məktəbinin açılışında iştirak etdilər.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu.*

*Prezident İlham Əliyevə qəsəbənin baş planı nümayiş etdirildi.*

*Məlumat verildi ki, ikimərtəbəli məktəb binası müasir üslubda inşa olunmuşdur. Məktəbin birinci mərtəbəsində sinif otaqları ilə yanaşı, yeməkxana, fizika və riyaziyyat kabinetləri yerləşir. Kitabxanada isə klassik və müasir Azərbaycan, habelə dünya ədəbiyyatı nümunələri toplanmışdır. Birinci mərtəbədə eləcə də Ağdam rayonu ərazisində tapılmış tarixi arxeoloji eksponatlardan ibarət sərgi vardır.*

*Məktəbin ikinci mərtəbəsində ulu öndər Heydər Əliyev və prezident İlham Əliyevin təhsilə diqqət və qayğısını əks etdirən fotoguşələr yaradılmışdır. Burada akt zalı, fizika və biologiya kabinetləri təşkil olunmuşdur. Məktəbdə Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələrdən bəhs edən guşə də vardır. Tarix, Azərbaycan dili və gənclərin çağırışqabağı hazırlığı, kompyuter otaqları, fənn kabinetləri və laboratoriya ən müasir tədris avadanlıqları ilə təchiz edilmişdir.*

*İdman zalında isə basketbol, güləş və voleybol məşğələləri keçiriləcəkdir. Prezident İlham Əliyev burada gənc idmançıların nümunəvi çıxışlarını izlədi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, qəsəbənin ərazisində inşa olunmuş 50 yerlik uşaq bağçasında geniş və işıqlı otaqlar, müxtəlif oyun zalları, məktəbəqədər hazırlıq şöbəsi vardır.*

*Qəsəbənin mərkəzində ayrıca inzibati bina və müxtəlif yığıncaqların keçirilməsi üçün 152 yerlik iclas zalı olan klub-icma mərkəzi də inşa edilmişdir.*

**İRAQ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CƏLAL TƏLƏBANİYƏ**

Hörmətli cənab Prezident!

İraq Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–İraq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İraq xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 noyabr 2010-cu il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının mənəvi birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən islam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur.

Qurban bayramı islamın bir din kimi tamamlanması və mənəvi-əxlaqi qurtuluş yolu olaraq insanlara bəxş edilməsi ilə əlamətdardır. Bu mübarək gündə müsəlmanlar Uca Tanrıya yaxınlığın, ilahi dəyərlərə bağlılığın sevinc və fərəhini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Hər il ölkəmizdə böyük təntənə ilə keçirilən qurban mərasimləri cəmiyyətimizdə bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının parlaq təcəssümünə çevrilir.

Əziz bacı və qardaşlarım!

Bu günlər xalqımızın və dövlətimizin əmin-amanlığı və rifahı naminə etdiyiniz duaların, kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması arzusu ilə bir daha hər birinizə, dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirirəm. Qoy bu nurlu bayram ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Qurban bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 noyabr 2010-cu il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş amansız terror aktları və bunların nəticəsində çoxsaylı insan təlafatı barədə xəbər bizdə hədsiz kədər hissi doğurdu.

Bu dəhşətli hadisələrdən son dərəcə hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 noyabr 2010-cu il*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*17 noyabr 2010-cu il*

*Noyabrın 17-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev İran prezidenti Mahmud Əhmədinejadı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İran prezidentinə raport verdi.*

*İranın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İran prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Mahmud Əhmədinejada, İran nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*17 noyabr 2010-cu il*

*Noyabrın 17-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunularaq, İran prezidentinin Azərbaycana rəsmi səfərinin də ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyi bildirildi.*

*Prezidentlər ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliklərini vurğuladılar.*

## AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*17 noyabr 2010-cu il*

*Noyabrın 17-də Azərbaycan prezidenti İlham Əliyevin və İran prezidenti Mahmud Əhmədinejadın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Qonaqları səmimi salamlayan prezident İlham Əliyev Qurban bayramı münasibətilə prezident Mahmud Əhmədinejadı və İran xalqını təbrik etdi.*

**İlham Əliyev:** Bu bayram günlərində Azərbaycana səfəriniz xüsusi məna daşıyır. Bu bir daha onu göstərir ki, Azərbaycan sizin doğma eviniz, doğma vətəninizdir. Mən çox şadam ki, biz bu gün sizinlə çox geniş fikir mübadiləsi apardıq, gündəliyimizin, demək olar ki, bütün məsələlərini əhatə etdik. Bir daha əmin olduq ki, İran ilə Azərbaycan arasındakı münasibətlər dostluq, qardaşlıq zəminində sürətlə inkişaf edir. Biz bütün sahələrdə yaxşı nəticələri görürük, siyasi əlaqələrimiz güclənir. İqtisadi, enerji, nəqliyyat sahələrində işlər yaxşı gedir. Yəni, bizim üçün vacib olan bütün sahələr diqqət mərkəzindədir. Səfəriniz ikitərəfli əlaqələrə yeni güclü təkan verəcəkdir. Həmişə olduğu kimi, bundan sonra da İran ilə Azərbaycan arasında münasibətlər sürətlə inkişaf edəcək və iki qardaş xalqa uğurlar, xoşbəxtlik gətirəcəkdir.

**Mahmud Əhmədinejad:** Aramızdakı münasibətlər qardaşlıq münasibətləridir. Öz evimizdə, qardaşlarımızın yanındayıq. Əminəm ki, İrana səfəriniz zamanı siz də həmin hissləri keçirirsiniz. Biz iki dost və iki qardaş ölkəyik. Necə ki, Siz qeyd etdiniz, münasibətlərimiz çox səmimi münasibətlərdir.

Əlaqələrimizin inkişafına heç bir maneə yoxdur. Çox səmərəli danışıqlar keçirdik, bütün müştərək mövzular barədə müzakirələr apardıq. İkitərəfli əlaqələr mövzusu müştərəkdir. Regional və beynəlxalq münasibətlərdə də müştərəkik. İran xalqını müdafiə etdiyiniz şücaətli mövqeyinizə görə təşəkkür edirəm. Biz həmişə bir-birimizin yanındayıq və beynəlxalq təşkilatlarda, dünya birliyində bir-birimizin hüququnu qətiyyətlə müdafiə edəcəyik.

## AZƏRBAYCAN İLƏ İRAN ARASINDA ENERJİ VƏ NƏQLİYYAT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMUNUN İMZALANMASI MƏRASİMİ

*17 noyabr 2010-cu il*

*Noyabrın 17-də geniş tərkibdə danışıqlardan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın iştirakı ilə Azərbaycanla İran arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov və İran tərəfindən Xarici İşlər naziri Mənuçehr Muttəki imzaladılar.*

## DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*17 noyabr 2010-cu il*

*Noyabrın 17-də Azərbaycanla İran arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması mərasimi başa çatdıqdan sonra dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Hörmətli cənab Prezident, mən Sizi ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Mən çox şadam ki, Siz Azərbaycana gözəl bayram günlərində səfər edirsiniz! Bu fürsətdən istifadə edərək Sizi və bütün qardaş İran xalqını, bütün dünya müsəlmanlarını müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Səfərin çox gözəl nəticələri vardır. Biz bu gün Sizinlə həm təkbətək, həm geniş tərkibdə görüşdə ikitərəfli əlaqələrimizin müxtəlif sahələrini ətraflı müzakirə etdik. Bir daha mövqeyimizi ifadə etdik ki, ikitərəfli münasibətlərin bundan sonra da inkişafı uğurla davam etməlidir. Biz bütün sahələrdə uğurlu əməkdaşlığımızın dərinləşməsi üçün səylərimizi qoymağa çalışırıq və buna nail oluruq.

Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Aramızda çox güclü siyasi dialoq aparılır. Biz Sizinlə mütəmadi qaydada həm İranda, həm Azərbaycanda, həm də başqa ölkələrdə görüşür, fikir mübadiləsi aparırıq. Xarici işlər nazirləri, digər nazirlər vaxtaşırı

görüşürlər. Siyasi əlaqələrimizin inkişafı bütün başqa sahələrdə inkişafa səbəb olur və beləliklə, əlaqələrimiz daha da güclənir.

Beynəlxalq təşkilatlarda əməkdaşlığımızın çox böyük əhəmiyyəti vardır. Biz BMT, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatında bütün dövrlərdə çox uğurlu əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Bu dəstək gündən-günə güclənir. Bu gün biz bununla bərabər, iqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün əlavə tədbirlərin görülməsi haqqında fikir mübadiləsi apardıq. Fikrimiz ondan ibarətdir ki, iqtisadi əlaqələrimizi daha da sürətlə inkişaf etdirməliyik. Bugünkü ticarət dövriyyəsinin səviyyəsi nə İran tərəfini, nə də bizi qane edir. Əminik ki, ölkələrimizdə mövcud olan potensial bizə imkan verəcək ki, yaxın zamanlarda ticarət dövriyyəsini bir neçə dəfə artıraq. Biz buna çalışırıq və müvafiq göstərişlər verilmişdir.

Əminəm ki, bu gün enerji və nəqliyyat sahəsində imzalanmış Anlaşma Memorandumunun icrası nəticəsində ticarət dövriyyəmiz də böyük dərəcədə artacaqdır. İmzalanmış memorandum çoxşaxəlidir. Orada bütün məsələlər, vacib, konkret layihələr əksini tapıb. Nəqliyyat sektorunda Şimal-Cənub dəhlizinin yaradılması və bu sahədə əlavə tədbirlərin görülməsi nəzərdə tutulur, birgə elektrik güclərinin yaradılması məsələləri öz əksini tapıb. Elektrik xətlərinin birləşdirilməsi, qaz sahəsində əməkdaşlıq, yəni, bütün enerji və nəqliyyat sektorunu əhatə edən məsələlər Anlaşma Memorandumunda göstərilibdir. Müvafiq tapşırıqlar verilibdir ki, biz tezliklə memorandumun icrasına başlayaq.

Enerji sektorunda əməkdaşlığın artıq gözəl tarixi vardır. Biz gələcəyə baxmalıyıq. Bu gün möhkəm təməl üzərində qurulmuş bu əlaqələr, əlbəttə ki, inkişaf etməlidir. Yeni layihələr müzakirə olunur. Ümid edirəm ki, həm İran tərəfində, həm Azərbaycan tərəfində hazırda görülən işlər, qoyulan sərmayə gələcəkdə enerji sahəsində əməkdaşlığın daha da genişlənməsini təmin edəcəkdir.

Münasibətlərimizin çox böyük tarixi vardır. Xalqlarımız dost, qardaş xalqlardır. Əsrlər boyu xalqlarımız bir yerdə olmuşlar, bir yerdə yaşamışlar. Bizi bağlayan bu tarixi və mədəni əlaqələr bugünkü əlaqələrimizin möhkəm təməlidir. Biz münasibətlərimizi

bu təməl üzərində qurmuşuq. Azərbaycan müstəqilliyə qovuşandan sonra ikitərəfli münasibətlərimiz çox sürətlə inkişaf etməyə başlamışdır. Münasibətlərimizin bugünkü səviyyəsi, məncə, ən yüksək səviyyədir. Biz bu səviyyənin qaldırılması üçün ardıcıllıqla praktiki addımlar atırıq. Biz qonşuyuq, dostuq, qardaşıq. Biz bu bölgədə vacib rola malikik. Bu gün İran ilə Azərbaycan arasındakı münasibətlər nəinki iki ölkə arasındakı münasibətlərdir, eyni zamanda, münasibətlərimizin bölgədə gedən proseslərə mühüm təsiri vardır. İran–Azərbaycan münasibətləri bölgənin inkişafı üçün önəmli amilə çevrilibdir. Bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün münasibətlərimizin xüsusi əhəmiyyəti vardır.

Bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məsələləri bu gün geniş müzakirə olundu. Mən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin son mərhələsi haqqında cənab Prezidentə məlumat verdim. Bir daha demək istəyirəm ki, Azərbaycan məsələnin tezliklə, beynəlxalq hüquq normaları əsasında həll olunmasının tərəfdarıdır. Bu münaqişə öz həllini Birləşmiş Millətlər Təşkilatı, İslam Konfransı Təşkilatı, ATƏT və digər beynəlxalq təşkilatların qətnamələri və qərarları əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində tapmalıdır. Bu, yeganə yoldur və Azərbaycan bu məqsədə çatmaq üçün səylərini davam etdirəcəkdir.

Bütün dünya çoxdan bilir ki, Azərbaycan torpaqları uzun illərdir Ermənistan tərəfindən işğal edilib. Torpağlarımızın 20 faizi işğal altındadır. Bu işğal və Ermənistan tərəfindən aparılmış etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. İşğal edilmiş torpaqlarda bütün infrastruktur dağıdılıb, bütün binalar yerlə yeksan edilib. Tarixi abidələrimiz, əcdadlarımızın qəbirləri, müqəddəs yerlərimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıbdır. Bu, böyük ədalətsizlik və qəddarlıqdır.

Mən ümid edirəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu etmək üçün, əlbəttə ki, biz daha da güclü olmalıyıq. Deyə bilərəm ki, bu gün biz bütövlükdə çox geniş fikir

mübadiləsi apardıq. Həm regional məsələlər, ikitərəfli münasibətlər, həm də Xəzəryanı ölkələr arasındakı əlaqələr haqqında. Bu fikir mübadiləsi çox müsbət olmuşdur.

Mən bir daha, cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Bir daha demək istəyirəm ki, Sizin səfərinizə Azərbaycanda çox böyük əhəmiyyət veririk. Mən əminəm ki, səfərin çox gözəl və uğurlu nəticələri olacaqdır.

## İran prezidenti Mahmud Əhmədinejadın bəyanatı

Əziz qardaşım, hörmətli cənab Prezident!

Nazirlər, dövlət rəsmiləri, mətbuat nümayəndələri!

Mübarək Qurban bayramı münasibətilə sizi və dünya müsəlmanlarını bir daha təbrik edirəm. Böyük Allaha minnətdaram ki, ilin əziz günündə imkan yaratdı ki, biz bayramı qardaşlarımızla birgə keçirək. Necə ki, qardaşım hörmətli Prezident qeyd etdi – Azərbaycan və İran xalqları iki qardaş xalqdır. Bu qardaşlıq tarixin, mədəniyyətin, iki millətin dini inanclarının dərinliyindən əmələ gəlmişdir. Bu qardaşlıq birgünlük və keçici deyildir. Bunun dərin kökləri vardır və həmişə də olacaqdır.

Bu gün Azərbaycan–İran münasibətləri çox yaxşıdır. Azərbaycan–İran qardaşlıq əlaqələri bölgənin sabitliyi və təhlükəsizliyi üçün önəmlidir. Bölgədə sülhün qorunub saxlanılmasında, inkişafında iki ölkənin rolu əvəzsiz və böyükdür. Bu gün bizim müştərək baxışlarımız, yanaşmalarımız və müştərək proqramlarımız bölgədə sülhün bərqərar olmasına, bölgənin inkişafına və beynəlxalq aləmdə sabitliyə yönəlmişdir. Necə ki, mənim əziz qardaşım vurğuladı – ölkələrimizin potensialı mövcud əməkdaşlıqdan qat-qat çoxdur. Biz belə qərara gəlmişik ki, ikitərəfli əlaqələri – iqtisadi, investisiya, ticarət, nəqliyyat sahələrində imkan daxilində genişləndirək. Bu, iki millətin, bölgənin və bölgədəki sülhün və təhlükəsizliyin xeyrinədir.

Bölgə və Xəzər barədə baxışlarımız eynidir. Hər ikimiz bu fikirdəyik ki, Xəzər sülh və qardaşlıq dənizidir, hamı Xəzərin

sərvətlərindən ədalətli şəkildə bəhrələnməlidir. Azərbaycan və İranın Xəzər dənizində rolu böyük və təyinedicidir. Azərbaycan Respublikasının möhtərəm Prezidentinin rəhbərliyi və təşəbbüsü ilə Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşü keçiriləcəkdir. İnanıram ki, Azərbaycan prezidentinin bacarığı və digər dövlət başçılarının iştirakı ilə bu sahədə çox yaxşı qərarlar qəbul ediləcək, böyük addımlar atılacaqdır.

Beynəlxalq məsələlərdə baxışlarımız tamamilə müştərəkdir. Biz həmişə və bütün təşkilatlarda bir-birimizin yanında olacaq və bir-birimizi dəstəkləyəcəyik. Biz də Qarabağ məsələsi ilə bağlı bu fikirdəyik ki, bu problem danışıqlar və ədalət əsasında həll olunmalıdır, hamı gərək danışıqlara və ədalətə arxalansın. Biz var qüvvəmizlə bu problemin danışıqlar, haqq-ədalət və beynəlxalq hüquq çərçivəsində qısa müddətdə həllinə yardımımızı göstərməyə hazırıq. Azərbaycanın təhlükəsizliyi və onun inkişafı İran üçün böyük əhəmiyyət daşıyır. Azərbaycanın inkişafını, təhlükəsizliyini özümüzün inkişaf və təhlükəsizliyimiz hesab edirik. Bütün beynəlxalq təşkilatlarda və dünya birliyində Azərbaycanın yanında olacağıq. Biz iki qardaş dövlətik. Bu qardaşlıq davam edəcək, zaman keçdikcə güclənəcək və dərinləşəcəkdir.

Bu gün Allahımıza şükür edirik ki, Azərbaycan qardaşım, hörmətli prezident İlham Əliyevin rəhbərliyi ilə sürətli inkişaf mərhələsini yaşayır. Hər gün biz Azərbaycanın inkişafı barəsində yeni-yeni xəbərlər əldə edirik və buna sevinirik. Düşünürəm ki, inkişaf naminə əməkdaşlığımız davam edəcəkdir. Təcrübəmizi paylaşacaq və hər iki millətin xeyrinə bütün imkanlardan istifadə edəcəyik.

Mənim səfərim evimə, qardaşlarımın yanına olan səfərdir. Biz elə hiss edirik ki, qardaşlarımızın arasındayıq və inanırıq ki, azərbaycanlı qardaşlarımız da İrana səfəri zamanı eyni hissləri keçirirlər. Ümidvarıq ki, bu hisslər hər gün dərinləşəcək və güclənəcəkdir. Biz çox səmərəli və faydalı müzakirələr apardıq. Aramızda heç bir fikir ayrılığı və anlaşılmazlıq yoxdur. Bütün ikitərəfli əlaqələr müstəvisində, eləcə də regional və beynəlxalq

məsələlərdə fikirlərimiz üst-üstə düşür. Biz iqtisadi, mədəni məsələlərdən tutmuş, siyasi, regional və beynəlxalq əməkdaşlığa dair bütün məsələləri diqqətlə nəzərdən keçirdik. Əməkdaşlığımız, gələcəkdə birgə işlərimiz üçün çox aydın konturlar cızıldı.

Çox səmimi və mehriban qarşılanmaya görə, əziz qardaşıma təşəkkürümü bildirirəm. İnanıram ki, bu səfər zamanı apardığımız danışıqlar və əldə etdiyimiz anlaşmalar həm ikitərəfli əlaqələrdə, həm regional çərçivədə, həm də beynəlxalq miqyasda iki millətin xeyrinə və mənafeyinə, dünyada sülhə və sabitliyə müsbət töhfəsini verəcəkdir.

Bir daha Azərbaycan Respublikasının Prezidentinə təşəkkürümü bildirirəm və onun əməkdaşlığımızın genişlənməsi üçün bütün təşəbbüslərini dəstəkləyirəm. Bir daha bayramınızı təbrik edirəm. Bu bayram Azərbaycan və İran xalqları, bütün dünya müsəlmanları və dünyanın müstəqil xalqları üçün xeyir-bərəkət, sağlamlıq, rifah gətirəcəkdir. Sizə və möhtərəm cənab Prezidentə bir daha təşəkkürümü bildirirəm.

## İRANDA İSTEHSAL OLUNAN AVADANLIQLA TANIŞLIQ

*17 noyabr 2010-cu il*

*Noyabrın 17-də Azərbaycan ilə İran arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanmasından və mətbuat üçün bəyanatlarla*

*çıxışdan sonra prezident Mahmud Əhmədinejad İranda istehsal olunan sutəmizləyici qurğunu, cərəyan tuneli mikroskopunu və uşaqların eşitmə qabiliyyətini müəyyənləşdirən cihazı prezident İlham Əliyevə təqdim etdi.*

*İran prezidenti dedi ki, sutəmizləyici qurğu, cərəyan tuneli mikroskopu və uşaqların eşitmə qabiliyyətini müəyyənləşdirən cihaz İranda geniş tətbiq edilir.*

*Prezident Mahmud Əhmədinejad nümayiş etdirilən avadanlığın texniki-iqtisadi göstəriciləri barədə prezident İlham Əliyevə məlumat verdi. O bildirdi ki, bu avadanlıq Mərkəzi Asiya, ərəb, Afrika və Latın Amerikası ölkələrinə də ixrac edilir.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 noyabr 2010-cu il*

*Noyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Sizi Azərbaycanda yenidən görməyimə şadam. Sağ olun ki, dəvətimizi qəbul edib gəlmisiniz. Siz Bakıda səfərdə olarkən razılaşmışdıq ki, bu ilin sonuna qədər Xəzəryanı ölkələrin sammitini keçirək. Mən çox şadam ki, biz bu məqsədi təmin etmişik və ümid edirəm ki, bugünkü diskussiyaların nəticələri yaxşı olacaqdır. Münasibətlərimizin gündəliyinə bir daha nəzər salmaq, daha nələr etmək, harada nəyi tamamlamaq lazım olduğunu müəyyənləşdirmək üçün də yaxşı imkan vardır. Sizinlə görüşlərimiz müntəzəm xarakter daşıyır. Son üç ayda artıq üçüncü dəfədir ki, görüşürük. Buna görə də hər şeyi ətraflı müzakirə etməyə imkanımız olmuşdur.

İkitərəfli planda işlərimiz yaxşı gedir, qarşılıqlı siyasi əlaqələr yüksək səviyyədədir, iqtisadiyyatda da böhrandan sonrakı dövrün çətinliklərini aradan qaldırırıq. Regional problemlərə gəldikdə isə mən fürsətdən istifadə edərək Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqlar prosesində fəal iştirakınıza görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Görüşlərin keçirilməsi barədə Sizin təşəbbüsünüz və şəxsən iştirakınız çox mühüm və müsbət rol oynayır. Ümid edirəm ki, biz bu prosesdə irəliləyişə və bölgəmizdə sülhü, təhlükəsizliyi təmin etməyə nail olacağıq. Bu yalnız o halda mümkündür ki,

münaqişə beynəlxalq hüququn norma və prinsipləri, beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında tənzimlənsin. Bu fikir Mayendorfda imzalanmış Birgə Bəyannamədə də əks olunmuşdur.

Sizi bir daha salamlamaq və ümid etdiyimi bildirmək istəyirəm ki, ölkələrimiz arasında fəal əlaqələr bundan sonra da davam edəcəkdir.

**D m i t r i  M e d v e d e v:** Hörmətli İlham Heydər oğlu, yenidən görüşmək imkanına görə mən də çox şadam. Məni Azərbaycana gəlməyə və sammitdə iştirak etməyə dəvət etdiyinizə görə sağ olun. Həqiqətən, bu ideya nisbətən yaxın vaxtlarda, mənim Azərbaycana səfərim dövründə yaranmışdır. Yaxşıdır ki, həmkarlarımız buna razılıq vermişlər və bu gün görüşüb Xəzəryanı qarşılıqlı əlaqələr problemini müzakirə edəcəyik.

Bizim ikitərəfli münasibətlərə gəldikdə isə, Siz hər şeyi çox dəqiq ifadə etdiniz və əslində mənim əlavə ediləsi sözüm yoxdur. Əlaqələrimiz çox yaxşı inkişaf edir. Həm ən yüksək səviyyədə, həm hökumətlərimiz, ölkələrimizin ictimai strukturları arasında, biznes birliyi xətti üzrə. Dövlətlərimiz həqiqətən, artıq böhranlı şəraitdə inkişaf dövründən çıxmışlar. Keçən il baş vermiş hadisələr əmtəə dövriyyəsinə təsir göstərir. Fikir vermişəm, bizim xəttimiz bir qədər zəifləyib, onun yenidən artması üçün hər şeyi etmək lazımdır.

Başqa məsələlər – təkcə Xəzəryanı deyil, həm də regional məsələlər üzrə qarşılıqlı fəaliyyətə gəldikdə isə, əlbəttə, biz regionda təhlükəsizliyin təmin edilməsi üçün bundan sonra da bütün zəruri səylərimizi səfərbər etməyə hazırıq. Rusiya Dağlıq Qarabağ probleminin tənzimlənməsi baxımından Azərbaycan ilə Ermənistan arasında münasibətlərin inkişafı prosesinə bundan sonra da kömək edəcəkdir. Son vaxtlar burada müəyyən addımlar atılmışdır. Mən Sizinlə razıyam ki, bu münaqişənin həlli beynəlxalq hüquq müstəvisindədir və bütün istiqamətlər üzrə müvafiq iş aparılır. Biz bu prosesə indiyə qədər olduğu kimi, yenə kömək etməyə hazırıq.

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 noyabr 2010-cu il*

*Noyabrın 18-də Azərbaycan prezidenti İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Qazaxıstan prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Nursultan Abişeviç!

Sizi Azərbaycanda salamlamağa çox şadam. Sağ olun ki, dəvətimizi qəbul edib ölkəmizə gəlmisiniz. Bu gün görüşmək üçün yaxşı səbəb vardır. Biz Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti sammitini keçiririk. Bu fürsətdən istifadə edib Sizinlə görüşməyə və ikitərəfli münasibətlərimizi, regional problemləri bir daha müzakirə etməyə çox şadam.

Münasibətlərimiz çox dinamik, uğurla, müsbət istiqamətdə inkişaf edir. İki qardaş ölkə beynəlxalq təşkilatlarda, regional formatda fəal qarşılıqlı əlaqə saxlayır, regionlarımız arasında iqtisadi əlaqələr inkişaf edir və ümumiyyətlə, böyük sənaye potensialımız vardır. Buna görə də, əlbəttə, gündəmdə olan iqtisadi məsələlərə bir daha nəzər salmağa, harada nəyi əlavə edə biləcəyimizə, hansı sahələrin müştərək layihələrlə hələ tam əhatə edilmədiyinə baxmağa ehtiyac vardır. Potensial həqiqətən, çox böyükdür və ən başlıcası bizdə, Azərbaycanda ikitərəfli əlaqələrimizi, xalqlarımızı həmişə bir-birinə bağlayan dostluq, mehriban qonşuluq, qardaşlıq ruhunda çox fəal inkişaf etdirmək arzusu güclüdür. Ölkələrimizin artıq müstəqil dövlətlər kimi inkişaf etdiyi dövrdə biz bütün inteqrasiya proseslərinin çox fəal, dinamik inkişafının şahidiyik. Buna görə Sizi bir daha salamlamaq istəyirəm. Xoş gəlmisiniz! Siz bizim əziz qonağımızsınız.

Ümid edirəm ki, ölkəmizdə olmağınız, qısamüddətli də olsa faydalı və xoş olacaqdır.

**Nursultan Nazarbayev:** Sağ olun, İlham Heydər oğlu. Bakıda, Azərbaycanda olmaq mənə həmişə xoşdur. Təəssüf ki, həmişə vaxt azlıq edir və Sizin kimi, biz də ölkəni gəzməyə macal tapmırıq. Mənim keçənilki səfərimdən sonra münasibətlərimiz daha da fəallaşmışdır. Baxıram ki, əmtəə dövriyyəsi xeyli artmışdır. Bu il Qazaxıstan sizə təxminən bir milyon ton buğda göndərmişdir. Bu, əvvəlki illərdəkindən xeyli çoxdur. Bu mürəkkəb təsərrüfat ilində sizə bu qədər buğda lazım oldu. Bütün başqa məsələlər və razılaşmalar barəsində heç bir fikir ayrılığı yoxdur. Sadəcə olaraq, qarşılıqlı iqtisadi münasibətləri fəallaşdırmaq, ölkələrimiz arasında ticarəti, qarşılıqlı mədəni münasibətləri genişləndirmək lazımdır. İstanbul sammitindən sonra Xəzəryanı ölkələrin dövlət başçılarının bu görüşü barədə razılığa gəlməyimiz də, görüşün gündəliyi də, hazırlanmış sənədlər də artıq ona dəlalət edir ki, bu görüş uğurlu olacaqdır. Hərçənd, biz qlobal məsələləri həll etmirik, buna baxmayaraq, Xəzər barədə Sizinlə bizim mövqelərimiz hələ Aşqabad görüşündən, Tehran görüşündən başlayaraq oxşar mövqelərdir. Bu gün qəbul edəcəyimiz sənədlər – ümumi bəyannamə və təhlükəsizliyə dair saziş də güclü inkişafa dəlalət edir. Fikrimcə, Azərbaycan tərəfi bunun üçün çox iş görmüşdür.

Biz dekabrın 1-də və 2-də keçiriləcək ATƏT-in sammitindəki hadisələri gözləyirik. Sizi orada gözləyirik. Bu bizim gənc paytaxtımızda ilk dəfə keçirilən çox böyük tədbir olacaqdır. Ümumiyyətlə, indi hamımız bu məsələlər üzərində gərgin işləyirik, həyəcanlanırıq. Xəzər barədə mövqeləri təqribən bilirik. Bu barədə ümumi diskussiya, mənim fikrimcə, bir daha göstərəcəkdir ki, gələcəkdə Xəzərə dair ümumi konvensiya hazırlamaq, mövqelərimizi yaxınlaşdırmaq, bu məsələlərə dair konsensusa nail olmaq lazımdır.

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 noyabr 2010-cu il*

*Noyabrın 18-də Azərbaycan prezidenti İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident, Sizi salamlamağa şadam. Sizi Azərbaycan torpağında səmimi- qəlbdən salamlayıram. Çox şadam ki, Siz gəlmisiniz. Bu gün biz Xəzəryanı ölkələrin dövlət başçılarının görüşünü keçirəcəyik. Bu, ikitərəfli məsələləri bir daha müzakirə etmək, regional problemlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı imkan olacaqdır. Münasibətlərimizin necə inkişaf etməsindən çox razıyıq. Bu münasibətlər dostluğa, qardaşlığa, qarşılıqlı dəstəyə əsaslanır. Əminəm ki, biz gələcəkdə də əməkdaşlığı eyni dərəcədə fəal surətdə inkişaf etdirəcəyik. Bizi xalqlarımızın ortaq soy-kökləri, müştərək tarixi, uzun əsrlər boyu qarşılıqlı əlaqələri bir-birimizə bağlayır. Çox sevindirici haldır ki, indi Türkmənistanın və Azərbaycanın müstəqil inkişaf etdiyi şəraitdə ölkələrimiz böyük uğurlar qazanmışdır. Ölkələrimiz uğurla inkişaf edir, onlar güclü iqtisadiyyata malik olan, özlərini təmin edə bilən ölkələrdir. Ümid edirik ki, biz ikitərəfli xarakter daşıyan məsələlərdə tərəqqi, inkişaf və qarşılıqlı fəaliyyət müşahidə edəcəyik. Sizi bir daha səmimi-qəlbdən salamlayıram. Xoş gəlmisiniz!

**Q u r b a n q u l u B e r d ı m ə h ə m m ə d o v:** Hörmətli İlham Heydər oğlu, Türkmənistanın ünvanına söylədiyiniz

səmimi sözlərə görə sağ olun. Bizi Xəzəryanı ölkələrin dövlət başçılarının bugünkü sammitində iştirak etmək üçün Sizin gözəl, cavanlaşan Bakı şəhərinə, gözəl ölkənizə dəvət etdiyinizə görə çox minnətdarıq. Biz həmişə deyirik ki, Xəzər sülh və mehriban qonşuluq dənizidir. Siz çox düzgün dediniz ki, mehriban qonşular kimi, bizim çox qədim ənənələrimiz vardır, babalarımız, ulu babalarımız bizə çox yaxşı nəsihətlər vermişlər. Bu gün əsas problem bütün bu mədəniyyəti, tarixi, milli xüsusiyyətləri böyüməkdə olan nəslə verməkdir. İkitərəfli münasibətlərimizə gəldikdə isə, ticari-iqtisadi münasibətlərdə, sahəvi məsələlərdə çox yaxşı meyillər vardır və əlbəttə, Sizin xatırlatdığınız kimi, sosial, humanitar məsələlərdə işlərimiz çox yaxşı gedir. Sevindirici haldır ki, ötən il bizdə, Türkmənistanda Azərbaycan günləri çox yaxşı keçdi. Lap yaxın vaxtlarda isə Azərbaycanda Türkmənistan günləri keçirilmişdir. Bizim hökumətlərarası komissiya bütün bu işlərə yaxşı təkan verir. Bir həftədən sonra hökumətlərarası komissiyanın növbəti iclası bizdə olacaqdır. Buna görə də düşünürəm ki, əgər hər hansı işçi məsələlər yaransa, komissiya onları artıq öz səviyyəsində həll edəcəkdir. Fürsətdən istifadə edib bütün Azərbaycan xalqını Qurban bayramı münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan xalqına ən xoş arzularımı bildirir, ona firavanlıq arzulayıram və Sizi özünüz üçün münasib bir vaxtda qonaqpərvər Türkmənistana dəvət etmək istəyirəm.

**İlham Əliyev:** Sağ olun. Qardaş ölkədə yenidən olmaq dəvətindən məmnuniyyətlə istifadə edərəm. Sizdən də xahiş etmək istəyirəm ki, bütün qardaş Türkmənistan xalqına mənim ən xoş arzularımı – sülh, inkişaf, firavanlıq arzularımı çatdırasınız. Mən də Sizin şəxsinizdə qardaş Türkmənistan xalqını Qurban bayramı, bizim ümumi bayramımız münasibətilə təbrik edirəm.

## BAKIDA XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ III ZİRVƏ GÖRÜŞÜ

*18 noyabr 2010-cu il*

*Noyabrın 18-də Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının III zirvə görüşü keçirilmişdir.*

*Zirvə görüşündə Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Dmitri Medvedev, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, İran prezidenti Mahmud Əhmədinejad və Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov iştirak etmişlər.*

*Tədbirin iştirakçıları əvvəlcə rəsmi foto çəkdirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev zirvə görüşünü açaraq nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli dövlət başçıları!

Hörmətli qonaqlar, əziz dostlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Bugünkü görüş çox əlamətdar hadisədir. Ölkələrimiz arasındakı dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafı üçün bu görüşün çox böyük əhəmiyyəti vardır. Ölkələrimizin xalqları əsrlər boyu bir yerdə yaşamışlar, yaratmışlar. Biz qonşuyuq, bizi dostluq, mehriban qonşuluq əlaqələri bağlayır. Mən çox şadam ki, bu gün bu əlaqələr daha da yüksək pilləyə qalxıbdır. Azərbaycan qonşuları ilə qarşılıqlı surətdə faydalı, işgüzar, dostluq münasibətləri qurubdur və bu münasibətlər getdikcə güclənir. Bugünkü zirvə görüşü regional əməkdaşlıq

baxımından çox böyük əhəmiyyətə malikdir. Əminəm ki, görüşün çox gözəl nəticələri olacaqdır.

Bizi birləşdirən Xəzər dostluq, əməkdaşlıq dənizidir. Mən əminəm ki, Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti zirvə görüşü Xəzərdə sülhün, təhlükəsizliyin təmin edilməsi, əməkdaşlığın dərinləşməsi üçün mühüm addım olacaqdır. Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi istiqamətində çox fəal işlər gedir, ekspert qrupları işləyir. Ümid edirəm ki, gələcək dövrlərdə bu istiqamətdə əməli nəticələr əldə olunacaqdır. Bu günə qədər Xəzərin hüquqi statusunun müəyyən edilməməsi aramızda olan dostluq əlaqələrinə heç bir təsir göstərmədi. Münasibətlərimiz çoxşaxəlidir. Biz çox istərdik ki, Xəzərin hüquqi statusu tezliklə öz həllini tapsın və bu istiqamətdə səylərimizi davam etdirək.

Qeyd etməliyəm ki, hazırda Azərbaycan ilə Rusiya və Azərbaycan ilə Qazaxıstan, eyni zamanda, Rusiya ilə Qazaxıstan arasında Xəzərin sektorlara bölünməsi istiqamətində önəmli addımlar atılmışdır. Üç ölkə öz arasında bu məsələləri həll edibdir. Ümid edirəm ki, bu gözəl təcrübə gələcəkdə əsas kimi götürülə və Xəzər dənizinin hüquqi statusunun həll olunması işində hazırda mövcud olan hüquqi baza müsbət rolunu oynaya bilər.

Nəqliyyat sahəsində əməkdaşlıq dərinləşir. Azərbaycan həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizlərinin iştirakçısıdır. Bununla bərabər, biz ölkəmizdə müasir nəqliyyat infrastrukturu yaradırıq. Bu məqsədlə həm avtomobil yollarının tikilməsi, dəniz nəqliyyatının inkişafı, dəmiryol nəqliyyatının yenidən qurulması və həm də yeni dəmiryol xətlərinin çəkilməsi məsələləri prioritet məna daşıyır. Bu yaxınlarda Bakıda yeni böyük ticarət limanının tikintisi başlanmışdır. Bu liman əslində bütün Xəzəryanı ölkələrin maraqlarına xidmət edəcəkdir. Birinci mərhələdə liman 10 milyon ton yükdaşıma-yükaşırma qabiliyyətinə malik olacaqdır. Sonuncu mərhələdə isə bu liman vasitəsilə 25 milyon ton yük nəql edilə bilər. Beləliklə, Azərbaycan bu limanı tikməklə ümumi işimizə töhfəsini vermiş olur.

Bununla bərabər, Bakıda yeni, müasir Gəmiqayırma zavodunun tikintisi başlanmışdır. Ümid edirəm ki, tikintisi yaxın zamanlarda başa çatacaqdır və beləliklə, Xəzərdə istənilən həcmdə yükdaşıma məsələlərinin həlli üçün yeni, müasir infrastruktur yaradılacaqdır. Biz həm Şimal-Cənub, həm Şərq-Qərb dəhlizinin fəal iştirakçısıyıq və bundan sonra da çalışacağıq ki, nəqliyyat sistemlərinin birləşməsi üçün səylərimizi qoyaq.

Bu gün Xəzərin enerji resursları haqqında çoxlu söz-söhbət gəzir. Xəzərin çox zəngin təbii ehtiyatları vardır. Bütün Xəzəryanı ölkələr enerji resursları baxımından çox zəngin ölkələrdir. Ölkələrimiz nəinki öz tələbatlarını ödəyir, eyni zamanda, dünyanın enerji təhlükəsizliyinə çox önəmli töhfə verirlər. Ölkələrimizdə hasil edilən neft və qaz, demək olar ki, dünya enerji bazarında həlledici təsirə malikdir. Biz çalışırıq ki, səylərimizi birləşdirək. Biz hamımız istehsalçıyıq və istehsalçıların maraqları, əlbəttə ki, üst-üstə düşür. Biz enerji resursları sahəsində bir-birimizlə rəqabət aparmırıq, əksinə, uğurlu əməkdaşlıq edirik. Bu əməkdaşlıq ölkələrimizin bütün maraqlarına xidmət göstərir. Azərbaycan enerji resurslarının nəqli ilə bağlı çoxşaxəli fəaliyyət göstərir. Biz enerji təhlükəsizliyi məsələlərinə töhfəmizi verməyə çalışırıq. Azərbaycanın neft-qaz resurslarının dünya bazarlarına müxtəlif yollarla çatdırılması üçün bizdə müasir infrastruktur yaradılmışdır. Bu infrastruktur qonşu ölkələrin maraqlarının təmin edilməsi üçün də təqdim oluna bilər. Bir sözlə, biz tranzit imkanlarımızı qonşular üçün təqdim etməyə hazırıq.

Bu gün Xəzərin əməkdaşlıq dənizinə çevrilməsi üçün, əlbəttə ki, iqtisadi əlaqələrin gücləndirilməsi çox böyük məna daşıyır. Bu sahədə aramızda olan iqtisadi əlaqələr güclənir. Təbii ki, böhran nəticəsində ticarət dövriyyəsi müəyyən dərəcədə aşağı düşübdür. Ancaq bu, müvəqqəti xarakter daşıyır. Əminəm ki, yaxın zamanlarda biz bütün sahələrdə uğurları bərpa edəcəyik.

Biz Azərbaycanda Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün çox böyük proqramlar icra edirik. Deyə bilərəm ki, bu il Azərbaycanda «Ekologiya ili» elan edilibdir və çox böyük

həcmdə ekoloji tədbirlər nəzərdə tutulur. Xüsusilə Xəzər dənizinin çirkab sulardan və neftlə çirklənmiş hissənin təmizlənməsi, müasir kanalizasiya sisteminin quraşdırılması ümumi işimizə töhfəmizdir. Ekoloji məsələlər həmişə zirvə görüşlərində xüsusi yer tutubdur. Bu gün biz bu məsələ ilə bağlı fikir mübadiləsi aparacağıq. Bir sözlə, biz Azərbaycanda çalışırıq ki, Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına töhfəmizi verək.

Biz Xəzərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün fəal çalışırıq. Bu gün imzalanacaq sənəd məhz bu məsələləri əhatə edəcəkdir. Xəzər sülh, əmin-amanlıq, sabitlik dənizidir və belə də qalmalıdır. Biz dənizdə təhlükəsizlik tədbirlərini öz gücümüz hesabına təmin edirik. Hesab edirəm ki, Xəzəryanı ölkələrin bu sahədəki əməkdaşlığı yüksək qiymətə malikdir. Bizim müvafiq dövlət qurumları bir-biri ilə həm ikitərəfli, həm çoxtərəfli formatda sıx əlaqədə olaraq Xəzərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün səylərini göstərir.

Əziz dostlar, hesab edirəm ki, ümumiyyətlə, Xəzəryanı ölkələrin əməkdaşlığı yüksək qiymətə malikdir. Bir daha demək istəyirəm ki, hamımız dost ölkələrik, bir-birimizlə qonşuyuq, bu bölgədə yaşayırıq. Bizim müştərək tariximiz vardır, xalqlarımız bir-birinə çox bağlıdır. Bizi həm tarix bağlayır, həm də bugünkü maraqlar birləşdirir. Əminəm ki, bugünkü zirvə görüşü ölkələrimiz arasında nəinki Xəzər mövzusu ilə bağlı, bütün əlaqələrin inkişafına çox mühüm töhfə olacaqdır. Bir daha sizin hamınızı ürəkdən salamlayıram və zirvə görüşümüzə uğurlar arzulayıram.

* * *

*İran prezidenti Mahmud Əhmədinejad yüksək səviyyədə qonaqpərvərliyə görə dövlətimizin başçısı İlham Əliyevə dərin təşəkkürünü bildirdi. İran prezidenti bəşər mədəniyyətinin inkişafına xüsusi töhfələr verən Xəzəryanı ölkələrin bundan sonra da səylərini birləşdirməsinin zəruriliyini vurğuladı.*

**M a h m u d Ə h m ə d i n e j a d:** Bizim ümumi maraqlarımızı, o cümlədən Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi, Xəzərdə təhlükəsizlik, narkotiklərin qanunsuz dövriyyəsinə və cinayətkarlığa qarşı mübarizə, iqtisadi, mədəni və elmi əməkdaşlığın inkişafı məsələlərini sizinlə birlikdə eyni dəyərlərə və əqidələrə əsaslanmaqla təmin edə bilərik. Tehran sammitində əldə edilmiş yaxşı razılaşmalardan bu günə qədər biz ətraf mühitin qorunması, təhlükəsizlik kimi sahələrdə, iqtisadi, elmi və mədəni sahələrdə əməkdaşlığın yeni istiqamətlərinin müəyyən edilməsində beş ölkənin əməkdaşlığının möhkəmlənməsini müşahidə edirik. Bu istiqamətlərdə əməkdaşlığın ardıcıl həyata keçirilməsi və yeni imkanların aşkar edilməsi hamımızın mənafeyinə uyğundur.

Gündəliyə müştərək gəmiçilik şirkətlərinin yaradılması, gömrük rüsumları ilə əlaqədar güzəştlər müəyyən edilməsi, ticarət mübadiləsinin artırılması, neft-kimya məhsullarının nəql edilməsi üzrə şəbəkələrin birləşdirilməsi, eləcə də turizm, mədəniyyət və idman sahələrində insanlar arasında əlaqələrin inkişaf etdirilməsi və genişlənməsi məsələlərinin daxil olunmasını təklif edirəm.

*Prezident Mahmud Əhmədinejad qarşıda duran vəzifələrlə bağlı təkliflərini irəli sürərək bildirdi:*

– Gələn il Xəzər dənizinin hüquqi statusunun razılaşdırılması üzrə işləri tamamilə və birdəfəlik yekunlaşdırmağı təklif edirəm. Bunun üçün bütün məsələlərin ədalətli və sabit razılaşdırılmasına nail olmağın daha güclü təminatı olan beştərəfli formatda iclasların keçirilməsi davam etdirilməlidir. İştirakçı ölkələrin potensiala, resurslara, milli valyutalara əsaslanan iqtisadi əməkdaşlığı beynəlxalq iqtisadi sistemlərin vurduğu zərərin dərəcəsini azaltmağa və yeni imkanlar yaratmağa qadirdir. Xəzərdə sabitlik

və təhlükəsizlik üçün təhdid olan amillərə qarşı birgə mübarizə, əcnəbi oyunçuların çıxışlarının qarşısının alınması Xəzər dənizində və ölkələrimizdə təhlükəsizliyin və sülhün təmin edilməsinin ən mühüm elementidir. İran İslam Respublikası dəqiq işlənib hazırlanmış proqram əsasında bütün sahələrdə əməkdaşlığa hazırdır.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti, mənim qardaşım, zati-aliləri cənab İlham Əliyevə səmimi qəbul və qonaqpərvərlik üçün bir daha təşəkkür etmək istərdim. Ümid edirəm ki, iştirakçıların əməkdaşlığı və qarşılıqlı fəaliyyəti, görüşlər yaxşı nəticələr verəcəkdir.

Ulu Tanrıdan bütün xalqlara sülh və təhlükəsizlik, firavanlıq və sevinc diləyirəm. Diqqətinizə görə hamınıza təşəkkür edirəm.

* * *

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi. Qazaxıstan dövlətinin başçısı Xəzər dənizi ilə bağlı bütün məsələlərin tam və kompleks hallinə mühüm əhəmiyyət verdiyini vurğuladı.*

**Nursultan Nazarbayev:** Biz ilk növbədə Xəzərin hüquqi statusu ilə bağlı məsələləri tamamilə həll etməliyik. Bu su hövzəsinin nadirliyi təkcə xeyli miqdarda karbohidrogen ehtiyatları və nərə balığı növlərinin dünyada ən iri populyasiyası ilə şərtlənmir. Xəzər minilliklər boyu dostluq və sabitlik dənizi olmuş, sahillərində yaşayan xalqları birləşdirmişdir.

Xəzəryanı dövlətlərin sülh və mehriban qonşuluq şəraitində yaşamaq kimi ümumi səyləri Azərbaycan Respublikasının, İran İslam Respublikasının, Qazaxıstan Respublikasının, Rusiya Federasiyasının və Türkmənistanın 2007-ci il oktyabrın 16-da Tehran zirvə görüşündə qəbul etdikləri bəyannamədə əksini tapmışdır. Həmin sənədin imzalanması sahilyanı ölkələrin əməkdaşlığı tarixində əlamətdar hadisə olmuşdur. Bu sənəd genişəhatəli əməkdaşlıq məsələləri üzrə qarşılıqlı fəaliyyətin

dərinləşməsi və Xəzər hövzəsində təhlükəsizliyin möhkəmlənməsi üçün etibarlı əsas yaratmışdır.

Tehran zirvə görüşü Xəzərin problemlərinin bütün cəhətləri üzrə beştərəfli əməkdaşlığın fəallaşdırılması üçün böyük potensialı üzə çıxarmış və bütün dünya birliyinə sübut etmişdir ki, Xəzəryanı dövlətlərin mövcud məsələlərini yalnız qarşılıqlı anlaşma və konsensus əsasında konstruktiv ruhda dinc vasitələrlə həll etmək olar. Zirvə görüşləri arasındakı müddətdə 2008-ci ilin oktyabrında Həştərxanda böyük iş görülmüş, Xəzəryanı dövlətlərin birinci hökumətlərarası iqtisadi konfransı keçirilmiş, Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında saziş layihəsi, Xəzərin dəniz mühitinin mühafizəsinə dair Çərçivə Konvensiyasına əlavə protokollar hazırlanmışdır.

Yaxın günlərdə Qazaxıstanda Çərçivə Konvensiyasının razılığa gələn tərəflərinin üçüncü konfransı keçiriləcəkdir. Konfransda dörd əlavə protokolun ən azı ikisini imzalamaq nəzərdə tutulur.

Biz razılaşmışdıq ki, dövlət başçıları ildə bir dəfə görüşəcəklər və belə görüşlər kifayət qədər səmərəli və faydalı olacaqdır. Bununla əlaqədar, xüsusi işçi qrupunun iclaslarının, onun qaydalarında nəzərdə tutulduğu kimi, ildə beş dəfədən az olmamaq şərti ilə keçirilməsini xarici işlər nazirliklərinə tapşırmağı təklif edirəm. Müvafiq razılaşmanı bugünkü birgə bəyanatda əks etdirmək lazımdır.

İran prezidentinin təkliflərini dəstəkləmək istəyirəm. Qazaxıstan tərəfi Xəzərin hüquqi statusu probleminin bütün sahilyanı ölkələr üçün konsensus və qarşılıqlı fayda əsasında sürətlə həllini dəstəkləyir. Biz Xəzərdəki tərəfdaşlarımızın təklif etdikləri müxtəlif formatlı bütün görüşlərdə və tədbirlərdə iştirak etməyə hazırıq.

Hörmətli dövlət başçıları, Tehran görüşündə tərəfimizdən nərə balığı növlərinin ovlanması kvotalarının bölünməsi mexanizminə yenidən baxılmasının zəruriliyi barədə məsələ qaldırılmışdı.

Qazaxıstan Xəzər dənizinin bu nadir «sakinləri»nin sayının günbəgün azaldığını nəzərə alaraq, onların ovlanmasına ən azı 5 il müddətinə müvəqqəti beştərəfli moratorium tətbiq olunmasını

təklif edir. Belə qərar nərə balığı növlərinin populyasiyasını bərpa etməyə və gələcək nəsillər üçün saxlamağa imkan verəcəkdir. Özü də Xəzərin bioresurslarının istifadəsi, mühafizəsi və təkrar istehsalı, habelə beştərəfli müqavilənin imzalanması yolu ilə brakonyerlərə qarşı mübarizə sahələrində əməkdaşlığı elmi və hüquqi cəhətdən əsaslandırılmış şəklə salmaq lazımdır.

Hörmətli dostlar! Əminəm ki, bugünkü görüşdə səslənəcək təşəbbüs və təkliflər konkret sənədlərdə və əməli işdə əksini tapacaqdır. Səmərəli və konstruktiv qarşılıqlı fəaliyyət, Xəzər sahili xalqları arasında dostluğun möhkəmlənməsi dövlətlərimizin regional əməkdaşlığını yeni zirvələrə yüksəldəcəkdir.

Burada, qardaş Azərbaycanın paytaxtında bizim hamımızı ümumi bir məqsəd – Xəzər regionunda sabitliyə və təhlükəsizliyə nail olmaq və xalqlarımızın rifahını təmin etmək məqsədi birləşdirir.

Bu gün biz bu istiqamətdə daha bir addım atdıq.

Bu gün imzalanacaq bütün sənədlər – saziş və bəyanatımız bu istiqamətdə atılan daha bir mühüm addımdır.

Diqqətinizə görə minnətdaram!

* * *

*Xəzəryanı ölkələrin dövlət başçılarının III zirvə görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan prezidenti İlham Əliyevə dərin təşəkkürünü çatdıran Rusiya prezidenti Dmitri Medvedev Bakı sammitinin müsbət nəticələrlə başa çatacağına əminliyini vurğuladı. Ötən zirvə görüşlərinin təcrübəsinə əsaslanan Rusiya dövlətinin başçısı gündəlikdəki məsələlərlə bağlı fikir mübadiləsinin mütəmadi xarakter daşımasının vacibliyini bildirdi və bu baxımdan Bakıda imzalanacaq sənədin mühüm əhəmiyyət kəsb edəcəyini diqqətə çatdırdı.*

**Dmitri Medvedev:** Əlbəttə, bu cür zirvə görüşlərinin əsas mövzusu Xəzər dənizinin müasir geosiyasi reallıqlara cavab verən yeni hüquqi statusunun müəyyənləşdirilməsidir və biz sizinlə bu sahədə bəzi işlər görmüşük, bir sıra mühüm məsələlərə dair prinsipial razılığa gəlmişik.

Qarşıdakı irəliləyişimizə gəldikdə isə, hörmətli həmkarlarım, sizi əmin etmək istəyirəm ki, biz – mən Rusiya Federasiyasını nəzərdə tuturam – gələcək sazişimizin bütün vacib bəndləri üzrə razılıq əldə olunması, Xəzərin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsi üçün əlimizdən gələni edəcəyik. Söhbət bütün əsas məsələlərdən, o cümlədən dənizin dibinin və akvatoriyanın delimitasiyası, dənizdə hərbi fəaliyyət, habelə gəmiçilik və balıq ovu ilə bağlı ümumi qaydalardan gedir. Biz öz təkliflərimizi artıq irəli sürmüşük, qarşılıqlı təkliflərə, Qazaxıstan prezidentinin dənizin akvatoriyasının delimitasiyası ilə bağlı təklif və təşəbbüslərinə əlavələr etmişik. Bu baxımdan, biz dialoq aparırıq. Hesab edirəm ki, bu gün «Xəzər beşliyi» əsas məsələnin – milli dəniz kəmərinin eni və rejimi ilə əlaqədar məsələnin həllinə yaxınlaşır, çünki bu, başlıca məsələdir. Məhz bu məsələ ilə əlaqədar biz qəti razılığa gəlməliyik. Mən əminəm ki, mövqelərimizdə hələlik müəyyən uyğunsuzluq olsa da, biz razılığa gələ bilərik. Əvvələn, ona görə ki, biz qonşuyuq, biz həqiqətən, dostluq etməliyik, ikincisi, ona görə ki, Xəzər dənizində daha səmərəli təsərrüfatçılıqla məşğul olmalıyıq.

Bizim vəzifəmiz təkcə dənizi, akvatoriyanı, dənizin dibini bölməkdən ibarət deyil, həm də nadir ekologiyanın qorunub saxlanmasının qayğısına qalmaq, dənizin təbii sərvətlərindən qənaətçilliklə istifadə etməkdir. Nursultan Abişeviç elə indicə bu barədə dedi və mən də razıyam ki, biz nadir bioloji tərkibin deqradasiyasına yol verməməliyik. Gəlin düşünək, nə edə bilərik, üzərimizə hansı əlavə öhdəliklər götürə bilərik, çünki indi biz cari işlərimizdən deyil, ölkələrimizin gələcək nəsilləri qarşısında məsuliyyətimizdən danışırıq.

Rusiya əvvəlki kimi hesab edir ki, onların gələcək inkişafı üçün bizim hamımızı birləşdirə biləcək müvafiq regional qurum lazımdır. Biz ümid edirik ki, bu təklif indi masa arxasında əyləşmiş həmkarlarımız tərəfindən maraqla müzakirə olunacaqdır. Bu qurum nəinki regional inteqrasiya proseslərini fəallaşdıra, həm də gündəlikdəki ən müxtəlif məsələlərin həllini stimullaşdıra bilər.

İlham Heydər oğlu, bir daha görüşümüzün təşəbbüskarı kimi, Sizə təşəkkürümü bildirmək istəyirəm və ümidvaram ki, belə görüşlər daha mütəmadi keçiriləcək və biz qarşımızda duran vəzifələri yerinə yetirə biləcəyik. Sağ olun!

* * *

*Xəzəryanı ölkələrin dövlət başçılarının III zirvə görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə prezident İlham Əliyevə dərin təşəkkürünü çatdıran Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov ümumilikdə danışıqların konstruktiv xarakter daşıdığını söylədi.*

**Q u r b a n q u l u B e r d ı m ə h ə m m ə d o v**: Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın layihəsi üzərində konstruktiv iş aparılır. Bu gün tərəflər həmin sənədin müddəalarının əksəriyyəti barədə konsensusa nail oldular. Xəzər Dənizində Təhlükəsizlik Sahəsində Əməkdaşlıq haqqında Beştərəfli Sazişin layihəsi artıq razılaşdırılmışdır. Dəniz mühitinin qorunmasına dair Çərçivə Layihəsinin imzalanması da bizim birgə nailiyyətlərimiz sırasına aid edilməlidir.

Bu gün Xəzəryanı dövlətlərin ekspertləri həmin sənədə əlavə protokolların layihələrinin hazırlanması üzərində fəal iş aparırlar. Bütün bunlar ona dəlalət edir ki, səmərəli qarşılıqlı əlaqələrin möhkəmlənməsi üçün böyük tərəfdaşlıq potensialı vardır və ölkələrimiz buna hazırdırlar. Bununla əlaqədar, Türkmənistan Xəzərdə fəaliyyətin müxtəlif növlərinin hüquqi cəhətdən daha da tənzimlənməsinə yönəlmiş sazişlərin layihələrini işləyib hazırlamağı təklif edir. Biz məsələn, Xəzər dənizinin bioloji ehtiyatlarının qorunub saxlanması və onlardan səmərəli istifadə edilməsi haqqında saziş layihəsi hazırlamağı zəruri hesab edirik. Həmin sazişin qəbul edilməsi bu sahədə fəaliyyət üçün möhkəm hüquqi təməl yaratmağa imkan verəcəkdir.

Daha konkret desək, bu, bioloji ehtiyatlardan istifadə edilməsi normalarını beştərəfli əsasda razılaşdırmağa, o cümlədən beynəlxalq hüquq normaları nəzərə alınmaqla, nərə balığı

növlərinin Xəzəryanı dövlətlər arasında bölünməsini və ov kvotalarının mənimsənilməsini təmin etməyə imkan verəcəkdir. Biz 2007–2008-ci illərdə Xəzər dənizinin bioloji su ehtiyatlarına dair komissiyada sədrlik etdiyimiz dövrdə bu barədə yeni metodikalar təklif etmişdik.

Fövqəladə hallar yarandıqda və ya onların yaranması təhlükəsi olduqda Xəzəryanı dövlətlərin hərəkətlərini əlaqələndirmək məqsədilə fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında sazişin layihəsinin işlənib hazırlanmasını da məqsədəuyğun hesab edirik.

Əvvələn, Xəzər dənizinin dibinin və təkinin bölünməsi problemi barədə. Bu problem müzakirə edilərkən Türkmənistan bunu əsas götürür ki, Xəzərdə delimitasiya beynəlxalq hüququn ümumtanınmış normalarına, qarşılıqlı hörmət və tərəfdaşların mənafelərinin nəzərə alınması prinsiplərinə əsaslanmalıdır. Burada xüsusi vurğulamaq istərdim ki, biz Xəzərlə bağlı hər hansı həll edilməmiş məsələlərə siyasi rəng verilməsinin əleyhinəyik. Məsələn, Xəzər dənizinin dibinin və təkinin bölünməsi dinc, diplomatik və hüquqi vasitələr və metodlarla həll edilməli olan hüquq problemidir.

İkincisi, Xəzər dənizinin dibi ilə boru kəmərlərinin çəkilməsi bizim üçün prinsipial məsələdir. Türkmənistan qəti əmindir ki, Xəzərdə sualtı boru kəməri çəkilməsi məsələsi yalnız dənizin dibinin həmin boru kəmərinin keçdiyi hissələrinin məxsus olduğu tərəflərin razılığı ilə həyata keçirilə bilər. Təbii ki, bu halda ən yüksək beynəlxalq ekoloji standartlara və normalara riayət ediləcəkdir.

Üçüncüsü, Xəzər akvatoriyasının bölünməsi məsələsi. Türkmənistanın qəti mövqeyi belədir ki, Xəzər dənizinin akvatoriyası daxili sulara, ərazi dənizinə və ümumi su məkanına bölünür.

Bu halda biz ərazi dənizinin eninin 20 dəniz mili qədər müəyyən edilməsinin tərəfdarıyıq. Ərazi dənizi müvafiq sahilyanı dövlətin tam suverenliyi altında olmalıdır. Ərazi dənizinin kənar xətti dövlət sərhədi olmalıdır.

Mən Azərbaycan Respublikasının, İran İslam Respublikasının, Qazaxıstan Respublikasının və Rusiya Federasiyasının burada iştirak edən hörmətli prezidentlərinə Xəzərdə konstruktiv tərəfdaşlığın inkişaf etdirilməsi işinə böyük şəxsi töhfələrinə görə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bu gün bizim aramızda qapalı və ya naqolay mövzular yoxdur. Biz Xəzər problemlərinin bütün aspektləri barədə əsl dostlar və mehriban qonşular kimi, səmimi və məhrəmanə söhbət edirik. Bizim bu dəfəki sammitimiz bunu tamamilə təsdiqləyir.

Əminəm ki, bu sammit Xəzəryanı dövlətlərin dostluğunun və əməkdaşlığının inkişafında mühüm mərhələ olacaq, Xəzəri sülh və firavanlıq regionuna çevirmək üçün birgə əzmimizi daha da möhkəmləndirəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Noyabrın 18-də Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının III zirvə görüşündən sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

## XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*18 noyabr 2010-cu il*

*Noyabrın 18-də Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının III zirvə görüşünün sənədlərinin imzalanmasından sonra prezidentlər mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezidentlər!

Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Bütün qonaqlarımızı Azərbaycanda bir daha salamlamaq, dəvətimizi qəbul edərək ölkəmizə gəldiklərinə görə həmkarlarıma təşəkkür etmək istəyirəm.

Əminəm ki, bu gün Xəzər hövzəsinin təbii ehtiyatlarından birgə istifadə edilməsi, Xəzərin ətraf mühitinin qorunması və bütövlükdə ölkələrimiz arasında qarşılıqlı faydalı dostluq münasibətlərinin inkişafı işində yeni mərhələ başlayır. Bu gün biz həm çoxtərəfli münasibətlərimizin, həm də Xəzərdə əməkdaşlığın gələcək inkişafına daha böyük təkan verəcəyinə əmin olduğum çox mühüm məsələlərin həllinə başlayırıq. Bizim ölkələri ümumi tarix, coğrafiya, iqtisadi maraqlar birləşdirir. Bu gün biz bunu çox konstruktiv və açıq diskussiyalar zamanı qeyd etmişik. Ölkələrimiz enerji ehtiyatları istehsalçılarıdır. Bizim ölkələrin ərazisindən çox mühüm nəqliyyat, kommunikasiya yolları keçir. Təbii ki, həm enerji siyasəti, həm nəqliyyat siyasəti, həm də bütövlükdə bizim regionda təhlükəsizlik və əməkdaşlıq məsələləri çox cəhətdən ölkələrimizin sıx qarşılıqlı fəaliyyətindən asılıdır.

Sammitimizin çox konstruktiv keçməsi məni sevindirir. Biz çox mühüm qərarlar qəbul edilməsinə nail olduq. Məsələn, təhlükəsizliyə dair indicə imzalanmış saziş bizim prioritetləri, Xəzərdə təhlükəsizliyi öz qüvvələrimizlə təmin etmək üçün əməkdaşlığımızın çərçivələrini çox dəqiq müəyyən edir. Xəzərdə təhlükəsizlik bizim ölkələrin təhlükəsizliyidir. Bir daha demək istəyirəm, ölkələrimizi çox sıx, yaxın münasibətlər birləşdirir. Bizim aramızda istər ikitərəfli, istərsə də çoxtərəfli formatda həll edilə bilməyəcək heç bir problem yoxdur. Əksinə, bu əməkdaşlığı dərinləşdirmək və onu bütün sahələrdə genişləndirmək istəyi vardır. Bugünkü müzakirə və sammitin keçdiyi şərait ölkələrimiz arasında məhz bu cür dostcasına, mehriban qonşuluq münasibətlərinə parlaq sübutdur.

Təhlükəsizliyə dair saziş, habelə birgə bəyanat Xəzər hövzəsində əməkdaşlığın inkişafında növbəti mühüm mərhələdir. Bu, Xəzərə dair hazırda işlənib hazırlanma mərhələsində olan məsələlərin gələcəkdə razılaşdırılması işində çox mühüm addımdır. Xəzər dənizinin hüquqi statusuna dair bizim mümkün qədər tezliklə imzalamağa çalışdığımız saziş və diskussiyalar zamanı yaranmış konstruktivizm şəraiti, tərəflərin mövqelərinin başa düşülməsi və irəliləmək istəyi hələlik razılaşdırılmamış qalan məsələləri çox tezliklə razılaşdırmaq üçün, əlbəttə, tamamilə nadir imkan yaradır.

Biz bildirdik ki, diskussiya apardığımız əsas məsələlərdən birinə, məhz Xəzər dənizinin hüquqi statusu məsələsinə dair mümkün qədər qısa müddətdə razılığa gəlmək bizim ümumi istəyimizdir. Bu məqsədlə konkret qərarlar qəbul edilmiş, işi intensivləşdirmək və növbəti sammitə mümkün qədər yaxşı nəticələrlə toplaşmaq üçün bizim qurumlara müvafiq tapşırıqlar verilmişdir.

Təhlükəsizliyə dair saziş, birgə bəyanat – müxtəlif nazirliklərin ekspertləri, nümayəndələri tərəfindən müəyyən müddət ərzində hazırlanmış, başqa sözlə desək, sammit ərəfəsində imzalanmağa hazır olan sənədlər idi.

Onu da qeyd etmək istərdim ki, diskussiya və konstruktiv fikir mübadiləsi prosesində əvvəlcədən hazırlanmamış məsələlərə dair qərar qəbul etmək zərurəti də yarandı. Bu bir daha məhz konstruktivizmə, bizim qarşılıqlı əlaqələri möhkəmlətmək və müəyyən müddət gündəlikdə qalmış, bir iclasdan digərinə keçmiş və indiyə qədər həll edilməmiş qalan məsələləri həll etmək əzmində olmağımıza dəlalət edir. Buna görə də hesab edirəm ki, bu həm Xəzər problemlərinə münasibətimizin, həm də bizim regionda təhlükəsizliyin, ekoloji təhlükəsizliyin, enerji, nəqliyyat təhlükəsizliyinin təmin edilməsi məsələlərinə çox mühüm töhfə vermək istəyimizin olduqca vacib göstəricisidir.

Mətbuat nümayəndələrinə məlumat vermək istərdim ki, biz Xəzər dənizində nərə balıqlarının müxtəlif növlərinin ovlanmasına 5 il müddətinə moratorium tətbiq edilməsi mexanizmini üç ay ərzində müzakirə edib təkliflər hazırlamaq barədə müvafiq idarələrə tapşırıq verilməsini qərara almışıq. Hesab edirəm ki, bu, ekoloji vəziyyəti xeyli yaxşılaşdırmağa və ümumi sərvətimiz olan nərə balıqlarının nadir növünü xilas etməyə imkan verəcək çox mühüm, fundamental qərardır.

Bundan əlavə, razılaşdırılmış qısa müddətdə hər bir ölkənin milli zonasının eni məsələsini müzakirə etmək və razılaşdırmaq barədə müvafiq idarələrə tapşırıq vermək qərara alınmışdır. Hesab edirəm ki, bu da münasibətlərin möhkəmlənməsi və Xəzər hövzəsinin delimitasiyası ilə əlaqədar bütün məsələlərin tənzimlənməsi işində çox mühüm addımdır. Bir daha xüsusi vurğulamaq istəyirəm ki, bu məsələlərə dair qərarlar qəbul edilməsi əvvəlcədən nəzərdə tutulmamışdı. Onlar məhz konstruktivizm ruhunun, xoş məramın, qarşılıqlı anlaşmanın və əməkdaşlığımızı möhkəmlətmək əzmimizin nəticəsində qəbul edilmişdir.

Buna görə də mən Bakı sammitinin yekunlarını çox yüksək qiymətləndirirəm. Mən prezident həmkarlarımın konstruktiv işinə, bugünkü görüşdə fəal iştirak etdiklərinə görə onlara təşəkkür etmək və ümid etdiyimi bildirmək istəyirəm ki, bizim müəyyən etdiyimiz və nəzərdə tutduğumuz bütün məsələlər müəyyən

edilmiş müddətlərdə gerçəkləşəcək və növbəti sammitə də çox mühüm, münasibətlərimizin gələcək inkişafına kömək edəcək qərarlarla toplaşmağımıza imkan verəcəkdir.

Diqqətinizə görə sağ olun.

## Rusiya prezidenti Dmitri Medvedevin bəyanatı

Mən də çıxışıma təşəkkür sözləri ilə başlamaq istərdim. Təşəkkür edirəm ki, Azərbaycan bizi bir neçə ay bundan əvvəl bəlkə də tamamilə hipotetik görünən sammitə toplamış və bu sammit tam konkret nəticələr vermişdir. Buna görə açıq demək istəyirəm, III Xəzər sammitinin nəticələrindən mən də çox razıyam.

İlham Heydər oğlunun indicə dediyi kimi, biz təkcə əvvəlcədən müəyyən edilmiş gündəlik çərçivəsində qalmadıq, gündəlik isə yaxşı tərtib edilmişdi. Biz indicə Xəzərdə təhlükəsizlik sahəsində əməkdaşlığa dair saziş imzaladıq. Bu saziş çoxdan hazırlanırdı və şübhəsiz, fəaliyyətimizi əlaqələndirə bilməyimiz bizim dənizdə sülh və qayda-qanun olması üçün çox mühüm sənəddir.

Lakin biz sammitin ilkin hazırlanmış gündəliyinin çərçivəsindən kənara çıxdıq və ən müxtəlif məsələləri, o cümlədən ən mürəkkəb məsələni – delimitasiya məsələsini məhz konstruktiv məcrada, dostcasına müzakirə edə bildik. Mənə belə gəlir ki, bu məsələdə də irəliləyişə nail olduq. İrəliləyiş nədən ibarətdir? Ondan ibarətdir ki, biz müvafiq idarələrə, su məkanı da daxil olmaqla, təqribən 24-25 millik sərhəddən çıxış edərək milli zonanın eni məsələsini ən qısa müddətdə, yəni 3 ay ərzində müzakirə edib razılaşdırmaq və dövlət rəhbərləri tərəfindən bəyənilmək üçün müvafiq təkliflər hazırlamaq barədə tapşırıq verməyi qərara aldıq.

Əgər biz bu gün müəyyən edilmiş müddətdə irəliləyişə nail ola bilsək, bu o demək olacaqdır ki, biz Xəzərin statusu barədə tamdəyərli saziş imzalamağa yaxınlaşırıq. Bu gün isə biz söhbətimizə hamımızın mütləq mənada həmrəy olduğumuz ümumi bəyanatlardan başladıq, bildirdik ki, Xəzərə dair bütün

sazişlər – suverenlik, müxtəlif ovlar aparılması, təhlükəsizlik barədə və digər sazişlər – bunlar hamısı bizim ümumi səlahiyyətimizə aiddir və bu məsələlərin müzakirəsində heç bir başqa dövlət iştirak edə bilməz.

Hesab edirəm ki, əsas məsələ – Xəzərin statusu məsələsi barədə biz irəliyə doğru yaxşı bir addım atdıq. İndi qalır bu tapşırıqları sona çatdırmaq. Bu halda biz çox qısa müddətdə həqiqətən, çox yaxşı nəticəyə nail ola bilərik.

Bu nəticə bizə təkcə su məkanını bölmək, sərhədi delimitasiya etmək, suverenlik sərhədlərini müəyyən etmək xatirinə deyil, həm də sadəcə olaraq, normal iqtisadi əməkdaşlıqla məşğul olmaq üçün lazımdır.

Bir müddət bundan əvvəl Rusiya Xəzər İqtisadi Əməkdaşlıq Təşkilatı ideyasını irəli sürmüşdür. Həmkarlarım bu məsələyə həmişə belə yanaşırlar: ümumiyyətlə, təşkilat pis şey deyil, lakin təşkilatı yaratmazdan əvvəl bütün məsələlər barəsində razılığa gəlmək lazımdır.

Əgər biz bunu edə bilsək, bu cür dövlətlərarası və ikitərəfli əməkdaşlığın həmin mərhələsi qat-qat yaxın və aydın olacaqdır. Yeri gəlmişkən, xatırladım ki, biz dəniz mühitinin qorunmasına dair Çərçivə Konvensiyasına protokolları da razılaşdırdıq. Lap yaxın vaxtlarda həmkarlarımız bu sənədlərin hamısını imzalayacaqlar. Beləliklə, mənim fikrimcə, sammit bu baxımdan uğurlu olmuşdur.

Həmkarlarımın irəli sürdüyü təkliflərə əsasən, bu görüşün hər bir iştirakçısının konstruktiv töhfəsini ayrıca qeyd etmək istərdim. Biz son zamanlar işimizdə yaranmış fasilələrin təkrarlanmasına yol vermədən ildə bir dəfə görüşmək barədə razılığa gəldik.

Üç ildə bir dəfə görüşmək yolverilməz dərəcədə azdır, bizim ekspertlər çox tez-tez görüşməlidirlər. Prezident Əhmədinejadın təklifinə əsasən biz razılaşdıq ki, bu cür görüşlər ildə azı beş dəfə keçirilməlidir. Şübhəsiz, bu faydalıdır.

Bir daha demək istərdim ki, irəliləyiş göz qabağındadır. Şübhəsiz, bu bizim hamımızı sevindirir. Bir daha bizim Xəzər

sammitinin təşkilatçılarına və ayrıca olaraq Azərbaycan prezidentinə təşəkkürümü bildirmək istəyirəm.

İlham Heydər oğlu, bir daha sağ olun ki, Siz bizim hamımızı bir yerə topladınız! Burada iştirak edənlərin hamısını Rusiya Federasiyasına dəvət etmək istəyirəm – ümid edirəm ki, bu çox mühüm məsələyə nöqtə qoymaq üçün. Hər şey bizdən asılıdır. Diqqətinizə görə təşəkkür edirəm.

## İran prezidenti Mahmud Əhmədinejadın bəyanatı

Mərhəmətli və rəhmli Allahın adı ilə!

Hörmətli qardaşım cənab prezident İlham Əliyevə qəbula və qonaqpərvərliyə, görüşümüzün yaxşı təşkilinə görə təşəkkür edirəm.

Demək istəyirəm ki, Xəzər regionunun üç spesifik xüsusiyyəti vardır. Birincisi, bu, mədəniyyət regionudur. Burada mədəni dəyərlər çoxdur. Bildiyiniz kimi, bizim regionda yetişmiş çoxsaylı mütəfəkkirlər, alimlər, şairlər, ədəbiyyatçılar yüksək mənəvi idealları təbliğ etmiş və yaymışlar. Bu regionun ikinci spesifik xüsusiyyəti onun sərvətidir. Burada bizim çox böyük təbii sərvətlərimiz vardır. Üçüncü məqam – mahiyyət etibarilə Qərb ilə Şərq arasında yerləşən Xəzər regionunun coğrafi və tarixi ümumiliyi, onun coğrafi mövqeyidir.

Xoşbəxtlikdən, beş Xəzəryanı dövlətin hamısı qarşılıqlı fəaliyyətin, inteqrasiyanın zəruri olmasını çox yaxşı başa düşür və biz möhkəm təmələ əsaslanan birgə əməkdaşlığın əsasını qoymuşuq. Biz Bakıda böyük əməkdaşlığın, böyük dostluğun, inteqrasiyanın əsasını qoyduq. Yüksək konstruktivlik və qarşılıqlı anlaşma ruhunda yaxşı qərarlar qəbul edildi və Xəzər dənizinin hüquqi statusunun hazırlanması işinin tezliklə başa çatdırılması yolu hamarlandı. Mən də bu işi tezliklə başa çatdırmaq çağırışına qoşuluram ki, beş ölkənin hamısı öz münasibətlərini, əməkdaşlığı planlaşdırmaqda davam edə bilsin.

Danışıqları çox yaxşı apardıq, hamı bu danışıqlara konstruktiv mövqedən yanaşır, qarşılıqlı anlaşma şəraitində diskussiyalarda

iştirak edirdi və yaxşı nəticələr əldə olunmuşdur. Mən bütün məsələlərin razılaşdırılması işində sanballı addımlar atmış həmkarlarımın hamısını, möhtərəm prezidentləri təbrik edirəm. Buna görə mən təşəkkürümü bildirirəm və ümid edirəm ki, biz Xəzər dənizinin dostluq və sülh rəmzinə çevrilməsi üçün növbəti görüşü yaxın gələcəkdə yüksək səviyyədə keçirə biləcəyik.

Bu işə və əməkdaşlığa görə sizin hamınıza təşəkkür edirəm.

**Qazaxıstan prezidenti Nursultan Nazarbayevin bəyanatı**

Mən çox səmərəli və vacib olan bu zirvə görüşünün gözəl təşkilinə görə İlham Əliyevə və azərbaycanlı dostlara təşəkkürümü bildirmək istəyirəm.

Burada bütün həmkarlar artıq hər şeyi dedilər. Biz Xəzər məsələləri ilə 2002-ci ildə Aşqabadda keçirilən I zirvə görüşü zamanı ciddi məşğul olmağa başladıq. II zirvə görüşü 2007-ci ildə Tehranda keçirilmişdir. Ekspertlərimiz 8 ildir bu məsələlərlə məşğul olurlar. Bugünkü görüşümüzü hazırlamaq üçün məhsuldar işləyən ekspertlərimizə təşəkkürümü bildirmək istəyirəm.

Həll etməli olduğumuz başlıca məsələ Xəzər dənizinin statusu, Konvensiyanın imzalanmasıdır. Bu, bütün proqramın canıdır. Hesab edirəm ki, bu gün biz məhz bu problemin həllinə çox yaxınlaşmışıq. Bu problem heç cür həll olunmurdu, çünki biz sahildə suveren ərazinin necə olacağı, hansı məsafədə balıq tutmalıyıq və sair məsələlərlə bağlı razılığa gələ bilmirdik. İkinci məsələ Xəzər dənizinin nadir bioresurslarının xilas edilməsi idi.

İmzaladığımız sənədlər çox mühüm əhəmiyyətə malikdir. Bütün istiqamətlərdə – gəmiçilik, brakonyerliklə mübarizə, burada silah satılmaması, cinayət törədilməməsi üçün, korrupsiya ilə mübarizə kimi bütün istiqamətlərdə hər şey qeyd olunmuşdur və bəyanatlarda da yer almışdır. Ancaq mən qeyd etmək istəyirəm ki, hamı Xəzəryanı iqtisadi əməkdaşlığa, yüklərin və enerji ehtiyatlarının Xəzər dənizi vasitəsilə daşınmasına yol açan Konvensiyanın imzalanmasının vacibliyi ilə razı idi. Biz hamımız razılaşdıq ki – bu, İran prezidenti, həmkarımız Əhmədinejadın

təklifi idi – bir il ərzində Konvensiyanı imzalamaq lazımdır. Növbəti sədrlik Rusiyaya verildiyi üçün mən ümid edirəm ki, bu tarixi hadisə gələn il Rusiya Federasiyasının ərazisində yüksək səviyyədə keçiriləcək görüşdə baş verəcəkdir. Özü də biz hamımız üç ay ərzində işləmək və bütün mövqeləri yaxınlaşdırmaq barədə razılığa gəlmişik. Çünki bəziləri deyirdi 38 dəniz mili, 25 dəniz mili, 10, 20 dəniz mili lazımdır. Biz ekspertlərimizdən 24-25 dəniz mili ətrafında iş aparmağı xahiş etmişik. Zənnimcə, bu çox böyük ümumi razılıqdır.

Biz bilirik ki, Xəzərdə nərəkimilərin sistemsiz, kvotasız və brakonyerlər tərəfindən ovlanması üzündən bir vaxt elə vəziyyətə düşə bilərik ki, gələcək nəsillərə heç nə qalmaz. Bu gün çox mühüm qərar qəbul edilmişdir ki, nərəkimilərin ovuna 5 illik moratorium elan edilməsi məsələsini razılaşdıraq. Həmin dövr ərzində hər şeyi öyrənmək və baxmaq lazımdır. Bu, mühüm qərardır. Buna görə çox razıyam ki, yaxşı zirvə görüşü keçirilmişdir.

Mən Xəzəryanı dövlətlərin özlərinin bu məsələni həll etməsi və mövqelərini yaxınlaşdırması üçün çox böyük əzmkarlıq göstərən həmkarlarıma minnətdarlığımı bildirmək istəyirəm. Bu bizim ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcəkdir. Sağ olun, təşəkkür edirəm.

## Türkmənistan prezidenti
## Qurbanqulu Berdıməhəmmədovun bəyanatı

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Xanımlar və cənablar!

İlk növbədə, mən də Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə III Bakı sammitinin bu cür yaxşı hazırlanmasına və keçirilməsinə görə təşəkkür etmək istəyirəm. Fürsətdən istifadə edib sizin hamınızı müqəddəs Qurban bayramı münasibətilə təbrik edir, ən xoş arzularımı bildirir, xalqlara firavanlıq diləyirəm.

Bugünkü məsələlərə gəldikdə isə, biz həqiqətən, çox məsələləri konstruktiv şəkildə müzakirə etdik. Lakin başlıca məsələdən – əlbəttə, Xəzərin hüquqi statusunu həll etmək və Xəzər dənizinin dibinin və təkinin delimitasiyası, akvatoriyanın bölünməsi və ekologiya problemlərindən çıxış etmək lazımdır.

Biz ticari-iqtisadi məsələlərimizi müzakirə etdik. Əsas məsələlər sırasında ekologiya məsələlərini qeyd etmək lazımdır, çünki həqiqətən, Xəzərin özünəməxsus ekoloji sistemi vardır. Təkcə Xəzər dənizinin buxarından əmələ gələn yodu misal göstərmək kifayətdir. Başqa dənizlərdə yod yoxdur. Bu, məsələnin müalicəvi tərəfidir. Xəzər dənizinin özünəməxsus flora və faunası vardır. Bu məsələləri həll etmək, Xəzər dənizinin flora və faunasını qoruyub saxlamaq üçün Türkmənistan beynəlxalq təşkilatların, ilk növbədə Birləşmiş Millətlər Təşkilatının strukturlarının təcrübəsindən istifadə etməyi təklif edir.

Bizim ticari-iqtisadi əlaqələrimizə gəldikdə, bu sahədə mövcud meyilləri artıq xatırlatdıq. Bu gün bizim – yəni Türkmənistan, Azərbaycan və Rusiyanın dəmiryol və bərə nəqliyyatı barədə yaxşı sazişimiz vardır. Bildiyiniz kimi, İranla və Qazaxıstanla yaxşı transkontinental dəmir yolu çəkirik. O həm də Xəzər hövzəsinin bir hissəsidir. Yəni, bu da bizim gələcək ticari-iqtisadi münasibətlərimizin meyillərinə dəlalət edir. Bu gün biz dedik ki, əgər həmhüdud ölkələr etiraz etmirlərsə, sualtı boruların uzadılması məsələsini təklif etmək olar ki, onlardan ekoloji tarazlığı pozmadan Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının nəql olunması üçün istifadə edilsin.

Bütövlükdə, artıq deyildiyi kimi, mən də vurğulamaq istəyirəm ki, görüşümüz əsasən çox yaxşı qarşılıqlı anlaşma şəraitində keçdi. Ən başlıcası, mövqeyimiz belə olmuşdur və belə də olacaqdır: Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir.

Diqqətinizə görə təşəkkür edirəm!

* * *

**İ l h a m  Ə l i y e v:** Mən bu gün haqqında danışdığımız nəticələrin əldə edilməsinə çox böyük töhfə verdiklərinə görə hörmətli həmkarlarıma bir daha təşəkkür etmək istəyirəm.

Hamıya cansağlığı, firavanlıq arzulayıram. Burada iştirak edənlərin hamısına, mətbuat nümayəndələrinə fəal işlərinə görə təşəkkür edirəm və hamımıza qarşımızda duran bütün məqsədlərə nail olmaqda qətiyyət arzulamaq istəyirəm.

Bir daha sağ olun. Görüşənə qədər.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN PORTUQALİYAYA SƏFƏRİ

*19 noyabr 2010-cu il*

*Noyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun zirvə toplantısında iştirak etmək üçün Portuqaliyanın paytaxtı Lissabona səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da NATO-nun zirvə toplantısında iştirak etmək üçün Portuqaliyanın paytaxtı Lissabona gəlmişdir.*

*Lissabon aeroportunda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Portuqaliyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ YARDIM QÜVVƏLƏRİNƏ TÖHFƏ VERƏN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ İCLASI

*Lissabon*

*20 noyabr 2010-cu il*

*Noyabrın 20-də Portuqaliyanın paytaxtı Lissabonda NATO-nun zirvə toplantısı çərçivəsində Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə (İSAF) töhfə verən ölkələrin dövlət və hökumət başçılarının iclası keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak etmişdir.*

*Prezident İlham Əliyev iclas başlamazdan əvvəl dünya ölkələrinin liderləri ilə görüşdü.*

*NATO ölkələrinin dövlət və hökumət başçılarının, habelə Əfqanıstan prezidenti Həmid Kərzainin, BMT-nin Baş katibi Pan Gi Munun, Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun və digər beynəlxalq təşkilatların nümayəndələrinin də iştirak etdikləri iclasda çıxış edən NATO-nun Baş katibi Anders Foq Rasmussen dedi ki, ötən illərdə Əfqanıstan böyük inkişaf yolu keçmiş, ölkədə geniş bərpa və quruculuq işləri aparılmış, təhlükəsizlik gücləndirilmiş, idarəçilik təsisatları möhkəmləndirilmişdir. Əfqanıstanın inkişafında iclasda iştirak edən tərəflərin hər birinin payı vardır.*

*Azərbaycan prezidenti İlham Əliyev iclasda çıxış etdi.*

*Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın Şimali Atlantika Alyansı ilə əməkdaşlığı faydalıdır. Ölkəmizin NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramında və Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında fəal olduğunu deyən prezident İlham*

*Əliyev Azərbaycanın NATO-nun dünyada sülhyaratma əməliyyatlarında da yaxından iştirak etdiyini diqqətə çatdırdı.*

*Azərbaycan prezidenti sülhməramlı qüvvələrimizin NATO-nun Əfqanıstanda apardığı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri əməliyyatına hərbi və mülki sahədə töhfə verdiyini vurğuladı.*

*İclas başa çatdıqdan sonra Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə töhfə verən ölkələrin dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*Daha sonra iclasda iştirak edən dövlət və hökumət başçıları birgə nahar etdilər.*

## Səfər başa çatdı

*NATO-nun zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Portuqaliyaya səfəri noyabrın 21-də başa çatmışdır.*

*Lissabon Beynəlxalq Aeroportunda Azərbaycan prezidentini Portuqaliyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün axşam prezident İlham Əliyev Bakıya qayıtdı.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

**RUMINİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TRAYAN BESESKUYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Birlik günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan–Rumıniya münasibətləri bu gün dinamik və hərtərəfli inkişaf yolundadır. Dost ölkələrimizin istər ikitərəfli, istərsə də çoxtərəfli qaydada əməkdaşlığı tərəfdaşlıq xarakteri alaraq daim öz əhatə dairəsini genişləndirməkdədir.

Əminəm ki, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük əhəmiyyət kəsb edən irimiqyaslı layihələrin gerçəkləşməsi istiqamətində səylərimiz ölkələrimizin çiçəklənməsinə və xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2010-cu il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Milli bayramınız – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaranması günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsi və inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2010-cu il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaranması günü münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2010-cu il*

**LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Laos Xalq Demokratik Respublikasının elan edilməsi günü münasibətilə Sizə və xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Laos münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Laos xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2010-cu il*

## TAİLAND KRALI ƏLAHƏZRƏT BUHİMİBOL ABULYADEJƏ

Əlahəzrət!

Tailandın milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tailand arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2010-cu il*

**BURKİNA-FASONUN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BLEZ KOMPAOREYƏ**

Hörmətli cənab Prezident!

Burkina-Fasonun milli bayramı – Respublika günü münasibətilə Sizi və xalqınızı təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Burkina-Faso arasında yaranmış münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Burkina-Fasonun dost xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2010-cu il*

## AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASININ 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM*

*23 noyabr 2010-cu il*

*Noyabrın 23-də Azərbaycan Dövlət Neft Akademiyasının (ADNA) 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Avropa və Asiyada ilk neft-qaz tədris müəssisəsi olan ADNA 1920-ci ilin noyabrında yaradılmışdır. Azərbaycan Dövlət Neft Akademiyası fəaliyyəti dövründə milli təhsilimizin inkişafında xüsusi rol oynamışdır. Bir çox ali məktəblər məhz Dövlət Neft Akademiyasının bazasında yaradılmışdır. Bu gün ADNA-da 53 kafedra, 724 nəfərdən ibarət professor-müəllim heyəti fəaliyyət göstərir. ADNA-da 7539 tələbə təhsil alır. Onlardan 593 nəfəri xarici ölkələrin vətəndaşıdır. İndi bu təhsil ocağı 24 istiqamət üzrə bakalavr və magistr pillələrində mütəxəssis hazırlayır.*

*Bu ilin fevralında prezident İlham Əliyev ölkəmizdə neft sənayesi ilə bağlı sahələrin mütəxəssislərlə təminatı istiqamətində*

---

* Азярбайъан Дювлят Нефт Академийасынын 90 иллик йубилейиня щяср олунмуш тянтяняли мярасимдя Нефт Академийасынын ректору Сийавуш Гарайев, Губкин адына Русийа Дювлят Нефт вя Газ Университетинин ректору профессор Виктор Мартынов, Румынийа Нефт вя Газ Академийасынын ректору профессор Влад Улману, Йесенов адына Каспи Технолоэийалары вя Инжиниринг Университетинин ректору профессор Абдумуталиб Абжаппаров, Щяштярхан Дювлят Техники Университетинин ректору Йури Пименов чыхыш етдиляр.

*xidmətlərini nəzərə alaraq, akademiyanın 90 illik yubileyinin yüksək səviyyədə keçirilməsi ilə bağlı sərəncam imzalamışdır.*

*Prezident İlham Əliyev əvvəlcə ümummilli lider Heydər Əliyev lektoriya zalı ilə tanış oldu. Burada xalqımızın ümummilli liderinin həyat və fəaliyyətinin bütün dövrləri əks olunmuşdur. Müxtəlif vaxtlarda çəkilən fotoşəkillər dahi rəhbərin ölkəmizin həyatının müxtəlif sahələrinin tərəqqisi, təhsilin, mədəniyyətin və xüsusilə də neft sənayesinin inkişafı ilə bağlı həyata keçirdiyi irimiqyaslı işləri dolğun təcəssüm etdirir.*

*Akademiyada prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirdikləri böyük işləri əks etdirən fotoguşələr də yaradılmışdır.*

*Prezident İlham Əliyev ADNA-nın Tarix Muzeyi ilə tanış oldu. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, muzeydə akademiyanın yaradılması, inkişaf dövrləri tam əhatə edilmişdir. Burada Azərbaycan neftinin tarixi, ölkəmizdə neft sənayesinin inkişafı ilə bağlı hələ XIX əsrdən bu yana görülən işlər, bir çox alimlərin Azərbaycanın neft sənayesi ilə bağlı apardığı tədqiqatları əks etdirən kitablar və sənədlər nümayiş etdirilir. Akademiyanın həyatını, burada təhsilin ilkin dövrlərini əks etdirən fotolar və sənədlər də muzeyə gələnlərdə maraq doğurur. Muzeyin ən qiymətli eksponatları sırasında xalqımızın ümummilli lideri Heydər Əliyevin 1939–1941-ci illərdə bu ali təhsil ocağında oxuduğunu əks etdirən sənədlər diqqəti daha çox çəkir. Ümummilli lider hər zaman bu ali təhsil ocağının inkişafını diqqətdə saxlamışdır. Ulu öndər akademiyanın 60 və 80 illik yubileylərində iştirak etməklə bu ali təhsil ocağına layiq olduğu qiyməti vermişdir.*

*Muzeylə tanışlıqdan sonra dövlət və hökumət nümayəndələrinin, xaricdən dəvət olunan qonaqların iştirakı ilə akademiyanın 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirildi.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Dövlət Neft Akademiyasının 90 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, akademiyanın bütün professor-müəllim heyətinə, bütün tələbələrinə uğurlar, cansağlığı arzulayıram.

Azərbaycan Dövlət Neft Akademiyası ölkəmizin aparıcı ali məktəblərindən biridir. Akademiyanın çox böyük və şanlı tarixi vardır. 1920-ci ildə təsis edilmiş bu ali məktəb bütün dövrlərdə Azərbaycan elminə, Azərbaycan təhsilinə çox böyük töhfələr vermişdir. Siz yaxşı bilirsiniz ki, bu ali məktəbin müxtəlif dövrlərdə müxtəlif adları olmuşdur. Politexnik İnstitutu kimi təsis edilmiş, sonra Neft İnstitutu, Sənaye İnstitutu, Azərbaycan Neft və Kimya İnstitutu və nəhayət, Azərbaycan Neft Akademiyası adını qazanmışdır. Ancaq daşıdığı addan asılı olmayaraq, bütün dövrlərdə akademiyada təhsil alan tələbələr, onların böyük əksəriyyəti həm Azərbaycanın, həm Sovet İttifaqının, həm də başqa ölkələrin neft-qaz sənayesinə böyük töhfələr vermişdir.

Bütün dövrlərdə burada təhsil yüksək səviyyədə olmuşdur. Dövlət Neft Akademiyası Azərbaycanı dünyaya tanıdan ali məktəb olmuşdur. Mən çox şadam ki, bu gün bu gözəl ənənələr yaşayır, davam etdirilir. Bu gün akademiyada çalışan insanlar – professor-müəllim heyəti, görkəmli alimlərimiz müstəqil Azərbaycanın inkişafına dəyərli töhfələrini verirlər, müstəqil Azərbaycan üçün peşəkar kadrlar hazırlayırlar. O kadrlar ki, uzun illər bundan sonra Azərbaycanın əsas iqtisadi sahəsi olan neft-qaz sektorunun inkişafında sözlərini deyəcəklər.

Bilirsiniz ki, ulu öndər Heydər Əliyev Azərbaycan Sənaye İnstitutunda oxumuşdur və o illər həmişə əziz illər kimi onun xatirəsində qalmışdı. Heydər Əliyev inşaat fakültəsinin memarlıq bölməsində oxumuşdur və mən yaxşı bilirəm ki, onun o illərlə bağlı çox əziz xatirələri var idi. Bəlkə də gənclik illərinin ən

yaddaqalan xatirələri məhz bu ali məktəbdə keçirdiyi dövrlə bağlı olmuşdur.

Ulu öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Neft və Kimya İnstitutunun inkişafına böyük diqqət göstərmişdir. Həm Sovet İttifaqı zamanında, həm müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə akademiyada gedən proseslər daim onun diqqət mərkəzində olmuşdur. Akademiyanın əməkdaşları yaxşı xatırlayırlar ki, 10 il bundan əvvəl akademiyanın 80 illik yubileyində Heydər Əliyev iştirak etmişdir, ürək sözlərini bildirmişdir.

Akademiyanın hazırda beynəlxalq əlaqələri də yüksək səviyyədədir. Mən çox şadam ki, bu gözəl ənənə davam edir və Sovet İttifaqı zamanında, təbii ki, mərkəzləşdirilmiş qaydada buraya xaricdən tələbələr göndərilirdi. Ancaq bu gün xarici tələbələrin sayının artması onu göstərir ki, bu ali məktəbdə təhsil həqiqətən, yüksək səviyyədədir. Buraya təhsil almaq üçün gələn xarici tələbələr əminəm ki, Azərbaycandan vətənə ən xoş arzularla qayıdacaqlar. Müxtəlif dövrlərdə burada 10 minə qədər xarici tələbə təhsil almışdır, onlar istər-istəməz ömrünün sonuna qədər o illəri xatırlayacaqlar. Onların həyatının müəyyən hissəsi Azərbaycanla bağlıdır və əlbəttə ki, beynəlxalq əlaqələrimizin gələcək inkişafı üçün bu amil öz rolunu oynayacaqdır.

Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsilin səviyyəsi ölkəmizin perspektivlərini müəyyən edəcəkdir. Biz inkişaf etmiş ölkələrin təcrübəsini yaxşı bilirik və görürük ki, o ölkələr, sözün əsl mənasında, inkişaf edir ki, orada təhsilin səviyyəsi yüksəkdir. Biz çalışırıq ki, Azərbaycanda bu sahəyə daim diqqət göstərilsin, praktiki tədbirlər görülsün, həm təhsil sisteminin maddi-texniki bazası güclənsin və ən önəmlisi eyni zamanda, təhsilin keyfiyyəti artsın. Həm orta, həm də ali məktəblərdə bu proses ardıcıllıqla, vahid sistem şəklində aparılmalıdır və aparılır.

Bildiyiniz kimi, bizim, demək olar ki, bütün ali məktəblərimizdə maddi-texniki baza möhkəmlənibdir, təmir, yenidənqurma işləri aparılıbdır, lazımi avadanlıqlar əldə edilibdir. Orta

məktəblərdə də buna oxşar proseslər gedir. Son illər ərzində Azərbaycanda iki mindən artıq məktəb tikilib və ya əsaslı təmir olunub, avadanlıqla, kompyuterlərlə təchiz edilib. Biz elə etməliyik ki, uşaqlarımız, yeniyetmələrimiz gənc yaşlarından ən mütərəqqi təcrübə ilə tanış olsunlar və ardıcıllıqla öz təhsil səviyyələrini artırsınlar. Biz çalışacağıq ki, dünyada mövcud olan ən qabaqcıl təcrübəni Azərbaycanda tətbiq edək. Elə etməliyik ki, təhsil sahəsində bütün problemlər həllini tapsın. Dövlətin təhsil məsələlərinə olan diqqətini təhsilə ayrılan xərclər ilə də ölçə bilərik. Bu xərclər ildən-ilə artır və Azərbaycanın dövlət büdcəsində təhsil xərcləri hərbi xərclərdən sonra ikinci yerdədir. Əgər Azərbaycan müharibə vəziyyətində olmasaydı, çox güman ki, təhsil xərcləri birinci yerdə olacaqdı. Biz təhsilə ayrılan xərclərdən çox böyük səmərə ilə istifadə etməliyik. Son illər Azərbaycanda bu sahədə dərinləşən islahatlar düzgün istiqamətdə aparılır. Biz bütün dünyada gedən prosesləri bilirik, izləyirik və ölkəmiz üçün ən məqbul variantı seçməklə təhsilimizin səviyyəsini artırmalıyıq.

Gənclərimiz milli dəyərlər əsasında qurulmuş azərbaycançılıq, müstəqillik ideologiyaları ilə dəstəklənməlidirlər. Milli dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Məhz milli dəyərlərimiz, ənənələrimiz bizi əsrlər boyu assimilyasiyadan qorumuşdur. Biz müxtəlif imperiyaların, ölkələrin tərkibində yaşamışıq, müstəqillikdən məhrum idik. Buna baxmayaraq, milli identikliyimizi saxlaya, qoruya bilmişik. Məhz ona görə ki, milli dəyərlərimizə münasibətimiz həmişə çox yüksək səviyyədə olmuşdur. Bu gün də gənc nəslin tərbiyə olunmasında, formalaşmasında və Azərbaycanın uzunmüddətli, dayanıqlı, müstəqil ölkə kimi yaşamasında milli dəyərlərə bağlılığımız müstəsna rol oynayır. Mən çox istəyirəm ki, bizim bütün ali məktəblərdə gənclərimiz yüksək peşəkarlıqla yanaşı, məhz milli dəyərlərimizi unutmasınlar.

Bu gün biz qloballaşan dünyada yaşayırıq. Qloballaşmanın həm müsbət, həm də ki, mənfi tərəfləri vardır. Bu barədə artıq açıq danışılır və bu barədə dünyada gedən diskussiyalar çox böyük

maraq doğurur. Biz dünya birliyinin bir parçasıyıq. Azərbaycan müstəqil, gənc, dinamik və açıq ölkədir. Biz açıq qapılar siyasəti aparırıq. Ancaq buna baxmayaraq, milli dəyərlərimiz, tariximiz, ədəbiyyatımız, ana dilimiz bizim üçün həm dayaqdır, həm əsasdır, həm də ki, gələcəyə aparan yoldur. Mən çox istəyirəm və çox şadam ki, gənclərimiz məhz vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə alırlar, böyüyürlər və ölkəmiz üçün gələcəkdə böyük işlər görəcəklər.

Elə etməliyik ki, Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını icra edək. Bu strategiyanın müxtəlif istiqamətləri vardır. İlk növbədə, Azərbaycan bu gün müstəqil ölkə kimi tam formalaşıbdır. Mən hesab edirəm ki, biz bir neçə il əvvəl keçid dövrümüzü başa vurmuşuq. Bu gün artıq Azərbaycan keçid dövrünü yaşayan ölkə deyil və bu bizim uğurumuzdur. Biz bir ictimai-siyasi quruluşdan başqa ictimai-siyasi quruluşa çox böyük sürətlə və uğurla keçə bilmişik.

Bu gün Azərbaycan həm siyasi, həm iqtisadi cəhətdən müstəqil, azad, açıq, öz resurslarına güvənən ölkədir. Bizim iqtisadi uğurlarımız siyasi uğurlarımızı dəstəkləyir və siyasi təşəbbüslərin irəli sürülməsi üçün böyük dayaqdır. Ona görə, iqtisadi potensialın gücləndirilməsinə yönəldilmiş addımlar eyni zamanda, Azərbaycanın müstəqilliyini gücləndirən amillərdir. Bu gün Azərbaycanın iqtisadiyyatı çoxşaxəli iqtisadiyyatdır. Keçən il başlanan və hələ də dünyada davam edən iqtisadi böhran bunu bir daha göstərmişdir. Biz bu böhrandan şərəflə çıxa bilmişik. Bu ağır sınaqdan ona görə şərəflə çıxa bilmişik ki, iqtisadiyyatımız düzgün əsaslar üzərində qurulubdur.

Mən Azərbaycanın uzunmüddətli inkişaf perspektivlərini çox böyük nikbinliklə qeyd edirəm. Biz hər 5 il üçün strateji xətt əsasında müvafiq planlar, proqramlar tərtib edirik. Onların hamısı artıqlaması ilə icra edilir. Bizim böyük təbii resurslarımız vardır. Əlbəttə ki, bu da imkanlarımızı artırır. Ancaq dünyada təbii resurslarla zəngin olan bir çox ölkələr var ki, orada bu resurslar heç də hər zaman uğur gətirmir, uğurun əldə olunması üçün şərait yaratmır. Əksinə, varlılarla kasıblar arasında fərq daha da böyüyür.

Biz, əlbəttə ki, neft strategiyamızı və iqtisadi prioritetlərimizi müəyyən edərkən həm müsbət, həm mənfi təcrübəni öyrənmişik. Azərbaycanda son 6 il ərzində yoxsulluq səviyyəsinin 49 faizdən 11 faizə düşməsi ən gözəl göstəricidir. Bu onu göstərir ki, Azərbaycanda təbii resurslardan əldə olunmuş gəlirlər ədalətli bölünür. Onu göstərir ki, Azərbaycan cəmiyyətində təbəqələşmə getmir, əksinə, insanlar arasında gəlir baxımından fərqlər azalır. Onu göstərir ki, Azərbaycanda çox mükəmməl və şəffaf idarəetmə, o cümlədən resursların idarə edilməsi sahəsində sistem yaradılıbdır. Bir sözlə, iqtisadi islahatların davam etdirilməsi, siyasi islahatlarla tamamlanması siyasəti Azərbaycanda bundan sonra da davam etdiriləcəkdir.

Qarşımızda duran vəzifələri icra etmək üçün ilk növbədə, bizə peşəkar kadrlar lazımdır. Çünki bu gün Azərbaycan iqtisadiyyatı, xüsusilə ölkəmizin sənaye potensialı çox sürətlə inkişaf edir. Biz iqtisadi islahatlardan ölkəmizin sənayeləşməsinə qədər çox qısa və uğurlu yol keçmişik. Bu gün Azərbaycanda yaradılmış və yaranmaqda olan, müasir dünya standartlarına cavab verən sənaye müəssisələri iqtisadi inkişafımızı onilliklər bundan sonra da təmin edəcəkdir.

Əfsuslar olsun ki, təbii resurslar gec-tez tükənir. Nə vaxtsa biz də bu vəziyyətlə üzləşəcəyik. Biz hazır olmalıyıq. Biz hazır olmalıyıq ki, neft-qaz resurslarımız 50 ildən, 100 ildən sonra azalanda güclü sənaye potensialımız olsun, Azərbaycan dövləti qeyri-neft sektorunun inkişafı hesabına yaşasın və yaxşı yaşasın. Ona görə sənayemizin inkişafı, iqtisadi islahatlarımız bizdə çox peşəkar, müasir kadrlar hazırlanmasını tələb edir. Bu sahədə başlıca vəzifə, əlbəttə ki, ali məktəblərin üzərinə düşür. Əlbəttə, biz bundan sonra da çalışacağıq ki, gənclərimizi dünyanın aparıcı ali məktəblərinə göndərək. Bildiyiniz kimi, bu proqram artıq bir neçə ildir ki, icra edilir.

Hər il yüzlərlə gəncimiz Azərbaycan Dövlət Neft Fondunun hesabına dünyanın aparıcı ali məktəblərinə ezam olunur, orada oxuyur. Ümid edirəm ki, onların böyük əksəriyyəti Vətənə qayıdacaq və öz biliklərini Vətənin inkişafına sərf edəcəklər.

Ancaq bu, yaranan peşəkar kadr problemini həll etmir. Əsas kadr hazırlığı, əlbəttə ki, ölkə daxilində həll olunmalıdır. Bu məqsədlə biz, yenə də demək istəyirəm ki, təhsil sahəsində kompleks tədbirlərin görülməsini nəzərdə tuturuq. Uşaqlarımız kiçik yaşlarından informasiya-kommunikasiya texnologiyaları ilə tanış olmalıdırlar. Bu sahədə çox böyük irəliləyiş əldə olunubdur. Bu gün məktəblərimizdə hər 20 şagirdə bir kompyuter vardır. Halbuki bir neçə il bundan əvvəl məktəblərdə min şagirdə bir kompyuter var idi. O da elə dekorasiya naminə orada qoyulmuşdur, heç kim ondan istifadə edə bilmirdi. Biz nəinki bu proqramı tezliklə icra etdik, hətta indi ən ucqar kəndlərdə kompyuter sinifləri vardır. Mən hər dəfə ucqar bölgələrdə olarkən yoxlayıram, baxıram və görürəm ki, bu kompyuterlər işləyir. Yəni, bu dekorasiya üçün qoyulmayıb ki, mənə göstərsinlər. Yoxlayıram, baxıram, görürəm ki, uşaqlarımız ən ucqar dağ rayonlarında, paytaxtdan uzaqda yerləşən bölgələrdə artıq informasiya-kommunikasiya texnologiyaları ilə tanışdırlar.

Bizim artan iqtisadi inkişafımız artıq reallıqdır. Biz yaxşı bilirik ki, 5 ildən, yaxud da ki, 10 ildən sonra Azərbaycanın iqtisadi və sənaye potensialı nədən ibarət olacaqdır. Kadr hazırlığımızı da o artan səviyyəyə uyğunlaşdırmalıyıq.

Ona görə bir daha demək istəyirəm ki, peşəkar kadrların hazırlanması bu gün nəinki təhsil sahəsində, yaxud da ki, hansısa ayrı bir neft-qaz sahəsində, ümumiyyətlə, ölkə qarşısında duran ən vacib problemlərdən biridir və biz bütün sahələrdə buna nail olmalıyıq. Baxın, bu gün Azərbaycana dünyada mövcud olan ən qabaqcıl texnologiyalar gətirilir. Bütün sahələrə ən qabaqcıl, ən gözəl xidmət infrastrukturunu müəyyən edən avadanlıq gətirilir. Tikinti gedir, ölkə müasirləşir. Biz ən gözəl nümunələri Azərbaycana gətiririk, istər memarlıq, istər texnologiya sahələrində. Biz elə etməliyik ki, ölkəmiz, sözün əsl mənasında, müasir ölkə olsun. Biz bəzi hallarda çalışırıq ki, zamanı qabaqlayaq. Hələ dünyada təzə-təzə yaranan avadanlıqları Azərbaycana gətiririk və onlardan istifadə etmək üçün təcrübə toplayırıq. Ona görə, bir daha demək istəyirəm ki, kadrların hazırlanması ümumxalq işimizdir. Əlbəttə ki, bu məsələnin əsas yükü

ali məktəblərin üzərindədir. Ümid edirəm ki, biz bu sahədə daha da ciddi nəticələri görəcəyik.

Bir daha demək istəyirəm ki, Azərbaycan Dövlət Neft Akademiyasının ölkəmizin inkişafında müstəsna xidmətləri vardır. Heydər Əliyev neft strategiyasının icrası nəticəsində biz neft-qaz sənayesinin inkişafına, yenidən qurulmasına, canlanmasına nail ola bilmişik. Burada əyləşənlər, əlbəttə, yaxşı bilirlər ki, vaxtilə neft ölkəsi kimi dünyada özünü tanıdan Azərbaycan keçən əsrin 90-cı illərinin əvvəllərində artıq o şöhrətini itirirdi. Çünki qaz hasilatı böyük dərəcədə aşağı düşmüşdü. Biz özümüzü qazla təmin edə bilmirdik. Beləliklə, ölkəmizin böyük hissəsi qazsız qalmışdı. Neft hasilatı kəskin surətdə aşağı düşmüşdü və artıq biz özümüzü neftlə güclə təmin edə bilirdik. Əgər belə davam etsəydi, əlbəttə ki, bu gün Azərbaycan nəinki neft-qaz sahəsində, ümumiyyətlə, iqtisadi cəhətdən bəlkə də ən geridə qalmış ölkələrin sırasında ola bilərdi. Nəzərə alsaq ki, 90-cı illərin əvvəllərində gedən xoşagəlməz proseslər, iqtisadiyyatın və sənayenin tənəzzülü, siyasi böhran, vətəndaş qarşıdurması və sair mənfi amillər ölkəmizi uçurum kənarına qoymuşdu. Əgər biz iqtisadi sahəni də əlavə etsək və əgər bu sahədə irəliləyiş olmasaydı, onda, ümumiyyətlə, ölkəmizin gələcəyi haqqında ən pessimist proqnozlar özünü doğrulda bilərdi. Ona görə Heydər Əliyevin cəsarəti və uzaqgörənliyi, neft strategiyasının icrası nəticəsində biz bu sahədə və bütövlükdə ölkədə gedən proseslərdə ciddi dönüş yarada bildik. Hasilatın artırılması, xarici investisiyaların cəlb olunması, investorlar üçün cəlbedici şəraitin yaradılması, milli maraqların tam şəkildə qorunması, beynəlxalq əlaqələrimizin genişləndirilməsi, neft-qaz kəmərlərinin tikintisi, böyük neft-qaz yataqlarının işlənilməsi, «Azəri», «Çıraq», «Günəşli», «Şahdəniz» neft-qaz layihələrinin icrası nəticəsində bu gün biz bu uğurlardan danışa bilirik. Biz realist olmalıyıq.

Əlbəttə, bu gün biz çalışırıq ki, neft-qaz amilindən asılı olmayaq. Bizim strateji xəttimiz bundan ibarətdir. Biz istəyirik ki, qeyri-neft sektoru inkişaf etsin. Ancaq biz gərək bütün məsələlərə reallıq baxımından yanaşaq. Əgər bizdə bu güclü təbii resurs olmasaydı,

qeyri-neft sektorunu nəyin hesabına inkişaf etdirə bilərdik?! Pulumuz, maliyyə resurslarımız yox idi. 90-cı illərin əvvəllərində xəzinə boş idi. Orada olan-qalan vəsait də talan edilmişdi. Xarici maliyyə qurumları Azərbaycana çox riskli ölkə kimi baxırdı və bizə heç kim kredit vermək istəmirdi. Bu gün biz bu problemlə üzləşmirik. Azərbaycana xaricdən istənilən həcmdə maliyyə resursları gətirə bilərik və bəzi hallarda bizə olan təklif tələbatımızdan daha da artıqdır. Ancaq o illərdə kim bizə kredit verə bilərdi, bilə-bilə ki, o kredit heç vaxt qaytarılmayacaqdır.

Ona görə neft strategiyasının icra edilməsi bizim üçün yeganə çıxış yolu idi. Ancaq biz o strategiyanı Heydər Əliyevin rəhbərliyi ilə çox çətin geosiyasi vəziyyətdə icra etməyə başlamışdıq. Biz hamımız yaxşı bilirik ki, neft-qaz təşəbbüslərimiz bəzi hallarda böyük müqavimətlə üzləşirdi. Bəzi hallarda ölkə daxilində – əfsuslar olsun ki, belə hallar da olub – bir çox hallarda isə ölkəmizin xaricində. Əgər o təzyiqlərə dözməsəydik, qətiyyət və cəsarət göstərməsəydik, biz bu yoldan kənara çıxa bilərdik və o bizim ölkəmiz üçün faciə ola bilərdi. Bu tarixi biz yaxşı bilirik və yaddan çıxarmamalıyıq. Bu gün, bəli, Azərbaycan dünya enerji bazarında özünəməxsus yeri ilə outruşmuş ölkə, etibarlı tərəfdaş kimi özünü göstəribdir. Hər kəs bununla razılaşmalıdır və razılaşır. Çünki bu reallıqdır, reallığı inkar etmək olmaz. Ancaq bu reallıq göydən düşməyib. Bu reallığı səylərimizlə, bəzi hallarda, sözün yaxşı mənasında, inadkarlığımızla, qətiyyətlə və cəsarətlə özümüz yaratmışıq.

Bu gün Azərbaycanın neft-qaz sektoru intibah dövrünü yaşayır. Neft hasilatımız keçən əsrin 90-cı illəri ilə müqayisədə 5-6 dəfə artıbdır, qaz hasilatımız da həmçinin. Perspektivlərimiz daha da ürəkaçandır. Həm neft, həm qaz sektorunda indi aparılan işlər bir neçə ildən sonra yeni bir vəziyyətin yaranmasına gətirib çıxaracaqdır. Biz artıq dünya enerji xəritəsində öz imzamızı qoymuşuq. Təşəbbüsümüzlə çəkilən neft-qaz kəmərləri bütün yolları, bütün bazarları bizim üçün açıq edibdir. Bizim şaxələndirilmiş infrastrukturumuz, maliyyə resurslarımız vardır. Biz əldə olunan gəlirləri Neft fondunun yaradılması və fəaliyyəti

nəticəsində qoruya bilmişik. İldən-ilə Neft fondunda yığılan vəsait artır. Baxmayaraq ki, keçən böhran ilində neftin qiyməti 4-5 dəfə aşağı düşmüşdü, yenə də biz o vəsaitdən elə qənaətlə istifadə etdik ki, həm ölkədə işlər getsin, həm də orada məbləğ azalmasın. Bu məbləğ getdikcə artır.

Biz bu gün istənilən böyük maliyyə resurslarını tələb edən layihəni öz gücümüzlə icra edə bilərik. Bu, böyük uğurdur, böyük dəyərdir.

Müstəqillik ancaq güclü iqtisadiyyat üzərində qurula bilər. Müstəqillik bizim üçün hər şeydən üstündür. Bundan üstün bir şey ola bilməz. Biz bu müstəqilliyi möhkəmləndirməliyik. Müstəqil siyasət aparmaq, iqtisadi, o cümlədən enerji sahəsində müstəqil təşəbbüsləri irəli sürmək böyük imkanlar tələb edir – həm maliyyə, həm iqtisadi, həm siyasi cəhətdən. Azərbaycan cəmiyyətində bu məsələlərlə bağlı vahid fikrin formalaşması, əlbəttə ki, mövqelərimizi gücləndirir. Bir daha demək istəyirəm ki, neft-qaz sektorunda vaxtilə Azərbaycan tərəfindən irəli sürülmüş və bu gün irəli sürülən layihələr həlledici rol oynayır. Bu gün Azərbaycanın iştirakı olmadan enerji sahəsində və həmçinin nəqliyyat və iqtisadiyyat sahələrində heç bir təşəbbüs irəli sürülə bilməz. Azərbaycanın iştirakı və razılığı olmadan hər bir halda bu geniş bölgədə enerji məsələləri öz həllini tapa bilməz. Bizim isə bu sahədə siyasətimiz birmənalıdır. Biz enerji resurslarımızdan ancaq əməkdaşlığın dərinləşməsi üçün istifadə etməyə çalışırıq, buna nail olmaq istəyirik. Biz enerji imkanlarımızdan heç vaxt başqa məqsədlə istifadə etməmişik və etməyəcəyik. Biz bu imkanlardan ancaq bölgədə ölkələr arasındakı dostluq, mehriban qonşuluq münasibətlərinin gücləndirilməsi, milli maraqlarımızın təmin edilməsi və Azərbaycanın qüdrətlənməsi üçün istifadə edirik və edəcəyik.

Əlbəttə ki, uğurlu neft strategiyamızın davam etdirilməsi üçün Azərbaycan Dövlət Neft Akademiyasının çox böyük rolu vardır. Əgər 1994-cü ildə imzalanmış müqavilənin icrasında mütəxəssislərimiz iştirak etməsəydilər, biz müqavilənin imzalanmasından cəmi 3 il keçəndən sonra ilk nefti hasil edə bilməzdik. Bu,

dünya enerji-neft praktikasında nadir bir təcrübə idi. Adətən, müqavilə bağlanandan 10 il, bəzən 15 il sonra birinci neft hasil edilir. Bizdə isə 1994-cü ildə müqavilə bağlandı, 1997-ci ildə ilk neft hasil edildi. Mütəxəssislərimiz, Dövlət Neft Akademiyasında təhsil almış mütəxəssislər, mühəndislər, alimlərimiz bu neft strategiyasının uğurla icra edilməsində böyük rol oynamışlar. Mən bunu çox yüksək qiymətləndirirəm və demək istəyirəm ki, gələcəkdə görüləcək işlər çoxdur. Neft-qaz strategiyamız uğurla icra edilir və bu, uzunmüddətli strategiyadır. Onilliklər bundan sonra Azərbaycan bu sahədə, bu bölgədə aparıcı rolunu qoruyub saxlayacaqdır.

Əziz dostlar, mən bu gözəl yubiley münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı və yeni uğurlar arzulayıram. Sağ olun.

## ALMANİYANIN KEÇMİŞ XARİCİ İŞLƏR NAZİRİ HANS-DİTRİX GENŞERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Almaniya Federativ Respublikasının keçmiş Xarici İşlər naziri, Almaniya hökumət koalisiyasına daxil olan Azad Demokratlar Partiyasının Fəxri sədri Hans-Ditrix Genşerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Almaniya Federativ Respublikasının keçmiş Xarici İşlər naziri Hans-Ditrix Genşer ölkəmizdə gedən böyük inkişaf prosesləri barədə məlumatlı olduğunu və səfər müddətində Azərbaycanda sürətli iqtisadi inkişafın şahidi olduğunu dedi və bu inkişafın onda dərin təəssürat yaratdığını qeyd etdi. Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinə toxunan qonaq bu sahədə əldə edilən uğurların əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı son illər Azərbaycanda gedən sürətli iqtisadi inkişaf proseslərindən danışdı. Azərbaycan iqtisadiyyatının ən sürətlə artan iqtisadiyyat olduğunu deyən prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların önəmini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlər, energetika sahəsi və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «BAKUTEL–2010» BEYNƏLXALQ SƏRGİSİ İLƏ TANIŞLIQ

*23 noyabr 2010-cu il*

*Noyabrın 23-də Bakı Sərgi Mərkəzində «BakuTel–2010» XVI Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi açılmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərgi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, sərgidə dünyanın 15 ölkəsindən 115 şirkət iştirak edir. Yerli şirkətlərin ekspozisiyası sərginin ümumi ərazisinin təxminən 40 faizini tutur. Builki sərginin sahəsi ötənilki sərginin sahəsindən təxminən 30 faiz çoxdur. Sərginin daimi iştirakçılarının sayının 70 faizdən çox olması bu tədbirə marağın ilbəil artmasının göstəricisidir.*

*Dünyada baş verən iqlim dəyişiklikləri ilə bağlı problemlərin aktuallığı, həmçinin Azərbaycanda «Ekologiya ili» ilə əlaqədar olaraq builki sərgi «İKT və qlobal iqlim dəyişikliyi» devizi altında keçirilir.*

*Qeyd olundu ki, sərgi çərçivəsində konfrans, forum, seminar və təqdimatlar keçirilir. Builki sərgini fərqləndirən mühüm cəhətlərdən biri təqdim olunan yeni məhsul və xidmətlərin sayı ilə bağlıdır. Bununla əlaqədar ən yeni xarici və yerli informasiya avadanlıqları, texnologiya və həll variantları nümunələri ilə tanış olmağa imkan verən «İnnovasiyalar ərazisi» layihəsi həyata keçirilir. Sərgidə proqram təminatı, naviqasiya sistemləri, simsiz texnologiyalar, intellektual sistemlər, müasir texnika və avadanlıqlar, digər yüksək texnologiyalı məhsullar nümayiş etdirilir.*

*Prezident İlham Əliyevə əvvəlcə «Aztelekom» və «Bakı Teleradio» İstehsalat birliklərinin pavilyonları təqdim olundu.*

*Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov prezident İlham Əliyevə «Regional innovasiya zonası» layihəsi barədə məlumat verdi. Qeyd edildi ki, bu layihənin yaradılmasında məqsəd kiçik və orta sahibkarlığın inkişafına dəstək vermək, İKT sahəsində insan resurslarını inkişaf etdirmək, xarici investisiyaları və qabaqcıl texnologiyaları cəlb etmək, İKT sahəsində ixrac potensialını gücləndirməkdir. Nazir bu layihə ilə bağlı görüləcək işlər barədə də dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, kompyuteri səslə idarəetmə sistemi olan «Dilmanc» ən son elmi-texniki yeniliklərə əsaslanır. «Dilmanc» layihəsi çərçivəsində nitqin tanınması, mətnlərin səsləndirilməsi və kompyuteri səslə idarəetmə sistemlərinin yaradılması üzrə işlər davam etdirilir. «Dilmanc»ın xüsusi cəhətlərindən biri də onun əlil insanlara kompyuterdən istifadə etmək imkanı yaratmasıdır.*

*Sonra prezident İlham Əliyevə «Azərfon» şirkətinin yenilikləri təqdim olundu. 3G mobil televizor, kamera və sair avadanlıqların üstünlükləri dövlətimizin başçısının diqqətinə çatdırıldı.*

*Prezident İlham Əliyevə Sloveniyanın «İskratel» şirkətinin Azərbaycandakı fəaliyyəti barədə məlumat verildi. Qeyd olundu ki, Azərbaycanda 5 ildir fəaliyyət göstərən bu şirkət 2009-cu ildə ölkəmizdə nümayəndəliyini açmış və texnoloji servis mərkəzi yaratmışdır.*

*Çinin «Huawei» şirkətinin pavilyonu da zənginliyi ilə diqqəti cəlb edir. Prezident İlham Əliyevə məlumat verildi ki, bu iqtisadi qurum da Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları bazarının inkişafında yaxından iştirak edir. Qeyd olundu ki, bu şirkət sərginin baş sponsorudur.*

*Dövlətimizin başçısı Estoniyanın «BEST Solutions» şirkətinin fəaliyyəti ilə də tanış oldu. Bildirildi ki, bu şirkət Azərbaycanda «Elektron Hökumət» Dövlət İnformasiya Sisteminin yaradılmasında yaxından iştirak edir. Bu sistem dövlət qurumlarının elektron bazalarına tez və təhlükəsiz çıxışını təmin edir, kağız sənədlərinin həcmini azaldır, dövlət informasiya sistemində*

*inteqrasiya imkanlarını genişləndirir, rəsmi orqanlarda qərarların qəbul edilməsi prosesinin sürətləndirilməsinə imkan yaradır.*

*Sonra prezident İlham Əliyevə «Azedunet» Azərbaycan Təhsil Şəbəkəsi barədə məlumat verildi. Bildirildi ki, bu layihə «2008–2012-ci illərdə Azərbaycanda təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı» çərçivəsində reallaşdırılır. Dövlətimizin başçısına «Təhsil» videoportalı barədə də məlumat verildi və internet vasitəsilə yayımlanan bir nümunəvi dərs təqdim olundu.*

*Prezident İlham Əliyev «Azercell» şirkətinin ölkəmizdəki yenilikləri ilə tanış oldu. Dövlətimizin başçısına mobil telefonla ödəmə imkanları nümayiş etdirildi. Qeyd edildi ki, mobil telefonlar tezliklə operativ ödəmə imkanlarını daha da genişləndirəcəkdir. Prezident İlham Əliyevi 3.75G və 4G texnologiyalarının müqayisəli təhlili ilə tanış etdilər. Dövlətimizin başçısına «Azercell»in digər yenilikləri də təqdim olundu.*

*«Türk Telekom» da Azərbaycanın informasiya-kommunikasiya bazarının daha da inkişafı üçün dəstəyini əsirgəmir. Qeyd olundu ki, «Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı»nın icrasının təmin edilməsi məqsədilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Malayziyanın «Measat» və ABŞ-ın aparıcı peyk istehsalçısı olan «Orbital» şirkətləri arasında müvafiq olaraq Malayziyaya məxsus orbital mövqedən birgə istifadəni və peykin istehsalını nəzərdə tutan əsas müqavilə imzalanmışdır.*

*«Softline» şirkəti də 2006-cı ildən bəri Azərbaycanda fəaliyyətini genişləndirir. 4 il ərzində 2000 nəfər bu şirkətin hazırlıq kurslarında yüksək biliklərə yiyələnmişdir. Bu təlim kurslarına dövlət idarələri, kommersiya və digər qurumların əməkdaşları cəlb olunurlar.*

*«Delta Telekom» şirkəti də Azərbaycanda çoxşaxəli fəaliyyəti ilə fərqlənən iqtisadi qurumlardandır. Bildirildi ki, bu şirkət Azərbaycanda regionun ən böyük DATA mərkəzini tikmişdir. Respublikamızın əksər saytlarının internet resurslarının DATA mərkəzinə köçürülməsi işi daha da sürətləndirilir. Bildirildi ki,*

*şirkət yeni internet kontent resurslarının yaradılması üzrə də konkret iş aparır. Ümumilikdə, «Delta Telekom» Azərbaycanın İKT sahəsində tranzit ölkəyə çevrilməsi üçün səyini əsirgəmir.*

*Sərgi ilə yaxından tanış olan prezident İlham Əliyev «Evronews» televiziyasına müsahibə verdi. Dövlətimizin başçısı ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı və sərgi barədə sualları cavablandırdı.*

*Daha sonra prezident İlham Əliyevə Misirin məşhur İsgəndəriyyə kitabxanasının «Cultnat» strukturunun «Culturama» layihəsi təqdim edildi. Layihə çərçivəsində 9 interaktiv ekran vasitəsilə Misirin tarixi barədə xronoloji ardıcıllıqla materiallar nümayiş etdirildi. Qeyd olundu ki, bu layihə xarici ölkələrdə 16-cı dəfədir təqdim edilir.*

*Prezident İlham Əliyev Azərbaycanın rabitə və informasiya-kommunikasiya texnologiyaları bazarının daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## POLŞANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, İQTİSADİYYAT NAZİRİ VALDEMAR PAVLYAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Polşa Respublikasının Baş nazirinin müavini, İqtisadiyyat naziri Valdemar Pavlyakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Valdemar Pavlyakın Azərbaycana səfərinin uğurlu olacağına əminliyini bildirdi. Bakıda keçiriləcək Azərbaycan–Polşa hökumətlərarası birgə komissiyanın iclasına toxunan prezident İlham Əliyev dedi ki, bu iclas münasibətlərimizin inkişaf etdirilməsi ilə bağlı qarşıda duran məsələlərə yenidən baxmaq üçün yaxşı fürsət yaradacaqdır.*

*Polşa Respublikasının Baş nazirinin müavini, İqtisadiyyat naziri Valdemar Pavlyak ölkəmizdə həyata keçirilən nəhəng tikinti-quruculuq işlərinə və əldə edilən dinamik inkişafa görə prezident İlham Əliyevi təbrik etdi. O, Azərbaycan prezidentinin Polşaya rəsmi səfərini və səfər zamanı onunla görüşünü məmnunluqla xatırlatdı. Valdemar Pavlyak Polşa–Azərbaycan hökumətlərarası birgə komissiyanın iclasının əməkdaşlığımızın daha da genişləndirilməsi işinə yeni təkan verəcəyini vurğuladı.*

*Polşa iş adamlarının Bakıda keçiriləcək biznes-forumundan danışan prezident İlham Əliyev həmin tədbirdə Azərbaycanda həyata keçiriləcək layihələrlə bağlı məlumatların da təqdim ediləcəyini və bunun polşalı iş adamları üçün çox maraqlı olacağını bildirdi.*

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİNİN MÜAVİNİ XIDIR SAPARLIYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Türkmənistanın Baş nazirinin müavini Xıdır Saparlıyevi qəbul etmişdir.*

*Baş nazirin müavini Xıdır Saparlıyev Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Türkmənistan prezidentinin ölkələrimiz arasında münasibətlərin inkişafına böyük önəm verdiyini dedi, Hökumətlərarası Birgə Komissiyanın müəyyən edilmiş tapşırıqlar əsasında səmərəli və fəal işlədiyini vurğuladı. Qonaq Türkmənistan prezidentinin komissiyanın daha məhsuldar işləməsi üçün əlavə tapşırıqlar verdiyini də bildirdi.*

*Dövlətimizin başçısı bu yaxınlarda Türkmənistan prezidenti ilə Bakıda görüşdüyünü və səmərəli danışıqlar apardıqlarını xatırlatdı. Xəzəryanı ölkələrin dövlət başçılarının dənizdə qarşılıqlı fəaliyyət və ikitərəfli münasibətlər çərçivəsində keçirilən sammitini uğurlu tədbir kimi qiymətləndirən prezident İlham Əliyev zirvə görüşündə yaxşı qərarlar qəbul olunduğunu qeyd etdi. Azərbaycan ilə Türkmənistan arasında münasibətlərin inkişafından razı qaldığını deyən dövlətimizin başçısı Türkmənistan prezidenti ilə əlaqələrimizin inkişafına dair mühüm məsələləri müzakirə etdiklərini də diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

# MONTENEQRONUN XARİCİ İŞLƏR NAZİRİ MİLAN ROÇENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Monteneqronun Xarici İşlər naziri Milan Roçenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Monteneqronun Xarici İşlər naziri Milan Roçe ölkəmizə səfərinin Azərbaycanda «Ümid» yatağının açılması ilə eyni vaxta təsadüf etməsindən məmnunluğunu bildirdi. O bunu Azərbaycan prezidentinin, azərbaycanlı alim və tədqiqatçıların böyük uğuru kimi qiymətləndirərək hadisə münasibətilə prezident İlham Əliyevə təbriklərini çatdırdı. Milan Roçe bu hadisənin Avropada və bütün dünya miqyasında əhəmiyyətini qeyd etdi.*

*Ölkəsinin Azərbaycan ilə bütün sahələrdə əməkdaşlıq etməyə maraqlı olduğunu vurğulayan nazir bildirdi ki, səfərinin əsas məqsədi ikitərəfli münasibətləri inkişaf etdirməkdir.*

*Dövlətimizin başçısı xoş sözlərə görə Monteneqronun Xarici İşlər naziri Milan Roçeyə təşəkkürünü bildirdi. «Ümid» yatağında kəşfiyyat işlərinin uğurla başa çatmasına toxunan prezident İlham Əliyev bu yataqda böyük qaz ehtiyatlarının olmasının əhəmiyyətini vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Böyük Britaniyanın York Hersoqu şahzadə Endryunu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi vurğulandı və bu əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## ABŞ-ın ALMAN MARŞAL FONDUNUN PREZİDENTİ KREYQ KENNEDİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 noyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da ABŞ-ın Alman Marşal Fondunun prezidenti Kreyq Kennedini qəbul etmişdir.*

*ABŞ-ın Alman Marşal Fondunun prezidenti Kreyq Kennedi son illər Bakıda həyata keçirilən inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını bildirdi və bütün bu prosesləri Azərbaycanın təbii ehtiyatlarından səmərəli istifadə olunmasının nümunəsi kimi dəyərləndirdi.*

*Dövlətimizin başçısı böyük inkişafın təkcə Bakıda* deyil, *regionlarda da getdiyini vurğuladı və səfərin bu proseslərlə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə ABŞ-ın Alman Marşal Fondu arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## HAKİM YENİ AZƏRBAYCAN PARTİYASINDAN MİLLİ MƏCLİSƏ SEÇİLMİŞ DEPUTATLARLA GÖRÜŞ

*Prezident sarayı*

*29 noyabr 2010-cu il*

*Noyabrın 29-da dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev hakim partiyadan Milli Məclisə seçilmiş deputatlarla görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** İlk növbədə mən sizin hamınızı – Yeni Azərbaycan Partiyasının üzvlərini parlament seçkilərində qazandığınız qələbə münasibətilə təbrik etmək istəyirəm. Bu gün Konstitusiya Məhkəməsi seçkilərin nəticələrini təsdiqlədi və bu gün parlamentin birinci iclası keçiriləcəkdir. Bildiyiniz kimi, seçkilər çox ədalətli, şəffaf şəkildə keçirildi. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsi kimi, gözlənilən qələbəni əldə etdi.

Partiyamız son 5 il ərzində – keçən parlament seçkilərindən sonrakı dövr ərzində mövqelərini daha da möhkəmləndirə bilmişdir. Partiyamız, sözün əsl mənasında, ümumxalq partiyasıdır, cəmiyyətimizin bütün təbəqələrini birləşdirən partiyadır. Partiyamızın təşəbbüsü ilə ölkədə çox mühüm işlər görülmüşdür. 1992-ci ildə Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə müxalifət partiyası kimi yaranmışdır. Ancaq partiyamız bütün dövrlərdə dövlətçilik prinsiplərinə sadiq olmuşdur. Hətta müxalifətdə olan dövrdə heç vaxt milli maraqlara zidd heç bir addım atmamışdır. Əksinə, Azərbaycanda o illərdə hakimiyyətdə olan qüvvələrin milli maraqlara diqqət yetirməsi üçün səylər göstərmişdir. Təsadüfi deyil ki, Azərbaycan xalqının tələbi və səyi ilə Yeni Azərbaycan Partiyasının rəhbəri Heydər

Əliyev 1993-cü ildə prezident vəzifəsinə seçilmişdir. O dövrdən sonra partiyamız hakim partiyadır. Mən bu tarixi ona görə xatırlayır və qeyd etmək istəyirəm ki, partiyamız həm müxalifətdə, həm iqtidarda olmuşdur. Bugünkü Azərbaycanın reallıqları onu göstərir ki, partiyamız hələ uzun illər bundan sonra hakim partiya kimi fəaliyyətini davam etdirəcəkdir.

Partiyamızın çox geniş beynəlxalq əlaqələri vardır. Biz tərəfdaş partiyalarla çox səmərəli əməkdaşlıq edirik. Beynəlxalq əlaqələrimiz həm partiyanın, həm də ki, ölkəmizin maraqlarına xidmət edir. Ancaq ən önəmlisi ondan ibarətdir ki, cəmiyyət tərəfindən Yeni Azərbaycan Partiyası böyük rəğbət qazana bilmişdir. Nümayəndələrimizin seçkilərdə qələbəsi bunun əyani sübutudur. Hər bir namizəd, əlbəttə ki, öz dairəsində öz kampaniyasını aparmışdır. Ancaq təsadüfi deyil ki, bu dəfə qələbə qazanmış namizədlərimizin sayı daha da çox olmuşdur. Bu onu göstərir ki, Azərbaycan xalqı bizim partiyaya olan münasibətini seçkilərdə belə şəkildə göstərir. Əlbəttə ki, partiyamızın dəstəyi seçilmiş deputatların qələbə qazanmasında mühüm rol oynamışdır.

Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki rolu haqqında geniş danışmaq olar. Mən partiyanın sədri kimi, çox şadam ki, son illər ərzində partiyaya olan axın güclənir, xüsusilə partiyamızın sıraları gənclər hesabına genişlənir. Bu onu göstərir ki, partiyamızın fəaliyyəti və məramı cəmiyyət üçün cəlbedicidir.

İqtidar partiyası olmaq o qədər də asan deyildir. Adətən, hər şeyi tənqid etmək, yaxud da ki, proseslərdən kənarda qalmaq daha asandır. İqtidar partiyası olmaq böyük məsuliyyətdir və ölkədə gedən bütün proseslər istər-istəməz partiyamızın adı ilə bağlıdır, çünki partiyanın nümayəndələri rəhbərlikdə təmsil olunurlar. Ancaq ölkəmizdə həm siyasi, həm iqtisadi proseslər müsbət istiqamətdə getdiyinə görə, əlbəttə ki, cəmiyyətdə olan gözəl ab-hava partiyamızın gücləndirilməsinə xidmət göstərir.

Keçirilən parlament seçkiləri Azərbaycanda islahatların düzgün istiqamətdə aparıldığını bir daha təsdiq etmişdir. Ölkəmizdə quruculuq-abadlıq işlərinin görülməsi xalq tərəfindən

dəstəklənir və hesab edirəm ki, seçkilərdəki nəticələr məhz bu reallığı əks etdirir.

Milli Məclis son 5 il ərzində səmərəli işləmiş, çoxlu qanunlar qəbul edilmiş, parlamentin beynəlxalq əlaqələri genişlənmişdir. Milli Məclisin ölkəmizin həyatında rolu artmaqdadır və bu, müsbət haldır. Hakimiyyətin bütün qolları ölkədə gedən proseslərdə fəal iştirak etməlidir və əlbəttə ki, Milli Məclisin uğurlu fəaliyyəti bütövlükdə ölkəmizdə gedən proseslərə müsbət təsir göstərmişdir.

Milli Məclisin rəhbər orqanları da, rəhbər vəzifələri tutanlar da öz fəaliyyətləri ilə bu müsbət meyilləri gücləndirmişlər. Mən keçən 5 il ərzində Milli Məclisin ümumi fəaliyyətini yüksək qiymətləndirirəm və hesab edirəm ki, bu meyillər, yəni bu kurs davam etdirilməlidir.

Milli Məclisin yeni tərkibində müəyyən dəyişikliklər olmuşdur. Bu da təbiidir, çünki həyat yerində durmur. Deputatların müəyyən faizi ilk dəfə seçilmiş deputatlardır. Bu da lazımdır. Vətəndaşların iradəsi ilə həll olunan məsələdir. Ancaq bu da təbii prosesdir və cəmiyyətdə gedən islahatların təzahürüdür.

Milli Məclisin rəhbər vəzifələrini tutan şəxslərə gəldikdə, hesab edirəm ki, onların fəaliyyətini bütövlükdə müsbət fəaliyyət kimi qiymətləndirmək olar.

*Milli Məclisin ötən 5 ildəki fəaliyyətini yüksək qiymətləndirən partiyanın sədri İlham Əliyev parlament rəhbərliyində hər hansı dəyişiklik üçün heç bir əsas olmadığını söylədi.*

*Dövlətimizin başçısı Milli Məclisin sədrliyinə yenidən partiyanın üzvü Oqtay Əsədovun, sədrin Birinci müavini vəzifəsinə partiyanın üzvü Ziyafət Əsgərovun, sədr müavinləri vəzifəsinə partiyanın üzvü Bahar Muradovanın və bitərəf deputat Valeh Ələsgərovun namizədliklərini təklif etdi.*

Bir daha demək istəyirəm ki, Milli Məclisin Azərbaycanın müasir inkişafında çox mühüm rolu və funksiyaları vardır. Parlament seçkiləri bunu bir daha göstərdi. Çünki parlament seçkilərinə cəmiyyətdə olan maraq bir daha onu göstərir ki,

vətəndaşlarımız istəyirlər ki, onları Milli Məclisdə layiqli nümayəndələri təmsil etsinlər.

Seçkilər tam şəffaf, demokratik şəkildə keçirilmişdir və bunu həm vətəndaşlarımız bilir, həm də beynəlxalq təşkilatlar qeyd edib. Ona görə də mən parlamentin gələcək fəaliyyətini çox uğurlu görürəm və bunu arzulayıram. Hesab edirəm ki, artıq Azərbaycanda parlamentarizm ənənələri yaranmışdır. Bu, müsbət ənənələrdir. Parlamentdə sivil, mədəni siyasi mübarizə aparmaq üçün bütün imkanlar vardır. Hesab edirəm ki, Milli Məclisin yeni tərkibi məhz bu sivil, mədəni siyasi mübarizə qaydalarının tətbiq edilməsi işinə daha da dəyərli töhfələr verəcəkdir.

Hesab edirəm ki, yeni tərkibdə Milli Məclis həm peşəkarlıq, həm intellektual baxımından Azərbaycanın inkişafına töhfəsini verməyə qadirdir. Mən çox şadam ki, Azərbaycan xalqının seçimi düzgün olmuşdur. İstənilən seçim düzgün seçimdir, çünki bu, xalq tərəfindən edilən seçimdir. Azərbaycan cəmiyyəti artıq elə yüksək pilləyə qalxıb ki, ən dəyərli nümayəndələrini seçməyə qadirdir.

Mən ümid edirəm ki, növbəti 5 ildə yeni Milli Məclis və əlbəttə, onun aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyası ölkəmizin gələcək inkişafına töhfəsini verəcək, ölkəmizin dayanıqlı, uzunmüddətli inkişafını, Azərbaycan xalqının maraqlarını tam şəkildə təmin edəcəkdir.

Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ IV ÇAĞIRIŞ MİLLİ MƏCLİSİNİN İLK İCLASINDA

*29 noyabr 2010-cu il*

*Noyabrın 29-da Azərbaycan Respublikasının IV çağırış Milli Məclisinin ilk iclası keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev iclasda iştirak etmişdir. Deputatlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev IV çağırış Milli Məclisin birinci iclasında nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli deputatlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün IV çağırış Milli Məclis öz işinə başlayır. Bu münasibətlə sizin hamınızı təbrik edirəm, bütün deputatlara məhsuldar fəaliyyət arzulayıram.

Parlament seçkiləri Azərbaycanda demokratik inkişaf istiqamətində atılmış növbəti mühüm addımdır. Bildiyiniz kimi, seçkilər çox azad, ədalətli, şəffaf şəkildə, rəqabət şəraitində keçirildi. Bütün namizədlər üçün bərabər imkanlar yaradılmışdır və seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirir. Mən əminəm ki, yeni tərkibdə Milli Məclis ölkəmizin gələcək inkişafı üçün dəyərli töhfələrini verəcək və Milli Məclis tərəfindən qəbul ediləcək qanunlar ölkəmizin demokratik inkişafı üçün gözəl şərait yaradacaqdır. Ölkəmizdə demokratik proseslər müsbət istiqamətdə inkişaf edir. Azərbaycanda hüquqi dövlət quruculuğu işində çox vacib işlər görülmüşdür. Demokratiya bizim şüurlu seçimimizdir. Azərbaycan müasir demokratik ölkə kimi, uğurla inkişaf edir. Ölkədə bütün azadlıqlar təmin edilibdir. Söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı, siyasi plüralizm təmin edilibdir. Ölkədə siyasi sistemin formalaşması işində çox vacib addımlar atılıbdır. Azərbaycanda siyasi mübarizə sivil qaydalarla tənzimlənir. Əminəm ki, yeni tərkibdə Milli Məclis bu gözəl ənənələrini daha da möhkəmləndirəcəkdir.

Azərbaycanda siyasi islahatların davam etdirilməsi üçün bütün imkanlar, siyasi iradə vardır. Biz mütərəqqi meyillərə çox müsbət yanaşırıq, Azərbaycanı müasir, güclü dövlət kimi görürük. Azərbaycanın inkişafı həm iqtisadi, həm siyasi islahatların paralel şəkildə aparılması istiqamətində mümkün olacaqdır. Biz istəyirik ki, ölkəmiz dünyanın inkişaf etmiş ölkələri sırasına daxil edilsin. Əlbəttə, bunu etmək üçün ölkədə bütün işlər müasir tələblərə uyğun şəkildə aparılmalıdır.

Ölkəmizdə son illər iqtisadi islahatlar da aparılmışdır. Azərbaycan iqtisadiyyatı artıq şaxələndirilmiş iqtisadiyyatdır. 2009-cu ilin iqtisadi və maliyyə böhranı bunu bir daha göstərdi. Böhrana baxmayaraq, Azərbaycanın uğurlu inkişafı davam etmişdir. Bütün sosial məsələlər həllini tapmışdır, valyuta ehtiyatlarımız daha da artmışdır və Azərbaycan iqtisadiyyatı dayanıqlılığını sübut etmişdir. Biz elə etməliyik ki, əldə olunmuş uğurlarla kifayətlənməyək. Görüləsi işlər çoxdur. Biz iqtisadi sahədə sənayeləşmə prosesinin sürətləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi işləri ilə məşğuluq. İqtisadiyyatın qeyri-neft sektorunun inkişafına böyük əhəmiyyət verilir və biz bunun gözəl nəticələrini görürük. Təkcə son 7 ilin statistikasına baxmaq kifayətdir ki, Azərbaycanın uğurlu iqtisadi inkişafı haqqında hər kəsdə əyani təsəvvür yaransın.

Son 7 ildə Azərbaycanda maaşlar və pensiyalar orta hesabla 5-6 dəfə artmışdır. Yoxsulluq 4 dəfə azalmışdır, 900 minə qədər yeni iş yeri açılmışdır. Büdcə xərcləri 12 dəfə, hərbi xərclər təxminən 20 dəfə, valyuta ehtiyatları 18 dəfə artmışdır. Bütün sosial proqramlar uğurla icra edilir. Azərbaycanın uğurlu iqtisadi inkişafı üçün bütün lazımi tədbirlər görülür. Bu statistik göstəricilər özlüyündə görülmüş işlərin əyani sübutudur. Ancaq bir daha demək istəyirəm ki, əldə edilmiş uğurlar və xüsusilə iqtisadi və maliyyə böhranından şərəflə çıxmağımız bizi arxayınlaşdırmamalıdır. Biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Biz irəliyə baxmalıyıq. 5 ildən, 10 ildən sonra Azərbaycan hansı yollarla inkişaf edəcəkdir?! Biz elə güclü iqtisa-

diyyat yaratmalıyıq ki, o iqtisadiyyat ölkəmizin uzunmüddətli inkişafını təmin etsin. Biz bu məsələlər üzərində çalışırıq.

Azərbaycan müasir, dünyəvi, güclü dövlət kimi özünü artıq bölgədə təsdiqləyib. Bölgədə gedən proseslər və tərəfimizdən irəli sürülmüş təşəbbüslər artıq konkret nəticələr verir. Biz regional əməkdaşlıq məsələlərinə çox böyük diqqətlə yanaşırıq və növbəti illərdə də bu bizim üçün prioritet məsələ kimi qalacaqdır. Çünki biz bu bölgədə yaşayırıq və bölgədə gedən proseslərə təsir imkanlarımızın genişləndirilməsi, əlbəttə ki, milli maraqlarımıza tam uyğundur.

Bir sözlə, Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır və bir daha demək istəyirəm ki, diqqətimizi növbəti illərdə aparılacaq işlərə yönəltməliyik. İqtisadi sahədə bütün müsbət meyillər növbəti illərdə gücləndirilməlidir, regional inkişaf proqramının icrası təmin ediləcəkdir və buna şübhə yoxdur. 2004–2008-ci illəri əhatə edən regional inkişaf proqramı artıqlaması ilə icra edilib. Bu bizə deməyə əsas verir ki, 2009–2013-cü illəri əhatə edən proqram da artıqlaması ilə icra ediləcəkdir. Bölgədə müşahidə olunan canlanma, əminəm ki, özünü daha da bariz şəkildə göstərəcək və beləliklə, biz ölkəmizin uğurlu iqtisadi inkişafının dinamikasına nail olacağıq.

Biz apardığımız xarici siyasətə sadiq olacağıq. Xarici siyasətimiz artıq dünya birliyində uğurlu siyasət kimi tanınır. Bizimlə ikitərəfli münasibətlərdə və dostluq münasibətlərində olan ölkələrin sayı artır. Bir sözlə, dostlarımızın sayı artır. Diplomatiyamız çox çevikdir, çox fəaldır və qarşılıqlı maraqlar üzərində, ölkələrin bir-birinə hörmət, bir-birinin işlərinə qarışmamaq prinsipləri əsasında qurulubdur. İkitərəfli əlaqələr genişlənir. Xarici ölkələrdə səfirliklərimizin sayı bir neçə dəfə artmışdır. Bu bizə imkan verir ki, həm ölkəmizi dünyada daha da dolğun şəkildə tanıtdıraq, həm də ki, öz maraqlarımıza nail olaq, onları təmin edək.

Xarici siyasətdə qonşularla münasibətlərimiz prioritet məsələdir. Bu da təbiidir. Çünki qonşularımızla çox gözəl, faydalı əlaqələrimiz vardır. Bu əlaqələr böyük tarixə malikdir. Biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Mən çox şadam ki,

tarixi əlaqələrlə bərabər, bu gün siyasi müstəvidə qonşu ölkələrlə heç bir problemimiz yoxdur. Bütün problemlər öz həllini tapıbdır və qonşu ölkələrlə münasibətlərimiz hesab edirəm ki, ən yüksək səviyyədədir. Gələcək fəaliyyətdə də bu istiqamətdəki addımlarımız məhz bir məqsədi güdəcək ki, qonşu dövlətlərlə həm ikitərəfli, həm çoxtərəfli formatda münasibətlərimiz daha da güclənsin.

Mən artıq regional əməkdaşlıq məsələləri haqqında fikirlərimi söylədim. Vaxtilə enerji, nəqliyyat dəhlizləri barədə tərəfimizdən irəli sürülmüş təşəbbüslər regional əməkdaşlığı gücləndirəcək amillər arasındadır. Bu dəhlizlər artıq reallıqdır. Bu reallıqları biz yaratmışıq. Bu işləri tərəfdaşlarımızla regional müstəvidə müştərək səylərlə davam etdirəcəyik. Azərbaycan bölgədə sülhün, təhlükəsizliyin, əməkdaşlığın dərinləşməsi və təmin edilməsi üçün səylərini qoymağa davam edəcəkdir.

Bütün ölkələrlə əlaqələrimiz qarşılıqlı hörmət və qarşılıqlı maraqlar üzərində qurulur. Biz bu münasibətlərin dərinləşməsində maraqlıyıq. Biz beynəlxalq təşkilatlarda fəaliyyətimizi gücləndirəcəyik. Baxmayaraq ki, hazırda bu fəaliyyət kifayət qədər təsirlidir. Üzv olduğumuz təşkilatlar qarşısında götürdüyümüz öhdəliklər vaxtında yerinə yetirilir. Biz bu təşkilatlara könüllü şəkildə üzv olmuşuq və bu öhdəlikləri könüllü şəkildə üzərimizə götürmüşük. Belə olan halda, əlbəttə ki, bu öhdəliklər yerinə yetirilməlidir. Ancaq biz çalışmalıyıq ki, üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda vahid meyarlar sistemi tətbiq olunsun, bütün ölkələrə eyni mövqedən yanaşılsın, heç bir ayrı-seçkilik olmasın. Bu istiqamətdə səylərimiz üzv olduğumuz təşkilatlarda öz nəticələrini verir. Elə təşkilatlar var ki, biz o təşkilatların üzvü deyilik, amma o təşkilatlarla səmərəli əməkdaşlıq edirik. O istiqamətdə də səylərimiz daha da gücləndirilməlidir. Azərbaycan etibarlı və yaxın tərəfdaş kimi, bütün bu təşkilatlarda öz töhfəsini verir, sözünü deyir və deyəcəkdir.

Sosial sahədə qarşımızda duran vəzifələr əhalinin rifah halını yaxşılaşdırmaq, aztəminatlı təbəqənin sosial müdafiəsini

gücləndirmək, bütövlükdə yoxsulluğu Azərbaycanda aradan qaldırmaqdır. Əgər bir neçə il bundan əvvəl bu cür fikirlər müəyyən inamsızlıqla üzləşirdisə, bu gün bu sahədə görülmüş işlər, əldə edilmiş uğurlar deməyə tam əsas verir ki, biz bu vəzifəyə nail olacağıq. Azərbaycanda yoxsullar olmamalıdır. Bu sosial bəla olmamalıdır. Buna nail olmaq üçün konkret proqramlarımız, düşünülmüş siyasət vardır. Son 7 il ərzində yoxsulluq səviyyəsinin 4 dəfə aşağı düşməsi görülən işlərin nəticələrinin təzahürüdür.

Biz növbəti illərdə bu məsələlərə həm maliyyə resurslarının istifadəsi, həm konkret sosial proqramların icrası, həm də iş yerlərinin açılması ilə nail olmalıyıq. Ünvanlı sosial yardım proqramı yüz minlərlə vətəndaşı əhatə edir. Bu da Azərbaycanın dövlət siyasətinin istiqamətlərini müəyyən edir və göstərir. Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. İqtisadiyyatımızın 85 faizi bazar iqtisadiyyatında, özəl sektorda formalaşır. Ancaq buna baxmayaraq, güclü sosial siyasətimiz vardır. Sosial siyasətdə heç bir geriləmə, geriyə addımlar olmayacaqdır. Nə üçün mən bunu deyirəm? Çünki keçən il və bu il dünyada hökm sürən böhran bəzi ölkələrdə xoşagəlməz hadisələrə gətirib çıxarıbdır. Bəzi ölkələr sosial ödəmələri kəsir, maaşların, pensiyaların miqdarını azaldır ki, böhrandan çıxsın. Azərbaycan da dünya iqtisadiyyatının bir parçası kimi, böhrandan əziyyət çəkibdir. Amma biz çalışmışıq ki, vətəndaşlarımızı böhranın mənfi təsirindən qoruyaq. Azərbaycan postsovet məkanında nadir ölkələrdəndir ki, böhran zamanı milli valyutanın məzənnəsi sabit qaldı. Biz heç bir dəyişikliyə imkan vermədik. Azərbaycanda bütün sosial ödəmələr vaxtında verilir. Böhrana baxmayaraq, bu il minimum əməkhaqqının və pensiyanın baza hissəsi artırıldı. Halbuki Avropanın əksər ölkələrində pensiya və maaşların miqdarı azalır.

Növbəti illərdə bu sahədə çox işlər görülməlidir. Biz, əlbəttə, böyük qürur hissi ilə qeyd edirik ki, Azərbaycanın iqtisadiyyatı son 7 il ərzində təxminən 3 dəfə artmışdır. Bu doğrudan da dünya miqyasında nadir bir hadisədir. Ancaq onu da etiraf etməliyik ki,

Azərbaycanda hələ də ehtiyac içində, çətin vəziyyətdə yaşayanlar, aztəminatlı ailələr vardır. Onların problemləri bizim problemimizdir. Biz onları həll edəcəyik. Bu problemi ancaq güclü iqtisadiyyat yaratmaqla həll etmək mümkündür.

Biz heç vaxt populist vədlər verməmiş, heç vaxt qeyri-real təşəbbüslərə qoşulmamışıq. Heç vaxt borc götürüb onu sosial məsələnin həllinə yönəltmək cəhdlərində olmamışıq. Biz öz hesabımıza yaşayırıq. Bizim büdcəmiz, bütün iqtisadi və sosial siyasət daxili resurslara hesablanıbdır. Bütövlükdə ölkəmiz öz fəaliyyətini daxili resurslar üzərində qurur. Hesab edirəm ki, uğurlarımızın təməlində məhz bu amil dayanır. Çünki biz ancaq və ancaq Azərbaycan xalqının zəhmətinə, istedadına arxalanırıq. Beynəlxalq əlaqələr hər bir ölkə kimi, bizim üçün də çox mühüm məna daşıyır. Biz çalışırıq ki, bu əlaqələri genişləndirək. Xüsusilə beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığımız çox uğurludur və artmaqdadır. Ancaq yaxşı bilirik ki, biz yalnız və yalnız daxili resurslarımız hesabına yaşamalıyıq. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik.

Nəzərə almalıyıq ki, bu gün iqtisadiyyatın qeyri-neft sektorunda çox müsbət meyillər müşahidə olunur. Hələ mən neft sektorunu qeyd etməmişəm. Bu sahə Azərbaycana böyük uğurlar, maliyyə resursları gətiribdir. Biz o resurslardan çox səmərəli şəkildə istifadə edirik. Yəni növbəti illərdə sosial məsələlərin həllinə daha da böyük diqqət göstəriləcəkdir. Elə etməliyik ki, hər bir vətəndaşa işləmək, normal yaşamaq üçün bütün şərait yaradılsın.

Mən növbəti illərdə iqtisadi, sosial və xarici siyasətlə bağlı əsas istiqamətləri və əsas fikirlərimi bildirdim. Mən bütövlükdə Azərbaycanın gələcəyinə çox böyük nikbinliklə baxıram. Çünki nikbinlik üçün əsas vardır. Azərbaycan artıq postsovet məkanında və bütövlükdə dünya xəritəsində özünəməxsus yerə malikdir. Biz müstəqil ölkəyik, sözün əsl mənasında, müstəqilik. Azərbaycan xalqın iradəsi ilə idarə olunur və belə də olmalıdır. Biz çalışmalıyıq ki, maraqlarımızı maksimum dərəcədə təmin edək. Bunu etmək üçün bizdə bütün imkanlar vardır.

Ölkə qarşısında duran əsas problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Biz bu istiqamətdə böyük səylər göstəririk ki, bu məsələ öz həllini tezliklə ədalətli, beynəlxalq hüquq normalarına uyğun şəkildə tapsın. Bildiyiniz kimi, uzun illərdir ki, danışıqlar aparılır. 18 ildir ki, Minsk qrupu fəaliyyət göstərir, ancaq heç bir nəticə yoxdur. Nəticə o zaman olacaq ki, Azərbaycan torpaqları işğalçılardan azad ediləcəkdir. Nəticə odur. Danışıqların fəallığı, yaxud da ki, müsbət istiqamətdə inkişafı nəticə sayıla bilməz. Biz nəticəni görmək istəyirik. Biz istəyirik ki, məsələ beynəlxalq hüquq normaları əsasında həll olunsun, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilsin. Digər beynəlxalq təşkilatların – ATƏT, Avropa parlamenti, Avropa Şurasının qərar və qətnamələri icra olunsun. Bu qərarlar və qətnamələr ona görə qəbul edilib ki, onlar icra olunmalıdır. Əgər onların icra mexanizmi yoxdursa, Ermənistan bu beynəlxalq hüquq normalarına məhəl qoymursa və beynəlxalq birlik öz növbəsində buna qarşı heç bir tədbir görmürsə, onda məsələ çətinləşə bilər.

Biz başa düşürük, bu gün Ermənistan çalışır ki, məsələni süni şəkildə uzatsın, özünü danışıqlarda konstruktiv tərəf kimi göstərsin. Ancaq həqiqət ondan ibarətdir ki, həlledici anlarda, həlledici məqamlarda Ermənistan daha əvvəl razılaşdırılmış məsələlərdən geri çəkilir, yenidən qeyri-real, qəbulu mümkün olmayan təkliflər irəli sürür. Beləliklə, danışıqlar prosesini müddətsiz və sonsuz etmək istəyir. Biz buna heç vaxt razı ola bilmərik. Biz danışıqları torpaqlarımızı azad etmək üçün aparırıq. Biz danışıqları Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa edilməsi üçün aparırıq. Ümid edirik ki, bu məsələ ilə məşğul olan qurumlar, tərəflər, vasitəçilər, nəhayət, öz kəskin sözünü deyəcəkdir. Bunun vaxtı çoxdan çatıbdır. Əgər belə olmasa, onda bu danışıqların mənası tamamilə itəcəkdir. Danışıqlar nəticə üçün aparılır, sadəcə, görüntü üçün deyildir. Ona görə, bir daha demək istəyirəm ki, mövqeyimizdə prioritet beynəlxalq hüquq normalarıdır, beynəlxalq təşkilatların qətnamələridir, Azərbaycanın haqq işidir

və ədalətli yanaşmadır. Biz onu da bilirik ki, beynəlxalq aləm bəzi hallarda qanunlarla deyil, siyasi maraqlarla tənzimlənir. Ancaq siyasi maraqlar da bu məsələ ilə məşğul olan tərəfləri sövq etməlidir ki, məsələ tezliklə həllini tapsın. Çünki Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgədə böyük təhlükədir. Bu, real təhlükədir. Bu münaqişə dondurulmuş münaqişə deyildir.

Biz başa düşürük, böyük dövlətlər istəyirlər ki, bu bölgədə sabitlik, sülh olsun, müharibə olmasın. Biz də bunu istəyirik. Kim istəyər ki, sabitlik pozulsun, yaxud da müharibə olsun. Ancaq bu o demək deyil ki, bu məsələ dırnaqarası dondurulmuş vəziyyətdə qalsın. Bu, mümkün deyildir. Bu gün bölgədə gedən proseslər, güclər nisbəti və əlbəttə, Azərbaycanın son illər ərzindəki uğurlu inkişafı imkan verməyəcək ki, bu status-kvo uzun müddət qalsın. Biz bununla heç vaxt razılaşa bilmərik. Status-kvo dəyişdirilməlidir. Azərbaycan torpaqları azad olunmalıdır. Bizim vətəndaşlar doğma torpaqlarına qayıtmalıdırlar. O ki qaldı xalqların öz müqəddəratını təyin etməsinə, bu məsələ ölkələrin ərazi bütövlüyü çərçivəsində uğurla həll oluna bilər. Helsinki Yekun Aktı da məhz bu yanaşmanı əks etdirir. Dünyada mövcud muxtariyyətlərlə bağlı olan müsbət təcrübə Azərbaycanda da tətbiq olunmalıdır.

Mən bir daha demək istəyirəm ki, Azərbaycan bu prinsipial mövqedən bir addım da geri çəkilməyəcəkdir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt müzakirə mövzusu olmayıbdır və olmayacaqdır. Heç vaxt Azərbaycan dövləti onun əzəli torpağı olan Dağlıq Qarabağa müstəqillik verməyəcəkdir. Bu, mümkün deyildir. Qarşı tərəf bunu bilir. Ümid edirəm ki, biz danışıqların inkişafında müsbət meyilləri görəcəyik.

Ancaq bununla bərabər, başa düşürük ki, məsələni həll etmək üçün biz daha da güclü olmalıyıq. Bizim indiki gücümüz kifayət qədər çoxdur. Amma bütün mənalarda daha da güclü olmalıyıq. Azərbaycanın iqtisadi və siyasi addımları, ordu quruculuğu sahəsində atılmış addımlar bunu göstərir ki, biz hər gün həm iqtisadi, həm hərbi, həm siyasi cəhətdən daha da güclənirik.

Bölgədə artan rolumuz, əlbəttə ki, bizə bu məsələnin həlli üçün də imkan verəcəkdir.

Biz növbəti illərdə bütün sahələrdə siyasətimizi müsbət təcrübə əsasında davam etdirəcəyik. Mən bu gün əsas istiqamətlər haqqında fikirlərimi bildirdim. Bir daha demək istəyirəm, bizdə hər bir istiqamət üzrə konkret tədbirlər planı, konkret proqramlar vardır. Biz fəaliyyətimizi bu proqramlar əsasında təşkil etmişik və hər bir istiqamətdə nəticələr vardır. Biz demokratik, dünyəvi, iqtisadi cəhətdən güclü, müasir dövlət qururuq. Bu istiqamətdə yaxşı nəticələr vardır. Biz gələcəkdə hər istiqamət üzrə səylərimizi davam etdirəcəyik.

Artıq çox böyük maliyyə imkanlarımız vardır. Biz çox yaxşı bilirik ki, növbəti illərdə, xüsusilə enerji sektorunun inkişafı hesabına maliyyə imkanlarımız daha da genişlənəcəkdir. Ancaq bu o demək deyil ki, biz bundan arxayın olaq və islahatları aparmayaq. Əksinə, biz bu maliyyə resurslarından elə istifadə etməliyik ki, yeni sahələrin inkişafına təkan verilsin. Bu gün Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir. Bəzən sual verilir ki, sizin böyük neft-qaz ehtiyatlarınız, maliyyə imkanlarınız var, nə üçün bu sahə ilə məşğulsunuz? Bu bizim strateji xəttimizdir. Əgər biz müasir dövlət qurmaq, neft-qaz amilindən asılılığımızı azaltmaq istəyiriksə, mütləq ilk növbədə ən müasir texnologiyaları Azərbaycana gətirməliyik. Ondan sonra elmə, texnoloji prosesə qoyulan sərmayə artıq Azərbaycanda çox güclü, yeni və müasir elmi ixtiraların yaranmasına xidmət edəcəkdir.

Biz əgər müasir dövlət qurmaq istəyiriksə, bütün sahələrdəki işlərimiz mütləq müasir standartlar səviyyəsində görülməlidir. Biz ancaq elmə, təhsilə qoyduğumuz sərmayə ilə buna nail ola bilərik. Mən çox şadam ki, Azərbaycanda maliyyə kapitalı insan kapitalına qoyulur və bu öz bəhrəsini verir. Bilikli, savadlı, oxumaq istəyən, vətənpərvər gənc nəsil yetişir.

Əlbəttə ki, biz gələcək haqqında fikirləşməliyik. Baxmayaraq ki, təbii resurslarımız, belə demək olarsa, ən azı 100 il bizə yaxşı həyat təmin edəcəkdir. Ancaq ondan sonra nə olacaq?! Əlbəttə,

bunu indidən proqnozlaşdırmaq çətindir. Amma hər halda, biz çalışmalıyıq, 10 il, 20 il, 50 il qabağa baxmalıyıq. Dünya necə inkişaf edəcək?! Azərbaycan nəyin hesabına inkişaf edəcək?! Bölgədə vəziyyət necə olacaq?! Demoqrafik vəziyyət necə olacaq?! Biz bütün bu işləri bu gün hazırlamalıyıq. Vaxtilə – keçən əsrin 90-cı illərinin əvvəllərində, ortalarında başlanmış siyasi və iqtisadi islahatlar bu gün öz bəhrəsini verir. 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi»nin birinci mərhələsi 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə tamamlandı. Ancaq bu gün aparılan işlər 10 il, 15 il, 20 il bundan sonra uğurlu inkişafımızı təmin edəcəkdir. Biz enerji resurslarımızı ölkəmizin inkişafına və dostlarımızın sayının artırılmasına yönəldirik. Bu, maraqlarımıza tam şəkildə cavab verir. Ona görə, biz gələcəyə baxmalıyıq və baxırıq. Apardığımız islahatlar həm bugünkü inkişafı təmin edir, həm də ki, gələcək inkişafımızı təmin edəcəkdir.

Mən bir daha Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə qayıtmaq istəyirəm. Əlbəttə, uzun illərdir torpaqlarımız işğal altındadır. Bu bizim üçün çox ağırdır. Bu ən ağır, ən ağrılı problemimizdir. Biz çalışırıq ki, soydaşlarımızın yaşayış səviyyəsini yaxşılaşdıraq. Müvafiq proqramlar qəbul edilib, şəhərciklər tikilir. Bunların hamısını yaxşı bilirsiniz. Ancaq bu, məsələnin müvəqqəti həllidir. Biz o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Baxmayaraq ki, işğal edilmiş torpaqlarda hər şey ermənilər tərəfindən dağıdılıb. Biz şəhərləri yenidən tikəcəyik, quracağıq, abadlaşdıracağıq. Biz bu məsələni həmişə diqqət mərkəzində saxlayırıq. Ancaq bu da həqiqətdir ki, biz məsələnin elə bir həllinə nail olmalıyıq ki, Azərbaycanın maraqlarını tam şəkildə təmin etsin. Hansısa yarımçıq razılaşma maraqlarımızı təmin edə bilməz. Bəlkə bu gün biz hər hansı bir güzəştə getməklə işğal edilmiş torpaqların bir hissəsini qaytara bilərik. Ancaq başqa torpaqlar nə vaxt qayıdacaq?! Ona görə biz buna, əlbəttə ki, dövlətçilik, strateji seçim nöqteyi-nəzərindən yanaşmalıyıq. Hansısa konyunktura məsələlərinə çox həssaslıqla və ehtiyatla yanaşmalıyıq. Biz ərazi bütövlüyümüzü tam şəkildə bərpa etməliyik. Həm işğal edilmiş torpaqlar, həm Dağlıq Qarabağ

bizim torpağımızdır və suverenliyimiz o torpaqlarda təmin edilməlidir. Əlbəttə ki, bu, mərhələlərlə həll olunan məsələdir, ancaq bu, strateji xətdir. Biz bu seçimə sadiqik. Ancaq bu gün Ermənistan ilə Azərbaycan arasındakı fərq o qədər böyükdür və bu fərqin böyüməsi üçün bütün şərait yaradılıb ki, mən heç şübhə etmirəm, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Burada artıq həm iqtisadi, həm siyasi, həm hərbi, həm də demoqrafik amillər öz rolunu oynayır. İllər keçdikcə bu amillər mövqeyimizi daha da gücləndirəcəkdir.

Ona görə işlərimizi elə qurmalıyıq ki, məqsədə çatmaq üçün ən məqbul addımlar atılsın və Azərbaycanın ərazi bütövlüyü tam şəkildə təmin edilsin. Bütün işlərimiz – həm siyasi, həm iqtisadi islahatlar bu məqsəd üçün aparılır. Əlbəttə, ölkənin inkişafı təmin edilməli idi. Hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyi əldə edəndə Azərbaycan hansı vəziyyətdə idi. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə aparılmış islahatlar bizə imkan verdi ki, çətin vəziyyətdən çıxaq.

Ancaq Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və məsələnin həll olunmaması bizi bu işləri daha da tezliklə görməyə sövq etmişdir. Bizim daha da səfərbər olmağımıza xidmət göstərmişdir. Bu bizim məqsədimizdir. Bu məsələdən başqa, bütün məsələlər Azərbaycanda həll olunur və həll olunacaqdır. Mən artıq bu barədə söylədim və bizim açıq siyasətimiz vardır. Ona görə bütün xalqımız, bütün cəmiyyətimiz səfərbər olunmalı, hər bir vətəndaş öz yerində elə işləməlidir ki, biz birgə səylərlə, düşünülmüş siyasətlə, dəqiq atılmış addımlarla o günü yaxınlaşdıraq. Mən ümid edirəm ki, o gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir.

Növbəti 5 ildə Milli Məclisin qarşısında çox mühüm vəzifələr durur. Bir daha demək istəyirəm ki, artıq Azərbaycanda parlamentarizmin çox yaxşı ənənələri yaranmışdır. Milli Məclis siyasi qurumdur, hakimiyyətin bir qoludur. Məclis tərəfindən qəbul edilmiş qərarlar ölkəmizin inkişafına xidmət edir, belə də olmalıdır. Hamımız çalışmalıyıq ki, ölkəmizi gücləndirək. Hamımız tutduğumuz vəzifədən, siyasi əqidədən asılı olmayaraq

səylərimizi müstəqil Azərbaycan dövlətinin güclənməsinə qoymalıyıq. Mən çox şadam ki, Azərbaycan cəmiyyətində və son illərdə, o cümlədən siyasi spektrdə bu meyillər güclənir. Bu meyillərin daşıyıcılarının rolu artır. Azərbaycanın inkişafına əngəl yaratmaq, Azərbaycanı ləkələmək istəyən, Azərbaycanda hər hansı bir xoşagəlməz hadisəni gözləyən qüvvələrin təsiri xeyli dərəcədə azalmışdır, demək olar ki, artıq hiss olunmur. Bu parlament seçkilərinin nəticələri bunu bir daha göstərdi.

Azərbaycan azad, demokratik ölkədir. Biz demokratiyanın inkişafına çox böyük diqqət göstəririk. Biz istəyirik ki, Azərbaycanda güclü siyasi sistem formalaşsın. Mən hesab edirəm ki, Milli Məclisin indiki tərkibi bu məqsədə xidmət edəcək, siyasi opponentlər bir-biri ilə fikir-ideya mübarizəsi aparacaqlar. Artıq Azərbaycan cəmiyyətində, xüsusilə siyasi müstəvidə bu meyillər güclənir. Mən bunu müsbət hal, cəmiyyətimizin inkişafı kimi qəbul edirəm. Əlbəttə, müasir, inkişaf edən, dünyaya inteqrasiya edən və dünyada böyük hörmətlə qeyd olunan Azərbaycanın müasir siyasi sistemi də olmalıdır. Ancaq Azərbaycan dövləti, yaxud da ki, dövlət başçısı və ya iqtidar buna təkbaşına nail ola bilməz. İqtisadi inkişafa nail ola bilər, amma siyasi sistemin təkmilləşməsi məsələsi bütün siyasi qüvvələrin işidir. Mən arzu edirəm ki, Azərbaycanda bütün siyasi qüvvələr daha da güclənsin. Bizə güclü siyasi sistem lazımdır. Azərbaycanda demokratik müzakirələr, diskussiyalar, fikir mübadiləsi, plüralizm meyilləri, azad mətbuat daha da gücləndirilməlidir. Azərbaycan dövləti bu istiqamətdə əlindən gələni etməyə çalışır ki, biz buna nail olaq. Beləliklə, Milli Məclis də öz tərəfindən Azərbaycanda siyasi mübarizənin mədəni, sivil qaydalarla aparılmasına töhfəsini verəcəkdir.

Əziz deputatlar, mən sizin hamınızı deputat vəzifəsinə seçilməyiniz münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan xalqı sizə etimad, inam göstərib. Əminəm ki, siz bu yüksək etimada layiq olacaqsınız. Sağ olun.

* * *

*İclasa sədrlik edən Fəttah Heydərov dərin məzmunlu nitqinə görə prezident İlham Əliyevə deputatlar adından minnətdarlığını bildirdi. O, ulu öndər Heydər Əliyevin qarşıya qoyduğu vəzifələrin prezident İlham Əliyevin dövlət başçısı olduğu dövrdə də uğurla həyata keçirildiyini və bütün sahələrdə dinamik inkişafın, xalqın rifah halının daha da yaxşılaşdırılmasına yönəldiyini vurğuladı.*

*Oqtay Əsədov Azərbaycan Respublikası Milli Məclisinin sədri seçildi. Yeni seçilmiş sədr Milli Məclisin ilk iclasında çıxış etdi.*

## Milli Məclisin sədri Oqtay Əsədovun çıxışı

Zati-aliləri, möhtərəm cənab Prezident!

Hörmətli deputatlar!

Etimad göstərib məni Azərbaycan Respublikası Milli Məclisinin sədri seçdiyinizə görə sizə səmimi-qəlbdən minnətdarlığımı bildirirəm. Bir daha əmin etmək istəyirəm ki, Azərbaycan parlamentinin sədri kimi, öhdəmə düşən bütün vəzifələri layiqincə yerinə yetirmək üçün var gücümdən istifadə edəcəyəm.

Parlament çoxluğunu təşkil edən, ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasını təmsil etməyim bu işdə mənə əlavə güc verəcəkdir. Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan, möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə gündən-günə möhkəmlənən bu partiyanın sıralarında olmağım mənim üçün qürur mənbəyidir.

Hörmətli deputatlar, III çağırış Milli Məclis artıq tarixin bir səhifəsidir. Ötən dövrdə parlament səmərəli fəaliyyət göstərmişdir. Milli Məclisin 150 iclası keçirilmiş, ümumən 1115 akt, 956 qanun və 159 qərar qəbul edilmişdir. İnamla söyləmək olar ki, Milli Məclisin qəbul etdiyi qanunvericilik aktları ölkəmizdə hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğuna, demokratiyanın genişlənməsinə, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqinə, əhalinin sosial müdafiəsinə xidmət edən hüquqi bazanı daha da möhkəmləndirmiş və təkmilləşdirmişdir.

Siyasi sistemin daha mükəmməl şəklə salınmasına zəmin yaradan Konstitusiya dəyişiklikləri ilə bağlı referendum aktı

hazırlanmış və ümumxalq müzakirəsində qəbul edilmişdir. Dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətli iqtisadi yüksəlişini nümayiş etdirən dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər sənədlər vaxtlı-vaxtında müzakirə və təsdiq edilmişdir. Ölkənin müdafiə siyasətinin əsaslarını müəyyənləşdirən Hərbi Doktrina Azərbaycan tarixində ilk dəfə olaraq qəbul edilmişdir.

Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən layihələri təqdim edilən 2 amnistiya aktı qəbul olunmuşdur. Bu amnistiya aktları bütövlükdə 18 min insana şamil edilmişdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində dövlətimizin başçısının prinsipial mövqeyini ifadə edən onlarca bəyanat və müraciət qəbul edilmişdir. Bütün ikitərəfli və çoxtərəfli görüşlərdə, danışıqlarda müzakirəyə çıxarılan əsas mövzu bu münaqişənin ədalətli şəkildə həll edilməsi məsələsi olmuşdur.

Ümumiyyətlə, Milli Məclis beynəlxalq fəaliyyətində dövlətimizin xarici siyasətinin həyata keçirilməsinə öz töhfəsini verməyə çalışmışdır. Bu sahədə görülən işlər artıq ilk bəhrələrini verir. İtaliya və Almaniya kimi nüfuzlu dövlətlərin qanunvericilik orqanları Cənubi Qafqaza dair qəbul etdikləri qətnamələrdə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş, problemin ölkəmizin ərazi bütövlüyü əsasında həll edilməsinin zəruriliyini göstərmişlər. Bir sıra ölkələrin parlamentləri də bu səpkidə qərarlar qəbul etməyə hazırlaşırlar.

Azərbaycan parlamenti Türkdilli Ölkələrin Parlament Assambleyasının əsas təsisçilərindən biri kimi çıxış etmişdir. Bu təşkilatın birinci plenar iclası Azərbaycanda keçirilmişdir. Cənab Prezident, Sizin xeyir-duanızla Assambleyanın katibliyi Bakıda yerləşdirilmişdir.

Möhtərəm cənab Prezident, Sizin Milli Məclisə göstərdiyiniz bu diqqət bizim üçün son dərəcə qiymətlidir. Bunu da məmnunluqla qeyd etmək istərdim ki, Siz Konstitusiyada təsbit

edilmiş qanunvericilik təşəbbüsü hüququnuza əsaslanaraq, Avropa standartlarına uyğun qanunların hazırlanıb qəbul edilməsi işinə dəyərli töhfələr verirsiniz. Hesab edirik ki, ölkəmizdə təşəkkül tapmış nümunəvi president-parlament münasibətləri dövlətimizin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifah halının yüksəlməsi üçün görüləcək tədbirlərin uğurla başa çatmasının mühüm amillərindən biridir. Sadalanan bütün bu işlər parlamentin son 5 ildə həyata keçirdiyi çoxcəhətli fəaliyyətin yalnız bəzi məqamlarıdır. Bizi qarşıdakı dövrdə də geniş niyyət və məramlar gözləyir. Dövlətimizin başçısı cənab İlham Əliyevin arzularından biri Azərbaycan parlamentinin qabaqcıl dünya ölkələrinin parlamentləri səviyyəsinə çatmasıdır.

IV çağırış Milli Məclisin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin hüquqi bazasını daha da təkmilləşdirmək və möhkəmləndirməkdir. Milli Məclis özünün bütün fəaliyyəti ilə prezidentin daxili və xarici siyasətini fəal surətdə dəstəkləməkdə davam edəcəkdir. Parlament qanun yaradıcılığında və qanunvericilik fəaliyyətində həmişəki kimi, yenə də qabaqcıl dünya təcrübəsindən bəhrələnəcəkdir. Milli Məclisin fəaliyyətində demokratiya, çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsipləri daha da genişlənəcəkdir.

Milli Məclis ən böyük dərdimiz olan Dağlıq Qarabağ problemini daim diqqət mərkəzində saxlamalı, qaçqınların və məcburi köçkünlərin, eləcə də əhalinin aztəminatlı təbəqələrinin, bütövlükdə xalqın güzəranının yaxşılaşmasını, valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı göstərilməsini təmin edən qanunvericilik aktları qəbul etməlidir. Dövlətimizin gənclər və qadın siyasətinin həyata keçirilməsi üçün zəruri qanunvericilik tədbirləri görülməlidir.

Milli Məclis dövlətimizin xarici siyasətinin həyata keçirilməsinə parlament vasitələrinin yaratdığı imkanlardan istifadə edərək öz dəstəyini verəcəkdir. Parlamentlərarası İttifaq, Avropa Şurasının Parlament Assambleyası, ATƏT-in Parlament

Assambleyası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisi, MDB Parlamentlərarası Assambleyası, İslam Konfransı Təşkilatı, Türkdilli Ölkələrin Parlament Assambleyası, NATO Parlament Assambleyası, Avropa parlamenti və digər beynəlxalq qurumlarda fəaliyyəti daha da gücləndirməliyik. Bir sözlə, görüləcək işlərimiz də, bu işləri uğurla yerinə yetirməyə gücümüz də vardır.

Hörmətli deputatlar, əminəm ki, möhtərəm prezidentimiz İlham Əliyevin məsləhətləri və dəstəyi sayəsində sizinlə birlikdə səmərəli fəaliyyət göstərəcək, Azərbaycan parlamentinin üzvü adını şərəflə qoruyacağıq. Diqqətinizə görə minnətdaram.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-in VII SAMMİTİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN QAZAXISTAN RESPUBLİKASINA SƏFƏRİ

*30 noyabr 2010-cu il*

*Noyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in VII sammitində iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astanaya yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da ATƏT-in VII sammitində iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astanaya gəlmişdir.*

*Astana Beynəlxalq Aeroportunda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## ATƏT-in KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ XANIM DUNYA MİYATOVİÇ İLƏ GÖRÜŞ

*Astana*

*30 noyabr 2010-cu il*

*Noyabrın 30-da prezident İlham Əliyev Astanada ATƏT-in kütləvi informasiya vasitələri azadlığı üzrə nümayəndəsi xanım Dunya Miyatoviç ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda fikir azadlığı, jurnalistlərin fəaliyyəti və məsuliyyəti ətrafında fikir mübadiləsi aparılmışdır.*

## ATƏT-in VII SAMMİTİNDƏ İŞTİRAK

*Astana*

*1 dekabr 2010-cu il*

*Dekabrın 1-də Qazaxıstanın paytaxtı Astanada ATƏT-in VII sammiti işə başlamışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.*

*Sammitdə ümumilikdə 56 üzv və 12 tərəfdaş ölkənin dövlət və hökumət başçıları, nümayəndə heyətləri, həmçinin beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev sammitin keçirildiyi «Müstəqillik» sarayında nümayəndə heyətlərinin rəhbərlərini, həmçinin Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Sammit başlamazdan əvvəl prezident İlham Əliyev Almaniyanın Federal Kansleri Angela Merkel, Ukrayna prezidenti Viktor Yanukoviç və Tacikistan prezidenti Emoməli Rəhmonla görüşdü.*

*ATƏT-in VII sammitini Qazaxıstan prezidenti Nursultan Nazarbayev açdı. O bildirdi ki, bu gün dünya təhlükəsizliyin yeni formatına keçmişdir. Qazaxıstan prezidenti nüvəsiz dünya ilə bağlı ümumi bəyannamənin qəbulunu dəstəkləməyə çağırdı. Nursultan Nazarbayev bu sammitdə Əfqanıstandakı vəziyyət, qeyri-qanuni miqrasiya, kütləvi qırğın silahlarının yayılması təhlükəsi, qlobal iqtisadi böhran və digər vacib məsələləri müzakirə etmək üçün gözəl imkan yarandığını diqqətə çatdırdı. Qeyd etdi ki, dünyanın çağırışlarına layiqincə cavab vermək üçün ATƏT-in institutlarının sayı artırılmalıdır.*

*Qurumun iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində gördüyü işlərə toxunan N.Nazarbayev Maastrix strategiyasına «Maastrix müsbət» sənədini əlavə etməyi təklif etdi. Daha bir təklif İqtisadi forumun yaradılması ilə bağlı oldu. Həmçinin silahsızlaşdırma üçün forumun yaradılması təklifi də səsləndi. Qazaxıstan prezidenti dinlərarası dialoqun genişləndirilməsinin vacibliyini vurğulayaraq, sammit iştirakçılarını yeni onillikdə tolerantlıq sənədi üzərində işləməyə çağırdı.*

*ATƏT-in hazırkı sədri, Qazaxıstanın Dövlət katibi və Xarici İşlər naziri Kanat Saudabayev qurumun əsas prinsiplərini dəstəklədiklərinə görə iştirakçı dövlətlərə minnətdarlıq etdi. Qazaxıstanın quruma sədrliyi dövründə görülən işlərdən danışan K.Saudabayev millətlərarası və dinlərarası dialoqun qurulmasına xüsusi diqqət yetirdi. Təşkilatın prioritetlərini sadalayan ATƏT-in hazırkı sədri onu da vurğuladı ki, uzunmüddətli münaqişələr üzrə görülən işlər nikbinlik üçün əsas yaradır. K.Saudabayev ATƏT-ə sədrliyin Litvaya keçəcəyini deyərək bildirdi ki, Qazaxıstan bundan sonra da ATƏT-in fəal iştirakçısı kimi qalacaqdır.*

*Çıxışlarda münaqişələrin həllində ərazi bütövlüyü prinsipinin qorunması, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ və digər münaqişələrin sülh yolu ilə həllinə dair fikirlər səsləndi.*

*Azərbaycan prezidenti İlham Əliyev ATƏT-in VII sammitində çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab Sədr!

Xanımlar və cənablar!

İlk öncə bu zirvə görüşünün əla təşkili, göstərilmiş səmimi qonaqpərvərlik və il ərzində ATƏT-ə sədrlik etdiyinə görə prezident Nursultan Nazarbayevə və bütün qazaxıstanlı dostlarımıza minnətdarlığımı bildirmək istəyirəm.

Mən diqqətinizi regionumuzdakı təhlükəsizlik məsələlərinə cəlb etmək istərdim. Ermənistan ilə Azərbaycan arasında hazırkı silahlı münaqişə beynəlxalq və regional sülh və sabitliyə əsas təhdid olaraq qalır. Ermənistan tərəfindən azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, 1 milyondan çox azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan nəinki Dağlıq Qarabağı, o cümlədən Azərbaycanın digər 7 rayonunu işğal etməkdə davam edir. Ermənistan şəhər və kəndlərimizi, evlərimizi və müqəddəs yerlərimizi, ulu babalarımızın məzarlarını və məscidlərimizi dağıtmışdır. Onlar hərbi cinayətlər və Xocalıda soyqırımı törətmişlər və orada yüzlərlə mülki şəxs yalnız azərbaycanlı olduğuna görə Ermənistanın silahlı qüvvələri tərəfindən məhv edilmişdir. Xocalının günahsız qurbanları arasında 100-dən artıq uşaq olmuşdur.

Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. O, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış hissəsidir. Bu gün Ermənistan işğal edilmiş ərazilər üzərində nəzarəti saxlamaq və məcburi köçkünlərin öz evlərinə qayıdışına mane olmaq məqsədilə gücdən istifadə edir. Buna baxmayaraq, Azərbaycan hər zaman sülh danışıqlarına sadiq qalmış, qalır və yenə də ümid edir ki, onlar nəticə verəcəkdir. Münaqişənin həlli yalnız beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşma, BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin, ATƏT-in qərarlarının, Avropa parlamenti, Avropa Şurası və digər beynəlxalq təşkilatların qətnamələrinin həyata keçirilməsinə əsaslanmalıdır. Lakin Ermənistan münaqişənin mümkün qədər tezliklə uzunmüddətli həllinə nail olmaq məqsədilə vicdanla danışıqlar aparmaq əvəzinə, gözlənilməz nəticələri ola biləcək münaqişənin eskalasiyasına üstünlük verir. Ermənistan daimi olaraq atəşkəs rejimini pozur, işğal olunmuş ərazilərdə hərbi təlimlər keçirir, işğal edilmiş şəhər və kəndlərimizin tarixi adlarını dəyişməyə cəhd göstərir. Ermənistan qeyri-qanuni

olaraq mülki şəxsləri işğal edilmiş ərazilərə yerləşdirir, vəziyyəti dönməz və sülh prosesini mənasız etməyə çalışır.

Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə aparılan qeyri-qanuni fəaliyyət ATƏT-in faktaraşdırıcı missiyasının 2005-ci ildə regiona etdiyi səfərdən sonra hazırlanmış məruzədə əks olunub. Ermənistanın danışıqlar prosesindəki davranışı bizi belə qənaətə gətirir ki, Ermənistan sülh istəmir, işğal edilmiş əraziləri azad etmək fikrində deyil, sadəcə, bacardığı qədər status-kvonu saxlamaq və danışıqlar prosesini müddətsiz etməyi arzulayır.

ATƏT-in Minsk qrupu 1992-ci ildə yaradılmışdır, danışıqlar təxminən 20 ildir ki, aparılır, lakin heç bir nəticə yoxdur.

Azərbaycan Praqa prosesi çərçivəsində son 6 il ərzində Minsk qrupunun həmsədr ölkələri tərəfindən hazırlanmış təklifləri qiymətləndirir. Biz danışıqları davam etdirməyə, onları mümkün qədər tez yekunlaşdırmaq və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanacaq həll variantına nail olmağa hazırıq.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*Astana*

*1 dekabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyevin dekabrın 1-də Astanada Türkiyə prezidenti Abdullah Gül ilə görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi və əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik bildirildi.*

*Türkiyə prezidenti dövlətimizin başçısını parlament seçkilərinin uğurla başa çatması münasibətilə təbrik etdi.*

*Dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi apardılar.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ GÖRÜŞ

*Astana*

*1 dekabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyevin dekabrın 1-də Astanada Belarus prezidenti Aleksandr Lukaşenko ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Belarusun siyasi, iqtisadi və digər sahələrdə əlaqələrinin inkişafından, ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olundu.*

*Dövlət başçıları birgə müəssisələrin yaradılmasına, enerji sahəsində əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi apardılar.*

## AVSTRİYA PREZİDENTİ HAYNTZ FİŞER İLƏ GÖRÜŞ

*Astana*

*1 dekabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyevin dekabrın 1-də Astanada Avstriya prezidenti Hayntz Fişer ilə görüşü olmuşdur.*

*Avstriya prezidenti qeyd etdi ki, ölkəsi Azərbaycan ilə siyasi, iqtisadi, enerji və digər sahələrdə əməkdaşlığın inkişafında çox maraqlıdır.*

*Bu istiqamətdə müəyyən addımların atılmasının, o cümlədən Azərbaycanda çalışan Avstriya şirkətlərinin fəaliyyətinin genişləndirilməsinin vacibliyi vurğulandı.*

*Prezident Hayntz Fişer bu baxımdan Avstriyanın müvafiq şirkətləri ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında əməkdaşlığın genişlənməsinin əhəmiyyətini qeyd etdi.*

*Avstriya prezidenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsi ilə maraqlandı.*

*Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyindən danışdı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*Astana*

*1 dekabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyevin dekabrın 1-də Astanada Gürcüstan prezidenti Mixeil Saakaşvili ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlığa söykənən əlaqələrin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. İqtisadi sahədə, o cümlədən ölkələrimizin birgə həyata keçirdikləri enerji layihələri, Bakı–Tbilisi–Qars dəmiryol layihəsi ilə bağlı məsələlər müzakirə edildi.*

*Dövlət başçıları əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliklərini bildirdilər.*

## SLOVENİYA PREZİDENTİ DANİLO TYURK İLƏ GÖRÜŞ

*Astana*

*1 dekabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyevin dekabrın 1-də Astanada Sloveniya prezidenti Danilo Tyurk ilə görüşü olmuşdur.*

*İkitərəfli münasibətlərin geniş müzakirə olunduğu görüşdə qeyd edildi ki, əlaqələrimizin genişləndirilməsi üçün yaxşı imkanlar vardır. Həyata keçirilmiş qarşılıqlı səfərlər əlaqələrimizin inkişafına töhfə vermişdir.*

*Sloveniya prezidenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsi ilə maraqlandı.*

*Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyindən danışdı.*

## AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEY İLƏ GÖRÜŞ

*Astana*

*1 dekabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyevin dekabrın 1-də Astanada Avropa İttifaqının prezidenti Herman Van Rompey ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji sahəsində əməkdaşlığa dair məsələlər müzakirə olundu.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

## YUNANISTANIN BAŞ NAZİRİ GEORGE PAPANDREU İLƏ GÖRÜŞ

*Astana*

*1 dekabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyevin dekabrın 1-də Astanada Yunanıstanın Baş naziri George Papandreu ilə görüşü olmuşdur.*

*Azərbaycan ilə Yunanıstan arasında əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsinin aparıldığı görüşdə ölkələrimizin müxtəlif sahələrdə, xüsusilə enerji sahəsində əməkdaşlığı üçün yaxşı perspektivlərin olduğu qeyd edildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsinə toxunuldu. Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyindən danışdı.*

## NİDERLANDIN BAŞ NAZİRİ MARK RUTTE İLƏ GÖRÜŞ

*Astana*

*1 dekabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyevin dekabrın 1-də Astanada Niderlandın Baş naziri Mark Rutte ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Niderland arasında müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə edildi, bu istiqamətdə müəyyən addımların atılmasına ehtiyac olduğu vurğulandı. Bildirildi ki, səfirliklərin açılması ölkələrimiz arasında əməkdaşlığa töhfə verir.*

*Görüşdə Azərbaycan ilə Niderland arasında əməkdaşlığın Azərbaycan–Avropa İttifaqı əlaqələri baxımından əhəmiyyəti vurğulandı.*

## BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN MÜAVİNİ NİK KLEQQ İLƏ GÖRÜŞ

*Astana*

*1 dekabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyevin dekabrın 1-də Astanada Böyük Britaniya Baş nazirinin müavini Nik Kleqq ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə edildi, ölkələrimizin enerji sahəsində əlaqələrinin xüsusi əhəmiyyəti qeyd olundu. Bildirildi ki, bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlər vardır.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında digər sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlərin müzakirə olunduğu görüşdə prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyindən danışdı.*

## NÜMAYƏNDƏ HEYƏTLƏRİ BAŞÇILARININ ŞƏRƏFİNƏ QƏBUL

*Astana*

*1 dekabr 2010-cu il*

*Dekabrın 1-də Astanada Qazaxıstan prezidenti Nursultan Nazarbayev tərəfindən ATƏT-in VII sammitində iştirak edən nümayəndə heyətlərinin başçılarının şərəfinə qəbul təşkil edilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbulda iştirak etmişdir.*

### Səfər başa çatdi

*ATƏT-in VII sammitində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri dekabrın 2-də başa çatmışdır.*

*Astananın Beynəlxalq aeroportunda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**İORDANİYA KRALI ƏLAHƏZRƏT**
**II ABDULLAHA**

Əlahəzrət!

Əziz qardaşım!

Babanızın vəfatı barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2010-cu il*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

Əlahəzrət!

2022-ci ildə futbol üzrə dünya çempionatının Qətər Dövlətində keçirilməsi barədə FİFA İcraiyyə Komitəsinin qərarı münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu qərar ölkənizin hərtərəfli inkişafına, beynəlxalq və regional məsələlərin həllində fəal səylərinə verilən yüksək qiymət, dünya miqyasında gündən-günə artan nüfuzunun bariz ifadəsidir. Ümidvaram ki, çempionat mükəmməl təşkilati-texniki hazırlığı ilə fərqlənəcək və yüksək səviyyədə keçiriləcəkdir.

Sizə, qardaş Qətər xalqına, ölkənizin bütün idman ictimaiyyətinə çempionata hazırlıq mərhələsində uğurlar, bu mötəbər yarışa ev sahibliyi edəcək milli komandanıza isə əzmkarlıq və parlaq qələbələr arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2010-cu il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

2018-ci ildə futbol üzrə dünya çempionatının keçirilməsi hüququnun əldə edilməsi münasibətilə Sizi və bütün Rusiya xalqını ürəkdən təbrik edirəm.

Şadam ki, Rusiya yenidən dünya və idman ictimaiyyətinin cazibə mərkəzinə çevrilmişdir. Rusiyanın bu qədər çətin mübarizədə qələbəsi onun dünya birliyinə uğurlu inteqrasiyasını, Rusiya idmanının danılmaz xidmətlərinin etiraf olunmasını təsdiq etdi.

Əminəm ki, 2018-ci ilin futbol üzrə dünya çempionatı idmanın bu ən populyar növünün bütün pərəstişkarları üçün, milyonlarla azarkeş üçün həqiqətən, unudulmaz idman bayramı olacaqdır.

Hörmətli Dmitri Anatolyeviç, Sizə, çempionatın Təşkilat Komitəsinə, Rusiyanın bütün idman ictimaiyyətinə dünya çempionatının hazırlanmasında və keçirilməsində nailiyyətlər, rusiyalı futbolçulara uğurlar və parlaq qələbələr arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2010-cu il*

## DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB MAQOMEDSALAM MAQOMEDOVA

Hörmətli Maqomedsalam Maqomedaliyeviç!

Qardaşınız Hacımurad Maqomedovun həlak olması xəbərindən dərindən sarsılmışam.

Bu ağır, əvəzsiz itki ilə bağlı dərdinizi bölüşürəm. Sizinlə birlikdə kədərlənirəm.

Sizə, bütün doğmalarınıza və yaxınlarınıza dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2010-cu il*

## ŞUŞA ŞƏHƏRİ 1 NÖMRƏLİ ORTA MƏKTƏBİN KOLLEKTİVİNƏ

Sizi – məktəbinizin müəllim kollektivini, şagirdləri və məzunlarını Azərbaycanda ilk dünyəvi təhsil ocaqlarından olan Şuşa şəhəri 1 nömrəli orta məktəbin 180 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Məktəbiniz milli təhsil sisteminin inkişafına və maarif-mədəniyyət tariximizə dəyərli töhfələr vermişdir. Ədəbi-ictimai fikrimizin bir çox görkəmli simalarının təhsil aldıqları bu tədris müəssisəsi yarandığı vaxtdan bəri ölkəmizdə mütərəqqi fikirli yeni ziyalılar nəslinin və milli kadrların yetişməsində, mədəni-maarifçilik hərəkatının geniş vüsət qazanmasında təqdirəlayiq xidmətlər göstərmişdir.

Şuşa şəhər məktəbi maarifpərvər insanların fədakar əməyi sayəsində uzun illər respublikamızın zəngin təcrübəyə malik bir ümumtəhsil ocağı olaraq tanınmışdır. Burada vaxtilə görkəmli alimlər, mədəniyyət və incəsənət xadimləri təhsil almışlar.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində soydaşlarımız doğma yurd-yuvalarından didərgin salınmış, silahlı erməni quldur dəstələri tərəfindən işğal altına alınan torpaqlarımızda, o cümlədən xalqımızın iftixar mənbəyi qədim Şuşada iqtisadi və sosial infrastruktur büsbütün dağıdılmışdır. Şuşa şəhəri 1 nömrəli orta məktəb 1992-ci ildən Bakı şəhərində məskunlaşmaq məcburiyyətində qalmışdır. İnanıram ki, məktəbin müəllim kollektivi gənc nəslin mənəvi saflığı, bilikləri lazımınca mənimsəməsi və yurdumuzun layiqli övladları kimi yetişdirilməsi naminə bundan sonra da var qüvvə ilə çalışacaqdır.

Hamınıza cansağlığı və yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 dekabr 2010-cu il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM MİŞELİN KALMİ-REYƏ**

Hörmətli xanım Prezident!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–İsveçrə münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, dostluq əlaqələrimiz, çoxşaxəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İsveçrə xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 dekabr 2010-cu il*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA SƏFƏRİ

*9 dekabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün dekabrın 9-da Rusiya Federasiyasının paytaxtı Moskvaya gəlmişdir.*

*MDB-nin üzvü olan ölkələrin dövlət bayraqlarının dalğalandığı Vnukovo-2 aeroportunda Azərbaycan prezidentini Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA

*Moskva*

*10 dekabr 2010-cu il*

*Dekabrın 10-da Rusiyanın paytaxtı Moskvada MDB Dövlət Başçıları Şurasının iclası keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev iclasda iştirak etmişdir.*

*Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev iclasda iştirak edən dövlət başçılarını Böyük Kreml sarayında qarşıladı.*

*Əvvəlcə prezident Dmitri Medvedevin adından MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının şərəfinə işçi nahar verildi.*

*Sonra MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi. Bu formatda keçirilən iclasın məqsədi gündəliyin özü, habelə onun bəzi məsələləri barədə fikir mübadiləsi aparmaq, müxtəlif yanaşmalar olan sənədlərlə bağlı cavab layihələrini müzakirə etməkdir. Bu, ilk növbədə MDB-nin səmərəliliyinin artırılması və onun inkişaf perspektivləri barədə məsələlərə aiddir.*

*Gündəliyə iqtisadi və humanitar sahələrdə əməkdaşlığa dair, eləcə də təhlükəsizliyin təmin olunmasında və Birliyin fəaliyyətinin digər istiqamətlərində inteqrasiya proseslərinin sürətləndirilməsinə yönəlmiş 20 sənəd daxil idi.*

*MDB Dövlət Başçıları Şurasının sədri, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev iclası açaraq əmin olduğunu bildirdi ki, aparılan müzakirələr və əldə edilmiş razılaşmalar MDB-nin üzvü olan ölkələr arasında əlaqələrin*

*möhkəmlənməsinə, əməkdaşlığın gücləndirilməsinə xidmət edəcəkdir.*

*Rusiya dövlətinin başçısı dedi ki, humanitar əməkdaşlıq üzrə ikiillik plan qəbul olunmuşdur.*

*Azad ticarət zonası haqqında müqavilə layihəsinin hazırlanmasının gedişi məsələsi də müzakirələrin əsas mövzusu idi. Bildirildi ki, cari ilin sonunadək bu sənədin layihəsinin razılaşdırılması, gələn ilin birinci yarısında isə onun qəbul edilməsi nəzərdə tutulur. Sənədin imzalanması MDB-nin üzvü olan dövlətlərin ərazilərində ticarətin tamamilə liberallaşdırılması üçün müqavilə bazasının yaradılmasına kömək edəcəkdir.*

*Bundan əlavə, iclasda MDB ölkələrində 1941–45-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümü çərçivəsində və elm və innovasiyalar ili elan olunmuş 2010-cu ildə keçirilmiş tədbirlərin yekunları müzakirə olunmuşdur.*

*İclasda, həmçinin 2020-ci ilə qədər MDB çərçivəsində gənclərin beynəlxalq əməkdaşlıq strategiyası müzakirə olunmuşdur. Bu sənəd ilk dəfədir ki, hazırlanır.*

*İclasda ənənəvi olaraq cinayətkarlığa, terrorizmə və ekstremizmin digər zorakı təzahürlərinə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, insan alverinə qarşı birgə mübarizə tədbirləri proqramlarının layihələrinə dair fikir mübadiləsi aparıldı.*

*Dövlət başçıları Birliyin üzvü olan dövlətlərin ATƏT çərçivəsində siyasi əməkdaşlıq sahəsində qarşılıqlı fəaliyyətinə dair qərar layihəsini də müzakirə etdilər.*

*Müzakirələrdən sonra iclasın yekun sənədləri imzalandı.*

*Daha sonra mətbuat konfransı keçirildi. Bildirildi ki, MDB-də sədrlik gələn ilin yanvarında Tacikistana keçəcəkdir. MDB Dövlət Başçıları Şurasının növbəti iclası isə 2011-ci ilin sentyabrında Düşənbədə keçiriləcəkdir.*

## Səfər başa çatdı

*MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri dekabrın 10-da başa çatmışdır.*

*Vnukovo-2 aeroportunda Azərbaycan prezidentini Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün axşam prezident İlham Əliyev Bakıya qayıtdı.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Yaponiya münasibətləri dinamik inkişaf yolundadır. Əminəm ki, ölkələrimizi birləşdirən dostluq əlaqələrinin, bir çox sahələri əhatə edən və qarşılıqlı maraq doğuran ikitərəfli əməkdaşlığımızın inkişafı bundan sonra da müvəffəqiyyətlə davam edərək xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımızı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yaponiya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2010-cu il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Qazaxıstan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, zəngin ənənələrə malik Azərbaycan–Qazaxıstan dostluğu, qarşılıqlı etimada və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız daim xalqlarımızın mənafelərinə, ölkələrimizin çiçəklənməsinə xidmət edəcək, regionumuzda sülhün və əmin-amanlığın bərqərar olmasına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə, hörmətli Nursultan Abişeviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qazaxıstan xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2010-cu il*

## BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Bəhreyn münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bəhreyn xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2010-cu il*

**QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ**

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Qətər dövlətlərarası münasibətlərinin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı və möhkəmləndirilməsi naminə qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qətər xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2010-cu il*

## AVSTRİYANIN OMV ŞİRKƏTİ İCRAİYYƏ ŞURASININ SƏDRİ VOLFQANQ RUTTENSTORFERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 dekabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Avstriyanın OMV Şirkəti İcraiyyə Şurasının sədri Volfqanq Ruttenstorferin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*OMV Şirkəti İcraiyyə Şurasının sədri Volfqanq Ruttenstorfer bu vəzifədə onu əvəz edəcək Gerhard Royssi dövlətimizin başçısına təqdim etdi.*

*Görüşdə Avstriyanın OMV Şirkətinin Azərbaycanın neft və qaz yataqlarının birgə işlənilməsində iştirakı imkanlarının, Azərbaycan Dövlət Neft Şirkəti ilə əməkdaşlığının, Nabukko layihəsinin həyata keçirilməsinin perspektivləri ilə bağlı məsələlər müzakirə edilmişdir.*

## BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

Əlahəzrət!

Qardaşınız Şeyx Raşid bin İsa əl-Xəlifənin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 dekabr 2010-cu il*

## SƏMƏD VURĞUN ADINA AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRININ YARADICI HEYƏTİNƏ

Sizi – Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının yaradıcı heyətini və bütün işçilərini bu mədəniyyət ocağının 90 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik və yeni uğurlar arzulayıram.

Teatrınız fəaliyyətə başladığı vaxtlardan etibarən respublikamızda teatr sənətinin inkişafı naminə mühüm xidmətlər göstərmişdir. Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycanda dünya dramaturji irsinin gözəl nümunələrinin səhnə təcəssümü tapmasında aktyorlarınızın böyük rolu vardır. Milli dramaturgiyamızın görkəmli simalarının həmişə ustalıqla canlandırdığınız əsərləri teatrsevərlər tərəfindən yüksək qiymətə layiq görülmüşdür. Siz uzun illər boyu rus teatrının zəngin ənənələrindən bəhrələnməklə Azərbaycan–rus mədəni əlaqələrinin möhkəmlənməsinə töhfələr vermisiniz.

Təqdirəlayiq haldır ki, teatrınız daim rəngarəng repertuarı ilə tamaşaçıların bir çox nəslinin hüsn-rəğbətini qazanmışdır. Teatrınızın salnaməsini təşkil edən parlaq səhifələr ayrı-ayrı illərdə burada çalışmış və ölkəmizin hüdudlarından kənarda da tanınmış istedadlı sənətkarların adları ilə sıx bağlıdır. İnanıram ki, yaradıcı heyətiniz öz ənənələrinə sadiq qalaraq bundan sonra da axtarışlarını müvəffəqiyyətlə davam etdirəcək və ölkəmizdə teatr sənətinin inkişafında bundan sonra da mühüm rol oynayacaqdır.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2010-cu il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Belarusu əsrlər boyu sıx dostluq və əməkdaşlıq telləri bağlayır. Əminəm ki, dövlətlərarası münasibətlərimiz bu xoş ənənələrə əsaslanaraq xalqlarımızın rifahı naminə, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 dekabr 2010-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

*22 dekabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının XI sammitində iştirak etmək üçün dekabrın 22-də Türkiyə Respublikasına səfərə gəlmişdir.*

*İstanbulun Atatürk Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*İstanbul*

*22 dekabr 2010-cu il*

*Dekabrın 22-də İstanbulda Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyə prezidenti Abdullah Gülün görüşü olmuşdur.*

*Görüşdə ölkələrimizin dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin, o cümlədən enerji sahəsində əməkdaşlığın genişləndirilməsi perspektivləri barədə danışıldı.*

*Görüşdə, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İstanbul*

*22 dekabr 2010-cu il*

*Dekabrın 22-də İstanbulda Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.*

*Ölkələrimiz arasında strateji tərəfdaşlığa söykənən dostluq münasibətlərinin uğurla inkişaf etdiyinin vurğulandığı görüşdə əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin inkişafının perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

# İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XI SAMMİTİNDƏ

*İstanbul*

*23 dekabr 2010-cu il*

*Dekabrın 23-də İstanbulda «Çırağan» sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının XI sammiti keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.*

*Türkiyə prezidenti Abdullah Gül Azərbaycan prezidentini, digər dövlət və hökumət başçılarını qarşıladı.*

*2009-cu ilin martında Tehranda keçirilmiş X sammitdən sonra İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik edən İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad zirvə görüşünü açdı. O, quruma sədrliyin Türkiyəyə keçməsindən məmnun olduğunu dedi və bildirdi ki, ötən Tehran zirvə görüşündən sonra üzv ölkələr arasında əlaqələr daha da dərinləşmiş və bu, iqtisadiyyatın müxtəlif sahələrini əhatə etmişdir.*

*İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik İrandan Türkiyəyə keçdi. Türkiyə prezidenti Abdullah Gül İƏT-in XI sammitində iştirak edən dövlət və hökumət başçılarını salamladı və təşkilata sədrlik etməkdən məmnun olduğunu bildirdi.*

*Türkiyə dövlətinin başçısı dedi ki, ölkəsi bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına böyük diqqət göstərir. Bununla yanaşı, Türkiyə regionda iqtisadi əməkdaşlığın da dərinləşməsinə ciddi önəm verir. Bu sırada İƏT-in rolu əvəzolunmazdır. Həm ərazi, həm də əhali baxımından İƏT-in əhatə etdiyi region iqtisadi və ticari əməkdaşlıq sahəsində böyük potensiala sahibdir. Əsas diqqət çəkən məqamlardan biri də*

*üzv ölkələr arasında ticarət dövriyyəsinin həcmini artırmaq və daha böyük nəticələrə nail olmaqdır.*

*Azərbaycan prezidenti İlham Əliyev zirvə toplantısında çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Sədr, əziz qardaşım!

Hörmətli həmkarlar!

İlk növbədə, zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinə və bizə göstərdiyi qonaqpərvərliyə görə əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə dərin minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam.

Təşkilata ötən müddət ərzində rəhbərlik etmiş İran İslam Respublikasının Prezidenti, əziz qardaşım Mahmud Əhmədinejada uğurlu rəhbərliyə görə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətinə çox böyük önəm verir. Biz təşkilatda fəal iştirak edirik və təşkilatın güclənməsi çox müsbət haldır. Mən əminəm ki, gələcəkdə təşkilat dünya miqyasında getdikcə daha da önəmli rola malik olacaqdır. Bu rol artdıqca, təşkilata üzv olan ölkələrin imkanları da genişlənəcəkdir.

Azərbaycan regional əməkdaşlıq məsələlərinə çox böyük əhəmiyyət verir. Biz regionda gedən proseslərin inkişafı üçün səylərimizi göstəririk. Konkret layihələrin icra edilməsi sahəsində – həm nəqliyyat, həm enerji sahəsində regionda yeni vəziyyət yaranmışdır və Azərbaycan çalışır ki, iqtisadi imkanlarını səfərbər edərək, bu genişmiqyaslı əməkdaşlığa daha da böyük töhfələr versin.

Ölkəmizdə iqtisadi proseslər müsbət istiqamətdə inkişaf edir. Son 7 il ərzində ölkəmizin ümumi daxili məhsulu təxminən 3 dəfə, büdcə xərcləri 12 dəfə artmışdır. Yoxsulluq isə 4 dəfə azalmışdır. Bu bizə imkan verir ki, daha da böyük həcmdə maliyyə

resurslarımızı ümumi məqsədlər üçün işə salaq. Beləliklə, regionda gedən iqtisadi əməkdaşlığa daha da güclü təkan veriləcəkdir. Hər bir ölkənin iqtisadi müstəqilliyini təmin etmək üçün – xüsusilə indiki zamanədə – enerji təhlükəsizliyi məsələləri öz həllini tapmalıdır. Azərbaycan bu sahədə öz töhfəsini verir. Zəngin neft-qaz yataqlarımız nəinki ölkəmizin inkişafı, eyni zamanda, regional əməkdaşlıq üçün də müsbət rol oynayır. Azərbaycanın zəngin neft-qaz yataqları bizə imkan verir ki, təbii resurslarımızı qonşu dövlətlərə nəql edək və bu gün yeddi neft və qaz kəmərimiz vardır. Azərbaycan öz potensialını bu kəmərlər vasitəsilə realizə edir, bu, qonşu, qardaş, dost ölkələrin enerjiyə olan tələbatının müəyyən hissəsini ödəməyə imkan verir. Azərbaycan etibarlı tərəfdaşdır, öz öhdəliklərini həmişə yerinə yetirmişdir və bundan sonra da yerinə yetirəcəkdir. Biz həm təchizatçı, həm də tranzit ölkə, etibarlı tərəfdaş kimi, artıq uzun illərdir ki, özümüzü təsdiq etmişik. Əminəm ki, enerji təhlükəsizliyi məsələlərinin uğurla həll olunması nəticəsində hər bir ölkə daha da böyük inamla inkişaf edəcəkdir. Gələcəkdə dünyada enerji ilə bağlı məsələlər daha da ciddi müzakirə mövzusu olacaqdır. Bunu nəzərə alaraq deyə bilərik ki, enerji təchizatçısı kimi, Azərbaycan növbəti illərdə də öz müsbət rolunu oynamağa hazırdır.

Bununla bərabər, nəqliyyat sektorunda gedən proseslərə Azərbaycan çox müsbət yanaşır. Bizim icra etdiyimiz layihələr bölgədə yeni nəqliyyat infrastrukturunun yaranmasına gətirib çıxarmışdır. Azərbaycan Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Ölkəmizin coğrafi vəziyyəti bizə imkan verir ki, hər istiqamətdə öz müsbət rolumuzu artıraq. Bu gün bölgədə inşa edilən Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi nəticəsində yeni «Dəmir İpək yolu»nun bərpası mümkün olacaqdır.

Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirəcək, həm də Avropanı Asiya ilə birləşdirəcəkdir. Beləliklə, iqtisadi səmərə baxımından bu yolun çox böyük önəmi olacaqdır. Biz bu layihədə çox fəal iştirak edirik. Ümid edirik ki, bu yolun

tikintisi yaxın zamanlarda başa çatacaq və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr də bu imkanlardan, əlbəttə ki, istifadə edəcəklər.

Bu uğurlu iqtisadi və infrastruktur layihələrinin icrası ilə bərabər, qeyd etməliyəm ki, bölgədə sabitlik, sülh, təhlükəsizlik təmin olunmalıdır. Əfsuslar olsun ki, bizim ölkələrimizdə mövcud olan, həllini gözləyən münaqişələr, problemlər, təhdidlər imkan vermir ki, istədiyimizə tam şəkildə nail ola bilək. Hər bir ölkənin uğurlu siyasi, yaxud da ki, iqtisadi inkişafı sabitlik şəraitində mümkündür. Azərbaycanda siyasi sabitlik artıq çoxdandır ki, bərqərar olunmuşdur. Ancaq həll olunmamış münaqişələr, Azərbaycan torpaqlarının 20 faizinin hələ də Ermənistanın işğalı altında qalması çox böyük regional təhlükə mənbəyidir. Azərbaycanlılara qarşı Azərbaycanın əzəli torpağı olan Qarabağda və ətraf bölgələrdə etnik təmizləmə siyasəti aparılmışdır, bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə salınmışdır, torpaqlarımızın 20 faizi Ermənistanın işğalı altındadır və bu ədalətsizlik uzun illərdir ki, davam edir. Baxmayaraq ki, beynəlxalq təşkilatlar, xüsusilə Birləşmiş Millətlər Təşkilatı və onun Təhlükəsizlik Şurası məsələnin həlli ilə bağlı 4 qətnamə qəbul edib və o qətnamələrdə Ermənistan qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur. Hələ də Ermənistan tərəfi bu beynəlxalq hüquq normalarına əməl etmir və işğalçı siyasətini davam etdirir. İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlar buna bənzər qərarlarla çıxış etmişlər. Bu, məsələnin ədalətli və hüquqi müstəvidə həll olunması üçün çox möhkəm zəmindir. Ancaq biz reallıqda hər hansı bir irəliləyiş görmürük və Azərbaycan uzun illərdir ki, bu işğaldan əziyyət çəkir. Biz bu vəziyyətlə, əlbəttə ki, barışmayacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Çalışırıq ki, bunu danışıqlar yolu ilə, sülh yolu ilə edək. Azərbaycanın ərazi bütövlüyü bütün dünya ölkələri tərəfindən tanınır, müzakirə mövzusu deyildir və heç vaxt olmayacaqdır.

Həll olunmamış münaqişələr, digər tərəfdən, iqtisadi inkişafımıza böyük əngəllər yarada bilmədi. Ancaq nəzərə alsaq ki,

bu münaqişə olmasaydı, əlbəttə, həm ölkəmizin inkişafı, həm regional əməkdaşlıq məsələləri daha da uğurla və sürətlə həll oluna bilərdi.

Mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatında bundan sonra da fəal iştirak edəcəkdir. Biz təşkilatın güclənməsinə töhfəmizi verməyə davam edəcəyik. Bu təşkilat artıq böyük beynəlxalq təşkilata çevrilibdir və əziz qardaşım, Türkiyənin prezidenti Abdullah Gülün təklifinə də çox müsbət baxıram ki, təşkilatın bankına əlavə üzvlərin qoşulması müsbət hal kimi qiymətləndirilir. Azərbaycan öz tərəfindən Banka tamhüquqlu üzv olmaq, səhmdar olmaq üçün bu dəvətdən istifadə edəcəkdir.

Bir daha əziz qardaşım, prezident Abdullah Gülə yüksək qonaqpərvərliyə, zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinə görə təşəkkürümü bildirirəm. Təşkilatımıza yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

* * *

**A b d u l l a h  G ü l**: Hörmətli qardaşım cənab İlham Əliyevə gözəl çıxışına və Azərbaycanın İƏT-ə töhfələrinə görə çox təşəkkür edirəm. Xüsusilə, açılış çıxışımda da müraciət etmişdim, İƏT İnkişaf və Ticarət Bankının ortaqları çoxalmalıdır, hamınızı dəvət etmişdim. Cənab Əliyev Banka ortaq olacaqlarını bəyan etdi. Bundan böyük bir məmnuniyyət duyduq. Ümid edirəm ki, digər üzv ölkələr də eyni addımı atacaqlar. Şəxsən qardaşım İlham Əliyevə bir daha təşəkkür edirəm.

## DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ NAHAR

*İstanbul*

*23 dekabr 2010-cu il*

*Türkiyə prezidenti Abdullah Gülün adından İqtisadi Əməkdaşlıq Təşkilatının XI sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə dekabrın 23-də «Çırağan» sarayında nahar verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev naharda iştirak etmişdir.*

### Səfər başa çatdı

*İqtisadi Əməkdaşlıq Təşkilatının XI sammitində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri dekabrın 23-də başa çatmışdır.*

*İstanbulun Atatürk Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Həmin gün prezident İlham Əliyev Vətənə qayıtdı.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## DÜNYA AZƏRBAYCANLILARINA!

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Hər birimizdə böyük sevinc və səmimi duyğular oyadan 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik günü ərəfəsində sizi ürəkdən salamlayır və ən xoş arzularımı yetirirəm.

Müstəqil Azərbaycan dövlətinin mövcudluğu dünya azərbaycanlıları arasında milli birliyin daha da güclənməsi və həmvətənlərimizin təşkilatlanması üçün geniş imkanlar yaradır. Xaricdə yaşayan soydaşlarımız da ölkəmizin inkişafına, qarşıya çıxan problemlərin həllinə yaxından kömək göstərməyə çalışırlar. Bu köməyin səmərəli olması həmvətənlərimizin möhkəm birliyi və yaxşı təşkilatlanması sayəsində mümkündür. Ona görə də Azərbaycan dövləti diaspor quruculuğu işinə böyük əhəmiyyət verir və bu prosesə hərtərəfli yardım göstərir. Sevindirici haldır ki, xaricdəki həmvətənlərimiz arasında azərbaycançılıq ideyaları, milli mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salır. Onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verirlər. Diaspor qurumlarımız bu sahədəki səylərini bundan sonra da artırmalı, intellektual potensialı ilə maddi resurslarını birləşdirməli, xarici ölkələrdəki diplomatik korpuslarımızla əlaqələrini genişləndirməlidirlər. Gələn il Bakıda Dünya Azərbaycanlılarının III Qurultayı keçiriləcəkdir. Diaspor təşkilatlarının fəaliyyəti dərindən təhlil olunacaq, qəbul edilən qərarlar soydaşlarımızın mütəşəkkilliyinin və təşkilati çevikliyinin gücləndirilməsinə təkan verəcəkdir.

Yola salmağa hazırlaşdığımız 2010-cu ildə bütün sahələrdə nəzərdə tutulmuş proqramlar uğurla icra edilmişdir. Ölkəmizdə yaradılmış güclü inkişaf potensialı, səmərəli idarəetmə sistemi dövlətimizin çətin sınaqlardan alnıaçıq çıxmasına imkan verir.

Qazandığımız uğurlara baxmayaraq, hələ də müharibə şəraitində yaşadığımızı unutmamalıyıq. Hazırda qarşımızda ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdən vacib vəzifə yoxdur. Bu bizim ümummilli işimizdir. Məhz bu amil bizi dövlətimizin müdafiə qabiliyyətinin artırılmasına, silahlı qüvvələrin gücləndirilməsinə xüsusi diqqət yetirməyə sövq edir. Yenidən qan tökülməsinin, dağıntıların və humanitar faciələrin qarşısının alınması üçün hələ də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışırıq. Lakin Azərbaycanın bu məsələ ilə bağlı prinsipial mövqeyi dəyişməz qalır: Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Gücümüz tək iqtisadi və hərbi qüdrətimizdə deyil, həm də sıx birliyimizdədir. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir.

Əziz bacı və qardaşlar!

Dünya Azərbaycanlılarının Həmrəylik günü soydaşlarımızın Vətən sevgisini, xalqımızın tarix və mədəniyyətinə hörmətini, dövlətimizə və azərbaycançılıq ideyalarına sədaqətini əks etdirir. Bu bayram münasibətilə hamınızı səmimi- qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və bütün işlərinizdə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 dekabr 2010-cu il*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Azadlıq günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Kuba arasındakı dövlətlərarası münasibətlərin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 dekabr 2010-cu il*

## MYANMA İTTİFAQI RESPUBLİKASININ DÖVLƏT SÜLH VƏ İNKİŞAF ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TAN ŞVEYƏ

Hörmətli cənab Sədr!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında təşəkkül tapmaqda olan dostluq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Myanma xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 dekabr 2010-cu il*

## ZABRAT QƏSƏBƏSİNDƏKİ YAŞAYIŞ BİNASININ AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Bakının Zabrat qəsəbəsindəki binanın açılışı mərasimində iştirak etmişlər.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar. Mehriban xanıma gül dəstəsi təqdim edildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva binadakı mənzillərdə yaradılmış şəraitlə tanış oldular.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov məlumat verdi ki, son illər ölkəmizin iqtisadi həyatında mühüm nailiyyətlərin əldə edilməsi ilə yanaşı, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Ölkədəki davamlı tərəqqi ən çox sosial müdafiəyə ehtiyacı olan təbəqənin zəruri tələbatlarını ödəmək üçün yeni imkanlar yaradır. Bu baxımdan, əlil və şəhid ailələrinin mənzil və məişət şəraitinin yaxşılaşdırılması Azərbaycan prezidentinin fəaliyyətinin əsas prioritetlərindən birini təşkil edir, dövlət siyasətində mühüm yer tutur. Bu kateqoriyadan olan insanlar üçün müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının tikilib istifadəyə verilməsi bunun əyani təsdiqidir. Zabrat qəsəbəsində inşa olunan doqquzmərtəbəli, 81 mənzilli yeni yaşayış binası da bu sırada mühüm yer tutur.*

*Bununla yanaşı, Qarabağ və Böyük Vətən müharibəsi veteranlarının avtomobillərlə təmin olunması da diqqətdə saxlanılmışdır. 1998–2009-cu illərdə 2 min 114 «Oka» markalı avtomobil sahiblərinə təqdim olunmuşdur. Ötən il müharibə veteranlarına 500, bu il isə 350 minik avtomaşını verilmişdir.*

*Bildirildi ki, əlillərin rifah halının, tibbi sosial reabilitasiyasının, pensiya təminatının yaxşılaşdırılması, onların cəmiyyətə inteqrasiyası istiqamətində mühüm işlər görülmüşdür. Son illərdə Naftalan, Yevlax və Xaçmazda əlillərin regional bərpa mərkəzləri istifadəyə verilmişdir. Hazırda nazirliyin əlillər üçün 14 regional bərpa mərkəzi fəaliyyət göstərir ki, onlarda da bu ilin ötən dövründə 7 mindən çox insan müalicə olunmuşdur.*

*Sonra prezident İlham Əliyev yeni mənzillərin orderlərini və avtomobillərin açarlarını sahiblərinə təqdim etdi.*

**E l x a n M i r z ə y e v** (*Qarabağ müharibəsi əlili):* Möhtərəm cənab Prezident, bu gün bu tədbirdə iştirak edən Qarabağ müharibəsi əlilləri, şəhid ailələrinin nümayəndələri böyük qürur və sevinc hissi keçirir. Ona görə ki, onlar ulu öndərimiz Heydər Əliyevin qurub yaratdığı, Sizin rəhbərliyiniz altında gündən-günə inkişaf edən, çiçəklənən Azərbaycan Respublikasının vətəndaşlarıdırlar. Siz həmişə bizə qayğı göstərir, problemlərimizin həll olunması üçün hərtərəfli tədbirlər görürsünüz. Elə bu gün üç binanın birdən-birə istifadəyə verilməsi bizlərə böyük diqqətin, qayğının təzahürüdür. Siz şəhid ailələrinə, müharibədə iştirak edənlərə böyük hörmət və ehtiramla yanaşırsınız. Bu yaxınlarda cəbhədə qəhrəmanlıqla həlak olmuş Mübariz İbrahimovun və Fərid Əhmədovun meyitlərini düşmənin əlində qoymadınız. Onları Vətənin yüksək mükafatları ilə təltif etdiniz. Onlarla vida mərasimində Sizin çıxışınız bizi hədsiz dərəcədə təsirləndirdi. Bu çıxışda olan hər sözün, hər kəlmənin dərin mənası var idi. Onlar bizi birliyə, mübarizəyə səsləyirdi. Mən Qarabağ müharibəsində iştirak edərək iki dəfə yaralanmışam. Ehtiyatda olan mayoram. Övladlarımdan ikisi əsgəri xidmətini başa vurub. Mən Sizə bəyan edir və bildirirəm ki, Sizin rəhbərliyiniz altında, Sizin əmrinizlə Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə hər an hazırıq.

Cənab Prezident, biz Sizə bir daha təşəkkür və minnətdarlıq edirik. Vaxtınızın az olmasına, gərgin iş rejimində işləməyinizə baxmayaraq, hətta bu əziz gündə də vaxt tapıb bizimlə görüşə gəlmisiniz. Biz də öz növbəmizdə, Sizi ürəkdən təbrik edir, can-

sağlığı, ailə səadəti, xoşbəxtlik və Azərbaycanın inkişafı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik. Çox sağ olun.

* * *

*Xəzər rayonunun Pirallahı qəsəbəsindən mərasimə video-bağlantı vasitəsilə  qoşulan Zadiq Mustafayev Azərbaycan hərbçilərinin əməyinə verdiyi qiymətə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

**Z a d i q  M u s t a f a y e v***:* Sizə Azərbaycan Ordusunun əsgərlərinin, döyüşçülərinin, şəhidlərinin ailələrinə verdiyiniz mənzillər münasibətilə ürəkdən təşəkkürümü bildirirəm. Möhtərəm cənab Prezident, Azərbaycanın bu gün üç rayonunda, üç qəsəbəsində yeni mənzillərin verilməsi çox böyük, önəmli bir hadisədir. İnformasiya texnologiyasının verdiyi imkanlar sayəsində bu gün bizə, demək olar ki, bütün Azərbaycan, bütün dünya baxır. Bu sevinc təkcə bizim deyil, bütün Azərbaycanındır. Bu qiymət Azərbaycan əsgərinə, döyüşçüsünə verilən ən böyük qiymətdir, ona göstərilən dövlət qayğısıdır. Bu qayğı bu gün səngərdə duran minlərlə əsgərdə böyük döyüş ruhu yaradır. Verdiyiniz sərəncama əsasən, bu gün minlərlə gənc çağırışçı döyüşə getməyə hazırdır. Bizə verdiyiniz bu gözəl bina keçmiş döyüşçüləri böyük bir ailə şəklində toplayır. Bu ailələr adından Sizə dərin minnətdarlığımızı bildiririk. Biz də Sabunçu rayonunda mənzil alan xoşbəxt ailələrin təbrikinə qoşulur, Sizi bu gözəl ad günündə təbrik edirik.

* * *

*Yasamal rayonundan mərasimə videobağlantı vasitəsilə qoşulan Zahid Niftəliyev isə ordunun və gənclərimizdə vətən-pərvərlik ruhunun gücləndirilməsinə göstərdiyi diqqət və qayğıya görə Azərbaycan prezidentinə təşəkkürlərini bildirdi.*

**Z a h i d  N i f t ə l i y e v***:* Cənab Prezident, Yasamal rayonuna yığışan Qarabağ müharibəsi əlilləri, şəhid ailələri adından Sizə salamlarımızı çatdırırıq, bu gün bizə bəxş etdiyiniz sevincə görə Sizə təşəkkür edirik.

Cənab Prezident, bizi sevindirən təkcə bunlar deyildir. Sizin rəhbərliyiniz altında keçirilən hərbi təlimlərdən görürük ki, ordumuz nə qədər güclənmiş, nə qədər müasirləşmişdir. Bu da bizi çox sevindirir. Bu işləriniz gənclərimizdə vətənpərvərlik ruhunu artırır. Sizə buna görə çox təşəkkür edirik. Sizin ad gününüzü təbrik edirik, ailənizə, özünüzə uzun ömür, cansağlığı diləyirik. Sağ olun.

* * *

*Dövlətimizin başçısı yeni mənzil alan sakinləri təbrik etdi.*

**İ l h am Ə l i y e v:** Əziz dostlar, mən sizin hamınızı ürəkdən salamlayıram, sizi bu gözəl evlərin istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik edirəm. Bu gün doğrudan da ölkəmizdə çox böyük hadisə baş verir. Bir gündə doqquzmərtəbəli üç bina bizim qardaş-bacılarımıza təqdim edilir. Bu hadisə onu təsdiq edir ki, Azərbaycan dövləti ehtiyacı olanlara həmişə öz qayğısını göstərəcəkdir. Xüsusilə müharibədə sağlamlığını, öz yaxınlarını itirmiş insanlara Azərbaycan dövləti həmişə böyük qayğı göstərmişdir və bu gün də bu siyasət davam etdirilir. Təkcə onu qeyd etmək kifayətdir ki, son illərdə 3 mindən artıq mənzil paylanmışdır. Bu il 700-dən çox mənzil verilmişdir. Növbəti 3-4 ildə, əminəm ki, hazırda növbədə dayanan bütün vətəndaşlar ən yüksək səviyyədə tikilmiş mənzillərlə təmin olunacaqlar. Bununla bərabər, bu gün 200-dən çox avtomobil də paylanılır. Bu, artıq gözəl ənənəyə çevrilibdir. 1000-dən çox, bəlkə də 2000-ə yaxın avtomaşın artıq soydaşlarımıza verilmişdir.

Bütün bunları ona görə edirik ki, siz buna layiqsiniz. Azərbaycan dövləti sizin xidmətlərinizi layiqincə qiymətləndirir. Apardığımız güclü sosial siyasət özünü, bax, bu gözəl əməllərdə göstərir. Sosial siyasətin əsas mahiyyəti və mənası ondan ibarətdir ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar. Azərbaycanın inkişafı, bölgədəki mövqelərimizin möhkəmlənməsi artıq reallıqdır. Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Azərbaycanın iqtisadi perspektivləri çox gözəldir. Belə olan halda bütün imkanlarımızı səfərbər edib Azərbaycanda çox güclü sosial siyasətin aparılmasına yönəldirik. Sosial siyasət

təkcə bu gözəl açılışlarla məhdudlaşmır. Ünvanlı sosial yardım göstərilir, ölkəmizdə məktəblər, xəstəxanalar, idman kompleksləri tikilir, yollar salınır. Çalışırıq ki, Azərbaycan cəmiyyətində dünyanın ən qabaqcıl meyarları tətbiq olunsun. Biz buna layiqik və bunu etməyə qadirik.

Bu gün iqtisadi potensialımız artıq dünya birliyində də qiymətləndirilir. Dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları yüksək qiymətləndirirlər. Azərbaycan bütün reytinqlərdə qabaqcıl yerlərdədir. Biz gələcək fəaliyyətimizdə də bu əsas iki amili həmişə diqqətdə saxlayacağıq: güclü iqtisadiyyat və güclü sosial siyasət. Sosial siyasət elə olmalıdır ki, Azərbaycan vətəndaşları ondan bəhrələnsinlər.

Əlbəttə ki, bu gün üç gözəl binanın istifadəyə verilməsi, əslində Azərbaycanın inkişaf yolunu göstərir. Biz bunu edə bilirik, biz bunu edirik, bizim siyasətimiz bundan ibarətdir. Dediyim kimi, növbədə dayanan bütün müharibə veteranları, müharibə əlilləri, şəhid ailələri növbəti illərdə evlərlə, mənzillərlə təmin ediləcəklər.

Biz ordu quruculuğuna çox böyük diqqət göstəririk, çox böyük maliyyə vəsaiti ayrılır. Ordumuz bu bölgədə ən qüdrətli, ən güclü ordudur və ordu quruculuğuna yetirilən diqqət özünü göstərir. Torpaqlarımız uzun illərdir ki, işğal altındadır. Biz erməni işğalına məruz qalmışıq. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan və onun xaricdəki havadarları Azərbaycanda qeyri-sabit vəziyyətdən, hərc-mərclikdən istifadə edərək torpaqlarımızın bir hissəsini zəbt edib. Əlbəttə ki, bu gün bunu təsəvvür etmək mümkün deyildir. Bu gün Azərbaycan ən qüdrətli hərbi potensiala malikdir. Bu gün bizim həm iqtisadi, həm siyasi, həm hərbi potensialımız Ermənistanla müqayisəedilməz səviyyədədir. Biz çalışırıq ki, bu məsələni danışıqlar yolu ilə həll edək. Ancaq siz görürsünüz ki, bu hələ mümkün deyildir. Belə olan halda, biz başqa variantlara da hazır olmalıyıq. Ordu quruculuğuna ayrılan vəsait, görülən tədbirlər, orduda peşəkarlığın artırılması, mütəmadi qaydada təlimlərin keçirilməsi, yeni silah-sursat, texnikanın alınması və Azərbaycanda istehsal olunmasının məqsədi ondan ibarətdir ki, əgər danışıqlar nəticə verməsə, torpaqlarımız hərbi

yolla azad olunmalıdır. Bu reallıqdır və ölkə qarşısında duran bu ən ağrılı, ən çətin problem həllini tapmalıdır.

Azərbaycan iqtisadiyyatı Cənubi Qafqazın iqtisadiyyatının 75 faizini təşkil edir. Azərbaycanda yaranmış maliyyə imkanları bizə imkan verir ki, istənilən məsələni öz xeyrimizə həll edək. Ermənistan tərəfi, əlbəttə ki, bu reallıqları dərk edir, başa düşür və hesablaşmalıdır. Təsadüfi deyil ki, son aylar onların isterik hərəkətləri ona gətirib çıxarıb ki, onların qorxu içində olması artıq bütün dünyaya bəllidir. Bu həqiqətdir və nə qədər ki, Azərbaycan torpaqları işğal altında qalacaq, Ermənistan o qədər qorxu içində yaşayacaqdır. Heç kim istəməz ki, onun qonşusu ona qarşı pis niyyətdə olsun. Amma bizim başqa seçimimiz yoxdur. Əgər Ermənistan öz xoşu ilə beynəlxalq hüquq normalarına uyğun şəkildə Azərbaycan torpaqlarından qüvvələrini geri çəksə, o zaman bölgədə sülh və əmin-amanlıq yaranacaqdır. Nə vaxta qədər ki, torpaqlarımız işğal altındadır, Ermənistan və onun rəhbərləri bilməlidirlər ki, Azərbaycan xalqı istənilən anda öz ərazisində istənilən hərbi əməliyyatı keçirə bilər. Bu imkanları bizə beynəlxalq hüquq normaları yaradır.

Bu gün görülən işlər, iqtisadiyyata qoyulan investisiyalar, neft-qaz, infrastruktur layihələri gələcəyə yönəldilibdir. Azərbaycan xalqının uzunmüddətli, uğurlu, dayanıqlı inkişafının təməli qoyulubdur. Bu möhkəm təməl üzərində ölkəmiz daha da güclənəcək və qarşımızda duran bütün vəzifələr həllini tapacaqdır.

Bu gün artıq ilin yekunları haqqında da danışmaq mümkündür. Çox sevindirici haldır ki, 2010-cu il də ölkəmiz üçün uğurlu il olmuşdur. Həm iqtisadi inkişaf, həm sosial məsələlərin həlli, həm də yoxsulluğun azaldılması baxımından qarşıda duran bütün vəzifələr icra edildi. Baxmayaraq ki, 2010-cu il bizim üçün o qədər də yaxşı başlamamışdı. Bilirsiniz ki, təbii fəlakətlə üzləşmişdik, iqtisadi böhran öz mənfi nəticələrini göstərməyə davam etmişdi. Buna baxmayaraq, biz bütün sınaqlardan şərəflə çıxdıq, 2010-cu ili uğurla başa vururuq və 2011-ci il üçün artıq konkret proqramlarımız və iş cədvəlimiz vardır.

O ki qaldı sosial məsələlərə, bir daha demək istəyirəm, bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Qarşıya vəzifə qoyuldu ki, növbədə dayanan bütün vətəndaşlar bir neçə il ərzində keyfiyyətli mənzillərlə təmin olunsunlar. Beləliklə, Azərbaycan dövləti sizin şəraitinizin yaxşılaşdırılması üçün töhfəsini verir və verəcəkdir.

Qeyd etdiyiniz kimi, bu gün mənim ad günümdür və təbriklərə görə sizə təşəkkür edirəm. Mənim üçün ən gözəl hədiyyə bugünkü açılışdır, sizin sevincinizdir, təbəssümlərinizdir. Ən böyük sevinc mənə budur. Bir daha sizi təbrik edirəm.

* * *

*Sonra prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya əlillər və şəhid ailələri üçün ərazidə tikiləcək yeni yaşayış kompleksinin maketi təqdim olundu. Bildirildi ki, yaxın gələcəkdə burada doqquzmərtəbəli, 243 mənzilli binalardan ibarət yeni kompleksin inşası başlanacaqdır.*

*Dövlətimizin başçısı yeni binanın təməlini qoydu.*

*Prezident İlham Əliyev kapsulu bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunun düyməsini basdı.*

## AKADEMİK TOPÇUBAŞOV ADINA ELMİ CƏRRAHİYYƏ MƏRKƏZİNİN ƏSASLI TƏMİRDƏN VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2010-cu il*

*Dekabrın 24-də Səhiyyə Nazirliyinin akademik Mustafa bəy Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin əsaslı təmirdən və yenidənqurmadan sonra açılışı olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Səhiyyə naziri Oqtay Şirəliyev prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi ki, cərrahiyyə sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasında müstəsna xidmətləri olan bu Mərkəzin keçdiyi yol səhiyyəmizin mühüm inkişaf mərhələlərindən biridir. 1971-ci ildə inşa edilən Klinik Eksperimental Təbabət İnstitutunun – indiki Elmi Cərrahiyyə Mərkəzinin binası uzun müddət təmir edilmədiyindən yararsız vəziyyətə düşmüşdü. Mərkəzin Bakı şəhəri və bütünlükdə respublika üçün əhəmiyyəti nəzərə alınaraq, prezident İlham Əliyevin sərəncam və tapşırıqlarına uyğun olaraq bu səhiyyə ocağı əsaslı təmir edilərək yenidən qurulmuşdur. İndi Elmi Cərrahiyyə Mərkəzi ən müasir standartlara cavab verən tibb ocağına çevrilmişdir. Bu işlər il yarım ərzində başa çatdırılmışdır. Mərkəzin binasının bir hissəsi 6, digər hissələri isə 5 mərtəbəlidir. Foyesində ulu öndər Heydər Əliyevin* «Səhiyyə bizim üçün əziz, qiymətli bir sahədir və onun inkişafı üçün lazımi tədbirlər görüləcəkdir» *kəlamı yazılmışdır.*

*Bildirildi ki, dünya standartlarına cavab verən Mərkəz 240 çarpayılıqdır. Hər mərtəbədə manipulyasiya, həkim otaqları, palatalar, laboratoriya və aptek vardır. Burada 3 lift quraşdırılmışdır. Hazırda Mərkəzin zəruri avadanlıq və ən müasir texnika ilə təchiz edilən poliklinikası, reanimasiya zalı, ümumi cərrahiyyə, qaraciyər-öd yolları cərrahiyyəsi bölməsi, damar cərrahiyyəsi şöbəsi, mədə-bağırsaq cərrahiyyəsi bölməsi, endokrin cərrahiyyəsi şöbəsi, ürək cərrahiyyəsi, uşaq ürək cərrahiyyəsi, kardiocərrahiyyə əməliyyat blokunda və digər əməliyyat otaqlarında hər bir zəruri cərrahi müdaxiləni həyata keçirmək mümkündür. Tibb ocağının həyətyanı sahəsi abadlaşdırılmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Burada akademik Mustafa bəy Topçubaşovun abidəsi qoyulmuşdur.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Mərkəzin birinci mərtəbəsində qəbul və poliklinika şöbələri ilə tanış oldular. Bildirildi ki, bu mərtəbədə endoskopiya və kompyuter tomoqrafiyası kabinetləri fəaliyyət göstərir. Burada quraşdırılan tibbi avadanlıq Almaniyadan gətirilmiş və texnologiyanın ən müasir standartlarına cavab verir. Bu mərtəbədə, həmçinin rentgen kabineti, ultrasəs müayinəsi, elektrokardioqram və exokardioqram, qanalma və qanköçürmə otaqları fəaliyyət göstərir.*

*Dövlətimizin başçısı kollektivi təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Bir daha sizi ürəkdən təbrik edirəm. Elmi Cərrahiyyə Mərkəzinin əsaslı təmirdən sonra açılışı çox gözəl hadisədir. Mən indi Mərkəzlə tanış oldum, görürəm ki, bütün işlər yüksək səviyyədə görülüb. Ən əsası odur ki, burada ən müasir avadanlıqlar quraşdırılıb. Bu avadanlıqlar indi dünyanın aparıcı elmi mərkəzlərində mövcuddur. Bu onu göstərir ki, Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar, görülən işlər dünya səviyyəsində gedir. Çünki indi dünya səviyyəsində müxtəlif elmi mərkəzlər var və deyə bilərəm ki, bizim mərkəzlər – son illər ərzində təmir edilmiş, yaxud da ki, yeni tikilmiş mərkəzlər bütün cəhətlərdən ən yüksək səviyyədədir: həm keyfiyyət, həm rahatlıq, palataların ölçüləri, xəstələrə, həkimlərə yaradılmış şərait və əlbəttə ki, avadanlıq. Bu gün bu Mərkəzdə quraşdırılmış avadanlıqlar ən son texnologiyadır.

Bütövlükdə Azərbaycanda səhiyyə sahəsində görülən işlər məni çox sevindirir. Biz bir neçə il ərzində bu sahədə ciddi dönüşə nail ola bildik. Bakıda, bölgələrdə yaradılmış tibbi müəssisələr ən yüksək səviyyədə tikilibdir, insanlara yüksək xidmət göstərir. Səhiyyə sisteminin maddi-texniki bazasını qısa müddət ərzində yeniləşdirdik, müasirləşdirdik və artıq dünyanın ən qabaqcıl elmi mərkəzlərində olan şərait burada da vardır. Biz həkimlərin təkmilləşməsinə də diqqət göstəririk və Səhiyyə Nazirliyi bu sahədə böyük işlər görür. Həm Azərbaycanda təşkil edilmiş təlim kursları keçirilir, həm də həkimlərimiz, mütəxəssislərimiz xaricə göndərilir, ezam edilir. Bu proses

daim aparılmalıdır. Çünki bir daha demək istəyirəm ki, dünya səviyyəsində səhiyyə sistemində tərəqqi çox sürətlə gedir. Biz çalışmalıyıq ki, Azərbaycanda ən qabaqcıl texnologiyalar tətbiq olunsun.

Təbiidir ki, Sovet İttifaqı dağılandan sonra maliyyə vəziyyətimiz çox ağır idi. Müstəqilliyimizin ilk illərində bu sahəyə istədiyimiz qədər vəsait ayıra bilmirdik. Ancaq bu gün vəziyyət tam başqadır. Azərbaycan qüdrətli, zəngin ölkəyə çevrilib və dövlətimizin əsas məqsədi sosial məsələlərin lazımi səviyyədə həll olunmasıdır. Sosial məsələlərin sırasında səhiyyə sisteminin inkişafı prioritet məna daşıyır. Ən qabaqcıl texnologiyalar Azərbaycana gətirilməlidir, həkimlərimiz vaxtaşırı peşəkarlıqlarını artırmalıdırlar, səhiyyə müəssisələri dünya səviyyəsində olmalıdır, həm Bakıda, həm bölgələrdə. Mən çox şadam ki, bölgələrdə də müasir elmi mərkəzlər, tibbi mərkəzlər, diaqnostika-müalicə mərkəzləri qurulub.

Bir daha bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu Mərkəzdə işləmək xoşdur, həkimlər üçün gözəl şərait yaradılıb. Əminəm ki, siz də xəstələrə yaxşı baxacaqsınız və beləliklə, vətəndaşlarımız sağlam olacaqlar. Mən istəyirəm ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, xəstələnməsinlər, vaxtında müayinədən keçsinlər, xalqımız sağlam və yaxşı yaşasın. Bir daha sizi təbrik edirəm.

## QOBUSTAN–CƏNGİÇAY DÖVLƏT TƏBİƏT YASAQLIĞININ ƏRAZİSİNƏ İLK CEYRAN SÜRÜSÜNÜN BURAXILMASI MƏRASİMİ

*24 dekabr 2010-cu il*

*Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Abşeron rayonunun Pirəkəşkül qəsəbəsinin yaxınlığında Qobustan–Cəngiçay Dövlət*

*Təbiət Yasaqlığının ərazisinə ilk ceyran sürüsünün buraxılması prosesini izləmişlər.*

*Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov məlumat verdi ki, Heydər Əliyev Fondu ekologiyanın və təbii mühitin tarazlığının qorunması, ekoloji tarixin və ölkə ərazisindəki bioloji müxtəlifliyin mühafizəsində müstəsna əhəmiyyət daşıyan «Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası» layihəsinə dəstəyi davam etdirir. Abşeron rayonunun inzibati ərazisinə aid olan və Qobustan–Cəngiçay Dövlət Təbiət Yasaqlığındakı bu arealda ceyranların sayının artırılması məqsədilə 2010–2011-ci illəri əhatə edən «Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası» layihəsi icra olunur. Acınohur–Sarıca düzləri, Bozdağ silsiləsi, Mil düzü və Qobustan–Cəngiçay ərazilərini əhatə edən layihəyə əsasən, həmin ərazilərə daha çox ceyran köçürülməsi məqsədilə Şirvan Milli Parkından bu areallara ceyranlar gətirilir. Qobustan–Cəngiçay ərazisi ceyranların yaşaması üçün həm də zəngin bitki örtüyünə malikdir. Ərazidə tarixən böyük ceyran populyasiyası mövcud olmuşdur. Hazırda ceyranların burada məskunlaşması və yaşaması üçün bütün müvafiq tədbirlər həyata keçirilir.*

*Prezident İlham Əliyev ölkə ərazisində ceyranların yaşadıqları tarixi arealları əks etdirən stendlərə baxdı. Bildirildi ki, ümummilli lider Heydər Əliyevin 2003-cü il 5 iyul tarixli Sərəncamı ilə yaradılan Şirvan Milli Parkı ceyranların sayının davamlı artırılmasına şərait yaratmışdır. Şirvan Milli Parkında ekoturizm mərkəzi, ekoturizm şəhərciyi və muzey yaradılmış, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Ceyranların bəslənmə və artırılma bazası sayılan Şirvan Milli Parkının yaradılması və həyata keçirilən mühafizə tədbirləri nəticəsində bu nadir heyvanların sayı sürətlə artırılaraq 9 minə çatmışdır. Bu isə ceyranların tarixi ərazilərdə reintroduksiyası üçün zəmin yaratmışdır. Bu səbəbdən də Ekologiya və Təbii Sərvətlər*

*Nazirliyi Heydər Əliyev Fondunun dəstəyi ilə «Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası» layihəsini həyata keçirir.*

*Dövlətimizin başçısı ceyranların keçmiş və indiki məskunlaşma arealları, miqrasiya dəhlizləri haqqında məlumatlarla tanış oldu. Bildirildi ki, ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası layihəsinə əsasən Qobustan–Cəngiçay arazisi ilə yanaşı, Şirvan Milli Parkında da müvafiq işlər görülür. 65 min hektardan artıq əraziyə malik parkda 9 min başa qədər ceyran saxlanılır. Bu da Avropa məkanında ən böyük ceyran populyasiyasıdır. Beyləqan rayonunda 18 min hektar ərazisi olan Ağgöl Milli Parkında da ceyranların reintroduksiyası uğurla davam etdirilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva üzərində peyk vasitəsilə məlumat toplayan xüsusi siqnalötürücü xaltası olan ceyranı Qobustan–Cəngiçay ərazisinə buraxdılar. Dövlətimizin başçısı layihənin icrası zamanı istifadə edilən müxtəlif avadanlıq və digər vasitələrlə tanış oldu. Bildirildi ki, yol kənarlarında, arealların yaxınlığında qoyulan xüsusi informasiya lövhələrində ceyran ovunun qadağan edilməsi barədə məlumat verilir.*

## MİLLİ OLİMPİYA KOMİTƏSİNDƏ 2010-cu İLİN YEKUNLARI, İDMANÇILARA VƏ MƏŞQÇİLƏRƏ MÜKAFATLARIN TƏQDİM OLUNMASI MƏRASİMİ

*27 dekabr 2010-cu il*

*Dekabrın 27-də Milli Olimpiya Komitəsində (MOK) 2010-cu ilə yekun vurulmuş, idmançılara və məşqçilərə mükafatlar təqdim olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı əvvəlcə MOK-un inzibati binasının foyesində Azərbaycan idmanına, idmançılarımızın beynəlxalq yarışlarda, o cümlədən Sinqapurda keçirilən Yeniyetmələrin I Yay Olimpiya oyunlarında iştirakına, qazandıqları qələbələrə həsr olunmuş fotosərgiyə baxdı.*

*Sonra mərasim keçirildi. MOK-un İcraiyyə Komitəsinin iclas salonuna toplaşanlar prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar! Mən sizin hamınızı ürəkdən salamlayıram, bütün idmançıları, idman mütəxəssislərini 2010-cu ildə qazanılmış qələbələr münasibətilə ürəkdən təbrik edirəm.

İlin sonunda görüşlərimiz gözəl ənənəyə çevrilibdir. Hər il biz görüşürük və ilin yekunlarını müzakirə edirik, idmançıları, idman ictimaiyyətinin nümayəndələrini mükafatlarla, mənzillərlə təltif edirik. Bu gözəl ənənə bundan sonra da yaşamalıdır və biz hər il idmançıların uğurlarını qeyd etməliyik. Əlbəttə ki, idmançılarla il ərzində də vaxtaşırı görüşlərim olur, xüsusilə beynəlxalq, mötəbər yarışlarda qələbə qazanmış idmançılarla, gənc idmançılarla. Mən çalışıram ki, idmanın inkişafına diqqət yetirim. Azərbaycanda idmanın inkişafı artıq reallıqdır. Gənc nəsil yetişir, idmançılarımız beynəlxalq yarışlarda ölkəmizi şərəflə təmsil edirlər. Bu onu göstərir ki, uğurlarımız təsadüfi xarakter daşımır, məqsədyönlü, düşünülmüş siyasətin və idmanla məşğul olan bütün qurumların birgə fəaliyyəti nəticəsində biz bu uğurlardan danışa bilərik.

Azərbaycan Beynəlxalq olimpiya hərəkatında çox fəal iştirak edir və biz böyük hörmətə malik olan ölkəyik. Ölkəmizdə beynəlxalq yarışların keçirilməsi adi hala çevrilibdir. İl ərzində Bakıda dəfələrlə dünya, Avropa çempionatları, digər beynəlxalq yarışlar keçirilir və bizdə olan imkanlar bu yarışların yüksək səviyyədə təşkili üçün gözəl şərait yaradır.

İdmanın inkişafı özünü müxtəlif istiqamətlərdə büruzə verir. Ancaq onların arasında ən vacib amil, əlbəttə ki, medalların sayıdır. 2010-cu ildə idmançılarımız müxtəlif beynəlxalq yarışlarda 675 medal qazanmışlar. Onlardan 206-sı olimpiya idman növləri üzrə qazanılmış medallardır. İdmançılarımız müxtəlif yarışlarda olimpiya və qeyri-olimpiya idman növləri üzrə ölkəmizi şərəflə təmsil ediblər və Azərbaycanın idman şöhrətini qaldırıblar.

Mən çox şadam ki, gənc idmançılarımız Yeniyetmələrin I Yay Olimpiya oyunlarında çox böyük uğura nail olublar. 204 ölkə içində idmançılarımız 11-ci yeri tutmuşlar və islam ölkələri arasında birinci sıradadırlar. Bu bir daha onu göstərir ki, Azərbaycanda idmanın inkişafı sistemli xarakter daşıyır. Gənc idmançıların uğurlu çıxışları bizə əsaslı ümid verir ki, bir neçə ildən sonra gənclərimiz ölkəmizi dünya çempionatlarında, Olimpiya oyunlarında təmsil edəcəklər. Olimpiya oyunlarında Azərbaycanın əldə etdiyi uğurlar bizim üçün idmanda, idman yarışlarında əsas vəzifədir. Gənc nəslin yetişdirilməsi üçün ölkəmizdə aparılan siyasət çoxşaxəlidir. Fəaliyyətimizi təkcə idman sahəsi ilə məhdudlaşdırmırıq. Uğurları təmin etmək üçün gənclərdə, o cümlədən idmançılarda möhkəm iradə, vətənpərvərlik ruhu yüksək səviyyədə olmalıdır, vətən sevgisi olmalıdır. Biz gənclərimizə bu nəcib əlamətləri aşılayırıq. Azərbaycanda bu sahədə görülən işləri yüksək qiymətləndirirəm.

Azərbaycan cəmiyyəti və onun vacib hissəsi olan gənclər bu gün ölkəmizin inkişafı üçün müxtəlif sahələrdə uğurla fəaliyyət göstərirlər. İdman isə o sahədir ki, burada nəticələr bəlkə də özünü daha da qabarıq və açıq şəkildə büruzə verir. İdmanda

qazanılmış qələbə ölkənin qələbəsi sayılır. Təsadüfi deyil ki, Olimpiya oyunlarında və başqa yarışlarda ölkələr bir-biri ilə rəqabət aparırlar. Ona görə yeniyetmələrimizin dünya miqyasında böyük idman dövlətlərini geridə qoyub 11-ci yeri tutması tarixi hadisədir. Mən çox şadam ki, dünya idman ictimaiyyəti də bizdə idmanla bağlı gedən bu proseslərə çox böyük maraqla yanaşır, uğurlarımız artıq tanınır və qiymətləndirilir.

2010-cu ildə bu uğurlarla bərabər, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi üçün ənənəvi olaraq vacib addımlar atılmışdır. Bu il 4 olimpiya idman kompleksi istismara verilmişdir. Göyçay, Ağdaş, Balakən və Horadiz şəhərlərində müasir idman kompleksləri istifadəyə verilmişdir. Müşfiqabad qəsəbəsində idman-təlim mərkəzi istismara verilmişdir. Mingəçevirdə beynəlxalq avarçəkmə mərkəzi fəaliyyətini, demək olar ki, daha da müasir keyfiyyətdə bərpa etmişdir. Bildiyiniz kimi, Mingəçevir Olimpiya avarçəkmə bazası Sovet İttifaqında yaşamış idmançılara xidmət göstərirdi və o bazanın nadir iqlim şəraiti avarçəkmə ilə məşğul olanların hamısını ora cəlb edirdi. Uzun illər ərzində baza yararsız vəziyyətdə idi və biz onun bərpası üçün müxtəlif imkanlar axtarırdıq, o cümlədən xarici maliyyə dəstəyini cəlb etməyə çalışırdıq. Ancaq nəticədə Azərbaycan dövləti avarçəkmə bazasını dövlət büdcəsi hesabına ən müasir səviyyədə təmir etdi, yenidən qurdu. Orada çox gözəl mehmanxana, idman qurğuları, üzgüçülük hovuzu, trenajor zalları yaradılıb, gözəl park salınıbdır. Bu nəinki avarçəkmə idman növünün inkişafı üçün, eyni zamanda, turizm obyekti kimi, öz gözəlliyi və funksional tərəfi ilə fərqlənən beynəlxalq avarçəkmə bazasıdır. Qeyd etməliyəm ki, bizim üçün ənənəvi olmayan bu idman növü üzrə də böyük uğurlarımız vardır. Bu baza başqa ölkələrin idmançıları üçün də öz imkanlarını təqdim edir. Bu həm Mingəçevirin inkişafına böyük dəstək olacaq və investisiyaların cəlb olunmasına xidmət göstərəcək, həm də ki, regional beynəlxalq avarçəkmə bazasının tikintisi doğrudan da böyük hadisədir.

2011-ci ildə bu tikinti-quraşdırma işləri davam etdiriləcəkdir. 11 olimpiya mərkəzinin tikintisi nəzərdə tutulur. Onların bir hissəsinin açılışı gələn il olacaqdır. Bu proqram ardıcıl şəkildə icra edilir. Qeyd etmək istəyirəm ki, idmanla məşğul olan qurumlar – Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar bu il birgə fəal işləmişlər. Son illər bütün istiqamətlərdə aparılan işlər bugünkü reallıqları mümkün edibdir.

Biz özümüzü idman sahəsində bu bölgədə və Avropa qitəsində, hətta dünya miqyasında artıq, sözün əsl mənasında, təsdiq etmişik. Bu, ölkəmizi daha da gücləndirir, ölkəmiz haqqında dolğun məlumatın dünya ictimaiyyətinə çatdırılması üçün çox müsbət rol oynayır. Azərbaycanın bugünkü inkişafı, ölkəmizdə gedən quruculuq işləri bəzi hallarda dünya ictimaiyyəti üçün sirr kimi qalır. Bəzi hallarda Azərbaycanla bağlı məlumatlar dünya mətbuatında ya həqiqəti əks etdirmir, ya da ki, qərəzli olur, təhrif edilmiş məlumatlar dərc edilir. Ona görə də birinci dəfə Azərbaycana, Bakıya gələn hər bir qonaq Bakının gözəlliyini, şəhərimizdə, ölkəmizdə olan quruculuq işlərini görərkən təəccüb edir və bu təəccübü gizlədə bilmir. Biz də çalışmalıyıq ki, haqqımızdakı məlumatlar həqiqəti əks etdirsin. Bunun üçün ən gözəl vasitə qonaqları dəvət etməkdir. Bu gün ölkəmizdə qurulan infrastruktur – gözəl mehmanxanalar, istirahət kompleksləri, aeroportlar turizmin inkişafı üçün müsbət təsirini göstərir. Azərbaycana nə qədər çox qonaq gəlsə, ölkəmiz haqqında dünyada o qədər də dəqiq məlumat mövcud olacaqdır. İdman yarışlarının keçirilməsi, əlbəttə ki, bu məqsədi də güdür. Digər tərəfdən, idmançılar, gənclər bir-biri ilə təmasda olurlar, görüşürlər. Bu, millətlərarası, sivilizasiyalararası münasibətlərə müsbət təsir göstərir. Azərbaycan bu sahədə də dünya birliyinə öz dəyərli töhfəsini verir. Azərbaycanda yüksək dərəcəli dini və milli dözümlülük artıq dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, ölkəmizdə bu məsələ ilə bağlı çoxsaylı beynəlxalq tədbirlər keçirilir. İdman bütün bu işlərin aparılmasında mühüm rol

oynayır və biz bunu Azərbaycanda çoxdan dərk etmişik. İdman sadəcə olaraq, qazanılmış medalların sayı ilə ölçülməməlidir. İdman ictimai-siyasi həyatda mühüm amildir. Beynəlxalq münasibətlərdə idmanın rolu getdikcə artmaqdadır və biz bunu artıq gündəlik həyatda görürük.

Bu gün Azərbaycan idmanı ölkədə gedən quruculuq proseslərinə tam uyğundur. Deyə bilərəm ki, bir neçə il ərzində Azərbaycanda idmanın inkişafı digər sahələrdə olan inkişafı qabaqlayırdı. Ancaq bu gün Azərbaycanın iqtisadi inkişafı, sosial məsələlərin həlli, böyük quruculuq işləri, ölkəmizin müasirləşməsi və güclü regional dövlətə çevrilməsi prosesləri idmanda əldə edilmiş uğurlarla tam şəkildə üst-üstə düşür. Biz istəyirik ki, Azərbaycan daha da güclənsin. Biz istəyirik ki, dünyada mövcud olan və xalqımıza, adət-ənənələrimizə uyğun olan ən qabaqcıl, mütərəqqi meyarlar Azərbaycanda öz təsdiqini tapsın. Biz istəyirik ki, Azərbaycan müasir dövlət kimi, öz imkanlarını genişləndirsin, dünyadakı mövqelərimiz daha da möhkəm olsun, ölkədə iqtisadi, siyasi, sosial islahatlar daha da sürətlə getsin və biz bunu görürük. Bütün beynəlxalq iqtisadi qurumlar Azərbaycanda gedən prosesləri böyük maraqla izləyirlər. Bütün qabaqcıl və nüfuzlu beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan ən birinci sıralardadır – istər ölkələrin iqtisadiyyatının rəqabətqabiliyyətliliyinə, istər informasiya-kommunikasiya texnologiyalarının inkişafına, istər insan indeksinin meyarlarına görə, istərsə də idman sahəsində. Bütün bu sahələrdə biz uğurla və inamla irəliyə gedirik.

Mən inanıram ki, 2011-ci il bu gözəl ənənələrin davam etdirilməsi üçün uğurlu il olacaq, o cümlədən idman sahəsində. 2011-ci il 2012-ci ilin Yay Olimpiya oyunlarına hazırlıq üçün həlledici il olacaqdır. Çoxsaylı lisenziya turnirləri keçiriləcəkdir və Olimpiadaya hazırlıq dövrünün sonuncu ilidir. Biz bu amili nəzərə almalıyıq. 2011-ci ildə səylərimizi daha da gücləndirməliyik. Halbuki 2009-cu il – Olimpiadadan sonrakı bir il bizim üçün nə qədər vacib idisə, 2011-ci il də o qədər vacibdir. Əlbəttə, Olimpiya oyunları idman sahəsində müəyyən

dövrün ən əsas hadisəsidir. Ancaq bununla bərabər, bütün idman qurumları gündəlik fəaliyyətlərində çalışırlar ki, biz məqsədimizə çataq.

Mən əminəm ki, gələn il də idmanımız üçün uğurlu il olacaqdır. İdmançılarımız, yeniyetmələrimiz, gənclərimiz ölkəmizi dünyada ləyaqətlə təmsil edəcəklər və biz idmançılarla görüşəcəyik, idmançıların qələbələrinə sevinəcəyik. Əminəm ki, biz 2011-ci ili də uğurla başa vuracağıq.

Əziz dostlar, əziz idmançılar, 2010-cu ildə qazanılmış qələbələr münasibətilə mən bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Bildiyiniz kimi, mənim idmana xüsusi münasibətim vardır. 13 ildir ki, mən Olimpiya Komitəsinin prezidentiyəm. Çalışıram və bundan sonra da çalışacağam ki, biz idmançıların problemlərini uğurla həll edək, idmanın inkişafı üçün əlavə tədbirlər görək, idman infrastrukturunun yaradılması üçün lazımi addımları ataq. 2011-ci il bu sahədə çox əlamətdar bir il olacaqdır. Çünki 2011-ci ildə Bakıda yeni, möhtəşəm, gözəl olimpiya stadionunun təməl daşı qoyulmalıdır. Artıq layihə hazırdır, stadion üçün yer müəyyən edilib. Mən hesab edirəm ki, Azərbaycan kimi idman dövlətinin paytaxtı Bakı şəhəri üçün ən müasir texnoloji imkanlara malik olan yeni olimpiya stadionu tikilməlidir.

Mən sizi bir daha həm qələbələr münasibətilə, həm qarşıdan gələn bayramlar – Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə ürəkdən təbrik edirəm və sizə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə dövlətimizin başçısına idmançılara göstərdiyi diqqət və qayğıya, həmçinin xoş sözlərə görə minnətdarlıq etdi.*

*Beynəlxalq Hərbi İdman Şurasının üzvü polkovnik Natiq Əliyev Şuranın mükafatını prezident İlham Əliyevə təqdim etdi.*

*Sonra prezident İlham Əliyevin sərəncamı ilə müxtəlif fəxri adlarla təltif olunan şəxslərə mükafatlar təqdim edildi.*

*Dövlətimizin başçısı Elçin Cəfərova və Ağayar Axundzadəyə MOK-un «Olimpiya» ordenini təqdim etdi.*

*İdmançılardan bir qrupu Milli Olimpiya Komitəsinin prezidentinin Fəxri fərmanları ilə təltif olundu.*

*Daha sonra prezident İlham Əliyev müxtəlif beynəlxalq yarışlarda fərqlənən, ölkəmizdə idmanın inkişafına töhfə verən idmançıların bir qrupuna və məşqçilərə yeni mənzillərin orderlərini təqdim etdi.*

*Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Azərbaycan «Kitab» Cəmiyyətinin sədri Zərifə Salahova idman ictimaiyyəti adından prezident İlham Əliyevə təşəkkürünü bildirdi və «Heydər Əliyevin neft strategiyası» miniatür kitabını dövlətimizin başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev bir daha idmançıları təbrik etdi, onlara işlərində uğurlar arzuladı.*

## OĞUZ–QƏBƏLƏ–BAKI SU KƏMƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*28 dekabr 2010-cu il*

*Dekabrın 28-də Azərbaycanda ən böyük infrastruktur layihələrindən biri – Oğuz–Qəbələ–Bakı su kəmərinin istifadəyə verilməsi mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Oğuz–Qəbələ–Bakı su kəmərinin Abşeron qurğular kompleksinə gələn dövlətimizin başçısını mərasim iştirakçıları hərarətlə qarşıladılar.*

*«Azərsu» Səhmdar Cəmiyyətinin sədri Nizaməddin Rzayev məlumat verdi ki, Oğuz və Qəbələ rayonlarından yüksək keyfiyyətli içməli suyun Bakıya gətirilməsi təşəbbüsünün müəllifi ümummilli lider Heydər Əliyevdir. Ulu öndərin layiqli davamçısı, dövlətimizin başçısı İlham Əliyev isə Azərbaycanın ən nəhəng infrastruktur layihələrindən olan bu ideyanın reallaşması istiqamətində mühüm addımlar atmışdır. 2007-ci ilin martında Oğuz rayonunun Sincan kəndində bu layihənin təməli qoyulmuş və tikinti işlərinə başlanılmışdır. Uzunluğu 262 kilometrdən çox olan kəməri su ilə təmin etmək üçün çoxlu artezian quyusu qazılmış, yarımstansiya quraşdırılmışdır. Oğuz rayonu ərazisində dəniz səviyyəsindən 417 metr yüksəklikdə baş suqəbuledici qurğular kompleksi tikilmiş, suyun tənzimlənməsi üçün kəmər üzərində çoxsaylı nizamlayıcı qurğular inşa olunmuşdur.*

*İdarəetmə məntəqəsində prezident İlham Əliyevə təqdim olunan marşrut maketi əsasında boruların diametri, kəmərin uzunluğu, su sərfi, çay, şose və dəmiryol keçidləri, axına nəzarət, təzyiqqırıcı və təzyiqnizamlayıcı kameralar barədə, su*

*kəmərinin təhlükəsizliyini təmin edən SCADA sistemi barədə də məlumat verildi. Bildirildi ki, bu sistem kəmərdə baş verə biləcək bütün qəzalar və sızmalar haqqında məlumatı dərhal mərkəzi aparata ötürmək imkanına malikdir.*

*Prezident İlham Əliyev Oğuz–Qəbələ–Bakı su kəməri ilə içməli suyun paytaxta verilməsini bildirən qurğunu işə saldı.*

*Dövlətimizin başçısı kompleksdə yaradılmış Heydər Əliyev Muzeyi ilə tanış oldu. Muzeydə ulu öndərin rəhbərliyi ilə ölkənin su təminatının yaxşılaşdırılması istiqamətində müxtəlif dövrlərdə həyata keçirilən tədbirləri əks etdirən fotolar və videomateriallar toplanmışdır. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ötən əsrin 70-ci illərində Kür suyunun paytaxta verilməsi üçün görülən işləri əks etdirən sənədli videogörüntülərə baxdı.*

*Muzeyin digər guşəsində prezident İlham Əliyevin bu missiyanı uğurla davam etdirməsini əks etdirən fotoşəkillər vardır. Burada Oğuz–Qəbələ–Bakı su kəmərinin çəkilməsini əks etdirən fotolar da nümayiş olunur.*

*Prezident İlham Əliyev kompleksin inzibati binasında yaradılmış şəraitlə tanış oldu. Dövlətimizin başçısı burada suyun fiziki və kimyəvi analizinin aparıldığı laboratoriyaya baxdı. Bildirildi ki, suyun tərkibinə daim nəzarət etmək üçün burada ən müasir avadanlıq və cihazlar quraşdırılmışdır.*

*Prezident İlham Əliyev Oğuz–Qəbələ–Bakı su kəməri ilə paytaxta gətirilən sudan içdi və kəmərdən suyun qəbuledici kameraya daxil olması prosesini izlədi. Bildirildi ki, kəmərdən qəbul edilən su burada öz axarı ilə şəhərdəki mövcud anbarlara ötürülür, oradan isə paytaxtın müxtəlif istiqamətlərinə paylanılır.*

*Oğuz–Qəbələ–Bakı su kəmərinin sonuncu nöqtəsi olan və dəniz səviyyəsindən 190 metr yüksəklikdə yaradılan Abşeron qurğular kompleksi paytaxtın 17-ci kilometrliyində yerləşir. Komplekslə tanışlıqdan sonra prezident İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, bu gün biz çox gözəl və əlamətdar hadisəni qeyd edirik. Oğuz–Qəbələ–Bakı su kəməri istismara verilir. Bu gözəl hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu doğrudan da böyük və tarixi hadisədir. Bildiyiniz kimi, Oğuz–Qəbələ zonasında təmiz su mənbələrinin mövcudluğu haqqında hələ bir neçə onillik bundan əvvəl məsələ qaldırılmış və o bölgədən Bakıya suyun gətirilməsi üçün təkliflər irəli sürülmüşdü. Ancaq o illərdə bu layihəni reallaşdırmaq mümkün olmamışdı. Biz bu gün müstəqil Azərbaycanda şəhərimiz, ölkəmiz üçün çox böyük əhəmiyyət kəsb edən bu layihəni həyata keçirdik. Bu, böyük nailiyyətdir, böyük qələbədir. Bu onu göstərir ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan hər şeyə qadirdir. Biz ölkəmizi gücləndirmək, ölkəmizdə iqtisadi islahatların uğurla aparılması üçün bütün tədbirləri görürük, insanların sağlamlığı, rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik.

5 il əvvəl Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi ilə bağlı təşəbbüs irəli sürüldü. 2005-ci ildə mənim təşəbbüsümlə geniş müşavirə keçirildi. Müşavirədə layihənin müxtəlif parametrləri müzakirə edildi. O vaxt biz, əlbəttə, təsəvvür edə bilməzdik ki, bu nə dərəcədə böyük və mürəkkəb layihə olacaqdır. Ancaq iradəmiz və istəyimiz bizə bu layihənin həyata keçirilməsinə imkan yaratdı. 2007-ci ildə Oğuz–Qəbələ–Bakı su kəmərinin təməl daşı qoyuldu, ondan sonra tikintisi başladı və bu gün biz artıq bu kəmərin istifadəyə verilməsini bərabər qeyd edirik.

Bu kəmərin Bakı sakinləri üçün çox böyük əhəmiyyəti olacaqdır. Bildiyiniz kimi, Bakı şəhərində əhalinin 60 faizi içməli suyu fasilələrlə alır. Əlbəttə ki, müasir şəhər üçün bu, dözülməz bir vəziyyətdir. Bakıda su problemi əsrlər boyu mövcud idi. Bütün dövrlərdə Bakının içməli su ilə təmin edilməsi üçün müxtəlif tədbirlər görülürdü. Ancaq paytaxtımızın böyüməsi, şəhərdə əhalinin artması nəticəsində görülən

tədbirlər lazımi səmərə vermirdi. Ona görə yeni mənbədən təmiz, keyfiyyətli suyun Bakıya gətirilməsi qarşımızda duran əsas məsələlərdən biri idi. Mən çox şadam ki, biz buna nail olduq. Mənə verilən məlumata görə, Oğuz–Qəbələ–Bakı su kəmərinin fəaliyyəti nəticəsində Bakı şəhərinin əhalisinin 75 faizi fasiləsiz təmiz, keyfiyyətli, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun su ilə təmin ediləcəkdir.

Biz bundan sonra da çalışmalıyıq ki, Bakı şəhərinin su probleminin əsaslı şəkildə həll edilməsinə nail olaq. Bu məqsədlə əlavə tədbirlər görüləcəkdir. Taxtakörpü su anbarının tikintisi, Samur–Abşeron su kanalının istifadəyə verilməsi nəticəsində Bakıda suyun həcmi daha da artacaqdır. Bu vaxta qədər bu layihə – Oğuz–Qəbələ–Bakı su kəməri layihəsi və nəzərdə tutulmuş digər layihələr çərçivəsində böyük işlər görülmüşdür. Bakıda su anbarları, paylayıcı xətlər tikilmişdir. Bu infrastrukturu tamamilə yeniləşdirməliyik və elə etməliyik ki, Bakıda su təchizatı ilə bağlı vəziyyət dünyanın aparıcı şəhərlərində olan vəziyyətdən geri qalmasın, ondan daha da yaxşı olsun.

Buna nail olmaq üçün bizdə bütün imkanlar vardır. İlk növbədə güclü iradə, düşünülmüş siyasət vardır. Biz bu kəmərin tikintisinə böyük maliyyə vəsaiti ayırdıq və bilirik ki, bu vəsait geri qayıtmayacaqdır. Bu layihə kommersiya xarakteri daşımır, sırf sosialyönümlü layihədir və böyük vəsaitin ayrılması onu göstərir ki, Azərbaycan dövləti öz əhalisinin yaxşı, keyfiyyətli içməli su ilə təmin edilməsi üçün hər şeyə qadirdir.

Əgər iqtisadi imkanlarımız olmasaydı, bu layihəni həyata keçirə bilməzdik. İnanmıram ki, hansısa beynəlxalq maliyyə qurumu bu layihəyə kredit ayıra bilərdi. Adətən, daha çox kommersiya xarakterli layihələrə vəsait ayrılır. Digər tərəfdən, əgər Azərbaycanın bu gün güclü maliyyə resursları olmasaydı, ümumiyyətlə, xaricdən kredit almaq məsələsi gündəlikdə qalmazdı. Bizim uğurlu iqtisadi siyasətimiz, Azərbaycanın ulu öndəri Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və bu gün

uğurla icra edilən neft strategiyası bütün bu reallıqları mümkün etmişdir.

Bu gün xarici maliyyə bazarlarından Azərbaycana vəsait cəlb etmək üçün bütün imkanlarımız vardır. Ancaq bu layihəni özümüz öz hesabımıza, kredit almadan həyata keçirdik. Bu layihə Azərbaycan Dövlət Neft Fondunun vəsaiti hesabına həyata keçirilmişdir. Bilirsiniz ki, Dövlət Neft Fondunun həyata keçirdiyi layihələr ölkənin inkişafı üçün prioritet məna daşıyır. Hər bir layihənin Dövlət Neft Fondunun investisiya portfelinə daxil edilməsi geniş müzakirə olunur və lazımi qərarlar qəbul edilir. Neft fondunun xətti ilə icra edilmiş layihələr bizim üçün prioritet layihələrdir və Oğuz–Qəbələ–Bakı su kəmərinin bu layihələr sırasına salınması bizim niyyətimizi göstərir. Bu layihənin Dövlət Neft Fondunun vəsaiti ilə həyata keçirilməsi digər tərəfdən, rəmzi xarakter daşıyır. Neft hasilatından, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismarından əldə edilmiş gəlirlər Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisinə yönəldilmişdir. Bu doğrudan da çox rəmzi xarakter daşıyan bir məsələdir, bir daha Azərbaycanın uğurlu siyasətini göstərir. Bizim təbii sərvətlərimiz, güclü iqtisadiyyatımız vardır. Ancaq ölkəmizi gücləndirən, gələcəyə aparan və ölkəmizdə bütün prosesləri müsbət istiqamətdə inkişaf etdirən Azərbaycan vətəndaşlarıdır. Biz bu uğurlara vətəndaşlarımızın zəhməti hesabına nail ola bilmişik.

Biz bundan sonra da çalışacağıq ki, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edək. Oğuz–Qəbələ–Bakı su kəməri bunu çox açıq-aydın göstərir. İndiyədək bu ölçüdə, bu həcmdə su kəmərləri tikməmişdik. Ancaq bu gün biz bunu uğurla həyata keçirə bilmişik. Əsas məsələ ondan ibarətdir ki, bütün başqa sahələrdə də nəzərdə tutulan buna bənzər tədbirlər görülsün. Bizim konkret proqramlarımız – regional inkişaf proqramı, ölkəmizin gələcək inkişaf proqramı vardır.

Ölkəmiz gələcəyə uğurla gedir. Bu gün həyata keçirilən infrastruktur layihələri – elektrik xətləri, qazlaşdırma, yolların çəkilməsi, sosial infrastrukturun yaradılması, su kəmərlərinin

tikintisi ölkəmizin bundan sonra uzun müddət ərzində, onilliklər ərzində uğurlu inkişafına xidmət göstərəcəkdir. İndi isə Oğuz–Qəbələ–Bakı su kəməri içməli su layihələri arasında ən böyük layihədir. Azərbaycanın bütün bölgələrində içməli su və kanalizasiya problemlərinin həlli üçün praktiki işlər, yaxud da ki, bu işlərin görülməsi üçün hazırlıq tədbirləri aparılır. Bütün rayonlarda bu ağır və çətin, bizim üçün həmişə, əfsuslar ki, ənənəvi olan bu problem öz həllini tapacaqdır. Bununla bərabər, hazırda çaylar boyu yerləşən kəndlərdə sutəmizləyici qurğuların quraşdırılması nəticəsində 300 mindən artıq Azərbaycan vətəndaşı Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin edilir. Bu proses davam etdirilir. Onlar vaxtilə keyfiyyətsiz çay sularından istifadə edirdilər.

Yəni bu gün qarşımızda duran əsas məsələlərdən biri içməli su, kanalizasiya layihələrinin həyata keçirilməsidir. Biz çalışırıq ki, bu məsələ də Azərbaycanda dünya səviyyəsində həll olunsun. Ümid edirəm ki, yaxın zamanlarda, bir neçə ildən sonra bu problem ölkə miqyasında bütövlükdə həllini tapacaqdır. Bir daha demək istəyirəm ki, bunu etmək üçün bizdə bütün imkanlar, güclü siyasi iradə, düşünülmüş siyasət, konkret proqramlar, artıq peşəkar kadrlar, güclü yerli şirkətlər vardır. Xarici şirkətlərlə əməkdaşlığımız uğurludur və bu layihənin icrasında xarici şirkətlər iştirak etmişlər. Bizdə artıq güclü maliyyə bazası vardır, daxili imkanlar çox böyükdür. İstənilən layihəni öz gücümüzlə həll edə bilərik və edirik.

Bu gün tarixdə qalacaqdır. Bu kəmər insanlara rahatlıq, sağlamlıq gətirəcək, su sağlamlıq deməkdir. Təmiz içməli su insanın sağlamlığına verilən ən böyük töhfədir. Təmiz su, təmiz hava – biz bütün bunlara nail olmalıyıq. Bu gün Bakıda və başqa bölgələrdə görülən işlər – ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəldilmiş işlər bu məqsədi daşıyır. Bu gün Bakıda böyük Məişət Tullantıları Emalı zavodu tikilir, artıq Balaxanı zibilxanası təmizlənibdir və oradan tüstülər daha qalxmır, şəhəri bürümür. Bu, təmiz hava deməkdir. Biz «Avro-2» standartlarına keçmişik. İndi «Avro-3» standartlarına, ondan sonra «Avro-4» və s. daha da

yüksək ekoloji standartlara keçməliyik. Bu nəyə gətirib çıxaracaqdır?! Ona gətirib çıxaracaqdır ki, hava daha da təmiz olacaqdır.

Azərbaycanda böyük tikinti-quruculuq işləri aparılır. Əlbəttə ki, istər-istəməz bu, havanı çirkləndirir. İnsanların yaşayış səviyyəsi yüksəlir,, hər il Bakıya on minlərlə avtomobil gətirilir. Bu da, əlbəttə, havanın çirklənməsinə ən böyük zərbə vuran amildir. Biz havanı təmizləməliyik, içməli su da keyfiyyətli olmalıdır ki, Azərbaycan vətəndaşları sağlam olsunlar. İdmanla məşğul olmaq – bu da sağlamlıqdır. Yeni xəstəxanaların, diaqnostika komplekslərinin tikintisi – bu da sağlamlığı qoruyan amillərdir. Təmiz içməli su, təmiz hava, təmiz ekologiya – bunlar sağlamlıqdır. Elə etməliyik ki, dünyada mövcud olan ən qabaqcıl meyarlar Azərbaycanda bütün sahələrdə, o cümlədən insanın sağlamlığı üçün əsas olan içməli su məsələlərində tətbiq edilsin.

Mən sizi, Bakı sakinlərini, bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan vətəndaşlarını əmin etmək istəyirəm ki, bundan sonra da biz öz fəaliyyətimizdə ölkəmizin inkişafı, Azərbaycanda sosial problemlərin həlli üçün əlimizdən gələni edəcəyik və ölkəmizi irəliyə uğurla aparacağıq. Əziz dostlar, fürsətdən istifadə edərək qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ «JURNALİSTLƏRİN DOSTU» MÜKAFATININ TƏQDİM OLUNMASI MƏRASİMİ

*«Gülüstan» sarayı*

*29 dekabr 2010-cu il*

*Dekabrın 29-da «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə «Jurnalistlərin dostu» mükafatının təqdim olunması mərasimi keçirilmişdir.*

*Mərasim Azərbaycanın Dövlət himninin səslənməsi ilə başladı.*

*Azərbaycanın mətbuat tarixinə qısa nəzər salındı.*

*«RUH» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi İdarə Heyətinin üzvü, Mətbuat Şurasının sədri Əflatun Amaşov «Jurnalistlərin dostu» mükafatının əsasnaməsi və mükafatın laureatının müəyyən edilməsi ilə bağlı bu il keçirilən sorğunun nəticələri barədə məlumat verdi.*

**Əflatun Amaşov:** Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, əziz qonaqlar! Sizləri «Jurnalistlərin dostu» mükafatının təqdimatı mərasimində görməkdən məmnunluq duyur, hər birinizə «Xoş gəlmisiniz!» – deyirik. Bugünkü mərasimimizin əlamətdar günlərə təsadüf etməsi xoş ovqatımıza bayram əhval-ruhiyyəsini də əlavə etmişdir. İcazə verin, sizləri Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibətilə ürəkdən təbrik edim, hər birinizə xoş arzularımızı yetirim.

«RUH» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi bu mükafatı 1997-ci ildə təsis etmişdir. Jurnalistlərlə dövlət məmurlarını, ictimai-siyasi xadimləri dostluğa, sıx əməkdaşlığa səsləyən göyərçin onun daimi simvoludur. Hörmətli mərasim iştirakçıları, bu gün biz buraya 2010-cu ilin qalibini təbrik etməyə toplaşmışıq. Qalibi müəyyən etmək üçün bu il dekabrın 1-dən 20-dək keçirilən sorğuda 30 gündəlik, 19 həftəlik qəzet, 13 jurnalist

təşkilatı, 11 informasiya agentliyi, 8 xəbər portalı, 7 telekanal, 3 radio və 2 jurnal iştirak etmişdir. Bütövlükdə sorğu 30 minə yaxın media nümayəndəsinin rəyini ümumiləşdirmişdir. Nəticələrə əsasən, mediaya verdiyi dəyərə və bütövlükdə kütləvi informasiya vasitələrinə diqqətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 81 faiz səslə birinci yerə layiq görülmüşdür. İkinci və üçüncü yerləri «Azercell Telekom» MMC-nin prezidenti Əli Ağan, Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov bölüşüblər. Hər üç qalibi təbrik edirik.

Möhtərəm cənab Prezident, Siz «Jurnalistlərin dostu» müsabiqəsinin yeni qalibisiniz. Media təmsilçilərimiz Sizi həmişə özlərinin dostu biliblər. Təqdimata başlamazdan əvvəl «Jurnalistlərin dostu» mükafatının laureatı ümummilli liderimiz Heydər Əliyevin sözlərini xatırlamaq yerinə düşərdi. Ulu öndər «Jurnalistlərin dostu» mükafatını qəbul edərkən demişdi: «Mən bu mükafatı çox yüksək qiymətləndirirəm. Təbiidir ki, mən çox mükafatlara layiq görülmüşəm. Ancaq bu mükafatın xüsusi yeri var. Çünki aldığım mükafatların əksəriyyəti dövlət mükafatlarıdır. Amma bu, jurnalistlər tərəfindən verilən mükafatdır».

Cənab Prezident, əminik ki, Sizə təqdim edəcəyimiz bu mükafat mükafatlar kolleksiyanızda layiqli yerini tutacaq və Siz də daim jurnalistlərin dostu olaraq qalacaqsınız. Ənənəmizə görə təqdimatdan sonra qalib özünün media ilə bağlı fikir və mülahizələrini bölüşür.

Xahiş edirik, cənab Prezident, fəxri kürsüyə buyurasınız.

* * *

*Sonra mükafat prezident İlham Əliyevə təqdim edildi və dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk öncə mən sizin hamınızı ürəkdən salamlayıram, sizə və bütün Azərbaycan xalqına qarşıdan gələn 2011-ci ildə uğurlar, xoşbəxtlik, cansağlığı arzulayıram.

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Mən bu yüksək mükafata layiq görülmüşəm. İstəyirəm ki, bu kürsüdən bu mükafatı mənə verən, məni bu mükafata layiq görən bütün insanları salamlayım, onlara dərin minnətdarlığımı bildirim və sizi əmin edim ki, bundan sonra da mən çalışacağam ki, Azərbaycanda azad mətbuatın, müstəqil mətbuatın inkişafı üçün səylərimi davam etdirəm, Azərbaycanda bütün demokratik islahatların aparılmasında daha da fəal olam və beləliklə, biz ölkəmizin hərtərəfli inkişafını təmin edə bilək.

Azərbaycanda mətbuat azadlığı, söz azadlığı vardır. Azərbaycanda azad mətbuatın tarixi o qədər də böyük deyildir. Azərbaycanda müstəqil mətbuat Sovet İttifaqının son illərinə təsadüf edir, ilk qəzetlər, müstəqil qəzetlər o vaxt yaranmışdır. Müstəqillik əldə olunandan sonra, əlbəttə ki, azad mətbuatın formalaşması daha da sürətlə getmişdir. Hesab edirəm ki, – bu gün burada artıq qeyd olundu – bu sahədə əsaslı dönüş 1998-ci ildə baş vermişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda senzuranın ləğvi, sözün əsl mənasında, azad, müstəqil mətbuatın formalaşması, yaranması üçün həlledici rol oynamışdır. Bildiyiniz kimi, ondan sonrakı dövrdə – 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv edilmişdir, 2003-cü ildə Mətbuat Şurası yaradılmışdır. Bu proseslər onu göstərir ki, Azərbaycan dövlətinin və Azərbaycan iqtidarının niyyəti həmişə birmənalı olmuşdur.

Azərbaycan hüquqi dövlət quruculuğu işində çox böyük nailiyyətlərə çatmışdır. Biz, sözün əsl mənasında, azad, müasir, demokratik, hüquqi dövlət qururuq. Hüquqi dövləti azad mətbuatsız təsəvvür etmək mümkün deyildir. Məhz buna görə də ölkədə söz azadlığı, vicdan azadlığı, plüralizm meyilləri gücləndirilməlidir. Azərbaycan dövləti və iqtidarı bu sahədə öz işini elə qurmalıdır ki, bu azadlıqlar Azərbaycanda tam şəkildə bərqərar olunsun. Azərbaycanda yüzlərlə mətbuat orqanı

fəaliyyət göstərir. Yüzə yaxın həftəlik, 30-dan çox gündəlik qəzet nəşr edilir, 8 ümumrespublika telekanalı fəaliyyət göstərir, internetin yayılması çox sürətlə gedir. İnternet istifadəçilərinin sayı Azərbaycanda 50 faizə yaxınlaşır. Mətbuat Şurasının üzvləri ilə bu ilin yayında görüş əsnasında bu məsələyə də toxundum. O vaxt qeyd etmişdim ki, Azərbaycanda 40 faizdən çox internetdən istifadə edənlər vardır. Mənə verilən son məlumata görə, bu insanların sayı artıq qısa müddət ərzində 50 faizə çatmışdır. İKT-nin inkişafı istiqamətində atılmış addımlar nəinki Azərbaycanda təqdirlə qarşılanır, dünya birliyində də bunu yüksək qiymətləndirirlər.

Biz müasir, açıq, demokratik dövlət qururuq. Əlbəttə ki, belə olan halda ictimai nəzarət daha da güclü olmalıdır. İctimai nəzarət azad mətbuatsız mümkün deyildir. Bizim iqtisadi islahatlarımız siyasi islahatlarla tamamlanır. Bu istiqamətdə böyük addımlar atılır. Mən dəfələrlə bunu qeyd etmişəm, bir daha demək istəyirəm və tam əminəm ki, demokratikləşmə prosesi getmədən, siyasi islahatlar aparılmadan biz uzunmüddətli, dayanıqlı iqtisadi inkişafa nail ola bilmərik. İqtisadiyyatımız artıq çoxşaxəli iqtisadiyyatdır, zəngin təbii resurslarımız vardır, Azərbaycan iqtisadi sahədə tam şəkildə özünü təmin edir.

Demokratiyanın inkişafı istiqamətində mətbuat azadlığının xüsusi rolu vardır. Burada əyləşənlərin əksəriyyəti jurnalistlərdir. Əminəm ki, siz bunu hamıdan yaxşı bilirsiniz. Bayaq qeyd etdiyim kimi, Azərbaycanda azad mətbuatın tarixi o qədər də böyük deyildir, lakin qısa müddət ərzində – 20 il ərzində Azərbaycanda güclü, müstəqil mətbuat formalaşıbdır. Əlbəttə ki, burada mən jurnalistlərin fəaliyyətini xüsusilə vurğulamalıyam. Mətbuat Şurasının fəaliyyətini yüksək qiymətləndirirəm. Mətbuat Şurası jurnalistlərlə dövlət qurumları arasındakı münasibətləri çox yaxşı tənzimləyir. Azərbaycanda bütün başqa sahələrdə olduğu kimi, siyasi islahatların aparılması bizim şüurlu seçimimizdir. Biz beynəlxalq təşkilatlara da könüllü üzv olmuşuq, yəni, heç kim bizi məcbur

etməyib. Biz istəyirik ki, Azərbaycanda mövcud olan meyarlar, standartlar dünyanın inkişaf etmiş ölkələrinin standartlarından geri qalmasın. Müstəqilliyimizi bərpa etdikdən sonra ölkə qarşısında müxtəlif istiqamətlərdə yollar açıq idi. Biz başqa yolla da gedə bilərdik. Ancaq ölkəmiz üçün həlledici məqamlarda, xüsusilə 1993-cü ildə Azərbaycan xalqının dəvəti ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ölkəmizin gələcək inkişaf istiqamətləri müəyyən edildi. İlk növbədə, konseptual çərçivələrdə Azərbaycan hansı yolla inkişaf etməlidir, Azərbaycan hansı seçimi etməlidir məsələləri öz həllini tapmışdır. Əgər bu prinsipial məsələlər həll olunmasaydı, gələcək inkişafımız başqa istiqamətdə də gedə bilərdi. Azərbaycan dövləti 1993-cü ildən başlayaraq dövlət quruculuğu işində öz strateji xəttinə sadiqdir. Bu günə qədər bu siyasət davam etdirilir. Bu gün Azərbaycanın reallıqları bir daha onu sübut edir ki, bu ən düzgün seçim idi. Azərbaycanda demokratik dövlətin qurulması, bazar iqtisadiyyatının yaradılması, insan hüquqlarının qorunması, beynəlxalq aləmə inteqrasiya siyasətimiz, enerji resurslarından istifadə olunması və investisiyaların cəlb edilməsi məsələləri bir-biri ilə bağlı olan məsələlərdir.

Bazar iqtisadiyyatı prinsipləri ancaq azad rəqabət şəraitində öz nəticələrini verə bilər. Azad rəqabət isə ancaq demokratik şəraitdə mümkündür. Biz başqa ölkələrin təcrübəsini bilirik və tarixdən də öyrənmişik. Sovet İttifaqının mövcudluğu və süquta uğraması hamımızın yadındadır. Yəni biz elə etməliyik ki, ölkəmizin uzunmüddətli inkişaf perspektivlərini müəyyənləşdirək və onları təmin edək. Əgər bu gün Azərbaycanın inkişafına nəzər salsaq görərik ki, bütün istiqamətlərdə ancaq müsbətə doğru tərəqqi vardır. Çünki ölkədə düşünülmüş siyasət aparılır. Biz yaxşı bilirik, iqtisadi sahədə hansı addımları atmalıyıq ki, ölkəmizin dayanıqlı inkişafını və eyni zamanda, sosial müdafiə sahəsində insanların rifah halını maksimum dərəcədə təmin edək. Biz bu il və keçən il dünyada, Avropa qitəsində gedən prosesləri yaxşı bilirik.

Mətbuatdan izləyirik, görürük meydana hansı problemlər, çətinliklər çıxır. Biz öz hesabımıza yaşayırıq. Məhz buna görə, biz böhranın acı fəsadlarını yaşamamışdıq, Azərbaycanın uğurlu inkişafını təmin etmişik.

Əlbəttə ki, siyasi sahədə aparılan islahatlar, xüsusilə bu il keçirilmiş parlament seçkiləri həm ölkəmizin vətəndaşlarına, həm dünya birliyinə bir daha Azərbaycanın uğurlu inkişafını açıq şəkildə göstərmişdir. Bəzi hallarda bu suallar verilir ki, Azərbaycan 10 ildən, 20 ildən sonra necə olacaq? Əlbəttə, qabağı görmək 100 faiz əminliklə mümkün deyildir. Amma biz hansı yolla gedirik və hara gedirik, onu yaxşı bilirik. Heç şübhə etmirəm ki, 5 ildən, 10 ildən sonra və ondan sonrakı illərdə Azərbaycan yalnız inkişaf yolu ilə gedəcəkdir. Çünki bu gün ölkəmizdə yaranmış iqtisadi şərait, maddi resurslar, maliyyə resurslarımız, mövcud olan siyasi və ictimai sabitlik, xalqla iqtidar arasındakı birlik, Azərbaycanda təhlükəsizlik məsələlərinin yüksək səviyyədə həll olunması bizə imkan verir və verəcək ki, bundan sonrakı illərdə də fəaliyyətimizi proqram çərçivəsində quraq və Azərbaycanı həm siyasi, həm regional, həm də iqtisadi risklərdən maksimum dərəcədə qoruyaq.

Azərbaycanda, əlbəttə ki, siyasi mübarizə də aparılmalıdır və aparılır. Müxtəlif fikirli insanlar, partiyalar, ictimai qurumlar mövcuddur. Mən bunu müsbət hal kimi qiymətləndirirəm. Ancaq diskussiyalar, müzakirələr, ədalətli tənqid sayəsində biz daha da böyük nəticələrə nail ola bilərik. Buna görə hesab edirəm ki, son illərdə bu sahədə müşahidə olunan irəliləyiş təqdirəlayiqdir. Deyə bilərəm ki, Azərbaycan dövləti və iqtidarı siyasi mübarizənin sivil, mədəni qaydalarla aparılması üçün bundan sonra da öz üzərinə düşən vəzifəni icra edəcəkdir.

Biz bu mübarizədə ədalətli olmalıyıq və Azərbaycanın ətrafında gedən prosesləri heç vaxt unutmamalıyıq. Müstəqillik böyük dəyərimizdir. Əsrlər boyu Azərbaycan xalqı müstəqillik arzusu ilə yaşamışdır. Bizdən əvvəlki nəsillər bu arzularla yaşamışlar, ancaq müstəqilliyi görmək onlara nəsib olmamışdır. Biz xoşbəxtik ki, müstəqilliyi görürük. Bu, tarixi bir şansdır

verilib xalqımıza. Biz bu şansı itirməməliyik və əminəm ki, itirməyəcəyik, müstəqilliyimizi hər gün gücləndiririk.

Onu da qeyd etməliyik ki, Azərbaycanın müstəqil ölkə kimi yaşamasının ilk illərindən, bəlkə ondan da əvvəl biz informasiya müharibəsi şəraitində yaşayırdıq. Ermənistan və bəlkə daha da çox erməni lobbisi Azərbaycana qarşı informasiya müharibəsini keçən əsrin 80-ci illərinin sonlarından başlamışdır. Müstəqilliyin ilk illərində biz, deyə bilərəm ki, bu mübarizədə uduzmuşduq. O bəlkə də təbii idi. Çünki bizim belə xarici resurslarımız yox idi. Ölkə daxilində gedən xoşagəlməz proseslər, hakimiyyət uğrunda mübarizə, vətəndaş müharibəsi və s. problemlər, iqtisadi tənəzzül, əlbəttə, imkan vermirdi ki, biz beynəlxalq aləmdə istədiyimizə nail olaq. Ancaq bu gün mən tam əminliklə deyə bilərəm ki, Ermənistanla və xüsusilə erməni lobbisi ilə informasiya müharibəsində biz qalib gəlirik. Onların son müddətdə müşahidə olunan çox əsəbi və isterik hərəkətləri onu göstərir ki, biz informasiya müharibəsində böyük uğurlara nail ola bilmişik.

Biz artıq Azərbaycan haqqında reallıqları dünya ictimaiyyətinə çatdıra bilirik. Mövcud olan mətbuat resurslarımız və Azərbaycanın dünyadakı dostlarının sayının artması buna imkan verir. Azərbaycan indi enerji təhlükəsizliyi, regional təhlükəsizlik üçün çox önəmli ölkədir. Bəzi hallarda bizim fikrimiz, rəyimiz və addımlarımız həlledici xarakter daşıyır. Azərbaycanla dostluq münasibətləri qurmaq istəyənlərin sayı artmaqdadır. Bu da bizim informasiya resurslarımızdır. Son illərdə onlarla səfirlik açılmışdır. Azərbaycanın dünyada əllidən yuxarı səfirliyi vardır. Bu da bizim informasiya resurslarımızdır. Diaspor təşkilatlarının formalaşması və Azərbaycan tərəfindən onlara dəstəyin verilməsi – bu da bizim resurslarımızdır. Dünyanın istənilən yerində bizim nümayəndələrimiz istənilən aksiyanı keçirə bilərlər və keçirirlər.

Biz hücum diplomatiyası aparırıq və resurslarımız da var – həm intellektual, həm də maddi resurslarımız. Son illərdə erməni lobbisi ilə mübarizədə qalib gəlirik. İnformasiya

mübarizəsi indiki şəraitdə prioritet məsələlərdən biridir. Azərbaycanla bağlı olan bəzi informasiyalar, biz onu yaxşı bilirik, həqiqətə uyğun deyildir. Bəzi hallarda bəzi dairələr – onların adını çəkmək bəlkə də mənim üçün yaxşı olmaz, onları hamımız yaxşı tanıyırıq – Azərbaycana qarşı böhtan, iftira kampaniyası aparırlar. Bunun da səbəbi var və burada təkcə erməni lobbisindən söhbət getmir, halbuki bu kampaniyanın arxasında daha çox onların qulaqları görsənir. Bütövlükdə isə bilirik ki, kim nə üçün nəyi yazır, hansı məqsədlə yazır. Azərbaycana qarşı böhtan kampaniyasının da əsas səbəbi ondan ibarətdir ki, ölkəmiz müstəqil siyasət aparır, heç kimin qarşısında baş əymir, heç kimin sözü ilə oturub-durmur, Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutur. Elə dairələr var ki, bizim belə açıq hərəkətlərimiz onların xoşuna gəlmir. Ölkə daxilində əlində rıçaqların olmaması onları çirkin yola getməyə sövq edir. Ancaq biz buna gərək soyuqqanlı yanaşaq. Bu, müasir mübarizənin – siyasi mübarizənin bir üsuludur. Bütün bu böhtançı qüvvələrə ən yaxşı cavabımız öz strateji xəttimizə sədaqətimizdir. Azərbaycan bu yoldan dönməyəcək. Bütün təzyiq cəhdləri uğursuzluqla nəticələndi, bizə nə qədər çox təzyiq cəhdləri göstərilirsə, biz o qədər mətin, dönməz, əyilməz və inadkar oluruq.

Biz xarici tərəfdaşlarla həmişə çox səmimi siyasət aparmışıq. Çalışmışıq ki, münasibətləri dostluq, əməkdaşlıq zəminində quraq və dünyadakı dostlarımızın sayı artsın. Amma bizi istəməyən qüvvələr də vardır. Qeyd etdiyim kimi, bunun müxtəlif səbəbləri vardır. Azərbaycanın uğurları ilə barışa bilmirlər, gözəlləşən şəhərlərimizi görəndə paxıllıq, qısqanclıq edirlər. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Əminəm ki, vaxt gələcək, biz deyəcəyik ki, Bakı dünyanın ən gözəl şəhəridir. Həm gözəllik, həm rahatlıq, həm şərait, həm təhlükəsizlik, həm iqlim, həm insanlarımızın xoşniyyətli olmaları, qonaqpərvərlik – bütün bunlar hər bir ölkəni fərqləndirən amillərdir.

Bir daha qayıdıram bugünkü mövzuya. Bu istiqamətdə mətbuatın rolu əvəzolunmazdır. Mən ədalətli tənqidin tərəfdarıyam. Çünki ədalətli, qərəzsiz tənqid hər bir hökumət, hər bir iqtidar üçün çox vacibdir. İndi biz, əlbəttə, vəziyyətə nəzarət edirik və bilirik ki, ölkədə nələr baş verir. Amma elə sahələr var ki, onlar diqqətdən yayınır və burada mətbuatın rolu həlledici olmalıdır. Mən bu rolu qiymətləndirirəm və ədalətli, lazımlı tənqidə çox dözümlüyəm. Lakin böhtan, iftira, təhqir – onlar yolverilməzdir. Qeyd etməliyəm ki, son illərdə Azərbaycan cəmiyyətində və bayaq qeyd etdiyim kimi, mətbuatda artıq bu cəhətlər azalır. Əminəm ki, getdikcə bu özünü daha da qabarıq şəkildə göstərəcək və Azərbaycanda bütün mübarizə qaydaları mədəni, sivil əsaslar üzərində qurulacaqdır.

Bu gün qeyd etməliyəm ki, jurnalistlərin dostu olmaq mənim üçün böyük şərəfdir. Mən, sözün düzü, bu mükafatı gözləmirdim və sadəcə olaraq, çalışırdım ki, öz fəaliyyətimlə ölkəmizin inkişafı üçün vacib olan bu sahəyə dəstəyimi verim. Mən bilirəm ki, jurnalistlərin məişət, mənzil problemləri vardır. Jurnalistlər biznesmen deyillər ki, özləri üçün bu şəraiti yarada bilsinlər. Jurnalistlər üçün mənzillərin, evlərin tikilməsi təşəbbüsünü irəli sürəndə heç gözləmirdim ki, – halbuki mən birbaşa bunu bu mükafatla bağlamıram – mükafata layiq görüləcəyəm. Amma hesab edirəm ki, bu addımın da bu mükafatın mənə verilməsində rolu vardır, gərək biz hər şeyi açıq danışaq, mən bunu təmənnasız edirdim. Çünki bilirdim ki, bu lazımdır. Mən jurnalistlərin işini yüksək qiymətləndirirəm. Bu çox çətin işdir. Bu işdə bəzən jurnalistlər haqsızlıqlarla, təzyiqlərlə üzləşirlər. Biz bunu da bilirik. Ona görə jurnalistlərin sosial müdafiəsi, məişət problemləri həllini tapmalıdır. Bu il imzaladığım sərəncam və prezidentin ehtiyat fondundan ayrılmış vəsait sadəcə olaraq, birinci addımdır. Mən bu gün demək istəyirəm ki, bununla biz işimizi bitmiş hesab etmirik. Gələcəkdə buna bənzər addımlar atılacaq və yenə də deyirəm, tamamilə təmənnasız atılacaqdır.

Bir daha demək istəyirəm ki, aldığım bu mükafatdan asılı olmayaraq, mən bundan sonra da çalışacağam ki, Azərbaycanda bu sahədə daha da böyük addımlar atılsın. Azərbaycan dövləti öz dəstəyini göstərsin. Ölkədə müasir jurnalistikanın formalaşması işində Azərbaycan dövləti və prezident kimi, mən səylərimi əsirgəməyəcəyəm.

Əziz dostlar, bu mükafata görə qərarın qəbul olunmasında iştirak etmiş bütün insanlara bir daha minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin edirəm ki, mən jurnalistlərin dostu adını yüksək qiymətləndirirəm. Çalışacağam ki, bu ada layiq olum və bundan sonra da Azərbaycan xalqına sədaqətlə və ləyaqətlə xidmət edim.

Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik günü, Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. 2011-ci ildə hər birinizə xoşbəxtlik, cansağlığı, ailə səadəti arzulayıram.

# QEYDLƏR

**1. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 64 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 5,.235,271.

**2. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. – 5,207,268.

**3. Devid Kameron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 5.

**4. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 5,16,18, 20,34,101,104,145,157,159,171,173,176,177,247,248,249,250, 251,254,255,260,261,263,265,268,269,271,277,293,298,301,306.

**5. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə təşkil olunmuşdur. AŞPA-da 47 Avropa ölkəsinin 322 deputatı fəaliyyət göstərir. – 6.

**6. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. –6,17,247,261.

**7. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2382 min km$^2$, əhalisi 40,4 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 7.

**8. Əbdüləziz Buteflikay** (d.1937) – Əlcəzairin dövlət xadimi, 1999-cu ildən Əlcəzair Respublikasının Prezidentidir. – 7.

**9. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə isə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi-mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 8–9.

**10. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 8–9,24,99,122,123,125,129,136,138,139,148,149, 150,151,160,204,215,254,305,311,312,315,316,317,331.

**11. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun

nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 8–9,24,122,136,160,254,315,316.

**12. Zivər bəy Əhmədbəyov,** Zivər bəy Gəray bəy oğlu (1873–1925) –Azərbaycan memarı. Zivər bəy ali təhsil almış ilk azərbaycanlı memardır. 1918–22-ci illərdə Bakının Baş memarı olmuşdur. Göyçayda məscid (1906), Şamaxıda «İmam məscidi» (1909), Bakıda Təzəpir məscidi, Göy məscid (1912–13), Bakı və Şamaxıda bir sıra yaşayış evlərinin layihələrini vermişdir. Zivər bəy Azərbaycan xalq memarlığının mütərəqqi ənənələrini Şərq və Avropa memarlığı ilə üzvi surətdə əlaqələndirmişdir. – 8.

**13. Ploşko İosif** (1867–1931) – memar. Milliyyətcə polyakdır. 1897-ci ildə Bakıya gəlmiş, burada bir sıra yaşayış binalarının layihəsini vermişdir. Ploşkonun ən məşhur işləri Bakıda fransız qotikası ruhunda tikilmiş M.Muxtarovun sarayı (indiki Səadət sarayı, 1911–12) və Venesiya qotikası üslubunda inşa edilən «İsmailiyyə» (indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası, 1908–13) binasıdır. – 8.

**14. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər)

idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan

Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçilmişdir.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 8,22,28–32,47,52,53,74,122,123,125,130, 134,138,139,144,148,149,150,158,215,222,237,238,316,324,332.

**15. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 9.

**16. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 9.

**17. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəharidir. – 10–25,36–54,259.

**18. Yanukoviç Viktor Fyodoroviç** (d.1950) – mühəndis-mexanik. 2002–2005 və 2006–2007-ci illərdə Ukrayna Respublikasının Baş naziri, 2010–2014-cü illərdə Ukrayna Respublikasının Prezidenti olmuşdur. – 11,36–50,259.

**19. Avropa parlamenti, Avroparlament** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Avroparlament daim işləyən orqandır. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avroparlamentin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avroparlament məcburi xarakter daşımayan qərar verir. Avroparlament beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir,

qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avroparlament Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. –17,96,247,261.

**20. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 17.

**21. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 18,131.

**22. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 18,248.

**23. Dnestryanı** – Moldovada Dnestr çayı sahilində tanınmamış bölgə. 1992-ci ildə Dnestryanıda hərbi münaqişə başladı. İyulun ortalarına qədər bir neçə ay davam edən silahlı toqquşmalar zamanı S.Lebedev komandanı olduğu Rusiyanın 14-cü ordusunun separatçılara yaxından dəstək verməsi nəticəsində Kişinyov sol sahildəki rayonlar üzərində nəzarətini itirdi və Dnestryanı Moldovanın nəzarətindən çıxmış əraziyə çevrildi. – 20.

**24. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə

Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 21,22,76,120,124,263,292–300.

**25. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 22,27–35,44,48,77,98,101,120,176–177,182–203,233,276, 280–283.

**26. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imza-ladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 22,46,98,121,281–283.

**27. Taras Şevçenko** (1814–1861) – Ukrayna şairi, rəssam, mütəfəkkir, inqilabçı-demokrat. Ukrayna ədəbiyyatı və təsviri sənətində tənqidi realizmin və inqilabi-demokratik cərəyanın banisi. Ukrayna ədəbiyyatının inkişafında Şevçenkonun müstəsna xidməti olmuşdur.

Şevçenko rəssam kimi də məşhurdur. 1860-cı ildə mis üzərində qravüralarına görə akademik adına layiq görülmüşdür. – 25,47.

**28. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin Birinci müavini vəzifəsində işləmişdir. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «Şərəf» və «Şöhrət», «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 27,54,204,206,257,272,300.

**29. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının

«İstiqlal», Rusiya Federasiyasının «Drujba» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 27,54,204,206,257, 272,300.

**30. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. «Şərəf» ordeni ilə təltif edilmşdir. – 27,54,204,206,257,272,300.

**31. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 33,34,233,262.

**32. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti, 2012-ci ilin may ayından Baş naziridir. – 30,33,77,176–177, 182–203,275,281

**33. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ

Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 34,233,236.

**34. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 34,233.

**35. Kiyev şəhəri** – Ukrayna Respublikasının paytaxtı. VI əsrdə salınmışdır. IX–XII əsrlərdə Kiyev Rus dövlətinin mərkəzi idi. 1654-cü ildə Ukrayna Rusiya ilə yenidən birləşdikdən sonra Kiyev Ukraynanın iqtisadi və mədəni mərkəzi kimi inkişaf etmişdir. 1934-cü ildə Ukraynanın paytaxtı Xarkovdan Kiyevə köçürüldü. Kiyev Ukraynanın ən iri sənaye, mədəniyyət və elm mərkəzidir. – 36–54.

**36. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 42,168.

**37. Argentina,** A r g e n t i n a  R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-şərqində dövlət. Sahəsi 2780 min km$^2$, əhalisi 43,4 milyon nəfərdir. Argentina federasiyasının tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos-Ayres şəhəridir. – 55.

**38. Kristina de Kirşner** (d.1953) – 2007–2015-ci illərdə Argentina Respublikasının Prezidenti olmuşdur. – 55.

**39. Nestor Kirşner** (1950–2010) – 2003–2007-ci illərdə Argentina Respublikasının Prezidenti olmuşdur. – 55.

**40. İndoneziya,** İndoneziya Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1919,4 min km$^2$, əhalisi 257,5 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 56.

**41. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004–2014-cü illərdə İndoneziya Respublikasının Prezidenti olmuşdur. – 56.

**42. Kəmaləddin Heydərov,** Kəmaləddin Fəttah oğlu (d.1961) – general-polkovnik, 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 71.

**43. Braziliya,** Braziliya Federativ Respublikası – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 205,8 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Brazilia şəhəridir. – 75.

**44. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı

əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. – 76,294.

**45. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 76,263,293,295,299,300.

**46. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 78,209,210.

**47. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliyinin Prezidentidir. – 78,209.

**48. Kuba,** K u b a R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min $km^2$, əhalisi 11 milyon nəfərdir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleya, dövlətin və hökumətin başçısı Dövlət Şurasının sədridir. Paytaxtı Havana şəhəridir. – 97,303.

**49. Raul Kastro Rus** (d.1931) – Kuba inqilabçısı və dövlət xadimi. 2008-ci ildən Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının sədri və Kuba Silahlı Qüvvələrinin Baş Komandanıdır. – 97,303.

**50. Mübariz İbrahimov,** M ü b a r i z A ğ a k ə r i m o ğ l u (1988–2010)– Milli Qəhrəman. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin giziri Mübariz İbrahimov Tərtər bölgə-

sində xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdur. – 100–106,306.

**51. Fərid Əhmədov,** F ə r i d G ü l o ğ l a n o ğ l u (1986–2010) – Baş leytenant. Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanması uğrunda xidməti vəzifəsini yerinə yetirərək qəhrəmancasına həlak olmuşdur. Ölümündən sonra «İgidliyə görə» medalı ilə təltif edilmişdir. – 100–106,306.

**52. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti; Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət, 1797–1828-ci illərdə isə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) əsasən Rusiyanın tərkibinə keçmişdi. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 104.

**53. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 104,159.

**54. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min $km^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 107.

**55. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Peşəsi həkim travmatoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 107.

**56. Oman,** O m a n S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 309,5 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı Məskət şəhəridir. – 108.

**57. Qabus bin Səid** (d.1940) – 1970-ci ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. Qabus öz administrasiyasını müdhiş korrupsionerlərdən təmizləmiş, əhalinin həyat səviyyəsini xeyli qaldırmışdır. – 108.

**58. Mavritaniya,** M a v r i t a n i y a İ s l a m R e s p u b- l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1031 min km$^2$, əhalisi 3,89 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşot şəhəridir. – 109.

**59. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 110.

**60. Bamir Topi** (d.1957) – Albaniya siyasətçisi. 2007–2012-ci illərdə Albaniya Respublikasının Prezidenti olmuşdur. – 110.

**61. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7

min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 120,266.

**62. Sergey Lebedev** (d.1948) – Rusiya dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidməti direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 121.

**63. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel ) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 124.

**64. İraq,** İ r a q R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 435 min km$^2$, əhalisi 37 milyon nəfərdir. İnzibati ərazisi 18

mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Paytaxtı Bağdad şəhəridir. – 128,161.

**65. Cəlal Tələbani** (d.1933) – İraqın siyasi xadimi. 2005–2014-cü illərdə İraqın prezidenti olmuşdur. – 128,161.

**66. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 194,8 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 129,131,149–160.

**67. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildən erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 129,131,138–148.

**68. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 131,159.

**69. Həsən Əliyev,** H ə s ə n Ə l i r z a o ğ l u (1907–1993) – görkəmli alim, ictimai-siyasi xadim. Elmlər doktoru, professor. Azərbaycan Milli EA-nın akademiki, Azərbaycan Dövlət mükafatı laureatı. Ayrı-ayrı illərdə Azərbaycan Milli EA Botanika İnstitutunun direktoru, Azərbaycan Kənd Təsərrüfatı nazirinin Birinci müavini və Azərbaycan KP MK-nın katibi, Azərbaycan Milli EA-nın akademik katibi, Azərbaycan Milli EA Coğrafiya İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Azərbaycan SSR Ali Sovetinin (10–11-ci çağırış) deputatı olmuşdur. – 131.

**70. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1

min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 131,159,211.

**71. Qubadlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1933-cü ildə təşkil edilmişdir. Sahəsi 802 $km^2$, əhalisi 39,6 min nəfərdir. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 131.

**72. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 131,277–278.

**73. Zəngilan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 $km^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 131.

**74. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 76,6

min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 131.

**75. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmiş Horadiz altı ay sonra Azərbaycan ordusu tərəfindən azad edilmişdir. – 138, 141,319.

**76. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (d.1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. Milli Məclisin üzvü olmuşdur. – 148.

**77. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zilhiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 162,166,172,181.

**78. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a- s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 194 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 163.

**79. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan Respublikasının Prezidenti olmuşdur. – 163.

**80. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qa-

nunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 164–175,182–203,295.

**81. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 164–175,182–203,295,296.

**82. Mənuçehr Muttəki** (d.1953) – 2005–2010-cu illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. – 168.

**83. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 17,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 178–179,182–203,257–272,285.

**84. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 178–179,182–203,259,260,272,285.

**85. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası mü-

nasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 179,247,257–272.

**86. Türkmənistan,** Türkmənistan Respublikası – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 180–181,182–203,232.

**87. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 180–181,182–203,232.

**88. Portuqaliya,** Portuqaliya Respublikası – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92,1 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabon şəhəridir. – 204–206.

**89. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına

qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 204–206.

**90. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat. 2007–2016-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. – 205.

**91. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i -k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 205.

**92. Həmid Kərzai** (d.1957) – 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri, 2004–2014-cü illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. – 205.

**93. Avropa Komissiyası (AK)** – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri; ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında bir yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 205.

**94. Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 205.

**95. Anders Foq Rasmussen** (d.1953) – Danimarka siyasətçisi. 2001–2009-cu illərdə Danimarkanın Baş naziri, 2009–2014-cü illərdə NATO-nun Baş katibi olmuşdur. – 205.

**96. Piter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–2011-ci illərdə P.Semnebi Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 207.

**97. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 208.

**98. Trayan Besesku** (d.1951) – Rumıniyanın siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının Prezidenti olmuşdur. – 208.

**99. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirliklərinin Baş naziri və vitse-prezidenti, Dubay əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 210.

**100. Laos,** L a o s X a l q D e m o k r a t i k R e s p u b- l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 236,8 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Ali Xalq Məclisidir. Paytaxtı Vyentyan şəhəridir. – 211.

**101. Çummali (Tyummali) Sayasone** (d.1936) – general-leytenant. 2006–2016-cı illərdə Laos Xalq Demokratik Respublikasının Prezidenti olmuşdur. – 211.

**102. Tailand,** T a i l a n d K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 70,5 milyon nəfərdir. Dövlət

başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 212.

**103. Bhumibol Adulyadej** (1927–2016) – 1950–2016-cı illərdə (faktiki 1946-cı ildən) Tailand Krallığının Kralı olmuşdur. – 212.

**104. Burkina-Faso –** (1984-cü ilə qədər Yuxarı Volta Respublikası) – Qərbi Afrikada dövlət. Sahəsi 273,1 min $km^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Xalq Deputatları Assambleyasıdır. Paytaxtı Uaqaduqu şəhəridir. – 213.

**105. Azərbaycan Dövlət Neft Akademiyası** (ADNA) – 2015-ci ildən – Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) – faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatı, neft-qazçıxarma, neft emalı, neft-kimya sənayesi üçün mütəxəssis hazırlayan ali təhsil və elmi-tədqiqat mərkəzi. Avropada və Asiyada ilk neft-qaz profilli məktəb 1921-ci ildə fəaliyyətə başlamışdır.

ADNA-da 7 fakültə, 53 kafedra, 19 elmi-tədqiqat laboratoriyası, 2 elmi-tədqiqat institutu, magistratura və doktorantura var. ADNA-da 6967 tələbə təhsil alır, 716 nəfərdən ibarət professor-müəllim heyəti çalışır. – 214–225.

**106. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b- l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 226,259.

**107. Endryu,** Y o r k  H e r s o q u , ş a h z a d ə (d.1960) – Britaniya şahzadəsi, kontr-admiral. Britaniya kraliçası II Elizabetin ikinci oğlu. – 235.

**108. ABŞ-ın Alman Marşal Fondu** – ABŞ-da Amerika siyasəti ilə heç bir əlaqəsi olmayan və ictimai qrantlarla yaradılan fond. Fond Şimali Amerika ilə Avropa arasında sıx əməkdaşlıq və qarşılıqlı anlaşmaya əsasən fəaliyyət göstərir. 1972-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Vaşinqtonda və bir çox Avropa ölkələrinin paytaxtlarında var. Alman Marşal Fondu siyasətçilərin təşəbbüsü ilə Atlantika məkanının hər iki tərəfinin insan resurslarının ümumi problemlərini və ümumi maraqlarını bir yerdə həll edir. – 236.

**109. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 71 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 237–240.

**110. Oqtay Əsədov,** O q t a y  S a b i r  o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir. – 239,253–256.

**111. Ziyafət Əsgərov,** Z i y a f ə t  A b b a s  o ğ l u (d.1963) – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclis sədrinin Birinci müavinidir.

Hal-hazırda Milli Məclisin Təhlükəsizlik və Müdafiə Məsələləri Daimi Komitəsinin sədri, NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir. – 239.

**112. Fəttah Heydərov,** F ə t t a h  S ə m ə d  o ğ l u (d.1938) – 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü və Respublika Ağsaqqallar Şurasının sədridir. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmşdir. – 253.

**113. Astana** (1961-ci ilə qədər Akmolinsk, 1961–92-ci illərdə Selinoqrad, 1992–98-ci illərdə Akmola) – Qazaxıstan Respublikasının paytaxtı. – 257–272.

**114. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian - Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 259.

**115. Tacikistan,** T a c i k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 142 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 259.

**116. Emoməli Rəhmon,** E m o m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. – 259.

**117. Kanat Saudabayev** (d.1946) – Qazaxıstanın dövlət xadimi, diplomat. Qazaxıstanın Xarici İşlər naziri (2009–2011), Fövqəladə və Səlahiyyətli səfir. – 260.

**118. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 264,291.

**119. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. – 264,291.

**120. Avstriya,** Avstriya Respublikası – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,66 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 265,288.

**121. Hayntz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriya Respublikasının Federal Prezidenti olmuşdur. – 265.

**122. Mixeil Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illərdə Gürcüstan Respublikasının Prezidenti olmuşdur. – 266.

**123. Sloveniya,** Sloveniya Respublikası – Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyana şəhəridir. – 267.

**124. Danilo Tyurk** (d.1952) – Sloveniya hüquqşünası, beynəlxalq hüquq üzrə mütəxəssis, diplomat. 2007–2012-ci illərdə Sloveniya Respublikasının Prezidenti olmuşdur. – 267.

**125. Herman Van Rompey** (d.1947) – Belçika siyasətçisi. 2008–2009-cu illərdə Belçikanın Baş naziri, 2009–2014-cü illərdə Avropa Şurasının sədri olmuşdur. – 268.

**126. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəharidir. – 269.

**127. Niderland Krallığı** (qeyri-rəsmi adı – Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 270.

**128. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 273.

**129. II Abdullah,** Abdullah bin Hüseyn (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. II Abdullah kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 273.

**130. Qətər,** Qətər dövləti – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı əmirdir. Paytaxtı Doha şəhəridir. – 274.

**131. Həməd bin Xəlifə əl-Tani** (d.1952) – 1995–2013-cü illərdə Qətər əmiri olmuşdur. O, 1997-ci ildə regionda ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 274.

**132. FİFA** – Beynəlxalq Futbol Federasiyası. 1904-cü ildə Parisdə yaradılmışdır. Hazırda 210-a yaxın milli federasiyanı birləşdirir. – 274.

**133. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 3 milyon nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. – 276.

**134. Maqomedsalam Maqomedov** (d.1964) – Rusiyanın siyasi və dövlət xadimi. 2010–2013-cü illərdə Dağıstan Respublikasının Prezidenti olmuşdur. – 276.

**135. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 279.

**136. Mişelin Kalmi - Rey** (d.1945) – İsveçrə dövlət və siyasi xadimi. 2007-ci və 2011-ci illərdə İsveçrənin prezidenti olmuşdur. – 279.

**137. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 284.

**138. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatorudur. İmperator Hirohitonun oğludur. – 284.

**139. Bəhreyn,** B ə h r e y n  d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 766 km$^2$, əhalisi 1,5 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manama şəhəridir. – 286,289.

**140. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2002-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda, siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 286,289.

**141. Azərbaycan Dövlət Rus Dram Teatrı –** Bakıda Səməd Vurğun adına rus dilində fəaliyyət göstərən teatr. 1923-cü ildən Bakı İşçi Teatrı adı ilə fəaliyyət göstərmiş, 1937-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrı adlanır. Teatrın repertuarı «Don Karlos» (F.Şiller), «Romeo və Cülyetta» (V.Şekspir), «Canlı meyit» (L.Tolstoy)» və s. əsərlərlə zəngin olmuşdur. – 290.

**142. İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1985-ci ildə yaradılıb, qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan Respublikası bu beynəlxalq təşkilatın üzvüdür. – 292–300.

**143. Myanma,** M y a n m a  İ t t i f a q ı  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada, Hind-Çin yarımadasının şimal-qərb hissəsində zəif inkişaf etmiş ölkə. 1989-cu ilə qədər Birma adlanırdı. Sahəsi 678,5 km$^2$, əhalisi 55 milyon nəfərdir. İnzibati ərazisi 7 milli və 7 administrativ vilayətə bölünür. Paytaxtı Neypyido şəhəridir. – 304.

**144. Oqtay Şirəliyev,** O q t a y K a z ı m o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 312.

**145. Mustafa bəy Topçubaşov** (1895–1981) – cərrah, ictimai və dövlət xadimi. Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı. Tədqiqatı, əsasən qarında, başda, döş qəfəsində aparılan cərrahi problemlərə, öddaşı xəstəliyinin müalicəsinə, periferik iflic xəstəliyinə həsr olunmuşdur. Orijinal diaqnostika və cərrahi üsul təklif etmişdir. Dünyada geniş istifadə olunan analgeziya üsulunu ilk dəfə M.Topçubaşov kəşf etmişdir. – 312.

**146. Hüseynqulu Bağırov,** H ü s e y n q u l u S e y i d o ğ l u (d.1955) – iqtisadçı. 2000–2001-ci illərdə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ildən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 315.

**147. Çingiz Hüseynzadə,** Ç i n g i z M u x t a r o ğ l u (d.1951) – şərqşünas. Azərbaycan Atletika Federasiyasının prezidenti. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 323.

**148. Zərifə Salahova,** Z ə r i f ə T e y m u r q ı z ı (d.1932) – ictimai xadim. Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 323.

**149. Əflatun Amaşov,** Ə f l a t u n Ə h m ə d o ğ l u (d.1957) – jurnalist, Milli Məclisin üzvü. 2003-cü ildən Azərbaycan Respublikası Mətbuat Şurasının sədridir. – 331–332.

## Şəxsi adlar göstəricisi


**Abbasova Gülnar** – 150
**II Abdullah** – 273
**Abdullayev Rövnəq** – 148
**Abutalıbov Hacıbala** – 27,54,204,206,257,272,300
**Adıgözəlzadə Murad** – 351
**Abulyadej Buhimibol** – 212
**Akihito** – 284
**Amaşov Əflatun** – 331–332
**Azarov Nikolay** – 51
**Bağırov Hüseynqulu** – 315
**Barrozu Joze** – 205
**Berdıməhəmmədov Qurbanqulu**– 180–181,182–203,232
**Besesku Trayan** – 208
**Bin Səid Qabus** – 108
**Bradtke Robert** – 34,233
**Buteflikay Əbdüləziz** – 7
**Cabbarov Oruc** – 151,152
**Cəfərov Elçin** – 323
**Çernomırdin Viktor** – 77
**De Kişner Kristina** – 55
**Endryu (*hersoq*)** – 235
**Əbiyev Səfər** – 100
**Eyxler Adolf** – 350
**Əhmədbəyov Zivər bəy** – 8
**Əhmədinejad Mahmud** – 164–175,182–203,295,296
**Əhmədov Fərid** – 100–106,306
**Əhmədova Nərgiz** – 105
**Əl-Xəlifə Şeyx Həməd bin İsa** – 286,289
**Əl-Qasimi Şeyx Saqr** – 78
**Əl-Maliki Nuri** – 128

**Əl-Məktum Şeyx Məhəmməd** – 210
**Əl-Nəhəyyan Şeyx Xəlifə** – 78,209
**Əl-Safi Şəfaəddin** – 128
**Əl-Tani Həməd** – 274
**Əliyev Heydər** – 8,22,28–32,47,52,53,74,122, 123,125,130,134,138,139, 144,148,149,150,158,215,222, 237,238,316,324,332
**Əliyev Həsən** – 131
**Əliyeva Mehriban** – 8–9,24,99,122,123,125,129, 136,138,139,148,149,150, 151,160,204,215,254,305, 311,312,315,317,331
**Əmiraslanov Sahət** – 68
**Ərdoğan Rəcəb Tayyib** – 76,294
**Əsədov Oqtay** – 239,253–256
**Əsgərov Ziyafət** – 239
**Ələsgərov Valeh** – 239
**Fasye Bernar** – 34,233
**Fişer Hayntz** – 265
**Genşer Hans-Ditrix** – 226
**Gönül Vecdi** – 76
**Gül Abdullah** – 76,263,293,296,299,300
**Heydərov Fəttah** – 253
**Heydərov Kəmaləddin** – 71
**Həsənov Əli** – 132,151,153,154
**Hüseynzadə Çingiz** – 323
**Xəlilov Qulu** – 131
**İbrahimov Ağakərim** – 105
**İbrahimov Mənsum** – 154
**İbrahimov Mübariz** – 100–106,306
**Jilkin Aleksandr** – 28
**Kalmi-Rey Mişelin** – 279
**Kameron Devid** – 5
**Kasprşik Anji** – 233

**Kastro Raul** – 97,303
**Kennedi Kreyq** – 236
**Kərzai Həmid** – 205
**Kirşner Nestor** – 55
**Kleqq Nik** – 271
**Kompaore Blez** – 213
**Qrişenko Konstantin** – 42
**Qurbani Abdulla** – 100
**Qarayev Qələndər** – 72
**Lebedev Sergey** – 121
**Lidinqton Devid** – 5
**Lukaşenko Aleksandr** – 264,291
**Maqomedov Maqomedsalam** – 276
**Maqomedov Hacımurad** – 276
**Medvedev Dmitri** – 30,33,77,176–177,182–203, 275,281
**Mehdiyev Ramiz** – 27,54,204,206,257,272,300
**Merkel Angela** – 259
**Məmmədov Ziya** – 111
**Məmmədyarov Elmar** – 42,168
**Məmişov Sabir** – 345
**Mərdanov Misir** – 122
**Mirzəyev Elxan** – 306
**Miyatovic Dunya** – 258
**Muradova Bahar** – 239
**Musayev Qəzənfər** – 129
**Mustafayev Zahid** – 307
**Muttəki Mənuçehr** – 168
**Nazarbayev Nursultan** – 178–179,182–203,259,260, 272, 285
**Niftəliyev Zahid** – 308
**Orlova Svetlana** – 98
**Pavlyak Valdemar** – 231
**Pan Gi Mun** – 205
**Papandreu George** – 269

**Piriyev Malik** – 101
**Ploşko İosif** – 8
**Popov İqor** – 34,233
**Rasizadə Artur** –
27,54,204,206,257,272,300
**Rasmussen Anders** – 205
**Rəhmon Emoməli** – 259
**Roçe Milan** – 234
**Royss Gerhard** – 288
**Roussef Dilma** – 75
**Rutte Mark** – 270
**Rzayev Nizaməddin** – 324
**Ruttenstorfer Volfqanq** – 288
**Saakaşvili Mixeil** – 266
**Sadıqov Nizami** – 153
**Salahova Zərifə** – 323
**Saparlıyev Xıdır** – 232
**Sarkisyan Serj** – 33
**Sayasone Çoummali** – 211
**Saudabayev Kanat** – 260
**Semnebi Piter** – 207
**Şevçenko Taras** – 25,47
**Şirəliyev Oqtay** – 312
**Şükürov Əhəd** – 62
**Şvey Tan** – 304
**Tanrıverdiyev Ağaşirin** – 64
**Tələbani Cəlal** – 128,161
**Topi Bamir** – 110
**Topçubaşov Mustafa bəy** – 312
**Tyurk Danilo** – 267
**Ukrainka Lesya** – 47
**Uld Əbduləziz Məhəmməd** – 109
**Van Rompey Herman** – 268
**Villi Pol** – 6
**Yanukoviç Viktor** – 11,36–50,259

**Yudhoyono Susilo** – 56
**Zatlers Valdis** – 107
**Zərdari Asif** – 163

## Coğrafi adlar göstəricisi


**Abşeron (*rayon)*** – 315
**Afrika** – 175
**Ağdam** – 129,131,149–160
**Ağdaş** – 319
**Albaniya** – 110
**Almaniya** – 226,259
**Allahmədətli** – 71
**Amerika Birləşmiş Ştatları** – 34,233,236
**Aralıq dənizi** – 14
**Araz çayı** – 57,60
**Astana** – 257–272
**Argentina** – 55
**Astara** – 112
**Avropa** – 5,48,216,320,336
**Avstriya** – 265,288
**Balakən** – 112,319
**Belarus** – 264,291
**Beyləqan** – 316
**Bəhreyn** – 286,289
**Bibiheybət** – 112
**Biləsuvar** – 112
**Böyük Bəhmənli** – 146
**Böyük Britaniya** – 5,235,271
**Birləşmiş Ərəb Əmirlikləri** – 78,209,210
**Braziliya** – 75
**Burkina-Faso** – 213
**Cəbrayıl** – 131
**Cəlaloğlu** – 159
**Cəlilabad** – 101
**Cənubi Qafqaz** – 8,103,159,207,310

| | |
|---|---|
| **Dağıstan** | – 276 |
| **Dağlıq Qarabağ** | – 5,16,18,20,34,101,104,145, 157,159,171,173,176,177, 247,248,249,250,251,254, 255,260,261,263,265,268, 269,271,277,293,298,301, 306 |
| **Dnestryanı** | – 20 |
| **Əfqanıstan** | – 205 |
| **Əlcəzair** | – 7 |
| **Ələt** | – 78,81 |
| **Əliabad** | – 101 |
| **Fransa** | – 34,233 |
| **Füzuli** | – 129,131,138–148 |
| **Göyçay** | – 319 |
| **Göyçə gölü** | – 159 |
| **Gürcüstan** | – 120,266 |
| **Hacıqabul** | – 58 |
| **Həştərxan** | – 27–35,188 |
| **Horadiz** | – 138,141,319 |
| **Xaçmaz** | – 306 |
| **Xankəndi** | – 18,131 |
| **Xəzər dənizi** | – 14,29,30,40,41,44,45,80,81, 82,83,84,86,172,173,176–177,178–179,180–181,182–203 |
| **Xocalı** | – 17 |
| **Xocasən** | – 118 |
| **İordaniya** | – 273 |
| **İmişli** | – 58,71–74 |
| **İndoneziya** | – 56 |
| **İraq** | – 128 |
| **İran** | – 104,120,164–175,182–203, 295 |
| **İrəvan** | – 104 |

**İstanbul** – 292–300
**İsveçrə** – 279
**Kəlbəcər** – 131,159
**Kiyev** – 36–54
**Kuba** – 97,303
**Kür çayı** – 57,60
**Kürdəmir** – 58
**Qara dəniz** – 13,41,45
**Qazax** – 112
**Qazaxıstan** – 178–179,182–203,257–272, 285
**Qəbələ** – 324
**Qətər** – 274
**Qubadlı** – 131
**Quzanlı** – 149
**Laçın** – 131,159,211
**Laos** – 211
**Latın Amerikası** – 175
**Latviya** – 107
**Lissabon** – 204–206
**Lökbatan** – 112,118
**Mavritaniya** – 109
**Mayendorf** – 177
**Mərkəzi Asiya** – 175
**Mingəçevir** – 319,320
**Misir** – 230
**Monteneqro** – 234
**Moskva** – 29,33,280–283
**Mürsəlli** – 60
**Myanma** – 304
**Naftalan** – 306
**Naxçıvan** – 22
**Neftçala** – 58
**Niderland** – 270
**Odessa** – 15

**Oğuz** – 324
**Oman** – 108
**Pakistan** – 163
**Polşa** – 231
**Portuqaliya** – 204–206
**Ras əl-Xeymə** – 78
**Rumıniya** – 208
**Rusiya** – 22,27–35,44,48,77,98,101, 120,176–177,182–203,233, 275,280–283
**Saatlı** – 58,66–70
**Sabirabad** – 58,60–65
**Salyan** – 58
**Səngiçay** – 315
**Sincan** – 324
**Sloveniya** – 267
**Sulutəpə** – 118
**Şamaxı** – 8–9
**Şıxlar** – 64
**Şuşa** – 131,277–278
**Tacikistan** – 259
**Tailand** – 212
**Tehran** – 179,188,295
**Tərtər** – 100
**Türkiyə** – 21,22,76,120,124,263,292–300
**Türkmənistan** – 180–181,182–203,232
**Ukrayna** – 10–25,36–54,259
**Yaxın Şərq** – 8
**Yaponiya** – 284
**Yeni Novruzlu** – 66
**Yevlax** – 129–137,306
**Yunanıstan** – 269
**Zabrat** – 305–311
**Zəngəzur** – 104,159

**Zəngilan** – 131
**Zərdab** – 58,74

## MÜNDƏRİCAT

BÖYÜK BRİTANİYANIN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRİ DEVİD LİDİNQTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 oktyabr 2010-cu il..........................................................................5*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ ÖLKƏMİZDƏ KEÇİRİLƏCƏK PARLAMENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏ OLUNMASI ÜZRƏ XÜSUSİ KOMİTƏSİNİN SEÇKİQABAĞI MİSSİYASININ RƏHBƏRİ POL VİLLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 oktyabr 2010-cu il..........................................................................6*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*21 oktyabr 2010-cu il..........................................................................7*

HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ ŞAMAXIDAKI CÜMƏ MƏSCİDİNDƏ APARILAN BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*22 oktyabr 2010-cu il..........................................................................8*

UKRAYNA MİLLİ TELEKOMPANİYASINA,
BU ÖLKƏNİN «PROFİL-UKRAYNA» JURNALINA
VƏ «DEN» QƏZETİNƏ MÜSAHİBƏ

*25 oktyabr 2010-cu il.........................................................................10*

BAKI TİCARƏT LİMANINDA APARILACAQ KÖÇÜRMƏ VƏ
YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*25 oktyabr 2010-cu il.........................................................................26*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA
İŞGÜZAR SƏFƏRİ

*27 oktyabr 2010-cu il.........................................................................27*

HƏŞTƏRXAN ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*27 oktyabr 2010-cu il.........................................................................28*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN
PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*27 oktyabr 2010-cu il.........................................................................33*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ
ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ
İLƏ GÖRÜŞ

*27 oktyabr 2010-cu il.........................................................................34*

HƏŞTƏRXAN KREMLİ VƏ ŞƏHƏRİN GÖRMƏLİ
YERLƏRİ İLƏ TANIŞLIQ

*27 oktyabr 2010-cu il.........................................................................35*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN UKRAYNAYA RƏSMİ SƏFƏRİ

*27 oktyabr 2010-cu il.........................................................................36*

«NAMƏLUM ƏSGƏR» ABİDƏSİNİ ZİYARƏT

*28 oktyabr 2010-cu il.........................................................................37*

1930-cu İLLƏRDƏ ACLIQDAN HƏLAK
OLANLARIN XATİRƏSİNƏ EHTİRAM

*28 oktyabr 2010-cu il.........................................................................38*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN
TƏKBƏTƏK GÖRÜŞÜ

*28 oktyabr 2010-cu il.........................................................................39*

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ
ŞURASININ İKİNCİ İCLASI

*28 oktyabr 2010-cu il.........................................................................40*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*28 oktyabr 2010-cu il.........................................................................42*

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSINDA
BƏYANATLARLA ÇIXIŞLARI

*28 oktyabr 2010-cu il.........................................................................43*

UKRAYNA RESPUBLİKASININ  BAŞ NAZİRİ
NİKOLAY AZAROV İLƏ GÖRÜŞ

*28 oktyabr 2010-cu il.........................................................................51*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN KİYEVİN MƏRKƏZİNDƏ UCALDILMIŞ ABİDƏSİNİ ZİYARƏT

*28 oktyabr 2010-cu il*.........................................................................52

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR

*28 oktyabr 2010-cu il*.........................................................................53

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

*28 oktyabr 2010-cu il*.........................................................................55

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*29 oktyabr 2010-cu il*.........................................................................56

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜR VƏ ARAZ ÇAYLARININ DAŞMASI NƏTİCƏSİNDƏ TƏBİİ FƏLAKƏTDƏN ZİYAN ÇƏKMİŞ SALYAN, SABİRABAD, SAATLI VƏ İMİŞLİ RAYONLARINA SƏFƏRİ

*1 noyabr 2010-cu il*...........................................................................57

SABİRABAD RAYONUNDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*1 noyabr 2010-cu il*...........................................................................60

SAATLI RAYONUNUN YENİ NOVRUZLU KƏNDİNDƏ TİKİLMİŞ YAŞAYIŞ EVLƏRİ İLƏ TANIŞLIQ

*1 noyabr 2010-cu il*...........................................................................66

İMİŞLİ RAYONUNDA YENİ TİKİLMİŞ EVLƏRİN
AÇILIŞI MƏRASİMİ

*1 noyabr 2010-cu il*..........................................................................*71*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ
YENİ SEÇİLMİŞ PREZİDENTİ
XANIM DİLMA ROUSSEFƏ

*2 noyabr 2010-cu il*..........................................................................*75*

TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ VECDİ GÖNÜLÜN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2010-cu il*..........................................................................*76*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*3 noyabr 2010-cu il*..........................................................................*77*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ
ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*3 noyabr 2010-cu il*..........................................................................*78*

YENİ BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI
KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*3 noyabr 2010-cu il*..........................................................................*79*

BAKI METROPOLİTENİNİN PERSPEKTİV İNKİŞAF
PLANININ MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ İCLAS

*4 noyabr 2010-cu il*..........................................................................*87*

YEKUN NİTQİ ..........................................................................*93*

AVROPA PARLAMENTİ SEÇKİ MÜŞAHİDƏ MİSSİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*5 noyabr 2010-cu il.......................................................................... 96*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

*6 noyabr 2010-cu il..........................................................................97*

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ, MDB PA-nın MÜŞAHİDƏÇİLƏR QRUPUNUN ƏLAQƏLƏNDİ-RİCİSİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 noyabr 2010-cu il..........................................................................98*

BAKIDAKI 29 SAYLI SƏBAİL SEÇKİ DAİRƏSİNİN 6 NÖMRƏLİ SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏSVERMƏDƏ

*7 noyabr 2010-cu il..........................................................................99*

MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOV VƏ BAŞ LEYTENANT FƏRİD ƏHMƏDOVUN VİDA MƏRASİMİNDƏ

*7 noyabr 2010-cu il........................................................................100*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VALDİS ZATLERSƏ

*8 noyabr 2010-cu il......................................................................... 107*

OMAN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*8 noyabr 2010-cu il*..........................................................................*108*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ

*8 noyabr 2010-cu il*..........................................................................*109*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BAMİR TOPİYƏ

*8 noyabr 2010-cu il*..........................................................................*110*

BAKI–ƏLƏT AVTOMOBİL YOLUNUN YENİDƏN İNŞA
EDİLMİŞ 4–8-ci VƏ YENİDƏN QURULMUŞ 8–14-cü
KİLOMETRLİK HİSSƏLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*8 noyabr 2010-cu il*..........................................................................*111*

BAKI DAİRƏVİ AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*8 noyabr 2010-cu il*..........................................................................*113*

BAKI–RUSİYA FEDERASİYASI DÖVLƏT SƏRHƏDİ
AVTOMOBİL YOLUNUN 28–45-ci KİLOMETRLƏRİ
ARASINDAKI HİSSƏSİNİN ƏSASLI YENİDƏNQURMADAN
SONRA AÇILIŞI MƏRASİMİ

*8 noyabr 2010-cu il*..........................................................................*116*

«XOCASƏN» YARIMSTANSİYASININ AÇILIŞI MƏRASİMİ

*8 noyabr 2010-cu il*..........................................................................*118*

MDB İCRAİYYƏ KOMİTƏSİNİN İCRAÇI KATİBİ
SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*8 noyabr 2010-cu il*..........................................................................*121*

HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ VƏ DƏSTƏYİ İLƏ İNŞA OLUNMUŞ MƏKTƏB KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*9 noyabr 2010-cu il*..........................................................................122

DÖVLƏT BAYRAĞI MUZEYİNİN AÇILIŞI MƏRASİMİ

*9 noyabr 2010-cu il*..........................................................................123

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ APARILAN İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*9 noyabr 2010-cu il*.......................................................................... 125

İRAQIN TİCARƏT NAZİRİ ŞƏFAƏDDİN MƏHƏMMƏD ƏL-SAFİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 noyabr 2010-cu il*..........................................................................128

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEVLAX, FÜZULİ VƏ AĞDAM RAYONLARINA SƏFƏRİ

*11 noyabr 2010-cu il*.......................................................................... 129

HORADİZDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*11 noyabr 2010-cu il*..........................................................................138

FÜZULİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*11 noyabr 2010-cu il*..........................................................................141

AĞDAMIN QUZANLI QƏSƏBƏSİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*11 noyabr 2010-cu il..........................................................................149*

İRAQ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CƏLAL TƏLƏBANİYƏ

*12 noyabr 2010-cu il..........................................................................161*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
XALQINA TƏBRİK

*13 noyabr 2010-cu il.......................................................................... 162*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*13 noyabr 2010-cu il..........................................................................163*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA
RƏSMİ SƏFƏRİ

*17 noyabr 2010-cu il .........................................................................164*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK
GÖRÜŞÜ

*17 noyabr 2010-cu il..........................................................................165*

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN
GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*17 noyabr 2010-cu il..........................................................................166*

AZƏRBAYCAN İLƏ İRAN ARASINDA ENERJİ VƏ
NƏQLİYYAT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA
ANLAŞMA MEMORANDUMUNUN İMZALANMASI
MƏRASİMİ

*17 noyabr 2010-cu il*.......................................................................*168*

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*17 noyabr 2010-cu il*....................................................................... *169*

İRANDA İSTEHSAL OLUNAN AVADANLIQLA TANIŞLIQ

*17 noyabr 2010-cu il*.......................................................................*175*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEV İLƏ GÖRÜŞ

*18 noyabr 2010-cu il*.......................................................................*176*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*18 noyabr 2010-cu il*.......................................................................*178*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*18 noyabr 2010-cu il*.......................................................................*180*

BAKIDA XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ

*18 noyabr 2010-cu il*.......................................................................*182*

XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*18 noyabr 2010-cu il*.......................................................................*194*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN PORTUQALİYAYA SƏFƏRİ

*19 noyabr 2010-cu il........................................................................204*

BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ YARDIM QÜVVƏLƏRİNƏ TÖHFƏ VERƏN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ İCLASI

*20 noyabr 2010-cu il........................................................................205*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 noyabr 2010-cu il........................................................................207*

RUMINİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA

*22 noyabr 2010-cu il* .......................................................................208

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*22 noyabr 2010-cu il........................................................................209*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

*22 noyabr 2010-cu il........................................................................210*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ

*22 noyabr 2010-cu il........................................................................211*

TAİLAND KRALI ƏLAHƏZRƏT BUHİMİBOL ABULYADEJƏ

*22 noyabr 2010-cu il........................................................................212*

BURKİNA-FASONUN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB BLEZ KOMPAOREYƏ

*22 noyabr 2010-cu il..........................................................................213*

AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASININ
90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ
TƏNTƏNƏLİ MƏRASİM

*23 noyabr 2010-cu il..........................................................................214*

ALMANİYANIN KEÇMİŞ XARİCİ İŞLƏR NAZİRİ
HANS-DİTRİX GENŞERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*23 noyabr 2010-cu il..........................................................................226*

«BAKUTEL–2010» BEYNƏLXALQ SƏRGİSİ İLƏ
TANIŞLIQ

*23 noyabr 2010-cu il..........................................................................227*

POLŞANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, İQTİSADİYYAT
NAZİRİ VALDEMAR PAVLYAKIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 noyabr 2010-cu il.......................................................................... 231*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ
BAŞ NAZİRİNİN MÜAVİNİ XIDIR SAPARLIYEV İLƏ GÖRÜŞ

*25 noyabr 2010-cu il.......................................................................... 232*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ
ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ
İLƏ GÖRÜŞ

*25 noyabr 2010-cu il..........................................................................233*

MONTENEQRONUN XARİCİ İŞLƏR NAZİRİ
MİLAN ROÇENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*26 noyabr 2010-cu il.........................................................................234*

BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ
ENDRYU İLƏ GÖRÜŞ

*26 noyabr 2010-cu il.........................................................................235*

ABŞ-ın ALMAN MARŞAL FONDUNUN PREZİDENTİ KREYQ
KENNEDİ İLƏ GÖRÜŞ

*29 noyabr 2010-cu il.........................................................................236*

HAKİM YENİ AZƏRBAYCAN PARTİYASINDAN
MİLLİ MƏCLİSƏ SEÇİLMİŞ DEPUTATLARLA GÖRÜŞ

*29 noyabr 2010-cu il.........................................................................237*

AZƏRBAYCAN RESPUBLİKASININ
IV ÇAĞIRIŞ MİLLİ MƏCLİSİNİN İLK İCLASINDA

*29 noyabr 2010-cu il.........................................................................241*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
ATƏT-in VII SAMMİTİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN
QAZAXISTAN RESPUBLİKASINA SƏFƏRİ

*30 noyabr 2010-cu il.........................................................................257*

ATƏT-in KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ
AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ
XANIM DUNYA MİYATOVİÇ İLƏ GÖRÜŞ

*30 noyabr 2010-cu il.........................................................................258*

ATƏT-in VII SAMMİTİNDƏ İŞTİRAK

*1 dekabr 2010-cu il*..........................................................................*259*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*1 dekabr 2010-cu il* ..........................................................................*263*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR
LUKAŞENKO İLƏ GÖRÜŞ

*1 dekabr 2010-cu il*..........................................................................*264*

AVSTRİYA PREZİDENTİ HAYNTZ FİŞER İLƏ GÖRÜŞ

*1 dekabr 2010-cu il*..........................................................................*265*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*1 dekabr 2010-cu il*..........................................................................*266*

SLOVENİYA PREZİDENTİ DANİLO TYURK İLƏ
GÖRÜŞ

*1 dekabr 2010-cu il*..........................................................................*267*

AVROPA İTTİFAQININ PREZİDENTİ
HERMAN VAN ROMPEY İLƏ GÖRÜŞ

*1 dekabr 2010-cu il*..........................................................................*268*

YUNANISTANIN BAŞ NAZİRİ GEORGE PAPANDREU İLƏ
GÖRÜŞ

*1 dekabr 2010-cu il*..........................................................................*269*

NİDERLANDIN BAŞ NAZİRİ MARK RUTTE
İLƏ GÖRÜŞ

*1 dekabr 2010-cu il*..........................................................................*270*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN MÜAVİNİ
NİK KLEQQ İLƏ GÖRÜŞ

*1 dekabr 2010-cu il*..........................................................................*271*

NÜMAYƏNDƏ HEYƏTLƏRİ BAŞÇILARININ ŞƏRƏFİNƏ
QƏBUL

*1 dekabr 2010-cu il*..........................................................................*272*

İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAHA

*3 dekabr 2010-cu il*..........................................................................*273*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT
ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

*3 dekabr 2010-cu il*..........................................................................*274*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*3 dekabr 2010-cu il*..........................................................................*275*

DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ
CƏNAB MAQOMEDSALAM MAQOMEDOVA

*5 dekabr 2010-cu il*..........................................................................*276*

ŞUŞA ŞƏHƏRİ 1 NÖMRƏLİ ORTA MƏKTƏBİN
KOLLEKTİVİNƏ

*6 dekabr 2010-cu il*..........................................................................*277*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
XANIM MİŞELİN KALMİ-REYƏ

*9 dekabr 2010-cu il*..........................................................................*279*

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK
ETMƏK ÜÇÜN MOSKVAYA SƏFƏRİ

*9 dekabr 2010-cu il*..........................................................................*280*

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA

*10 dekabr 2010-cu il* ......................................................................*281*

YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*11 dekabr 2010-cu il........................................................................284*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*11 dekabr 2010-cu il........................................................................285*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD
BİN İSA ƏL-XƏLİFƏYƏ

*11 dekabr 2010-cu il........................................................................286*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT
ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

*11 dekabr 2010-cu il........................................................................287*

AVSTRİYANIN OMV ŞİRKƏTİ İCRAİYYƏ ŞURASININ SƏDRİ
VOLFQANQ RUTTENSTORFERİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 dekabr 2010-cu il........................................................................288*

BƏHREYN  KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD
BİN İSA ƏL-XƏLİFƏYƏ

*18 dekabr 2010-cu il........................................................................289*

SƏMƏD VURĞUN ADINA AZƏRBAYCAN DÖVLƏT
RUS DRAM TEATRININ YARADICI HEYƏTİNƏ

*20 dekabr 2010-cu il........................................................................290*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*21 dekabr 2010-cu il........................................................................291*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

*22 dekabr 2010-cu il*.........................................................................*292*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*22 dekabr 2010-cu il*.........................................................................*293*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*22 dekabr 2010-cu il*.........................................................................*294*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
XI SAMMİTİNDƏ

*23 dekabr 2010-cu il* .......................................................................*295*

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ NAHAR

*23 dekabr 2010-cu il* .......................................................................*300*

DÜNYA AZƏRBAYCANLILARINA!

*24 dekabr 2010-cu il*.........................................................................*301*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ
CƏNAB RAUL KASTRO RUSA

*24 dekabr 2010-cu il*.........................................................................*303*

MYANMA İTTİFAQI RESPUBLİKASININ DÖVLƏT
SÜLH VƏ İNKİŞAF ŞURASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB TAN ŞVEYƏ

*24 dekabr 2010-cu il* ........................................................................ *304*

ZABRAT QƏSƏBƏSİNDƏKİ YAŞAYIŞ BİNASININ AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2010-cu il* ........................................................................ *305*

AKADEMİK TOPÇUBAŞOV ADINA ELMİ CƏRRAHİYYƏ MƏRKƏZİNİN ƏSASLI TƏMİRDƏN VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2010-cu il* ........................................................................ *312*

QOBUSTAN–CƏNGİÇAY DÖVLƏT TƏBİƏT YASAQLIĞININ ƏRAZİSİNƏ İLK CEYRAN SÜRÜSÜNÜN BURAXILMASI MƏRASİMİ

*24 dekabr 2010-cu il* ........................................................................ *315*

MİLLİ OLİMPİYA KOMİTƏSİNDƏ 2010-cu İLİN YEKUNLARI, İDMANÇILARA VƏ MƏŞQÇİLƏRƏ MÜKAFATLARIN TƏQDİM OLUNMASI MƏRASİMİ

*27 dekabr 2010-cu il* ........................................................................ *317*

OĞUZ–QƏBƏLƏ–BAKI SU KƏMƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*28 dekabr 2010-cu il* ........................................................................ *324*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ «JURNALİSTLƏRİN DOSTU» MÜKAFATININ TƏQDIM OLUNMASI MƏRASİMİ

*29 dekabr 2010-cu il* ........................................................................ *331*

QEYDLƏR ........................................................................ *341*

*Şəxsi adlar göstəricisi* ........................................................................ *374*

*Coğrafi adlar göstəricisi...............................................................378*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompyuter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,75. Uçot nəşr vərəqi 26,25. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.